AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M. FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 14

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).
Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2022

REDAKSİYA HEYƏTİ: akademik İsa Həbibbəyli, akademik Teymur Kərimli, akademik Möhsün Nağısoylu, akademik Nizami Cəfərov, akademik Rafael Hüseynov, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, prof. Əbülfəz Quliyev, filologiya elmləri doktoru, prof. Nadir Məmmədli, filologiya elmləri doktoru, prof. Rüfət Rüstəmov, filologiya elmləri doktoru, prof. Fəxrəddin Veysəlli, filologiya elmləri doktoru, prof. Qəzənfər Kazımov, filologiya elmləri doktoru, prof. Əsgər Rəsulov, filologiya elmləri doktoru, prof. Məsud Mahmudov, filologiya elmləri doktoru, prof. Əbülfəz Rəcəbli, filologiya elmləri doktoru, prof. Cəlil Nağıyev, filologiya elmləri doktoru, prof. İsmayıl Məmmədli, filologiya elmləri doktoru, prof. Həbib Zərbəliyev, filologiya elmləri doktoru, prof. İlham Tahirov, filologiya elmləri doktoru, prof. Tofiq Hacıyev, filologiya elmləri doktoru, prof. Mübariz Yusifov, filologiya elmləri doktoru, prof. Qəzənfər Paşayev, filologiya elmləri doktoru, prof. Kamilə Vəliyeva, filologiya elmləri doktoru Kamil Bəşirov, filologiya elmləri doktoru, prof. Azadə Musayeva, filologiya elmləri doktoru Paşa Kərimov, filologiya üzrə fəlsəfə doktoru, dos. Nəzakət Məmmədli

Redaktor: akademik Teymur Kərimli
Buraxılışa məsul: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2022, №14

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2022

www. filologiyameseleleri.com

DİLÇİLİK

NADİR MƏMMƏDLİ
Filologiya elmləri doktoru, professor
elmvetehsilneşriyyatı@gmailşcom

KONSEPT KOQNİTİV LİNQVİSTİKANIN OBYEKTİ KİMİ

XÜLASƏ

Koqnitiv linqvistikanın semantik konseptləri, onları irəli sürən dil vahidlərinin mənaları vasitəsilə araşdırır. Linqvistik vasitələr dil şüurunun materiallaşmasıi kimi çıxış edir. Konseptə dil şüurunun ayrı-ayrı sözləri, dil vasitələri, sərbəst ifadələr, frazeologizmlər, struktur- sintaktik sxemlər, paremiyalar, mətnlər və assosiativ sahələr aiddir. Dil şüurun linqvistik vasitələrlə – ayrı-ayrı leksemlər, söz birləşmələri, assosiativ sahələr və bu sahələrin birləşməsi kimi tezauruslarla ifadə olunan obrazlarıdır. Tədqiqatın əsası kimi biz konseptin strukturunun çoxölçülü qatını götürürük. Bura konseptin nüvəsi – bazası, kodlaşma obrazı və koqnitiv seqmentlərin birlikdə yaratdığı cəm, əlamətlərin məcmusu daxildir. Dil şüurunun obrazları subyektin özü tərəfindən əsasən şifahi ünsiyyət zamanı formalaşan əqli biliyi və obyektiv fəaliyyətdə hisslərdən alınan qavrayış biliklərinin emalı nəticəsində şüurda yaranan sensor bilikləri birləşdirir. Həqiqətin idrakı ilə bağlı olan obrazlı elementlər hər zaman reflekslərə tabe olmur.

Konseptin mahiyyəti hadisənin özünün ikili qəbul edilməsindədir: dili və dilöncəsi xarakteri, kommunikativ ehtiyacların verbalizasiyası. Hər bir sözün semantik təhlilinin onun konseptual qatları ilə təmas nöqtələrinə malik olmasına baxmayaraq, son məqsədləri eyni deyildir.

Açar sözlər: koqnitiv linqvistika, idrak prosesi, konsept, antroposentrizm, koqnitiv metafor, semantik təhlil.

Koqnitiv linqvistikanın tədqiqat predmeti bu və ya digər konsepti obyektivləşdirən dil vahidlərinin mənasıdır, yəni linqvistik şüurdur, məqsəd sözün, koqnitiv şüurun idrak vahidi qismində rekonstruksiyası, modelləşdirilməsidir. Semantik-koqnitiv tədqiqatın ən vacib amili dil vahidlərinin semantikasının təsvirinin nəticələrinin məna-məzmun mündəricəsi ilə interpretasiyasıdır. Linqvokoqnitiv tədqiqat prosedurunun məhz bu mərhələsində dil məlumatları cəmlənir və konsept modelləşdirilir. Koqnitiv dilçiliyin digər istiqamətləri bu mərhələni semantikanın təhlilində həll edir, metodologiya ayrıca mərhələ kimi

nəzərdə tutulmur və fərqləndirilmir. Semantik-koqnitiv istiqamətdə konseptin nominativ sahəsinin linqvistik təsvirinin nəticələrinin interpritasyası tədqiqatın ən mühüm və mütləq zəruri mərhələsidir. Koqnitiv interpritasiya dedikdə, son modelləşdirmə məqsədi ilə müəyyən dil vahidləri tərəfindən obyektləşdirilmiş xüsusiyyətləri müəyyən etmək və şifahi formalaşdırmaq üçün konsepti nominasiya edən linqvistik vahidlərin mənalarının təsvirinin nəticələrinin ən yüksək abstraksiya səviyyəsində mental ümumiləşdirmədir. Koqnitiv interpritasiyadan öncə əldə edilən bütün semantik təsvirlər hələ konseptin məzmununun və strukturunun təsviri deyil, onlar bu və ya digər dil vasitələri ilə verballaşdırılmış ayrı-ayrı koqnitiv səciyyələr adlandırılan nominativ vahidlərin mənalarının şərhləridir. Koqnitiv interpritasiya mərhələsi olmadan konsept modelinin qurulması qeyri-mümkündür; əgər bu mərhələdən yan keçilərsə, modelləşdirilmə zamanı onu nominasiya edən vahidlərin mənaları uyğun gəlməyəcək və eyniləşdiriləcək. Bu koqnitiv reallığa uyğun deyil, bu halda konsept modeli əhəmiyyətli dərəcədə təhrif edilir və kasadlaşdırılır.

Koqnitiv linqvistikanın dilin idrak prosesindəki rolu çox genişdir: dil biliklərinin modelinin yaradılması, nitqdə mədəniyyət amilinin reprezentasiyası üsullarının müəyyən edilməsi, konsept-sfera, universal konseptlər sisteminin qurulması, dünyanın dil mənzərəsinin aktual problemlərinin formullaşması. Bütün bunlar mental proseslərlə və dil vahidlərinin əməliyyatları ilə bağlı olduğu üçün *konsept* koqnitiv linqvistikasının əsas obyektinə çevrilir. Koqnitiv linqvistika "məlumatın reprezentasiyası və transformasiyasında rol oynayan işarələr sistemi – alət, dayanıqlı linqvistik istiqamət qismində izah edilir (1, 390). Başqa izahla, koqnitivlik nöqteyi-nəzərindən yalnız müşahidə olunanlar deyil, onların modelləri, daxili təsəvvürləri (mental reprezentasiyaları) tədqiq olunan elmi paradiqmadır, bunu *koqnitiv semantika* da adlandırmaq olar. "Dilçilikdə antroposentrik paradiqmanın təşəkkülü ilə əlaqədar dilin məzmun hissəsinin adekvat işarələnməsi üçün, ənənəvi işarə və mənadan funksional məhdudiyyəti götürəcək məntiq-psixologiya və dilçilik kateqoriyalarını üzvi şəkildə özündə birləşdirəcək yeni termin yaradılması zərurəti meydana çıxır" (2, 5). Bu tələbat ümumi cəhətləri, dil biliklərinin spesifik təsəvvürünü – xalqın ruhunu anlayışlarda ifadə edən nominativ vahidlərin meydana çıxmasına səbəb oldu (2). Onlardan *konsept* (Askoldov, Lixaçov, Stepanov, Lyapin və b.), *linqvokulturema* (Vorobyov), *mifologema* (Bazılev), *loqoepistema* (Vereşaqin, Kostomarov, Burvikova) terminlərini qeyd etmək olar. K*onsept* termini müasir linqvistikanın anlayış aparatında möhkəmləndi, açar anlayışı qismində dayana bildi.

Tədqiqatın əsası kimi biz konseptin strukturunun çoxölçülü qatını götürürük. Bura konseptin nüvəsi – bazası, kodlaşma obrazı və koqnitiv seqmentlərin birlikdə yaratdığı cəm, əlamətlərin məcmusu daxildir. "Konseptin interpritasiya sahəsi onun periferiyasını təşkil edir"(3, 61). Həm nüvə, həm də periferiyalar təqdidata cəlb edilir, çünki təsvir zamanı onlar fərqləndirilir, təfəkkür proseslərində status və rolları da fərqlidir. Müasir linqvistik ənənələrdə konseptin strukturu adətən bir neçə tərkib hissədə təqdim olunsa da, komponentlərin tərkibinə dair vahid rəy yoxdur.

S.Lyapinin fikrinə görə, çoxölçülü ideallaşdırılmış mental – verbal fenomen olan konseptin üç tərkib hissəsi vardır: anlayış, obraz və işarə (4, 18). V.İ.Karasik də konseptdə üç tərəfi ayırır: əşya-obraz, anlayış və dəyər tərkibləri (5, 75). Anlayış tərkibi V.İ.Karasik və Q.Q.Slışkinin birgə tədqiqatlarında faktual element adlandırılır (5, 77). S.Q.Vorkaçov konseptin strukturunu 3 komponentli törəmə kimi təsəvvür edir: "Linqvokultural konseptin semantik təsvirinin tamlığı üçün optimal olan onun tərkibində 3 hissəyə ayrılmasıdır: əlamət və definisiya strukturunu əks etdirən anlayış, dil şüurunda konsepti dəstəkləyən koqnitiv metaforların obrazı, həmin adın assosiativ və etimoloji səciyyələrinin də daxil olduğu konkret dilin leksik-qrammatik sistemində konseptin adının tutduğu yerin müəyyən etdiyi əhəmiyyət" (2, 80). Beləliklə, tədqiqatçılar 3 əsas elementi ayırırlar: anlayış, obraz və dəyər. Konseptin nüvəsinə, ilk növbədə, anlayış elementi aiddir (5). Burada konkret və ya abstrakt hadisə haqqında faktiki informasiya əks olunur: dil fiksasiyası, onun işarəsi, təsviri, əlamət strukturu, definisiyası. (5, 129). Anlayış elementinin sferasına Y.S.Stepanovun ayırdığı konsept qatları, strukturu daha məqsədəuyğun hesab edilir: əsas, aktual əlamətlər, artıq tarixə dönmüş əlavə və yaxud passiv əlamətlər, adətən çox sezilməyən, söz formasında təcəssüm edən daxili forma (6, 47). Anlayışın tərkibi zaman keçdikcə əlamətlərin konseptual layları ilə "örtülür", bu da onun məzmununu zənginləşdirir. Periferiya qisminin kifayət qədər aydın olmayan sərhədləri oisa da, assosiativ əlaqələrə meyillidir. Məsələn, həqiqətin idrakı ilə bağlı olan obrazlı elementlər hər zaman reflekslərə tabe olmur: " Yaddaşda əks olunmuş əşya və hadisələrin görmə, eşitmə, dadbilmə, iybilmə xüsusiyyətləri təcrübi biliyin relevant əlamətləridir" (5, 129).

Konseptin səciyyəvi əlaməti dəyər elementinə həm fərdi, həm də kollektiv şüur üçün verilən mental-verbal törəmənin dəyərinin aktuallaşması qismində edilən vurğudur. Lakin konseptin dəqiq strukturu, qatların sistemli ardıcıllığı yoxdur, tərkibi fərdidir, yaranma və fəaliyyət şərtlərindən asılıdır (7, 14). Analizin nəticələri ciddi modelləşdirilmiş struktur şəklində yox, konseptual əlamətlərin sayı qismində olmalıdır, ona görə də konsept sahəvi xarakterə malik olmalıdır. Konsept obyekt haqqında biliklər toplanan nüvədir, əşya, hadisə yaxud proseslərin identifikasiyasının mümkün cəmini ehtiva edir. Mütləq əlamətlərdən başqa, həmçinin fakültətiv, obyekti əlavə olaraq səciyyələndirən xüsusiyyətlər də mövcuddur. Onların aktuallaşdırılması universal-əşya kodundan deyil, müşahidəçinin münasibət və spesifikliyindən, özünəməxsusluğundan asılıdır. Buna, məsələn, konseptin nüvə təbəqələrində özünə yer tutan rəng, ölçü, digər obrazlı və ya dəyər komponentlərindəki dəyişiklikləri aid etmək olar. Konseptin mahiyyəti hadisənin özünün ikili qəbul edilməsindədir: dili və dilöncəsi xarakteri, kommunikativ ehtiyaclarlın verballaşdırılması. Hər bir sözün semantik təhlilin onun konseptual qatları ilə təmas nöqtələrinə malik olmasına baxmayaraq, son məqsəd eyni deyildir. Semantik təhlil sözün aydınlaşdırılmasına, konseptual qatlar isə dünyanın linqvistik mənzərəsinə yönəlib. Ekstralinqvistik xüsusiyyətlərini müəyyən edərkən etno-mental amillərin təsirini, mədəniyyət

formalarının müxtəlifliyini nəzərə almaq, maddi və mənəvi varlıqların konseptlərini müvafiq şəkildə ayırmaq, təhlili yollarını fərqləndirmək lazımdır. Mədəni şüurun müxtəlif formaları ikinci dərəcəli modelləşdirmə sistemlərini doğurur. Linqvistik konseptuallaşdırma, təbəqələşmə, qeyri-materiallaşma, nüvə xüsusiyyətləri gündəlik nitqdə periferik olur. Sosial-mədəni həyat konseptləri, bir tərəfdən, sadəlövh şüurun konseptual özəyini bu və ya digər dərəcədə qoruyub-saxlayır, mifoloji, bədii və ideoloji təfəkkürü yaradır, digər tərəfdən isə varlığın ümumi qanunlarını rekonstruksiya edən elmi-fəlsəfi fikri formalaşdırır. Şübhəsiz ki, elm hissi obrazlarla yox, terminlər sistemi ilə yaranır və onun abstrakt-konseptual leksikonunun nüvəsini də müəyyən düsturlar, təbiət qanunları, diferensial biliklərin bu və ya digər məntiqləri təşkil edir.

Ədəbiyyat

1. Карасик В.И. Языковой круг: личность, концепты, дискурс. М., 2004.
2. Воркачев С.Г. Концепт как «зонтиковый термин» // Язык, сознание, коммуникация. Выпуск 24. М., 2003.
3. Степанов Ю.С. Константы: Словарь русской культуры. М, 2001. 9. Стернин И.А. Методика исследования структуры концепта // Методологические проблемы когнитивной лингвистики: Научное издание / Под редакцией И.А. Стернина. Воронеж, 2001.
4. Ляпин С.Х. Концептология: к становлению подхода // Концепты. Научные труды Центроконцепта. Выпуск 1. Архангельск, 1997.
5. Карасик В.И., Слышкин Г.Г. Лингвокультурный концепт как единица исследования // Методологические проблемы когнитивной лингвистики: Сб. науч. тр. / Под ред. И.А. Стернина. Воронеж, 2001, с.75.
6. Степанов Ю.С. Константы: Словарь русской культуры. М, 2001. 9. Стернин И.А. Методика исследования структуры концепта // Методологические проблемы когнитивной лингвистики: Научное издание / Под редакцией И.А. Стернина. Воронеж, 2001.
7. Стернин И.А. Методика исследования структуры концепта // Методологические проблемы когнитивной лингвистики: Научное издание / Под редакцией И.А. Стернина. Воронеж, 2001.

НАДИР МАМЕДЛИ

КОНЦЕПТ КАК ОБЪЕКТ КОГНИТИВНОЙ ЛИНГВИСТИКИ

РЕЗЮМЕ

Семантическое направление когнитивной лингвистики исследует понятия через значения языковых единиц, которые их выдвигают. Языковые средства выступают как материализация языкового сознания. Понятие включает в себя отдельные слова языкового сознания, языковые средства, свободные выражения, фразеологизмы, структурно-синтаксические схемы, паремии,

тексты и ассоциативные поля. Язык – это образы сознания, выраженные лингвистическими средствами-тезаурусами, такими как отдельные лексемы, словосочетания, ассоциативные поля и комбинации этих полей. За основу исследования берем многомерный слой структуры понятия. Он включает в себя ядро-основу понятия, образ кодирования и совокупность, совокупность признаков, которые когнитивные сегменты создают вместе. Образы языкового сознания объединяют психическое знание, формируемое в основном самим субъектом в ходе речевого общения, и сенсорное знание, возникающее в сознании в результате обработки перцептивных знаний, полученных от органов чувств в предметной деятельности. Образные элементы, связанные с познанием истины, всегда подчинялись рефлексам

Сущность понятия заключается в двойственном восприятии самого явления: его языка и его доязыкового характера, вербализации коммуникативных потребностей. Хотя семантический анализ каждого слова имеет точки соприкосновения с его концептуальными слоями, его конечные цели не совпадают.

Ключевые слова: когнитивная лингвистика, когнитивный процесс, концепция, антропоцентризм, когнитивная метафора, семантический анализ.

NADIR MAMMADLI

CONCEPT AS AN OBJECT OF COGNITIVE LINGUISTICS

SUMMARY

The semantic direction of cognitive linguistics examines concepts through the meanings of the linguistic units that put them forward. Linguistic means act as materialization of language consciousness. The concept includes individual words of linguistic consciousness, linguistic means, free phrases, phraseologisms, structural-syntactic schemes, paremies, texts and associative areas. Language is the images of consciousness expressed by linguistic means – thesaurus, such as individual lexemes, word combinations, associative areas and combinations of these areas. As the basis of the study, we take a multidimensional layer of the structure of the concept. This includes the core – base of the concept, the image of coding and the sum, the set of signs formed together by cognitive segments. The images of linguistic consciousness combine mental knowledge formed by the subject himself mainly during verbal communication, and sensory knowledge generated in consciousness as a result of the processing of perceptual knowledge received from the senses in objective activity. Did the figurative elements associated with the cognition of truth always obey reflexes

The essence of the concept lies in the dual perception of the phenomenon itself: its linguistic and pre-linguistic nature, verbalization of communicative needs. Despite the fact that the semantic analysis of each word has points of contact with its conceptual layers, its ultimate goals are not the same.

Keywords: cognitive linguistics, cognitive process, concept, anthropocentrism, cognitive metaphor, semantic analysis.

Redaksiyaya daxil olma tarixi: 07.12.2022
Çapa qəbul olunma tarixi: 28.12.2022
Rəyçi: akademik N.Cəfərov
tərəfindən çapa tövsiyə olunmuşdur

АЛЛАХВЕРДИЕВА МАЛАХАТ ФАРХАД ГЫЗЫ
Бакинский славянский университет
доцент кафедры русского языка и межкультурной коммуникации
E-mail: malahat1967@gmail.com

ВЕРБАЛИЗАЦИЯ КОНЦЕПТА «НРАВСТВЕННОСТЬ» НА ФРАЗЕОЛОГИЧЕСКОМ УРОВНЕ ЯЗЫКА

Açar sözlər: konsept, əxlaq, dəyərlər sisteminin müsbət təmsil formaları, rus mədəniyyəti, frazeoloji vahidlər.

Ключевые слова: концепт, нравственность, положительные формы представления системы ценностей, русская культура, фразеологизмы.

Keywords: concept, morality, positive forms of representation of the value system, russian culture, phraseological units.

В статье рассматривается универсальный концепт «нравственность» на основе фразеологического материала русского языка.

Концепт «нравственность» является телеономным концептом, то есть представлением о высших духовных ценностях в сознании народа. Телеономные концепты могут принимать «агонистическую», то есть отрицательную форму и представлять нравственному сознанию «антиценности» - то, борьбе с чем можно посвятить свою жизнь [8 , 37]. В данной статье будет рассмотрена только реализация положительной формы концепта «нравственность» в русских фразеологических единицах.

Фразеологизмы давно изучаются лингвистами [12; 6; 1; 3; 9 и др].

Актуальность темы исследования определяется большим интересом лингвистов к проблемам описания фразеологии в идеографическом, лингвокультурологическом и когнитивном аспектах. Описание образной системы и изучение национально-культурной специфики фразеологизмов, отражающих концепт «нравственность», приобретает особую значимость в настоящее время, когда остро стоит вопрос о толерантности, в том числе и межкультурной.

Как известно, человек способен познавать мир и самого себя через свой язык, поэтому каждый язык показывает специфику определенной национальности. Таким образом, фразеологизмы также могут демонстрировать коллективный способ мышления языкового сообщества, и тем самым мы можем выявить связь между языком, мышлением и культурой. В этой связи исследование фразеологизмов со значением «нравственность человека» может помочь понять специфику и развитие культуры народа.

«Фразеологизм представляет собой экспрессивно-образное, устойчивое сочетание переосмысленных слов, которое выражает целостное значение и по

функциям соотносится с отдельным словом» [1, 17]. В когнитивной лингвистике фразеологизм рассматривается как «языковая единица, которая передает познавательный, исторический, синхронический, культурный и языковой опыт человека» [10, с. 529-533]. Фразеологизмы имеют яркий национальный характер и проявляют языковые и культурные отличия в каждом языке [2, с.36-38].

Понятие «нравственность» представляет собой совокупность определённых этических и моральных норм, определяющих поведение человека. Изучение русской фразеологии позволит определить национально-культурную специфику восприятия нравственности русскими, даст возможность понять систему ценностей и общественную мораль, культуру данного народа [3].

Научная новизна работы заключается в том, что впервые фразеологизмы, отражающие концепт «нравственность», рассматриваются в лингвокультурологическом и когнитивном аспектах. Представление материала как отдельного тематического раздела в данном виде и объеме делается впервые.

Материалом нашего исследования послужили данные фразеологических словарей современного русского языка [4; 5; 6].

В ходе исследования использовались следующие *методы*: метод лингвокультурологической интерпретации фразеологизмов; метод контекстуального анализа; метод синхронно-диахронного описания фактического материала; количественный и качественный анализ результатов исследования.

В основу выбора фразеологизмов, содержащих нравственную оценку положены понятия «нравственность» и «этика», зафиксированные в философском словаре [13] и в словаре по этике [11], а также научно-философское определение данных категорий.

В философском словаре, изданном под редакцией И.Т. Фролова, статья «*нравственность*» дает отсылку к статье «*мораль*» [13, с.326]. «*Мораль* – (лат. *mores* – нравы) – одна из форм общественного сознания, социальный институт, выполняющий функцию регулирования поведения людей во всех без исключения областях общественной жизни. … В морали общественная необходимость, *потребности*, интересы общества выражаются в виде стихийно сформировавшихся и общепризнанных предписаний и оценок, подкрепленных силой массового примера, привычки, обычая, *общественного мнения*. Поэтому требования морали принимают форму безличного долженствования, равно обращенного ко всем, но ни от кого не исходящего повеления. Эти требования имеют относительно устойчивый характер. Они отличаются от обычая и традиций тем, что получают *идейное обоснование в виде представлений о том, как подобает человеку жить и поступать*» [13,

с.292]. «Нравы – это те эталоны и нормы поведения, которыми непосредственно руководствуются люди. Нравы как сущее, как наличное бытие *добра и зла* в поведении, отличаются от идеалов как должного. Совокупность нравов связана с нравственностью определенной социальной общности. … Мораль включает моральную деятельность (то, как принято поступать в том или ином обществе, образцы поведения множества людей, нравы); моральные отношения (моральные нормы, *долг, ответственность, совесть и др.*); моральное сознание, отражающее эти отношения в виде соответсвующих представлений (нормы, принципы, общественный и моральный *идеалы*, понятия *добра и зла*, *справедливости и несправдливости*). … Применительно к различным областям общественной жизни в морали формируются особые правила, которые составляют лишь относительно самостоятельные области морали (*трудовая мораль, профессиональная мораль, бытовая или семейная мораль* и т.д.)» [13, с.326].

В словаре по этике понятие «нравственность» раскрывается также как синонимическое понятие к понятию морали, как русский вариант латинского термина «мораль». Но, в то же время, делается попытка разграничения этих понятий. «Мораль – форма сознания. Нравственность – область практических поступков, обычаев, нравов. Согласно другой точке зрения, мораль- регуляция поведения посредством общественного мнения, нравственность же – сфера нравственной свободы личности» [11, с.224]. Возможны: нравственная культура личности» [11, с.221]; «нравственное богословие»[11, с.223]

Фразеологизмы, которые нравственно оценивают человека в русском языке, составляют одну из наиболее многочисленных групп.

Для разработки этой темы необходимо ограничиться определённым количеством фразеологических единиц данного типа. Это ограничение будет чисто условным, так как теоретически можно расширять объём данных ФЕ, равно как можно его сузить.

Рассматриваемый концепт выражается фразеологизмами с положительной и отрицательной оценкой. Концепт «нравственность» можно рассмотреть на основе таких семантических микрополей, как: *добро, дружба, истина/правда, трудолюбие, любовь, зло, обман, предательство, ложь, безделье, трусость.* Из них *дружба, человеческие отношения и любовь* имеют положительную оценку; *ложь, обман, воровство*, а также такие отрицательные моральные качества, как *безделье, хвастовство, тщеславие и трусость* обладают негативной оценкой.

Проанализируем микрополе *добро, дружба, истина, правда, трудолюбие и любовь* на основе фразеологизмов.

Добро: *Древо познания добра и зла; за гранью добра и зла; нет худа без добра; (быть) на стороне добра; доброе сердце, доброе имя, люди доброй воли (библейский фразеологизм), по доброте душевной* и т.д.

Дружба, человеческие отношения: друг детства, старый друг, старинный друг, заклятый друг, друг семьи, дружить домами, (быть) на дружеской ноге, водить хлеб-соль, водить дружбу, отрезанный ломоть (о человеке, который порвал связь с родными или близкими) и т.д.

Истина, правда:голая правда; голая / нагая истина; правду, по правде говоря; по правде говорить, сказать; правда суда не боится; правда / истина в вине; горькая истина; всеми правдами и неправдами; момент истины; правда, только правда и ничего, кроме правды; зерно / крупица истины и т.п.

Данные фразеологизмы являются универсальными как в плане содержания, так и в плане выражения. Некоторые из них восходят к античной мифологии или библейским текстам.

Фразеологизмы «голая правда» и «голая истина» не являются лексическими вариантами одного и того же фразеологизма, так как *истина* может быть не только *голой*, но еще и *нагой*, правду же мы нагой не называем. Во-вторых, в историко-этимологическом справочнике [4] говорится о разном происхождении этих двух словосочетаний.

Источником фразеологизма «*истина в вине*» считается афоризм греческого поэта Алкея: «Вино – милое дитя, оно же – правда».

Также калькой с латыни является выражение «*всеми правдами и неправдами*» [4]. Фразеологизм «*момент истины*» является калькой из испанского языка и связан с тем моментом в испанской корриде, когда матадор убивает быка [14]. Данный фразеологизм появился относительно недавно и сразу получил широкое распространение.

Всеми правдами и неправдами; истинная / сущая правда; предстать в истинном свете / показать свой истинный характер / показать свое истинное лицо; выложить всю правду; наставлять, направлять и т.п. на путь истины.

Фразеологизм *«всеми правдами и неправдами»* более конкретный и является калькой с латинского языка [4].

Интересным является также неоднозначное отношение к *правде* и истине носителей русского языка. Если, с одной стороны, предпочтение отдается скорее горькой правде и страданиям за правду, нежели процветанию за счет лжи (лучше горькая правда, чем сладкая ложь, то с другой стороны, иногда правде люди предпочитают счастье (правда хорошо, а счастье лучше).

Служить / прослужить верой и правдой / верой-правдой; подлинная правда; подноготная правда; [была] правда у Петра и Павла; сермяжная правда; сидорова правда [да шемякин суд]; резать правду [матку]; правда-матка [матушка]; по правде [говорить, отвечать и т.п.]; стоять, пострадать, перетерпеть и т.п. за правду; сбивать / сбить с пути [истинного]; правда чистой / чистейшей воды; правдою жить – что огород городить: что днем нагородишь, в ночь разгородят; свет плоти – солнце,

свет духа – истина; вся истина вышла; состоять в правде; всегда говорит правду, когда лжет; жить не в правду; идти на правду; около / подле правды.

Фразеологизмы данной группы лучше всего отражают специфику быта и истории русской культуры. Многие из указанных фразеологизмов этимологически связаны с насилием, пытками. Например, выражение «*подлинная правда*» связано с пытками в Древней Руси, при которых обвиняемого избивали подлинниками (линниками) - особыми длинными палками или просмоленными кнутами с привязанными к их концам кусочками свинца.

Также, один из видов пыток в Древней Руси заключался в том, что допрашиваемому загоняли под ногти иглы, гвозди или деревянные клинья, чтобы заставить его рассказать всю правду – отсюда возникло выражение «*узнать всю подноготную»* [4].

Выражение «*была правда у Петра и Павла*» связано с церковью Св. Петра и Павла, при которой была дыба для пыток и виселица [4].

Также, выражение «*резать правду* [*матку*]», по данным историко-этимологического справочника, является производным от *скажет*, *как отрежет*, которое, в свою очередь, восходит к тем временам, когда слова подкреплялись оружием и были равнозначны удару мечом, саблей [4].

Фразеологизм «*свет плоти – солнце, свет духа – истина»* напоминает о божественном происхождении истины, так как и дух имеет божественный характер. Дух - это высшая, божественная сила, которой подчиняется душа.

В целом, получается, что очень сложно жить честно, по правде – *за правду нужно стоять, страдать, терпеть*. Несмотря ни на что, русский человек готов *страдать за правду*. Подтверждается это и фразеологизмами, этимологически связанными с пытками, которые были рассмотрены нами выше. *Жить правдою* то же самое, что *городить огород* – то есть делать заведомо ненужное дело, т.к. что днем нагородишь, будет разгорожено ночью [9].

Фразеологизмы, образующие микрополе «*Трудолюбие*»: «*до седьмого пота*» – до последней степени утомления, изнурения; «*засучив рукава*» – усердно, старательно, энергично; «*как ломовая лошадь*» – с большим напряжением, до изнеможения; «*работать как лошадь*» – о чьём-либо трудном, непрерывном (обычно, подневольном) труде; «*ломовая лошадь*», «*рабочая лошадь*», «*трудолюбивый, как муравей*» – о человеке, который очень много работает; *добыть потом и кровью; мастер на все руки, в руках играет, собаку съесть, золотые руки, дело в руках горит; внести вклад, брать на себя труд, внести свою лепту; работать на совесть; не за страх, а за совесть; работать с полной отдачей, на голом энтузиазме, засучив рукава, гореть на работе, вкладывать душу, болеть душой, работать с огоньком, стараться изо всех сил, не покладая рук* и другие.

Русские фразеологизмы подтверждают мысль о том, что труд облагораживает человека, является важной составляющей жизни человека. *Труд - это социальная ценность для человека.*

Фразеологизмы, образующие микрополе «*Любовь*» показывают, что любовь к ближнему является одним из важных нравственных ценностей: *прикипеть душой; войти в сердце; открывать сердце; сердце горит; всем сердцем; горячее сердце; войти в душу; всей душой; души не чаять; жить душа в душу; жить как два голубка*. Любовь, ориентированная на благо ближнего является своего рода самопожертвованием: *отдавать всего себя любви, любить без остатка.* «Итак, он заранее обречен на то, чтобы *отдавать себя любви* лишь отчасти» [Юрий Безелянский, В садах любви, 1993].

Далее все ФЕ можно разделить на 3 группы: «Эмоции» (например, любовь, дружба), «Свойства и качества человека», «Характеристика явлений и ситуаций»[1].

I. «Эмоции»: *отдавать всего себя любви, любить без остатка; по доброте душевной; сердце горит; всем сердцем; горячее сердце; войти в душу; всей душой; души не чаять.*

II. Группа фразеологизмов, отражающая «Свойства и качества человека», самая многочисленная: *добрый гений, добрый молодец, добрый малый, добрая душа, по доброте душевной, доброе сердце, доброе имя, люди доброй воли* (библейский фразеологизм), *добрейшей души человек, служить верой-правдой, идти прямой дорогой, и душой и телом* (что означает «честность, преданность, верность») и т. п.

Понятие “нравственность” проходит красной нитью во фразеологизмах русского языка. Примером может послужить выражение “*Жён и детей заложить*”. Это выражение возникло в конце XVI – в начале XVII века, когда внутренние неурядицы между наследниками престола ослабили государство. И тогда весь народ поднялся на бунт, во главе с Кузьмой Мининым и Дмитрием Пожарским. Но чтобы дать мощный отпор полякам нужны были огромные средства, а в государственной казне их не было. И Минин обратился к своим землякам с призывом отдать свое имущество на благое дело: “продавать дома,

[1] В какой-то степени это соответствует философскому разделению нравственности или морали на следующие формы: моральная деятельность (то, как принято поступать в том или ином обществе, образцы *поведения* множества людей, нравы); моральные отношения (моральные нормы, *долг, ответственность, совесть и др.*); моральное сознание, отражающее эти отношения в виде соответсвующих представлений (нормы, принципы, общественный и моральный *идеалы*, понятия *добра и зла*, *справедливости и несправдливости*) [13, с. 292].

жён и детей закладывать…" На сегодняшний день данное крылатое выражение мы воспринимаем иначе, но смысл остается одним и тем же: "пожертвовать самым дорогим". А нравственность данного фразеологизма отражает *самопожертвование русского народа*.

Выражение "*Сгорая сам, свети другим*" является символом *самопожертвования* собой ради других, *самоотверженности*. У данного фразеологизма имеется своя предыстория. Это слова легендарного медика и мыслителя Древней Греции, основоположника современной медицинской этики Гиппократа, который именно так определил предназначение истинного врачевателя.

Стоит отметить, что смысл фразеологизма "*Живота не жалели*" заключается тоже в *самопожертвовании*. Ещё в древнеславянском языке слово «живот» означало «жизнь». И если произносили: «Он за других свой живот положил», то имели в виду, что человек пожертвовал своей жизнью. Но употреблялось это слово и в другом значении, например, «животы» обозначало домашнюю скотину или движимое имущество. Поэтому фразеологизм «живота не пожалеть» можно рассматривать в двух значениях: «пожертвовать жизнью» или «своими пожитками».

Отношение русского народа к нравственности проявляется через умение *сопереживать* ближнему, а также и в *самопожертвовании*.

В качестве другого примера, можно привести фразеологизм "*Поставить на ноги*", и его же использует А.И. Куприн в своём произведении "Олеся": "- Ах, зачем я не знала, что вы захворали! - воскликнула она с нетерпением. - Я бы в один день вас на ноги поставила". Нравственность этого выражения заключается *в поддержке, в оказании помощи*.

Проявление *гуманности, добродушия, человечности и отзывчивости* содержится в таком фразеологизме, как "*Вложить душу*". Действие нравственности, которое проявляется как *самоосуждение за свои поступки* отражается в фразеологизме "*Угрызение совести*".

Смысл выражения "*Не в службу, а в дружбу*" обозначает оказание помощи не по обязанности, а из *дружеского расположения*.

Фразеологизм "*Мухи не обидеть*" означает *быть образцом терпеливости* по отношению к приставучим, вредным и надоедливым созданиям.

Выражение "*Болеть душой*" обозначает беспокойство, волнение, *переживание*. (Я не о себе душой болею, а об народе… М.Шолохов).

Фразеологизм "*Большое сердце*" говорит нам о том *человеке, который способен горячо и искренне сочувствовать, сопереживать, сострадать*.

Душевность, нелицемерность, *открытость* отображается в выражении "*От всего сердца*". Смысл фразеологизма "*Доброе сердце*" заключается в отношении человека к миру; в его взаимоотношении с другими людьми.

III. «Характеристика явлений и ситуаций»: *древо познания добра и зла; за гранью добра и зла; пользоваться добротой; нет худа без добра; (быть) на стороне добра; до добра не доведёт, добром не кончится, не с добра, (уйди) подобру-поздорову!отдай, добром прошу! Добра не будет, (это) (не) к добру, чего доброго; дружить домами, (быть) на дружеской ноге, водить хлеб-соль, водить дружбу; стоять, пострадать, перетерпеть и т.п. за правду; сбивать / сбить с пути [истинного]; правдою жить – что огород городить* и т. п.

Таким образом, мы приходим к выводу, что *нравственность* является одним из главных семантических компонентов во фразеологизмах русского языка.

Термин «языковая картина мира» подразумевает особенности национального языка. В языковой картине мира зафиксирован уникальный общественно-исторический опыт определенной национальной общности людей, который создаёт для носителей этого языка специфическую окраску этого мира, обусловленную национальной значимостью предметов, явлений, процессов, избирательным отношением к ним. Фразеология, рассматриваемая в этом аспекте, является ключом к пониманию менталитета народа и образной системы, характерной для его восприятия окружающего мира.

Список использованной литературы

1. Алефиренко Н. Ф., Семененко Н. Н. Фразеология и паремиология. М.: Флинта: Наука, 2009. – 344с.

2. Аликова С.В., Баранова Е.В., Шибкова О.С. Фразеологизмы в парадигме междисциплинарного подхода // Филологические науки. Вопросы теории и практики. Тамбов: Грамота, 2016. № 6-2 (60). – С. 36-38.

3. Бабкин А.М. Русская фразеология, ее развитие и источники. М.: URSS Либроком, 2009. – 261с.

4. Бирих А. К., Мокиенко В. М., Степанова Л. И. Словарь русской фразеологии. Историко-этимологический справочник. Санкт-Петербург: Астрель: АСТ, Хранитель. 2007. – 928с.

5. Бирих А. К., Мокиенко В. М., Степанова Л. И. Словарь фразеологических синонимов русского языка. М.: Астрель: АСТ, 2001, 494 с.

6. Большой фразеологический словарь русского языка. Значение. Употребление. Культурологический комментарий/Отв.ред. В.Н. Телия. – 2-е изд. – М.: АСТ-ПРЕСС КНИГА. – 784 с. – (Фундаментальные словари).

7. Исаева, Н. Ш. Фразеологическая семантика, национальный менталитет и национальная культура // Актуальные вопросы филологических наук: материалы I Междунар. науч. конф. (г. Чита, ноябрь 2011 г.). - Чита:

Издательство Молодой ученый, 2011. - С. 82-85. - URL: https://moluch.ru/conf/phil/archive/25/1190/ (дата обращения: 30.11.2022).

8. Любовь как лингвокультурный концепт. - М.: Гнозис, 2007. - 284 с.

9. Мокиенко В. М. В глубь поговорки. Санкт-Петербург: Авалон, Азбука-Классика. 2005. – 256 с.

10. Павленко В. Г. Фреймовая структура фразеологизмов (на материале английского языка) // Научно-методический электронный журнал «Концепт». – 2016. – Т. 17. – С. 529–533. – URL: http://e-koncept.ru/2016/46281.htm.

11. Словарь по этике./под ред. И.С. Кона. – 5-е изд. – М.: Политиздат, 1983. – 445с.

12. Шанский Н. М. Фразеология современного русского языка. - М.: Высшая школа, 1969. – 230 с.

13. Философский словарь / под ред. И.Т.Фролова. – 5-е изд. – М.: Политиздат, 1986. – 590 с.

14. Concise Oxford Dictionary of Proverbs. Edited by J. Speake, J. Simpson. Oxford: Oxford University Press. 2003. – 364p.

Allahverdiyeva Məlahət

Dilin frazeoloji səviyyəsində "əxlaq" konseptinin verbalizasiyası

Xülasə. Məqalədə universal konsept olan "əxlaq" konsepti müzakirə olunur. Bu məqalənin məqsədi semantik komponenti "əxlaq" olan frazeoloji vahidlərin təhlili, rus dilinin göstərilən frazeoloji vahidlərinin milli-mədəni semantikasının xüsusiyyətlərinin aydınlaşdırılmasıdır. Məqsəd aşağıdakı problemlərin həllini tələb etdi: 1) "əxlaq" və "etika" anlayışlarının elmi və fəlsəfi tərifinə uyğun olaraq rus frazeoloji vahidlərinin bir hissəsini seçmək və xarakterizə etmək. 2) Rus dilində bu konseptin semantikasının bəzi aspektlərini vurğulamaq. Əxlaqi qiymətləndirməni ehtiva edən frazeoloji vahidlərin seçilməsi fəlsəfi lüğətdə və etika lüğətində qeyd olunan "əxlaq" və "etika" anlayışlarına, habelə bu kateqoriyaların elmi və fəlsəfi tərifinə əsaslanır. "Əxlaq" konsepti: yaxşılıq, dostluq, həqiqət/doğruluq, zəhmət və sevgi kimi semantik mikrosahələr əsasında nəzərdən keçirildi. Bütün frazeoloji vahidlər 3 qrupa bölündü: "emosiyalar" (məsələn, sevgi, dostluq), "bir insanın xüsusiyyətləri və keyfiyyətləri", "hadisələrin və vəziyyətlərin xüsusiyyətləri".

Аллахвердиева Малахат

Вербализация концепта «нравственность» на фразеологическом уровне языка

Резюме. В статье рассматривается универсальный концепт «нравственность». *Целью* данной статьи является анализ фразеологизмов с семантическим компонентом “нравственность”, выяснение особенностей национально-культурной семантики указанных фразеологизмов русского

языка. Поставленная цель потребовала решения следующих *задач*: 1) в соответствии с научно-философским определением понятий «нравственность» и «этика» осуществить отбор и дать характеристику некоторой части русских фразеологизмов. 2) Выделить некоторые аспекты семантики данного концепта в русском языке. В основу выбора фразеологизмов, содержащих нравственную оценку положены понятия «нравственность» и «этика», зафиксированные в философском словаре и в словаре по этике, а также научно-философское определение данных категорий. Концепт «нравственность» был рассмотрен на основе таких семантических микрополей, как: *добро, дружба, истина/правда, трудолюбие и любовь*. Все ФЕ были разделены на 3 группы: «Эмоции» (например, любовь, дружба), «Свойства и качества человека», «Характеристика явлений и ситуаций».

Allahverdiyeva Malahat

Verbalization of the concept of "morality" at the phraseological level of the language

Summary. The article discusses the universal concept of "morality". The purpose of this article is to analyze phraseological units with a semantic component “morality”, to clarify the features of the national-cultural semantics of these phraseological units of the Russian language. The set goal required solving the following tasks: 1) in accordance with the scientific and philosophical definition of the concepts of "morality" and "ethics", to select and characterize some of the Russian phraseological units. 2) To highlight some aspects of the semantics of this concept in the Russian language. The choice of phraseological units containing a moral assessment is based on the concepts of "morality" and "ethics", recorded in the philosophical dictionary and in the dictionary of ethics, as well as the scientific and philosophical definition of these categories. The concept of "morality" was considered on the basis of such semantic microfields as: kindness, friendship, truth/truth, diligence and love. All phraseological units were divided into 3 groups: "Emotions" (for example, love, friendship), "Properties and qualities of a person", "Characteristics of phenomena and situations".

Redaksiyaya daxil olma tarixi: 07.12.2022
Çapa qəbul olunma tarixi: 28.12.2022
Rəyçi: Bakı Slavyan Universitetinin
Rus dili və mədəniyyətlərarası kommunikasiya kafedrasının
dosenti Ramazanova Yasəmən Valeh qızı.
tərəfindən çapa tövsiyə olunmuşdur

MUSTAFAYEV FİZULİ NƏCMƏDDİN OĞLU,
AMEA Nəsimi adına Dilçilik İnstitutu,
Tətbiqi dilçilik şöbəsinin aparıcı elmi işçisi,
filologiya üzrə fəlsəfə doktoru mustafayev.fizuli8@gmail.com

POETİK MƏTNİN KİNO DİLİNDƏ YERİ VƏ ƏHƏMİYYƏTİ

Açar sözlər: mətn, ssenari, tələffüz, quruluş, qrammatik tələb, nəzəriyyə, leksik tərkib, təhlil

Giriş. Kino sənəti ilə poeziyanın qarşılıqlı əlaqələrini maraqlı aspektlərindən biri də lirik şeir mətnlərinin ssenariyə daxil edilməsidir. Şeir mətnlərini ekran təhkiyəsinə qoşulmasını yalnız poeziya əsasında yaradılmış filmlərə xas olan keyfiyyət kimi başa düşmək düzgün olmazdı. Şeir mətnləri janrından, "poetik", yaxud "nəsri" təhkiyə dilində yaradılmasından, yaxud lirik üslubda işlənib-işlənməsindən asılı olmayaraq istənilən filmdə müxtəlif formalarda səslənə bilər.

Bu tendensiya 50-60-cı illər Azərbaycan kinosu üçün xüsusilə səciyyəvidir. Doğrudur, həmin dövr kinomuzda lirik mətnlər daha çox mahnı formasında, daha doğrusu, mahnı mətnləri kimi səslənir. Lakin səsli nitqin bu tipi personajların vokal imkanlarının xarakteristikası kimi düşünülmədiyindən, yaxud filmin janr özünəməxsusluğunu şərtləndirmədiyindən ("Ulduz", "O olmasın bu olsun", "Arşın mal alan", "Oxuyur Müslüm Maqomayev" filmlərində olduğu kimi) onlardan poeziya faktı kimi danışmaq daha düzgün olardı.

x x x

Poetik mətn ekran təhkiyəsinə səsli formada iki üsulla – ya müəllifin nitqi, ya da personajın nitqi kimi daxil edilir. Müəllif nitqi ekranda yalnız kadr arxasından, personajın nitqi isə həm kadr arxasından (onun daxili monoloqu kimi), həm də vasitəsiz nitq kimi eşidilə bilər.

Araşdırmalar göstərir ki, kinomuzda poetik mətnlərin istər müəllif, istərsə də personajların nitqi kimi səslənməsində mahnı formasına daha çox üstünlük verilmişdir. Bəzi filmlərimizdə mahnı mətnləri və şeir parçaları ilə filmin ümumi məzmun konsepsiyası arasındakı əlaqələrin bəzi aspektlərini nəzərdən keçirək.

"O olmasın bu olsun" filmində personajların dilindən üç dəfə şeir eşidilir. Filmin əvvəlində Sərvərin dostlarından biri Gülnazgilin eyvanına baxa-baxa Vaqifin "Bəri bax" rədifli qoşmasından iki bənd söyləyir:

Ala gözlü, sərv boylu dilbərim,
Həsrətin çəkdiyim canan, bəri bax!
Gecə-gündüz fikrim-zikrim, əzbərim,
Üzüldü taqətim, aman, bəri bax!

Çox çəkir hicrini Vaqifi (Sərvəri) xəstə,
Leylü nahar, şamu səhər peyvəstə,
Ey yanağı lalə, ləbləri püstə,
Ağzı nabat, şəkkər zəban, bəri bax! [1, 85].

İlk baxışdan günün günorta çağı bir dəstə gəncin küçənin ortasında dayanıb bəy qızına məhəbbət şeiri ilə müraciət etməsi həmin dövr Bakısının davranış etiketi üçün səciyyəvi deyil. Bu məntiqdən çıxış etsək, hətta bu epizodda etiketdən kənar davranış elementləri də axtarmaq olar. Lakin, epizodu əsərin ümumi kontekstində götürdükdə, şeirin ifa intonasiyasının mahiyyətinə vardıqda bu təəssüratın keçici olduğu dərhal aydınlaşır. Əvvəla, şeir Gülnazın sevdiyi oğlanın – Sərvərin yanında, daha doğrusu, onun iştirakı və deməli, icazəsi ilə söylənilir.

Söylənən şeir 2 funksiya yerinə yetirir: 1) personajların mənəvi intellektual portretini tamamlayır; 2) dövrün əxlaq normalarındakı paradoksallığın ifadəsinə xidmət edir.

Filmin sonrakı epizodlarından biri "Molla Nəsrəddin" jurnalının redaksiyasında baş verir. Gülnazın zorla qoca bir baqqala ərə verilməsini eşidən Mirzə Cəlil Sabirə müraciətlə deyir: "Eşidirsən, Mirzə, gənc qoca bir baqqala ərə verirlər. Əşi, nə qədər yazırıq, yazırıq, bu dünya düzəlmir ki, düzəlmir". Sonra Sabir Mirzə Cəlilin xahişi ilə özünün məşhur "Qoyma gəldi" şeirindən 2 bənd söyləyir:

Xandostu, amandı, qoyma, gəldi!
Didarı yamandır, qoyma gəldi!

Vay, vay deyəsən bəşər deyil bu,
Bir şəklə uyan təhər deyil bu,
Allahı sevirsən, ər deyil bu,
Ərdodu, qabandı, qoyma gəldi!
Didarı yamandı, qoyma gəldi! [2, 105].

Bu məqamda eşidilən poetik mətnin dili artıq tipik situasiyanın tipik atributu səviyyəsindədir. Şeirin ideyası, obrazlar sırası, intonasiyası və dili ilə filmdə cərəyan edən hadisələr arasındakı bağlılıq elə bir həddədir ki, hətta bəzi ekranda gördüklərimiz zahirən bu filmdə təsvir predmeti kimi çıxış edən poetik mətnin ekran yozumu təsiri bağışlayır. Adama elə gəlir ki, "O olmasın, bu olsun" bu şeirin məzmununun, ideyasının ekran dili ilə ifadəsidir.

"Qanun naminə" filmində Füzulinin "Ya rəbb, bəlayi eşq ilə qıl aşina məni" misrası ilə başlayan qəzəlindən 2 dəfə sitat eşidilir: 1) hələ ucqar dağ rayonuna gəlməmişdən əvvəl Mehmanla Züleyxanın sevgi macəralarını əks etdirən kadrların arxasından və 2) arvadı tərəfindən şərəfi, ləyaqəti tapdanan Mehman Züleyxanı ittiham edəndə.

Sual olunur: şairin məhəbbət fəlsəfəsinin əsas motivlərini ifadə edən bu misraların səslənməsi qəhrəmanların taleyi, psixologiyası, mənəviyyatı ilə bağlı bizə

təsvir sırasının çatdırmadığı hansı əlavə bilgilər verir, bütövlükdə filmin mətnində hansı estetik funksiya daşıyır? Şeirin dilində hansı dəyişikliklər baş verir?

Heç şübhəsiz ki, Mehman və Züleyxa bir-birlərini sevirlər. Lakin münasibətlərinin get-gedə gərginləşməsi, sonra isə faciə ilə nəticələnməsi bu məhəbbət dünyasında kölgəli, qaranlıq döngələrin mövcudluğunun nəticəsidir. Məsələ burasındadır ki, məhəbbət, ər-arvad münasibətlərinə onların baxışları üst-üstə düşmür, hər birinin bu məsələlərlə bağlı öz şəxsi qənaətləri var. Züleyxa ərköyündür, şıltaqdır, zahiri dəb-dəbə, bər-bəzək hərisidir, öz romantik sentimental hisslərinin əsirinə çevrilən, ərinə güzəştə getməyi bacarmayan insandır. Kənd həyatının çətinliklərinə dözümsüzlüyü, Mehmanla anası arasındakı övlad-bala münasibətlərinə qısqanclığı onun meşşan təbiətindən, eqoizmindən, yüksək, ali duyğuların əzablarına, ağrılarına ikrahedici münasibətindən xəbər verir. Belə olan halda obrazın səciyyəsi üçün Füzulinin məşhur qəzəlinin seçilməsi nə dərəcədə düzgündür? Axı Züleyxanın nə keçmişində, nə indisində, nə də gələcəyində onun bu yüksəkliyinə, ucalığına dəlalət edən heç nə yoxdur. Füzulini aşiqi kimi sevən, məhəbbəti Füzuli məntiqi ilə qavrayan insan da həyatın mənası, xoşbəxtlik haqqında Züleyxa kimi dar ölçülərlə fikirləşərdimi?

Qızıl saatın tələsinə düşüb sarsılan Mehman Züleyxanı ən ağır sözlərlə ittiham edəndə də rejissor kontrapunkt üsulu ilə həmin misraları təhkiyəyə daxil edir. Kadr arxasından Mehmanın səsi ilə oxunan qəzəlin fonunda onun söyüşləri, ittihamedici sözləri eşidilməz olur. Bizcə, bu epizodda səs sırası ilə təsvir sırası arasında üzvi qovuşma baş tutmuşdur: Mehmanın bir vaxtlar Züleyxa üçün oxuduğu qəzəlin indi onu ittiham etdiyi, onu dünyanın ən cılız adamı kimi yamanladığı epizoda montaj edilməsi Mehmanın Züleyxa ilə, öz məhəbbəti ilə bağlı aldanışları barədə təsirli assosiasiyalar doğurur. Mehmanın təmiz duyğuları ilə taleyi, qisməti arasındakı ziddiyyətin kinematoqrafik ifadəsinə çevrilir.

"Gün keçdi" filmində Oqtay 2 dəfə şeir söyləyir. Birinci dəfə o, Əsmərə İçərişəhəri gəzərkən V.Səmədoğlunun zəngin dili ilə seçilən şeirini oxuyur:

İçimdən
Kommunist küçəsinə çıxan təəccübüm,
Oğrulardan qorxan cibim,
Ölüm ayağındadır indi,
Biçarə şəhər,
İçərişəhər... [4, 35].

Aydındır ki, şeirin Oqtayın dilindən səslənməsi heç də təsadüfi xarakter daşımır. Film özü İçərişəhərin taleyi ilə bağlı mübahisə səhnəsi ilə başlayır. Gənc memarların bir neçəsi modernləşdirmə adı altında İçərişəhərin sökülməsini, onun yerində isə müasir dəbli evlər tikilməsini təklif edir. Oqtay isə əks mövqedədir. O, həmkarlarından fərqli olaraq İçərişəhərin daşlarının, döngələrinin səsini, hənirini duyur. İçərişəhərə canlı varlıq kimi baxır, onu qoruyub saxlamağın vacibliyindən danışır. Bu isə artıq mənəviyyatın bir parçasına çevrilmiş məkanın poeziyasına

bağlılıq deməkdir və təsadüfi deyildir ki, Oqtayın bu məsələ ilə bağlı fikirləri məhz şeirin deyildiyi məqamda daha da bütövləşir. Əlbəttə, filmdə İçərişəhərin obrazı yalnız həmin şeir vasitəsilə yaradılmır. Kor kişinin daşları sığallaya-sığallaya öz evini tapdığı səhnə, İçərişəhərin obrazını tamamlayan səs-küy effektləri, xəsis, lakin ifadəli təsvir planları həmin məkanı insanların keçmişi, bu günü və gələcəyi ilə bağlı obraz səviyyəsinə qaldırır. Oqtayın bu məkan haqqında sadə danışıq dilində dedikləri də təsirlidir. Lakin müəyyən bir məqamda onun öz mövqeyini məhz şeirlə bildirməsi iki baxımdan maraq doğurur. Əvvəla, bu şeir İçərişəhərin taleyi ilə bağlı olaraq Oqtayın mövqeyinin əhatə dairəsini genişləndirir, onu fərdi-subyektiv səciyyə məhdudluğundan çıxarır. İkinci tərəfdən isə şeir İçərişəhəri gözləyən təhlükənin daha böyük miqyası barədə təsəvvür yaradır.

"Bizim Cəbiş müəllim" filmində Leninqraddan qaçqın düşmüş rus qızı Tanyanın Bakıya – Cəbiş müəllimgilin həyətinə gəlişi münasibətilə məhəllə cavanlarının yenə də meyxana ritmində oxuduqları şeir bir tərəfdən bu cavanların döyüşdən, od-alovdan qorxmadıqlarını hadisələrin ən qaynar nöqtəsindən gələn rus qızına nümayiş etdirmək istəklərinin ifadəsi kimi mənalanırsa, digər tərəfdən dövrün əxlaq normaları, cəbhəyə getməyin, qələbədə iştirak etməyin, hətta məhəbbət, ürək-qəlb məsələsinə də əsas şərt kimi irəli sürülməsi barədə aydın, dəqiq təəssürat yaradır.

Nəticə. Deyilənlərə yekun kimi belə bir nəticəyə gəlmək olar ki, Azərbaycan kinosunda poetik nəticələrin istər müəllif, istərsə də personajların nitqi kimi səslənməsində mahnı formasına daha çox üstünlük verilməlidir. Bu halda şeir mətnləri janrından, poetik, yaxud lirik üslubda işlənib-işlənməməsindən asılı olmayaraq istənilən filmdə müxtəlif formalarda səslənə bilər.

Ədəbiyyat

1.M.P.Vaqif. Seçilmiş əsərləri. Bakı. 1982, Azərnəşr, səh. 85.
2.M.Ə.Sabir. Hophopnamə, I cild. Bakı, 2004. Şərq-Qərb nəşriyyatı, səh. 105.
3.Vaqif Səmədoğlu. Mən burdayam, ilahi. Bakı, Gənclik, 1999. səh. 35.

Filmlər

1."Arşın mal alan". C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası, 1945.
2."O olmasın bu olsun" bədii filmi. C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası, 1958.
3."Qanun naminə" bədii filmi. C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası, 1968.

Mustafayev Fizuli Nəcməddin oğlu

Xülasə

Poetik mətnin kino dilində yeri və əhəmiyyəti

Açar sözlər: mətn, ssenari, tələffüz, quruluş, qrammatik tələb, nəzəriyyə, leksik tərkib, təhlil

Məqalə kino dilinin mühüm bir probleminə həsr edilib. Burada vizual nitqin semantik səviyyəsi, dilin metaforik ünsürləri ilə bağlı maraqlı məqamlar var. Belə ki, məqalədə əşyaların öz adi mənalarından əlavə digər mənalar qazanması faktı artıq şeir və kinonun yaxınlığından semantik planda danışmağa da əsas verir.

Qeyd edilir ki, istər şeir, istərsə də ekran mətnlərində üfüqi istiqamətdə aparılan müxtəlif müqayisələr həmişə eyni nəticələr verir. Bir-birinə üfüqi xətt üzrə bağlanmış sözlər ibarələrə çevrilir; ibarələrin birləşməsi kino dilində cümlə əmələ gətirir; cümlələr isə konkret fikrə çevrilir.

Beləliklə, fonoqrafik mətn boyu xüsusi hadisə: sözlərin, ifadələrin kombinasiya olunub yeni keyfiyyətə - müəyyən mühakimənin ifadəsinə çevrilməsi baş verir. Başqa sözlə, kinossenaridə sözlərin, ifadələrin, cümlələrin ən azı leksik məna üzrə montajı baş verir. Bütün bu və digər mənalar məqalədə xüsusi yer alır.

Мустафаев Физули Наджмеддин оглы

Резюме

Место и роль поэтического текста в языке кино

Ключевые слова: текст, сценарий, произношение, строение, теория, грамматическое требование, лексический состав, анализ

Статья посвящена существенной проблеме киноязыка. Здесь имеются интересные моменты, связанные с семантическим уровнем визуальной речи и метафорическим элементом языка. Таким образом, в статье помимо своих обычных значений, также имеются и другие значения, дающие нам основание отмечать факты заслуги в семантическом плане, в стихах и кино.

Отмечаем, что как в стихах, так и в текстах экранов, различные сравнения в вертикальных направлениях, дают одинаковые результаты. Слова, связанные друг с другом вертикальной линией превращаются в обороты; соединение оборотов в киноязыке оборачиваются в предложения, а предложения в конкретные мысли.

Таким образом, специальный случай в течении фонографического текста: происходит превращение комбинированных выражений в новое качество – выражение определенного рассуждения. Другими словами происходит монтаж

слов, выражений, предложений, в киносценарии, минимум по лексическому значению. Все данные и другие моменты занимают особое место в статье.

Mustafaev Fizuli Nadjmeddin

Summary

Place and role of poetic text in the cinema language

Key words: text, script, pronunciation, structure, theory, grammatical requirement, lexical composition, analysis

The article is devoted to the essential problem of cinema language. Here there are interesting moments related to the semantic level of visual speech and the metaphorical element of the language. Thus, in addition to its usual meanings, the article also has other meanings, which give us grounds to mark the facts of merit in semantic terms, in verses and cinema.

We note that both in verses and in screen texts, various comparisons in vertical directions give the same results. Words connected with each other by a vertical line turn into turns; the combination of turns in the cinematic language turns into sentences, and sentences into concrete thoughts.

Thus, a special case in the flow of the phonographic text: the combination of expressions is transformed into a new quality — an expression of a certain reasoning. In other words, the installation of words, expressions, sentences, in screenplays, at least by lexical meaning. All data and other points occupy a special place in the article.

Redaksiyaya daxil olma tarixi: 07.12.2022
Çapa qəbul olunma tarixi: 28.12.2022
Rəyçi: professor İsmayıl Məmmədli
tərəfindən çapa tövsiyə olunmuşdur

ƏLİYEVA ELMİRA MƏMMƏD QIZI
Azərbaycan Dillər Universiteti
Rəşid Behbudov küç. 134

MÜASİR DİLÇİLİKDƏ MÜƏYYƏNLİK VƏ QEYRİ-MÜƏYYƏNLİK KATEQORİYASI

***Açar sözlər**: müəyyənlik və qeyri-müəyyənlik kateqoriyası, determinativ, kvantifayer, artikl;*
***Key words**: the category of definiteness and indefiniteness, determinative, quantifier, article;*
***Ключевые слова**: категория определенности и неопределенности, определитель, квантификатор, артикль;*

Müəyyənlik və qeyri-müəyyənlik kateqoriyası dil universaliyası olub dünya dillərinin demək olar ki, hamısında bu və ya digər şəkildə işlədilir. Bu kateqoriya artikl ilə əlaqələndirildiyindən ən çox artiklın işləndiyi dillərdə, məsələn ingilis, fransız, alman və s. dillərdə daha çox tədqiq edilmişdir. Artiklın olmadığı dillərdə isə müəyyənlik və qeyri-müəyyənlik kateqoriyasının tədqiqi daha yaxın zamanlara təsadüf edir. Məsələn, türkologiyada bu təxminən XVII əsrə təsadüf edir. Beləliklə, müəyyənlik və qeyri-müəyyənlik kateqoriyasının işlənməsinə görə dünya dilləri, əsasən iki qrupa bölünür: birinci qrupa daxil olan dillərdə müəyyənlik və qeyri-müəyyənlik kateqoriyasının ifadəsi üçün müəyyənlik və qeyri-müəyyənlik adı altında təşəkkül tapan artikllardan istifadə edilir. Bu dillərə misal olaraq, fransız, ingilis, alman, ərəb və bir sıra bu kimi dilləri göstərə bilərik. Lakin bəzi dillərdə müəyyənlik məfhumunu ifadə etmək üçün xüsusi köməkçi sözlərdən istifadə edilmir. Başqa sözlə, bu dillərdə artikl adla-nan köməkçi nitq hissəsi yoxdur. Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, dünyada müəyyənlik və qeyri-müəyyənlik artiklı olmayan, yəni müəyyənlik və qeyri-müəyyənliyin qrammatik kateqoriya kimi mövcud olmadığı 198-dən çox dil vardır. Müəyyənlik və qeyri-müəyyənliyin qrammatik kateqoriya kimi mövcud olmadığı dillərə misal olaraq slavyan, türk dillərini göstərmək olar.

Müxtəlif dövrlərdə müəyyənlik və qeyri-müəyyənlik kateqoriyası rus dilçiliyində A. Meye, L.P. Yakubinskiy, İ.İ. Revzin, S.A. Krılov, Y.V. Paduçeva, habelə V.V. Qureviç, N.F. İrtenyeva və b. tərəfindən tədqiq edilmişdir [16].

Türkologiyada bu kateqoriyanın mövcudluğunu araşdıran ilk dilçi İbn Mühənna (XIII-XIV) hesab olunur. İbn Mühənna bəzi xüsusiyyətləri nəzərə almadığı üçün belə qənaətə gəlmişdir ki, türk dillərində cins kateqoriyası ilə yanaşı müəyyənlik və qeyri-müəyyənlik kateqoriyası da yoxdur. Daha sonralar türk dillərində definitlik problemini daha geniş şəkildə tədqiq edən dilçi Professor B.Çobanzadə olmuşdur. Görkəmli dilçi İbn Mühənnanın fikri ilə razılaşmayaraq

demişdir: *"Buna yalnız təəccüb etmək olar ki, türk dilinin belə mahir bilicisi İbn Mühənna, necə olmuşdur ki, türk dilində eyni qrammatik xüsusiyyətin mövcud olduğunu görməmişdir; halbuki, demək olar ki, bütün sonrakı tədqiqatçılar tərəfindən türk sistemli dillərdə bu kateqoriyanın mövcudluğu qeyd edilmişdir".* B.Çobanzadənin fikrincə, türk dilləri bu baxımdan definitlik kateqoriyasının güclü inkişaf etdiyi hind-Avropa və sami dilləri ilə bu kateqoriyanın çox zəif inkişaf etdiyi İran və bəzi fin dilləri arasında yerləşir [9, s. 5].

B.Çobanzadədən sonra, türkologiyada müəyyənlik və qeyri-müəyyənlik kateqoriyasını araşdıran dilçilərdən biri də S.S.Mayzel olmuşdur. S.S. Mayzel apardığı tədqiqatlar nəticəsində belə qənaətə gəlmişdir ki, müəyyənlik və qeyri-müəyyənlik kateqoriyası türk dillərində bütöv bir sistem təşkil etməklə bərabər, ayrı-ayrı kateqoriyalarla da sıx əlaqəlidir [6, s.17].

Azərbaycan dilində müəyyənlik və qeyri-müəyyənlik kateqoriyası haqqında bir çox dilçilər tərəfindən araşdırılmalar aparılsa da, bu kateqoriya haqqında ilk monoqrafiyanı Ağamalı Həsənov yazmışdır. A.Həsənov müəyyənlik və qeyri-müəyyənlik kateqoriyalarından bəhs edərək yazır: *"Müəyyən əşyalar diskurs iştirakçılarının şüurunda "identik", qeyri-müəyyən əşyalar isə "adekvat" olan əşyalardır. Burada identik dedikdə, başqa eyniadlı əşyalarla əvəz edilməyən əşya başa düşüldüyü halda, adekvat əşyalar adı altında eynicinsli əşyalardan konkret birinə deyil, hamısına aid olan əşyalar nəzərdə tutulur" [*2, s. 5].

E.İ. Hacıyev "İngilis dilində qeyri-müəyyənlik artikli və müasir Azərbaycan dilində "bir" sözü" adlı məqaləsində qeyd edir: "*Qeyd etmək lazımdır ki, "müəyyən artikl" və "qeyri-müəyyən artikl" terminləri işlədən digər müəlliflərdən fərqli olaraq, O.İ. Musayev ingilis dili üçün "müəyyənlik" və "qeyri-müəyyənlik" artiklləri terminləri tətbiq edir* [6, səh. 201]. *Bizcə, əvvəlki terminlər artiklın mahiyyətini tam ifadə etmir. Doğrudan da, artikl bir qrammatik kateqoriya kimi qeyri-müəyyən ola bilməz, çünki artiklın başlıca funksiyası ismə xas olan müəyyənlik və qeyri-müəyyənlik kateqoriyasını ifadə etməkdir"* [1, s.122].

Müəllif daha sonra qeyd edir: "Müəyyənlik və qeyri-müəyyənlik mənaları dedikdə, mətndə adı çəkilən əşya haqqında məlumatın yeniliyi və köhnəliyi nəzərdə tutulur. Həmin mənalar hər bir dilin öz qrammatik quruluşuna xas olan vasitələrlə ifadə olunur. Bu təbii haldır, çünki müəyyənlik və qeyri-müəyyənlik ümumbəşəri məntiqi kateqoriya olduğundan o, hər bir dildə bu və ya digər şəkildə öz əksini tapmalıdır. Yuxarıda qeyd etdiyimiz kimi, Hind-Avropa dillərində müəyyənlik və qeyri-müəyyənliyin qrammatik ifadə vasitəsi artikldir. Bəzi dilçilər artikli dilin qrammatik quruluşu nöqteyi-nəzərindən, digərləri məntiqi müəyyənlik və qeyri-müəyyənliyin ifadə vasitəsi kimi, digərləri isə ümumi dilçilik planında, yəni dil və nitqin qarşılaşdırılması baxımından öyrənirlər" [1, s.122].

N.V.Butılovun fikrincə, *"Müəyyənlik-qeyri-müəyyənlik kateqoriyası obyektin reallığa münasibətinin ifadə olunduğu kateqoriyadır: müəyyənlik o deməkdir ki, biz*

konkret obyekt, qeyri-müəyyənlik isə naməlum obyekt haqqında danışırıq" [4, s. 32].

A.A.Reformatski müəyyənlik və qeyri-müəyyənlik kateqoriyasına aşağıdakı tərifi vermişdir: "Artiklin korrelyativ formaları ilə çatdırılan qrammatik kateqoriya ənənəvi qrammatikada müəyyənlik-müəyyənlik kateqoriyası adını daşıyır" [7, s.128]. A.A.Reformatskinin fikrincə, artiklın əsas funksiyalarından biri müəyyənlik və qeyri-müəyyənlik kateqoriyasını ifadə etməkdən ibarətdir. Bu o dillərə aiddir ki, orada oppozisiya təşkil edən iki atrikl vardır: ingilis dilində *the / a/an;* alman dilində *der – ein, die – eine, das – ein* və s. Onun fikrincə, müəyyənlik bildirən artikl vasitəsilə ifadə edilən kateqoriya həmsöhbətlərə artıq məlum olanı və ya söhbət zamanı həmsöhbətlərin gözləri önündə olanları və ya xüsusi olaraq ayrı-ayrılıqda qeyd olunanları qrammatik cəhətdən ifadə edir; qeyri-müəyyənlik artiklı ilə ifadə olunan kateqoriya, əksinə, qrammatik olaraq göstərir ki, biz ümumiləşdirilmiş planda qəbul edilən və müəyyən bir söhbət zamanı gözümüzün önündə olmayan şeylərdən danışırıq. A.A.Reformatski nümunə olaraq iki cümləni göstərir: *Give me a newspaper, please! 'Mənə bir qəzet verin!' və Give me the newspaper, please! 'Qəzeti mənə verin!'* Birinci cümlədə danışan dinləyəndən istənilən (qeyri-müəyyən) bir qəzet istədiyi halda, ikinci cümlədə müəyyən, konkret bir qəzeti istəyir. Beləliklə, müəyyənlik bildirən artiklın istifadəsi haqqında danışılan obyektin həmin situasiyada müəyyən edilməsinə imkan yaradır.

Müasir ingilis dilində neçə artiklın olması da sual doğuran məsələlərdən biridir. Ənənəvi olaraq, müasir ingilis dilində iki bir - birinə oppozisiya təşkil edən müəyyənlik və qeyri-müəyyənlik artiklının olması hesab edilir. Lakin bəzi dilçilər belə hesab edirlər ki, ingilis dilində artiklın işlənməməsi, yəni sıfır artikl özü də artiklın bir növü hesab edilməlidir. Bu zaman dilçilər sıfır morfemə əsaslanaraq belə bir fikri irəli sürürlər. Lakin qeyd etmək lazımdır ki, sayılan və cəm formada olan isim artiklsız işlənərkən qeyri-müəyyənlik bildirir.

Dünya dillərində ümumilikdə müəyyənlik- qeyri-müəyyənlik kateqoriyasının aşağıdakı ifadə vasitələri qeyd edilmişdir:

1. Leksik ifadə vasitələri – a) artikllar; b) yarımartikllar; ç) əvəzliklər; c) əşyanın və ya obyektin müəyyənliyini göstərən leksik-semantik vasitələr.
2. Morfoloji ifadə vasitələri – a) yiyəlik əvəzlikləri; b) sifətlərin xüsusi formaları; ç) xüsusi sintaktik konstruksiyalar.

S.D.Katznelson müəyyənlik və qeyri-müəyyənlik kateqoriyasından bəhs edərkən qeyd edir ki, qeyri-müəyyənlik mətn və ya situsiyada predmet və ya obyektin ilk dəfə adının çəkilməsi, müəyyənlik kateqoriyası isə əvvələr adı çəkilən predmet və ya obyektlərin identifikasiya edilməsi, yəni müəyyənləşdirilməsidir [15, s. 17].

M.V.Roqovaya görə, müəyyənlik–qeyri-müəyyənlik kateqoriyası müntəzəm formal göstəriciləri olmayan, lakin müxtəlif dil səviyyələrində özünü göstərən gizli

semantik bir kateqoriyadır: bura leksik (əvəzliklərdən, leksik təkrarlardan və əvəzedi-cilərdən istifadə etməklə və s.) və sintaktik vasitələr daxildir [8, s.47].

Artiklsız dillərdə müəyyənlik-qeyri-müəyyənlik aşağıdakı vasitələrlə ifadə edilir:

1) Söz sırası. Məsələn,

a) Он отдал дочке подарок. 'O, qızına hədiyyə verdi'.

b) Он отдал подарок дочке. 'O, hədiyyəni qızına verdi.

Rus dilində son pozisiya, yəni obyektin və ya predmetin adının cümlənin sonunda qeyd edilməsi qeyri-müəyyənlik, ortasında qeyd edilməsi isə müəyyənlik ifadə edir. Eyni cümləni Azərbaycan dilində desək: a) O, qızına hədiyyə verdi. b) O, hədiyyəni qızına verdi, görərik ki, birinci cümlədə qeyri-müəyyənlik, ikinci cümlədə isə müəyyənlik ifadə edilmişdir.

2) İşarə və qeyri-müəyyənlik bildirən əvəzliklərin işlənməsi, məsələn:

Еще тарелочку! "Bir boşqab da!" (qeyri-müəyyənlik); *Только старуха ничего не знала.* "Yalnız qoca qadın heç nə bilmirdi".

3) Vurğu vasitəsilə. Məsələn: *Вот /книга* (müəyyənlik) - /*Вот книга* (qeyri-müəyyənlik):

4) Kontekstin köməyi ilə: Məsələn,

Студентка купила книгу. "Tələbə qız kitab aldı" // *Книгу купила студентка.* "Kitabı tələbə aldı".

Студентка (Tələbə qız) sözü introduktiv olaraq, yəni kontekstin əvvəlində işləndikdə qeyri-müəyyənlik, kontekstin sonunda işləndikdə isə müəyyənlik bildirir.

Dünya dillərində müəyyənlik və qeyri-müəyyənlik kateqoriyasının işlənməsindən bəhs edərkən C. Layonz onları belə şərh edir: "Bəzi dillərdə cinslərdən müəyyənlik vasitəsi kimi istifadə olunur, digərlərində isə bu hal müşahidə olunmur. Bütün bu fərqlərə baxmayaraq, müxtəlif dillərdə müəyyənliklə birbaşa əlaqəli olan qrammmatik definitliyin istifadəsi eyni əhəmiyyətə malikdir"[11, s. 277].

Qrammatik kateqoriya hesab olunan definitlik semantik kateqoriya olan müəyyənləşmə ilə eyni funksiyanı bölüşür. Odur ki, bunlardan hər ikisi referentin diskurs iştirakçılarına məlum və əvvəlcədən adı çəkilmiş olduğunu müəyyənləşdirir.

C. Layonz qeyd edir ki, müəyyənləşmə qrammatikada özünü definitlik şəklində göstərir (habelə, cins kateqoriyası kimi müəyyənləşməni bildirən bəzi ifadə vasitələri də vardır ki, onlar verilmiş dildə definitlik kimi hesab olunmur). Definitlik nitqi qəbul edən şəxsə diskursun necə qurulduğunu, vahidlərin onun tərkibinə necə daxil olduğunu bilməyə kömək edən bir sıra kateqoriyalardan biri olduğuna görə kommunikasiya üçün o qədər də böyük əhəmiyyət daşımır [11, s. 278]. C.Layonz qrammatik definitlik mövcudluğuna əsasən dillərin aşağıdakı təsnifatını aparmışdır:

1. Müəyyənlik və qeyri-müəyyinliyin qrammatik kateqoriya kimi mövcud olmadığı dillər;

2. Müəyyənliyin və qeyri-müəyyənliyin yalnız əvəzlik ilə ifadə olunmuş ismi birləşmələrdə özünü göstərdiyi dillər;
3. Müəyyənliyin və qeyri-müəyyənliyin yalnız əvəzlik ilə ifadə olunmuş ismi birləşmələrdə deyil, bütün ismi birləşmələrdə özünü göstərdiyi dillər;

C.Layonza görə, ikinci qrup təsnifata aid olan dillərdə bu kateqoriya qəribə görünsə də, struktur baxımından əvəzliklərin tam ismi birləşmələrdən tamamilə fərqləndirilməsi qeyri-adi hal hesab olunmur. Hal dəyişmələri və definitliyin təsirləri baxımından definitliyin sintaksisdə oynadığı rol tez-tez dilçilər arasında aparılan müzakirələrin əsas mövzusuna çevrilmişdir. Müzakirələr boyunca müəyyənliyin bir sintaktik vahid yoxsa müəyyənliyin müstəqil sintaktik reprezentasiyası olması öz cavabını tapmamışdır.

Müasir ingilis dilində müəyyənlik və qeyri-müəyyənlik, əsasən morfoloji yolla, yəni artikl vasitəsilə ifadə edilir. Bundan başqa o, işarə, qeyri-müəyyənlik, yiyəlik əvəzlikləri ilə də ifadə edilir. Məsələn, *Somebody wants to see you*. 'Bir nəfər səni görmək istəyir' cümləsindəki *somebody* qeyri-müəyyənlik əvəzliyi qeyri-müəyyənliyi bildirdiyi halda, *The boy wants to see you* 'Oğlan səni görmək istəyir' cümləsindəki *the* artiklı isə müəyyənliyi bildirir.

R.Kverk müxtəlif qrammatik xarakteristikalara malik isimlərlə işlənən müəyyənlik və qeyri-müəyyənlik bildirən sözlərin 6 sinfini müəyyənləşdirmişdir. 1) Birinci sinfə həm sayılan, həm də sayılmayan isimlərlə tək və cəmdə işlənən determinantlar aiddir: müəyyənlik artiklı *the*, sual əvəzlikləri -*whose, which (ever), what (ever),* qey-ri-müəyyənlik bildirən əvəzliklər - *some, any,* inkar əvəzliyi – *no*, həmçinin yiyəlik əvəzlikləri - *my, your, his, her, its, our, their.*
2) Sıfır artikl, intonasiya ilə seçilməyən əvəzliklər- *some, any, no,* habelə ismin tək formasında işlənməyən *enough* sözü.
3) *This, that* – tək formada işlənən isimlərin qarşısında işlənir;
4) *These, those* – yalnız cəm formada işlənən isimlərin qarşısında işlənir.
5) *A / An* qeyri-müəyyənlik bildirən artikl, *each, every, either, neither* əvəzlikləri – yalnız sayılan və təkdə olan isimlərin qarşısında işlənir.
6) *much* qeyri-müəyyənlik əvəzliyi sayılmayan isimlərin qarşısında işlənir [13, s. 145].

C. Layonzun fikrincə, bəzi dillərdə olan sözlər heç bir determinativ iştirakı olmadan da çıxış edə bilər. O, bildirir ki, ingilis dili bu tipli dillərə aid deyildir. Misal olaraq*, man* 'kişi' və *tree* 'ağac' sözlərinin determinativ (*the, that*) və təyinedici *(one*) olmadan heç bir istinad xüsusiyyəti daşıya bilmir.

G.K.Pullum və R.Huddleston determinativlər adlı bir söz qrupunun mövcudluğundan söz açmışlar və "*the*" və *"a*" artiklarının bu söz qrupunun ən çox bilinən nümayəndələri olduğunu qeyd etmişlər. Determinativlər daxilində işləndikləri ismi birləşmənin müəyyən (*the* ilə işləndikdə) və ya qeyri-müəyyən *('a* 'ilə işləndikdə) olması haqqında məlumat verir. Qeyd olunur ki, müəyyənlik bildirən ismi birləşmə istifadə olunduğu halda, danışan dinləyicinin referent haqqında

məlumatlı olduğunu güman edir. Məsələn: *Where's the dog?* ‘İt haradadır?’ -bu cümlədə hansı itdən bəhs olunduğu dinləyiciyə məlum olduğundan müəyyənlik artikl “*the*” işlədilir. Başqa bir nümunə olan *I could hear a dog barking* ‘Mən itin hürməsini eşidə bildim’ cümləsində isə sözügedən haqqında dinləyici əvvəlcədən məlumatlı olmadığından qeyri-müəyyənlik artiklı *“a*” işlənmişdir.

G.Liç və J.Svartvik determinativlərin, ismi müəyyən və ya qeyri-müəyyən edərək və ya kəmiyyətini göstərərək müəyyənləşdirən sözlər olduğunu qeyd etmişlər. Onlar determinativlərin qrammatik rolunun daha anlaşıqlı olması üçün hansı determinativin hansı isimlə birgə işlənməsini nəzərdən keçirmək lazım gəldiyi qənaətinə gəlmişlər. Onlar determinativlərlə işlənə biləcək isimlərin 3 qrupunu müəyyənləşdirmişlər:

1) tək halda olan sayılan isimlər;
2) cəm halda olan sayılan isimlər;
3) sayıla bilməyən isimlər. Xüsusi isimlərin determinativ qəbul etmədiyi faktı qeyd olunmuşdur.

L.G.Aleksander qeyd etmişdir ki, isimlərin qarşısında işlənən bir sıra sözlər determinativ adlandırılır, çünki bu sözlər ismin mənasına təsir göstərir. Determinativlər işləndikləri zaman nədən bəhs olunduğunu və bəhs olunanın miqdarını aydınlaşdırır. Tək halda olan sayılan isimlər mütləq özündən əvvəl determinativ işlənməsini tələb edir.

L.G.Aleksander determinativlərin təsnifatını iki qrupda vermişdir:

1-ci qrupa daxil olan determinativlər, təsnif etmək və ya müəyyənləşdirmək rolu daşıyır. L.Aleksander bu qrupa müəyyənlik və qeyri-müəyyənlik artikllarını (*a/an*); işarə əvəzliklərini (*this/that*); yiyəlik əvəzliklərini (*my, your, his və b*.) daxil etmişdir:

- Qeyri-müəyyənlik artiklı: *My mother bought me a new shirt yesterday.* ‘Anam mənə dünən təzə köynək aldı’. Bu zaman *a new shirt* dedikdə, istənilən, hər hansı köynək nəzərdə tutulur.
- Müəyyənlik artiklı: *The shirt my mother bought me yesterday is warm*. ‘Anamın dünən mənə aldığı köynək istidir’. Bu cümlədə danışan *my mother bought me yesterday* təyin budaq cümləsi vasitəsilə məhz hansı köynəkdən danışdığını bildirir.
- İşarə əvəzlikləri : *My mother bought this shirt yesterday*. ‘Anam bu köynəyi dünən aldı’. Bu cümlədə *this* işarə əvəzliyi işləndiyindən müəyyənlik ifadə edilmişdir.
- Yiyəlik əvəzlikləri : *Do you like my shirt*? ‘Köynəyim xoşuna gəlir?’

Bu cümlədə *my* yiyəlik əvəzliyi köynəyin danışana məxsus olduğunu bildirdiyindən müəyyənlik ifadə edir.

2-ci qrupa daxil olan determinativlər miqdarın müəyyənləşdirilməsində rol oynayır. Bu qrupa saylar və kvantifayerlər (*many, much, a little, a few* və b.) daxil edilir.

- Saylar: *My mother bought me two new shirts yesterday*. ‘Anam dünən mənə iki yeni köynək aldı’. Bu cümlədə *two* miqdar sayı ismin qarşısında işlənərək onun miqdarını göstərir və müəyyənlik bildirir.

- Kvantifayerlər: *My mother didn't buy many new shirts yesterday*. ‘Anam dü-nən mənə çoxlu yeni köynək almadı’.
There wasn't much material in the shop. ‘Mağazada çox material yox idi’.
Many, much, a little, a few kvantifayerlər (kəmiyyət bildirən sözlər) əşyanın sayını dəqiq deyil, qeyri-müəyyən bildirdikləri üçün ismin qarşısında işlənərkən qeyri-müəyyənlik bildirirlər [10, s. 17].

A.J.Thompson və A.V.Martinet determinativlər haqqında geniş məlumat verməsələr belə, onları artikl, işarə əvəzlikləri, yiyəlik əvəzlikləri və bir neçə qeyri-müəyyənlik əvəzlikləri adı altında qeyd etmişlər [15, s. 34].

M.Swan determinativlərin təsnifatını iki qrupda vermişdir: Qrup A və Qrup B.

Birinci qrupa daxil olan determinativlərə artikllar (*a/an; the*); yiyəlik əvəzlikləri; işarə əvəzlikləri daxildir. Bu qrupa daxil olan iki determinativin birlikdə işlənməsinin mümkün olmadığı qeyd olunmuşdur. Həmçinin, yiyəlik hal göstəricisi olan “’s”-in determinativ kimi işlənə bildiyi qeyd olunur.

İkinci qrupa daxil olan determinativlərə “*some, any, no”; “each, every, neither, either”;“much, many, more, most”; “(a)little, (a)few, less, fewer, least, fewest”; “all, both, half”; what, whatever, which, whichever”; “enough, several”* daxildir [14].

Beləliklə, ingilis, rus və Azərbaycan dillərində müəyyənlik və qeyri-müəyyənlik kateqoriyasının tədqiqini nəzərdən keçirdikdən sonra bir daha aydın oldu ki, müxtəlif quruluşa malik olan bu üç dilin hər birində bu kateqoriya vardır. Onların arasında fərq, əsasən bu kateqoriyanın hansı vasitələrlə və necə ifadə edilməsindən ibarətdir. Belə ki, ingilis dilində müəyyənlik və qeyri-müəyyənlik artiklı olduğundan, bu kateqoriyanın ifadə vasitələri daha çoxdur. Rus və Azərbaycan dillərində isə bu, əsasən söz sırası, əvəzliklər, kvantifikatorlar, vurğu və s. vasitələrlə ifadə edilir.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Hacıyev E.İ, “İngilis dilində qeyri-müəyyənlik artikli və müasir Azərbaycan dilində “bir” sözü”, Dilin strukturası və onun müasir təhlil metodları, Bakı.: Azərbaycan Dövlət universiteti, 1985, 150 səh.
2. Həsənov A. Azərbaycan dilində müəyyənlik və qeyri-müəyyənlik kateqoriyası, Bakı, 1970. 75 s.
3. Hüseynov A.R. Müəyyənlik və qeyi müəyyənlik kateqoriyası haqqında Azərbaycan dili və ədəbiyyatı tədrisi,1982. N3, s. 50 -55
4. Бутылов Н.В. К проблеме выражения определенности и неопределен- ности в немецком, русском и мордовском языках // Лингвистические и экстралингвистические проблемы коммуникации: Межвуз.сб.науч.тр. Вып.7. Саранск, изд-во морд.ун-та. - С. 32-34.
5. Кацнельсон С.Д. Типология языка и речевое мышление, Л.: Наука, 1972.
6. Майзель С.С. Изафет в турецком языке, М-Л, 1957. 123 с

7. Реформатский А.А. Введение в языковедение / Под ред. В.А. Виноградова. - М.: Аспект Пресс, 2000. - 536 с.
8. Рогова М.В. Значение определенности/неопределенности: некоторые средства выражения в русском// Русский язык за рубежом. Учебно-методический иллюстрированный журнал № 1, 1995. – С. 47-52
9. Чованзаде Б. Проблемы дефинитивности в тюркском языке. Труды Азербайджанского филиала АН СССР, XXXI, лингвистическая серия, Б., 1936. 342 с.
10. Alexander L.G., Longman English Grammar, Longman, 2002, 374 pp.
11. Lyons C. Definiteness. Cambridge: Cambridge University Press, 1999. 398 pp.
12. Pullum G., Huddleston R., The Cambridge Grammar of the English Language, Cambridge University Press, 2002, 1860 pp.
13. Quirk R., Greenbaun S., Leech G.W, Svartvik J. A Grammar of Contemporary English, Longman, 1972, 1120 pp.
14. Swan M. Grammar Practice Book, Oxford University Press, 363 pp.
15. Thomson A.J., Martinet A.V., A Practical English Grammar, Oxford University Press, 332 pp.
İnternet saytı
16. https://www.bibliofond.ru/view.aspx?id=520812

Əliyeva E.M.

MÜASİR DİLÇİLİKDƏ MÜƏYYƏNLİK VƏ QEYRİ-MÜƏYYƏNLİK KATEQORİYASI

Xülasə

Bu məqalənin əsas məqsədi müasir dilçilikdə müəyyənlik və qeyri-müəyyənlik kateqoriyasını öyrənməkdir. Məlumdur ki, müəyyənlik və qeyri-müəyyənlik kateqoriyası universal qrammatik kateqoriyadır və demək olar ki, bütün dünya dillərində istifadə olunur. Bu kateqoriya artikl ilə əlaqəli olduğundan artiklın mövcud olduğu dillərdə bu kateqoriya geniş şəkildə araşdırılmışdır. Artiklı olmayan dillərdə müəyyənlik və qeyri-müəyyənlik kateqoriyasının öyrənilməsi nisbətən yeni dövrə təsadüf edir.

Bu məqalədə müəyyənlik və qeyri-müəyyənlik kateqoriyası əsasən ingilis, rus və azərbaycan dillərindəki materiallar əsasında öyrənilmişdir. İngilis dilində müəyyənlik və qeyri-müəyyənlik kateqoriyası müəyyənlik və qeyri-müəyyənlik artiklları, eləcə də digər təyinedicilər, söz sırası, intonasiya və sintaktik konstruksiyalarla ifadə olunur. Bu məqalə ingilis dilində müəyyənlik və qeyri-müəyyənlik kateqoriyasını tədqiq etmiş dilçi alimlərin fikirlərinə istinad edir.

Artiklsız dillərdə müəyyənlik-qeyri-müəyyənlik aşağıdakı vasitələrlə ifadə olunur:

1) Söz sırası; 2) Müxtəlif əvəzliklər; 3) Vurğu vasitəsilə; 4) Kontekstin köməyi ilə;

Beləliklə, ümumilikdə dünya dillərində müəyyənlik-qeyri-müəyyənlik kateqoriyasının aşağıdakı ifadə vasitələri qeyd edilmişdir:

1. Leksik- a) məqalələr; b) əvəzliklər; c) obyektin və ya subyektin təyinini göstərən leksik-semantik vasitələr.
2. Morfoloji- a) yiyəlik əvəzlikləri; b) sifətlərin xüsusi formaları; d) xüsusi sintaktik konstruksiyalar.

Bu məqalədə müəyyənlik və qeyri-müəyyənlik kateqoriyasını tədqiq edərkən üç dil –Azərbaycan, ingilis və rus dillərinin materiallarından istifadə edilmişdir.

Aliyeva E.M.

The category of definiteness and indefiniteness in modern linguistics

Summary

The main purpose of this article is to study the category of definiteness and indefiniteness in modern linguistics. It is known that the category of definiteness and indefiniteness is a universal grammatical category and is used in almost all languages of the world. Since this category is related to the article, this category has been extensively researched in languages where the article exists. The study of the category of definiteness and indefiniteness in non-articled languages is relatively recent.

I n this article, the category of certainty and uncertainty is studied mainly on the basis of materials in English, Russian and Azerbaijani languages. In English, the category of definiteness and indefiniteness is expressed by definite and indefinite articles, as well as other determiners, word order, intonation, and syntactic constructions. This article cites the views of linguists who have studied the category of definiteness and indefiniteness in English.

In languages without articles, definiteness-indefiniteness is expressed by the following means:

1) Word order; 2) Various pronouns; 3) Through emphasis; 4) With the help of the context;

Thus, in general, the following means of expression of the category of definiteness-indefiniteness were noted in world languages:

1. Lexicon- a) articles; b) pronouns; c) lexical-semantic means indicating the definition of the object or subject.
2. Morphological- a) possessive pronouns; b) special forms of adjectives; d) special syntactic constructions.

In this article, while studying the category of definiteness and indefiniteness, materials from three languages - Azerbaijani, English, and Russian were used.

Алиева Э.М.

Категория определенности и неопределенности в современной лингвистике

Резюме

Основной целью данной статьи является изучение категории определенности и неопределенности в современном языкознании. Известно, что категория определенности и неопределенности является универсальной грамматической категорией и используется практически во всех языках мира. Поскольку эта категория связана с артиклем, эта категория была тщательно исследована на языках, в которых существует артикль. В языках, где нет артикля, изучение категории определенности и неопределенности началось позже.

В данной статье категории определенности и неопределенности исследуются преимущественно на основе материалов на английском, русском и азербайджанском языках. В английском языке категория определенности и неопределенности выражается артиклями определенности и неопределенности, а также другими определителями, порядком слов, интонацией и синтаксическими конструкциями. В данной статье приводятся взгляды лингвистов, изучавших категории определенности и неопределенности в английском языке.

В языках без артиклей определенность-неопределенность выражается следующими средствами:

1) порядок слов; 2) Различные местоимения; 3) Через ударение; 4) С помощью контекста;

Таким образом, в целом в мировых языках были отмечены следующие средства выражения категории определенности-неопределенности:

1. Лексические- а) артикли; б) местоимения; в) лексико-семантические средства, указывающие на определение объекта или субъекта.
2. Морфологические- а) притяжательные местоимения; б) специальные формы прилагательных; г) специальные синтаксические конструкции.

В данной статье при изучении категории определенности и неопределенности использовались материалы трех языков - азербайджанского, английского и русского.

Redaksiyaya daxil olma tarixi: 07.12.2022
Çapa qəbul olunma tarixi: 28.12.2022
Rəyçi: f.f.d. Ş. Ə. Əliyeva
tərəfindən çapa tövsiyə olunmuşdur

SEVİNC QƏMBƏROVA
Odlar Yurdu Universiteti
Filologiya üzrə fəlsəfə doktoru
sevinc.qemberova@mail.ru

AZƏRBAYCAN DİLİNİN QARABAĞ ŞİVƏ QRUPUNUN TƏDQİQİ VƏ SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

Xülasə

Məqalədə Azərbaycan dilinin Qarabağ şivə qrupunun tədqiq olunması tarixi izlənilmiş və bu qrupa daxil olan şivələrin bir çox səciyyəvi xüsusiyyətləri ümumi olaraq göstərilmişdir. Qarabağ şivə qrupu Azərbaycan dilinin qərb ləhcəsinə daxildir. Bu şivə qrupuna daxil olan şivələr hər zaman tədqiqatçıların diqqət mərkəzində olmuş və bir çoxu (Füzuli, Ağdam, Cəbrayıl və b.) monoqrafik və müqayisəli şəkildə tədqiqata cəlb olunsa belə, müəyyən şivələr (Xocalı, Xankəndi, Kəlbəcər, Şuşa və b.) hərtərəfli olaraq araşdırılmasını gözləməkdədir. 2019-cu ildə Məhərrəm Məmmədlinin dövrün müasir tələblərinə cavab verən və bu sahədə olan bütün son yenilikləri özündə əks etdirən "Azərbaycan dialektologiyası" kitabı işıq üzü görmüşdür. Müəllif Azərbaycan sərhədləri xaricində Qarabağ dialekti barədə aparılan tədqiqat işləri haqqında bəhs edərkən Qarabağ dialektinin həmişə alimlərin diqqət mərkəzində olduğunu göstərmişdir. Belə ki, Qarabağ şivə qrupu barədə nəinki ölkəmizdə, eləcə də xaricdə bu gün də öz dəyərini qoruyub saxlayan (Ceyhun Hacıbəyli, Fransada; Sürəyya Talıbxanbəyli və Erdal Karaman, Türkiyədə və s.) sanballı təqdiqat işləri aparılmışdır.

Qarabağ şivə qrupunun bir sıra özünəməxsus fonetik, leksik və qrammatik xüsusiyyətləri vardır. Bu qrupa daxil olan şivələrin fonetik yarusunda qalınlaşma, v>y, c>j, b>v, b>f və s. səs keçidləri, fonetik hadisələrin (səsuyuşması, səsfərqləşməsi, səsartımı, səsdüşümü və s.) geniş şəkildə yayılması, velyar ŋ səsinin işlənməsi və s. kimi xüsusiyyətlər özünü göstərir. Şivələrin leksik tərkibi də olduqca rəngarəngdir. Qarabağ şivə qrupunun özünəxas fonetik xüsusiyyətləri ilə yanaşı, zəngin, xarakterik leksik tərkibi də vardır. Biz burada qarabağlıların məişəti, məşğuliyyəti, adətləri və s. bağlı olan bir çox ad, əlamət və keyfiyyət, hərəkət adları bildirən dialektizmlərə rast: adax-adax "addım-addım"(Ağdam), adax-çiçə "uşağın ilk addımları"(Füzuli), adar-madar "yeganə, tək, bircə" (Cəbrayıl), baxyalamax "xırda və seyrək tikişlə tikmək"(Ağdam, Şuşa), həllav "yuxarı"(Ağdam), urvatdı "hörmətli" (Laçın, Şuşa) və s.

Qarabağ şivə qrupuna aid olan şivələrin qrammatik yarusunda da bir çox səciyyəvi cəhətlər (morfoloji və sintaktik səviyyələrdə olan şivə xüsusiyyətləri) özünü göstərməkdədir. Bir çox hallarda cümlələrdə söz sırasının pozulması halları müşahidə olunur. Qarabağ şivə qrupunda halların bir-birinin mövqeyində işlədilməsi

məqamları izlənilir. Qarabağlılardan toplanılmış mətnləri tədqiq edərkən yiyəlik halın təsirlik hal mövqeyində çıxış etməsi hallarının şahidi oluruq. Qəti gələcək zamanın ifadəsi Azərbaycan dilinin şivələrində müxtəlif formalarda təzahür edir. Məmmədağa Şirəliyev göstərmişdir ki, -acax, -acağ, -əcək, -əcəx' şəkilçiləri dialekt və şivələrimizin əksər qismini əhatə edirsə, -ajax, -əjəx' şəkilçiləri ancaq bir sıra dialekt və şivələri (Qaz., Qar., A., G., ayrım və s.) əhatə edir. Ədəbi dildən fərqli olaraq, Qarabağ şivə qrupuna daxil olan şivələrdə qəti gələcək zaman şəkilçisinin ikinci hecası qapalı saitlərlə işlənən variantına da rast gəlinir.

Açar Sözlər: Qarabağ şivə qrupu, araşdırma, səciyyəvi xüsusiyyətlər, səs keçidi, dialektizm

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2013-cü il 9 aprel tarixli 2837 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın icrasına dair Tədbirlər Planınına mütəmadi olaraq "Azərbaycan dilinin müxtəlif dialekt və şivələrinin müasir dövrün tələblərinə uyğun olaraq öyrənilməsinin təmin edilməsi" bəndi daxil edilmişdir (12). Azərbaycan dilçiliyində dialektologiya sahəsi XX əsrin əvvələrindən başlayaraq inkişaf etməyə, elmə sanballı tədqiqat əsərləri bəxş etməyə başlamışdır. Türkdilli xalqların içərisində dialektoloji atlasların tərtibi və nəşri də ilk dəfə olaraq Azərbaycan dialektologiyasında həyata keçirilmişdir. Azərbaycan dili şivələrinin sinxron və diaxron yolla öyrənilməsinə olan ehtiyac bu gün də öz aktuallığını saxlamaqdadır.

Elbrus Əzizov 1999-cu ildə nəşr olunan "Azərbaycan dilinin tarixi dialektologiyası. Dialekt sisteminin təşəkkülü və inkişafı" adlı araşdırmasında Azərbaycan dili dialektlərinin təsnifi məsələsinə yenidən qayıdaraq şivələri üç böyük qrupda birləşdirmişdir: cənub ləhcəsi, qərb ləhcəsi (orta ləhcə), şimal-şərq ləhcəsi. Müəllif hər ləhcədə müəyyən şivələr qrupu ayırmışdır ki, həmin bölgüyə görə Qarabağ şivə qrupu qərb ləhcəsinə aid edilir (2, s.289). Özündən əvvəlki təsnifdə olan boşluqlar burada nəzərə alınmış və dilimizin dialekt sistemində kənarda qalmış olan bir çox şivələrin yeri dəqiqliyi ilə müəyyənləşdirilmişdir (İrəvan şivəsindən başqa Qərbi Azərbaycanda olan digər şivələr: Zəngəzur, Dərələyəz, Loru, Pəmbək və s.; Təbriz şivəsindən başqa Cənubi Azərbaycanda olan digər şivələr: Zəncan, Xoy, Urmiyə və s.).

2019-cu ildə Məhərrəm Məmmədlinin dövrün müasir tələblərinə cavab verən və bu sahədə olan bütün son yenilikləri özündə əks etdirən "Azərbaycan dialektologiyası" kitabı işıq üzü görmüşdür. Müəllif Azərbaycan sərhədləri xaricində Qarabağ dialekti barədə aparılan tədqiqat işləri haqqında bəhs edərkən göstərmişdir: "Qarabağ dialekti həmişə alimlərin diqqət mərkəzində olmuşdur. Ceyhun Hacıbəylinin "Qarabağ dialekti və folkloru (Qafqaz Azərbaycanı)" əsəri 1933-cü ildə Fransada çap olunmuşdur. Sürəyya Talıbxanbəyli Türkiyədə "Azərbaycan yurd bilgisi" məcmuəsində

1933-cü ildə nəşr olunmuş silsilə məqalələrində Qarabağ və İstanbul şivələrinin fonetik xüsusiyyətlərini müqayisəyə cəlb etmişdir (5, s.29).

2005-ci ildə Türkiyə Cümhuriyyəti Mərmərə Universitetinin doktorantı Erdal Karaman prof.dr.Emine Gürsoy-Naskalinin elmi rəhbərlyi altında "Karabağ ağızları (Qarabağ şivələri)" mövzusunda dissertasiya işi üzərində öz tədqiqatlarını aparmışdır. Daha sonra həmin araşdırma monoqrafiya kimi də işıq üzü görmüşdür. Tədqiqat işində Qarabağ sözünün etimoloji təhlili, ərazisinin coğrafi mövqeyi, əhalisi, siyasi tarixi və s.barədə də əhatəli məlumat verilmişdir. Tədqiqat işinin sonunda müəllifin bu şivəyə aid topladığı çoxsaylı mətnlər də öz əksini tapmışdır.Araşdırma, əsasən, Azərbaycan dilinin Qarabağ şivəsinin səciyyəvi fonetik xüsusiyyətlərinə həsr olunmuşdur (11, s.76-142):

o>u səsdəyişməsi. Qarabağ şivə qrupunda bu səs keçidinə sözün ilk və son hecalarında rast gəlinir. Belə ki, bəzi dialektizmlərin tələffüzü zamanı o səsinin yerini özü kimi qalın, dodaqlanan u səsi tutur. Qeyd edək ki, bu səs hadisəsi, əsasən, Azərbaycan dilinin şimal-şərq ləhcəsinə aid olan Quba şivəsi üçün səciyyəvidir. Məs.: zoğal<zuğal, telefonu< telfunu, corablar < curaflar və s.

v>y səsdəyişməsi. Bu səs keçidinə həm alınma, həm də türk mənşəli sözlərdə rast gəlinir. Ədəbi dildə bəzi sözlərdə v səsinin istifadə olunduğu mövqedə Qarabağ şivə qrupunda y səsi işlədilir. Məs.: dovğanı>doyğanı, övladdı>öyladdı, dövlətdi>döylətdi və s.

c>j səsdəyişməsi. Bu səs əvəzlənməsi Qarabağ şivə qrupunda həm söz köklərində, həm də şəkilçilərin tərkibində geniş şəkildə yayılmışdır. Məs.: olacaq>olajax, qıracaqlar>qırajaxlar, qoca>qoja, tapmaca>tapbaja, balaca>balaja, bucağı>bujağı və s.

b>v səsdəyişməsi. Qarabağ şivə qrupunda ən çox söz ortasında baş verən geniş yayılmış səs hadisələrindəndir.Məs.: çoban>çovan, çubuq>çuvux, xəbər>xavar, araba>arava, babam>bavam, qabağına>qavağına və s.

Qarabağ şivə qrupunda bir çox fonetik hadisələr yayılmışdır. Səs uyuşması (assimilyasiya) hadisəsi geniş şəkildə müşahidə olunur:

-rl>-rr səsuyuşması. Qarabağ şivə qrupunda geniş şəkildə yayılmış fonetik hadisələrdəndir. Belə ki, r səsi özündən sonra gələn l səsini öz məxrəcinə uyğunlaşdırır. Məs.: hərlənib>hərrənif, əsgərlərə>əsgərrərə, kədərli>kədərri, fırlanırdı>fırranırdı və s.

-pm>-pb səsuyuşması. Qarabağ şivə qrupunda p səsindən sonra gələn m səsi özü kimi cingiltili b səsi ilə əvəzlənir. Məs.: tapmaca<tapbaja, yapmaca<yapmaja, tapbadı<tapmadı, öpməmişdi< öpbəmişdi və s.

Səslərin yerdəyişməsi (metateza) fonetik hadisəsi də bu şivələrdə geniş şəkildə izlənilir. Bu hadisə, əsasən, r səsinin bir çox sözlərdə v, f, h samitləri ilə yerdəyişməsi nəticəsində baş verir:

r>v yerdəyişməsi. Məs.: kirvə<kivrə və s.

f>r yerdəyişməsi. Məs.: süfrə<surfa və s.

r>h yerdəyişməsi. Məs.: sərhəd< səhrəd və s.

Səsdüşümü (eliziya) fonetik hadisəsinə Qarabağ şivə qrupuna daxil olan şivələrdə tez-tez rast gəlinir. Sözlərdə samit səslərin düşümünün baş verməsi sait səslərin uzanmasını əmələ gətirir. Bu hadisə ən çox söz ortasında, bəzi hallarda isə söz sonunda özünü göstərir:

V səsdüşümü. Bu halın baş verməsinə həm söz ortasında, həm də söz sonunda rast gəlinir. Məs.: dövlətin<dö:lətin, övladt<ö:lat, pilov<pilo: və s.

Y səsdüşümü. Bu hadisənin baş verməsi nəticəsində Azərbaycan dilinin qərb ləhcəsində istifadə olunan bir qrup sözlərin ədəbi dildən fərqli olaraq ı səsi ilə başlamasının şahidi oluruq (ıldırım, ılxı, ılıx və s.). Belə ki, protürkcədə bu sözlərin əvvəlində y samiti olmuş, sonrakı dövrlərdə baş verən səsdüşüşmü nəticəsində bu səsin artıq müəyyən sözlərin əvvəlində işləkliyini itirdiyini görürük. Qədim türk yazılı abidələrinin dilində (VIII əsr, ən qədim türk dövrü) bu cür vahidlərin y samiti ilə başlayaraq (yılan, yılkı və s.) ahəng qanununa uyğun şəkildə işlənməsini izləyirik (7, s.361). Artıq Kaşğarinin lüğətində (XI əsr, qədim türk dövrü) y səsdüşümü ilə bağlı qeydlərə rast gəlirik: "Digər türklər yolçuya "yəlkin", oğuz və qıpçaqlar isə "əlkin" deyirlər. Onlar ılıq suya "yılığ suw", bunlar "ılığ suw" deyirlər (3, s.105).

Y səsdüşümü hadisəsinə hazırda Qarabağ qrupuna daxil olan şivələrdə söz ortasında və söz sonunda rast gəlirik. Bu hadisənin baş verməsi ilə həm milli, həm də alınma sözlərdə sait səslərin uzanması yaranır. Məs.: göy<gö:, qoydum<qo:dum, böyrək<bö:rəx, meyvə<me:və və s. Maraqlıdır ki, qərb şivələrində Azərbaycan ədəbi dilindən fərqli olaraq protürkcədəki və digər türk dillərində işlədilən (Türkiyə türkçəsi, qaqauz dili və s.) formasına uyğun olaraq söz əvvəlində y səsartımı hadisəsi izlənilir. Əzizxan Tanrıverdi göstərmişdir ki, «ulduz» sözü qərb ləhcəsində həm «Kitabi-Dədə Qorqud»a qədərki (yıldız), həm də «Kitabi-Dədə Qorqud»dakı formasına (ıldız) uyğun işlənməkdədir (9, s.164).

Qarabağ şivə qrupunda sözlərin əvvəlinə i və u səslərinin artırılmasının da olduqca yayılmış hadisə olduğunu müşahidə edirik. Bu hal ən çox s və r səsi ilə başlayan alınma kəlimələrdə izlənilir. Məs.: stol<isdol, rayon<irayon, stansiyalarını<istansiyalarını, stəkan<istəkan, rəvan<irəvan razıyam<irazıyam, ruslarla<urusdarnan, rəngi<irəngi, və s.

Qarabağ şivə qrupunun özünəxas fonetik xüsusiyyətləri ilə yanaşı, zəngin, xarakterik leksik tərkibi də vardır. Biz burada qarabağlıların məişəti, məşğuliyyəti, adətləri və s. bağlı olan bir çox ad, əlamət və keyfiyyət, hərəkət adları bildirən dialektizmlərə rast gəlirik:

Adax-adax (Ağdam)-addım-addım, yavaş-yavaş. Məs.: -Ay irəhmətdiyin oğlu, birəz yeyin tərpənsənə, adax-adax havağa gedif gələjəx'sən (1, s.12).

Adax-çiçə (Füzuli)-uşağın ilk addımları. Məs.: -Afi adax-çiçə açıf (1, s.12).

Adar-madar (Cəbrayıl)-yeganə, tək, bircə. Məs.: -Adar-madar bir qoyunum varıdı, öldü o da (1, s.12).

Alaçöhrə(Kəlbəcər)-gilas ağacına oxşar cır meyvəli ağac. Məs.: - Alaçöhrə odunnuxdu (1, s.18).

Aladağ (Qubadlı)- yarıyanıq (çörək və s.). Məs.: -Bu çörəyi niyə aladağ pişirirsən? (1, s.18).

Bayı (Cəbrayıl)-ana (1, s.44).

Baxyalamax (Ağdam, Şuşa)-xırda və seyrək tikişlə tikmək. Məs.: -Munu əlində tez baxyala ver ma: (1, s.36).

Bedahat (Cəbrayıl)-çətin, əlacsız. Məs.: - Bedahat dərdə düşəsiz sizi (1, s.45).

Bedana (Ağdam,Cəbrayıl,Füzuli,Şuşa)-1.iri tut ağacı (Cəbrayıl).Məs.:-Şirinnix də bedananın yerin heş nə verməz; 2.toxumsuz tut, üzüm (Ağdam, Füzuli, Şuşa) (1, s.45).

Boze (Kəlbəcər)-sıyıq xörək. Məs.:-Nənə, bir boze bişir (1, s.63).

Canaxlamax (Kəlbəcər)-çatlamaq, yarılmaq (qoza aiddir). Məs.:-Təzə vaxdı qozun üsdə gəzəl olur, soŋra o canaxlıyır, ağzı açılır (1, s.71).

Canarxalığı (Şuşa)-canlıq (1, s.71)..

Cojaxor (Ağdam)-davakar (1, s.80).

Çırt (Cəbrayıl)-bərk (tütün). Məs.: -Seydəli kişi çırt təmbəki becərir (1, s.100).

Çisəngi (Ağdam)-çisək, narın yağış. Məs.: -Bu çisəngi laf məni təngə:tirif (1, s.103).

Güzəmləndirməx (Kəlbəcər)-yununu çoxaltmaq, artırmaq (qoyuna aiddir). Məs.: -Yağışın qoyuna olduxca xeyri var, güzəmləndirir dayna, yunun artırır (1, s.191).

Həllav (Ağdam) –yuxarı. Məs.: -Həllavdan gəl (1, s.200).

Həjət (Cəbrayıl, Laçın)-1.alət; 2.balta. Məs.: - Həjət yaman itidi (1, s. 199).

Həni (Füzuli)-danışqan. Məs.: -Ay həni, ta bəsdi (1, s.201).

Həmgəl (Kəlbəcər, Laçın)-yaxın, yanaşı. Məs.: -Aşıxlar həmgəl oxuyullar (1, s.200).

Hulumçax (Cəbrayıl)-yellənçək. Məs.: -Vəli çinarda hulumçax asdı (1, s.212).

Xamro:uz (Şuşa)-xəmir mayası. Məs.: -O xamro:uzu ver maŋa, xamır qatıram (1, s.215).

Xaşalqardaş (Füzuli)-yemək dostu. Məs.: -Aydın mənnən xaşalqardaşdı (1, s.217).

Xəkirizdənməx' (Kəlbəcər)-yatmaq. Məs.: -Axşam olmamış xəkirizdənirsən (1, s.218).

Xəkrizdəməx' (Ağdam, Füzuli, Şuşa)-oğurlamaq. Məs.: -Qorxuram bunnarı bırda qoyam gedəm, gejə:lif xəkrizdiyələr (1, s.218).

İmqa (Füzuli)-dəstə. Məs.: -İmqa qayırıllar (1, s.233).

İrəlləri (Cəbrayıl, Füzuli)-əvvəllər, keçmişdə. Məs.: -İrəlləri bizdə belə ədət yoxudu (1, s.235).

Kunal (Ağdam, Cəbrayıl, Zəngilan)-tut ağacı zoğlarının yarpaqlarını baramaqurdu yedikdən sonra qalan ağac hissə. Məs.: -Qurd kunalda da barama sarıyıb (1, s.264).

Künətax (Cəbrayıl, Zəngilan)- baramaqurduna verilmək üçün qırılmış tut ağacı çubuğunun kəsilib atılan yarpaqsız hissəsi. Məs.: -Səlim bağdan bir şələ künətax yığdı (1, s.267).

Koraqıpıx: koraqıpıx eləməx' (Füzuli, Cəbrayıl)-gözüqıpıq eləmək. Məs.: -Qaynənəm gədəni koraqıpıx eliyif (1, s.258).

Kortum (Ağdam, Ağdərə, Kəlbəcər)-dəvədabanı. Məs.: - Kortumu at, bir də əlix' yaxşı ye:r (1, s. 259).

Kumpul (Cəbrayıl)-ağır çəkic, gürz. Məs.: -Kumpulnan daş sındırıllar (1, s.264).

Qabalaxlamax (Füzuli)-cücərmək. Məs.: -Toxum qabalaxlıyır, onnan so:ra yığılır qola, bir qarış qol sürür çiçəx'liyir (1, s.272).

Qafçardağı (Cəbrayıl)-qab-qacaq qoyulan yer. Məs.: -Mən taxtadan bir qafçardağı bağlatmağ isdiyirəm (1, s.273).

Qıylı (Ağdam)-ətəyi qaytan ilə tikilmiş (paltar). Məs.: -Mənim köynəyim qıylıdı (1, s.304).

Qərəmət (Cəbrayıl)-bəxtiqara. Məs.: -Sən çox qərəmət adamsan, heş baxdın gətimir (1, s.293).

Urvatdı (Laçın, Şuşa)-hörmətli. Məs.: -Əli hamının yanında urvatdıdı (1, s. 520).

Usdulup (Cəbrayıl)-ehtiyatlı, yavaş. Məs.: -Usdulup tərpən, taxt xarabdı (1, s.520).

Ustufca (Ağdam, Şuşa)-ehtiyatla, yavaşca. Məs.: - Ustufca gedif qulağınnan tutajam, gör nə tə:r çığırajax (1, s.520).

Qarabağ şivə qrupuna aid olan şivələrin qrammatik yarusunda da bir çox səciyyəvi cəhətlər (morfoloji və sintaktik səviyyələrdə olan şivə xüsusiyyətləri) özünü göstərməkdədir. Bir çox hallarda cümlələrdə söz sırasının pozulması halları müşahidə olunur. Qarabağ şivə qrupuna aid səciyyəvi xüsusiyyətləri əks etdirən nümunələr Erdal Karamanın qarabağlılardan toplamış olduğu çoxsaylı mətnlərdən seçilmişdir. Məs.: -Təsadüf tuturdun mə:lumatları, mə:lumatları elə məraqlı deyildi. Ama fırlayanda dalğa tuturdu, uje görürdüx' bizim dile oxşuyur; -Biz hammız bu boyda yerdə məsgunnaşmışıx bir balaca yerdə; -Nəfəs getmədi, rəngim oldu sapsarı, yıxıldım qaldım düzdə (11, s.163, 174, 185).

Qarabağ şivə qrupunda halların bir-birinin mövqeyində işlədilməsi məqamları izlənilir. Qarabağlılardan toplanılmış mətnləri tədqiq edərkən yiyəlik halın təsirlik hal mövqeyində çıxış etməsi hallarının şahidi oluruq. Məhərrəm Məmmədli bu barədə yazmışdır, yiyəlik hal digər hallardan fərqli olaraq, isimlərlə ifadə olunur. Xüsusilə birləşmə daxilində təzahür etməsi digər halların mövqeyində çıxış etməsini məhdudlaşdırmışdır. Lakin şivələrdə az da olsa, yiyəlik halın digər halları əvəz etməsinə rast gəlinir (6, s.98). Məs.: -Bu Gasım belə baxır görür at aralaşır, aralaşanda ayağın direyir yerə; -Gətirir üç dənə küpün için doldurur; -Bu qış imiş, qışda ġazlar houzuñ ġırağında ayağın birin tügün içinə ġoyur; de:yir ki, ay molla bu ġazın qılçasın biri hanı (11, s.230).

Qəti gələcək zamanın ifadəsi Azərbaycan dilinin şivələrində müxtəlif formalarda təzahür edir. Məmmədağa Şirəliyev göstərmişdir ki, -acax, -acağ, -əcək, -əcəx' şəkilçiləri dialekt və şivələrimizin əksər qismini (B., Q., Ş., Mər., İsm., S., Şir., Sal., Nax., İr., O., Təb., Z., Qax) əhatə edirsə, -ajax, -əjəx' şəkilçiləri ancaq bir sıra dialekt və

şivələri (Qaz., Qar., A., G., ayrım və s.) əhatə edir. Bu iki şəkilçidən başqa dialekt və şivələrimizdə bunların bir sıra variantlarına da təsadüf edilir. Bu variantlar gələcək zamanın şəxslər üzrə təsnifində özünü göstərir (8, s .226). Məs.: -İndi biz harda ġalajeyıx, harda durajeyıx; -Dedim nə gədər ġazanaja:m, indi hərəniñ bir müşdərisi var, məni tanıyan yoxduku; -Bu dedi yox, mən ġorxuram çıxammiyaja:m. (11, s.171, s. 173 s.).

Ədəbi dildən fərqli olaraq, Qarabağ şivə qrupuna daxil olan şivələrdə qəti gələcək zaman şəkilçisinin ikinci hecası qapalı saitlərlə işlənən variantına da rast gəlinir. Məs.: -Ə, dedim öləjiyix' burda, ikimiz də ġalajıyıx burda, heş kimin xəbəri olmıyajax (11, s.187).

Nəticə

Azərbaycan dilinin qərb ləhcəsinə daxil olan Qarabağ şivə qrupunun bir çox özünəməxsus səciyyəvi fonetik, leksik və qrammatik xüsusiyyətləri vardır. Bu şivə qrupu hər zaman yerli və xarici tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Qarabağ şivə qrupu həm sinxron, həm diaxron şəkildə tədqiqata cəlb olunsa da, zamanın, elmin müasir tələblərindən çıxış edərək yenə əhatəli şəkildə araşdırılmasını gözləməkdədir. Çünki geniş və zəngin bir ərazini əhatə edən bu şivə qrupu bitib tükənməyən bir xəzinədir, öyrənildikcə yeni qatları, yeni inciləri kəşf olunub elmə qazandırıla bilinər. Hazırda bu mövzu xüsusi aktuallıq kəsb etməkdədir, çünki 30 illik həsrətdən sonra qarabağlılar ali baş komandanımız İlham Əliyevin uğurlu siyasəti nəticəsində müzəffər ordumuzun düşmən tapdağından azad elədiyi dədə-baba torpaqlarına qovuşmuşlar.

Ədəbiyyat

1. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı, 2007, “Şərq-Qərb”, 568 səh.
2. Əzizov, E.Azərbaycan dilinin tarixi dialektologiyası:Dialekt sisteminin təşəkkülü və inkişafı.Bakı, 2016, Bakı Universiteti nəşriyyatı, 354 səh.
3. Kaşğari, M.Divanü lüğat-it-türk. I cild.Bakı, 2006, “Ozan”, 512 səh. Tərcümə edən və nəşrə hazırlayan Ramiz Əskər
4. Qəmbərli, S. Azərbaycan dilinin qərb şivələri və türk dilinin Qars şivələrinin leksikası. Bakı, 2021, Elm və təhsil, 208 səh.
5. Məmmədli, M.Azərbaycan dialektologiyası. Bakı, 2019, “Zərdabi Nəşr” MMC, 352 səh.
6. Məmmədli, M.Azərbaycan dili şivələrində ismin qrammatik kateqoriyaları. Bakı, 2003, Elm.
7. Rəcəbov Ə., Məmmədov Y. Orxon-Yenisey abidələri. Bakı, 1993, Yazıçı, 400 səh.
8. Şirəliyev, M.Azərbaycan dialektologiyasının əsasları. Bakı, 2008, Şərq-Qərb, 416 səh.
9. Tanrıverdi, Ə. “Kitabi-Dədə Qorqud” un söz dünyası. Bakı, 2006, 471 səh.

10. Teymurlu, Z. Azərbaycan dilinin dialekt leksikası. Bakı: 2020, BMU nəşri, 122 səh.
11. Karaman E. Karabağ ağızları. Doktora tezi. İstanbul, 2005, 799 səh.
12. https://e-qanun.az/framework/25537

S. Gambarova

INVESTIGATION AND DISTINCTIVE FEATURES OF THE KARABAKH DIALECTAL GROUP OF AZERBAIJANI

Summary

In the article investigation history of the Karabakh dialectal group was followed and several distinctive features of the dialects belonging to this group were shown generally. The Karabakh dialectal group belongs to the western dialect of Azerbaijani. The dialects belonging to this dialectal group have always been scientists' center of attention and although a few dialects belonging to this dialectal group (Fuzuli, Agdam, Jabrayil) has been investigated in a monographic and comparative way, certain dialects (Khojaly, Kalbajar, Fuzuli, etc.) remain to be searched comprehensively. Meherrem Memmedli's book, ' The Azerbaijani dialectology', which fulfills modern requirements and reflects all the latest innovations in this field, was published in 2019. The author showed that the Karabakh dialect is at the center of scientists' attention at the time he mentions the investigations about the Karabakh dialect beyond the borders of Azerbaijan. Good-quality investigations about the Karabakh dialectal group (Jeyhun Hajibeyli, in France; Sureyya Talibkhanbeyli, Erdal Karaman, in Turkey, etc.) maintaining their value nowadays both in our country and abroad have been conducted.

The Karabakh dialect has several particular phonetic, lexical, and grammatical features. The expansion of thickening, sound transitions such as v>y, c>j, b>v, b>f, etc., phonetic events (harmony, sound differentiation, sound increase, sound drop), and the usage of velar n are observed in the phonetic tier of the dialects belonging to this group. The lexical content of the dialect is quite colorful, too. Besides the unique phonetic features, the Karabakh dialect has a rich, characteristic lexicon. We meet plenty of dialectisms expressing name, quality, and action related to welfare, activities, traditions, etc.: adax-adax (step by step) (Agdam), adax-çiçə (the first steps of a child) (Fuzuli), adar-madar (unique) (Jabrayil), baxyalamax (to sew with a tiny and sparse stitch) (Agdam, Shusha), həllav (above) (Agdam), urvatlı (respectable) (Lachin, Shusha), etc.

Several distinctive features (dialectal characteristics in the morphological and syntactic levels) appear in the grammatical tier of the dialects belonging to the Karabakh dialectal group. In many cases, the violation of word order is observed. The situations are seen, in that cases replace one another in the Karabakh dialectal

group. When we researched the texts collected from the Karabakh people, we witness, that the possessive case performs as the accusative case. The expression of definite future tense appears in various forms in the Azerbaijani dialects. Memmedagha Shiraliyev showed, that the suffixes -acax, -acağ, -əcək, -əcəx' comprise the majority of our dialects, and the suffixes -ajax, -əjəx' comprises only several dialects (Gaz., Kar., A., G., Ayrum, etc.). Unlike literary language, the variant of the definite future tense with closed vowels is also met in the dialects in the Karabakh dialectal group.

Key Words: the Karabakh dialect, investigation, distinctive feature, sound transition, dialectism

С. Гамбарова

ИССЛЕДОВАНИЕ И ХАРАКТЕРНЫЕ ОСОБЕННОСТИ КАРАБАХСКОЙ ГРУППЫ ДИАЛЕКТОВ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА

Резюме

В статье прослеживается история исследования карабахской диалектной группы азербайджанского языка и в целом показаны многие характерные черты диалектов, входящих в эту группу. Карабахская диалектная группа относится к западному диалекту азербайджанского языка. Диалекты, входящие в эту диалектную группу, всегда находились в центре внимания исследователей, и даже если многие из них (Физулинский, Фгдамский, Джебраильский и др.) изучены монографическим и сопоставительными методами, некоторые диалекты (Ходжалинский, Ханкендинский, Кельбаджарский, Шушинский и др.) в ожидании всестороннего расследования. В 2019 году вышла в свет книга Магеррама Мамедли «Азербайджанская диалектология», отвечающая современным требованиям времени и включающая в себя все последние нововведения в этой области. Когда автор говорил об исследовательской работе по карабахскому диалекту за пределами Азербайджана, он показал, что карабахский диалект всегда находится в центре внимания ученых. Так, карабахская диалектная группа хорошо изучена не только в нашей стране, но и за рубежом (Джейхун Гаджибейли во Франции, Сурейя Талыбханбейли и Эрдал Караман в Турции и др.) Группа карабахских диалектов имеет ряд уникальных фонетических, лексических и грамматических особенностей. В фонетическом слое диалектов, входящих в эту группу, проявляются некоторые характерные особенности: утолщения, v>y, c>j, b>v, b>f и т. д. звуковые переходы, широкое распространение фонетических явлений (смыв, голосовая дифференциация,

подъем, падение и др.), развитие велярного звука ŋ и др. Лексический состав диалектов также достаточно разнообразен. Помимо уникальных фонетических особенностей, карабахская диалектная группа имеет также богатый, характерный лексический состав. Здесь мы наблюдаем диалектизмы об образе жизни карабахцев, о роде их занятий, обычаях, имя прилагательные, глаголы и т.д.: адах-адах «шаг за шагом» (Агдам), адах-чиче «первые шаги ребёнка» (Физули), адар-мадар «единственный, самый только один» (Джабраил), бахяламах «шитье мелким и негустым стежком» (Агдам, Шуша), урватды «солидный» (Лачин, Шуша) и др.

На грамматическом уровне диалектов, входящих в карабахскую диалектную группу, проявляются многие характерные стороны (диалектные особенности на морфологическом и синтаксическом уровнях). Во многих случаях в предложениях наблюдаются нарушения порядка слов. В карабахской диалектной группе соблюдаются моменты употребления падежей в положении друг друга. При изучении текстов, собранных у карабахцев, мы наблюдаем случаи, когда притяжательный падеж выступает в качестве действенного падежа. Выражение определенного будущего времени проявляется в разных формах в диалектах азербайджанского языка. В отличие от литературного языка, в диалектах, входящих в карабахскую диалектную группу, также существует вариант суффикса определенного будущего времени, в котором второй слог употребляется с закрытыми гласными.

Ключевые слова: Карабахский диалект, исследование, характерные особенности, звуковой переход, диалектизм

Redaksiyaya daxil olma tarixi: 07.12.2022
Çapa qəbul olunma tarixi: 28.12.2022
Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru Nəzmiyyə Yigitoğlu
tərəfindən çapa tövsiyə olunmuşdur

MƏTANƏT HACIYEVA
Azərbaycan Dövlət Tibb Universitetinin Azərbaycan dili kafedrası
Filologiya üzrə fəlsəfə doktoru, dosent

LEKSİK SİNONİMLİK

Xülasə

Leksik sinonimlər cütlər eyni nitq hisssəsinə aid olur, sanışıq zamanı üslubi effekt və səlislik yaratmaq, lüzumsuz təkrarlara yol verməmək, fikrin daha təsirli, ifadəli və dəqiq ifadə etməki məqsədi daşıyırlar. Onlar nitqin təsir gücünü artırır, emosionallıq və ekspressivlik yaradırlar, incə məqamları ifadə etmək üçün geniş və rəngarəng üslubi imkanlara malikdirlər. Danışan fikir və hisslərini daha dəqiq ifadə etmək üçün sinonim cərgəyə məxsus lazımi sözü yerində elə işlədir ki, , nitqdə dəqiqliyi yaradır, ahəngdarlıq təmin edilir.

Leksik sinonimlərdən istifadə şifahi nitqə bir növ yaradıcı xarakter verir, hər kəs öz bacarığı, nitq tutumu və lüğət ehtiyatı səviyyəsində sinonimlər işlətməyə çalışır. Sinonimlər vasitəsilə yaranan rəngarənglik nitqi maraqlı edir, dinləyicilər belə danışıq tərzini rəğbətlə qarşılayırlar. Dilimizdə leksik sinonimlik olduqca zəngindir.

Sinonim cərgələri əmələ gətirən komponentlərin hər biri öz semantik dairəsinə görə digərlərindən fərqləndiyi üçün mənaca tam üst-üstə düşmür. Onların hər biri həmin cərgədəki əsas sözü müəyyən cəhətdən aydınlaşdırır, dəqiqləşdirir.

Nitqdə sinonimlərdən istifadə fikrin daha təsirli, emosional, dəqiq və incə məna çalarında dinləyiciyə çatdırılması, məzmundan asılı olaraq müəyyən məna koloriti (məsələn, komiklik, liriklik və s.) yaratmaq, nitqin etik normalarını gözləmək, dil vahidlərindən ictimai nəzakət qaydalarına uyğun istifadə etmək, kobud, qaba, eyibli sözlərin (vulqarizmlərin) işlənməsinə yol verməmək, eləcə də nitqdə lüzumsuz təkrarlardan qaçmaq məqsədi daşıyır

Sinonim vasitələrdən istifadə natiqlik sənətində xüsusi əhəmiyyət kəsb edir. Müşahidələr göstərir ki, kifayət qədər söz ehtiyatına malik olan, sözləri yerində işlətməyi bacaran şəxsin nitqi aydın, cazibədar və təsirli olur.

Açar sözlər: leksik sinonimlik, sinonim cərgə, dominant, eyniköklü sinonimlik, nitq mədəniyyəti, nitq hissələri.

Linqvistik ədəbiyyatda leksik sinonimlərin təsnifatı ilə bağlı vahid fikir yoxdur. Halbuki leksik sinonimliklə əlaqədar məsələlərin sistemləşdirilməsində təsnifatın həm praktik, həm də nəzəri əhəmiyyəti vardır. Bəzi tədqiqatçılar sinonimliyin məhz semasiologiyanın obyekti olduğunu əsas götürərək təsnifatda mənaya istinad edirlər. Bəziləri isə sinonimliyin, həmçinin üslubi kateqoriya olmasını nəzərə alaraq üslubi funksiyalara üstünlük verirlər. sinonimlərin ideoqrafik-üslubi, tam və natamam, mütləq və nisbi növlərə ayrılması mövcud fikir müxtəlifliklərindən irəli gəlir (1).

Sinonimlik həm leksikologiya, həm semasiologiya, həm də üslubiyyatla sıx əlaqəlidir. Təsnifatda onları bir-birindən ayırmaq olmaz. Nəzərdən qaçırmayaq ki, üslubi funksiyaları özündə daşıyan, nitqdə reallaşan sinonimlər, hər şeydən əvvəl, semasioloji-onomasioloji vahidlərdir. Antonimlikdən fərqli olaraq, sinonimlik həm əlamət, həm də real, maddi məna bildirən sözlərə aiddir. Bir qədər də dəqiqləşdirsək, leksem bir neçə leksik-semantik variantdan ibarətdir; ona görə də sinonimlər leksem yox, leksa səviyyəsində müəyyənləşirlər. Təsadüfi deyil ki, sinonimliyin ən mühüm məsələlərindən biri məhz eyniköklülük, fonomorfoloji variantlardır. Eyniköklü sinonim məsələsində eynimənalılıq olmamalıdır. Sözlərin bütün fono-morfoloji variantlarının leksik-semantik məzmunu, qrammatik əlamətləri və birləşmə imkanları oxıarlıq prinsipinə əsaslanmalıdır. Bu şərt də eyniköklü sinonim üçün əsas deyil; belə sinonim sözlərdə əsas məsələ ondan ibarətdir ki, konkret sözün tərkibində müvazi işlənən sözdüzəldici şəkilçilərin semantik və distributiv funksiyaları neytrallaşır. Azərbaycan dilçiliyində belə fikir formalaşıb ki, şəkilçilərin sinonimliyi morfoloji, yəni qrammatik sinonimliyə aid məsələdir. Məsələn, sözdüzəldici şəkilçilərin sinonimliyi ayrı-ayrı sözlərlə yox, məhz ayrı-ayrı nitq hissələri və müəyyən kateqorial (qrammatik) məzmuna malik söz qrupları ilə əlaqədar öyrənilməlidir.

Sinonim münasibətlərdə hər bir nitq hissəsinin spesifik xüsusiyyətləri, atributları vardır. Məhz belə xüsusiyyətləri, atributları nitq hissələrinin sinonimliyini bir-birindən fərqləndirir (2, 22). Feili sinonimlərin, tutaq ki, ismi sinonimlərdən fərqi mütləq şəkildə özünü göstərən leksik-semantik və qrammatik xüsusiyyətləri ilə bağlıdır. Məsələn, isimlərin sinonimliyindən danışarkən onların tək və cəm olması, semantikasında topluluq ifadə edib-etməməsi, mənsubiyyət-yiyəlik anlayışı bildirməsi, substantivləşməsi, iş, hərəkətin icra olunduğu məkanı bildirməsi nəzərə alınmalıdır. İsimlər sinonimlikdə yalnız maddi varlıqları deyil, abstrakt məfhumları da ifadə edə bilir. İsimlərin əsas morfoloji xüsusiyyəti hallanmasıdır. Sözdəyişdirici hal şəkilçiləri sözlərin sinonimliyini pozmur. Əlbəttə, deyilənlər müxtəlif halda olan, lakin eyni cümlə üzvü vəzifəsini yerinə yetirən sözlərə aiddir. Bunu isimlərin sinonimliyində əsas qrammatik əlamət hesab etmək olmaz, çünki isimlərin müəyyən hallarda mənsubiyyət şəkilçisi ilə işlənməsi sinonimlərin yaranmasına xidmət etmir. Başqa semasioloji kteqoriyalarda, eləcə də nitq hissələrində olduğu kimi, sinonimkada isimlər substantivləşən (həmçinin, feillər predikativləşən, sifətlər atributivləşən) sözlərlə məna yaxınlığına görə cərgə yarada bilirlər. Məsələn, sevinc-şadlıq, döyüş-vuruş və s.

İsmi sinonimlərin yaranmasında sözdüzəldici şəkilçilər fəal iştirak edir. Sözdüzəldici şəkilçilərlə yaranan ismi sinonimlikdə iki cəhəti nəzər almaq lazımdır:

1. Sözdüzəldici şəkilçilər artırılan sözlər kök etibarilə sinonimdir. Məsələn: qabalıq-kobudluq, qıtlıq-qəhətlik-kasadlıq və s.

2. Kök etibarilə deyil, sözdüzəldici şəkilçilər vasitəsilə əmələ gələn sinonimlər. Məsələn: dayaq-himayəçi, dost-yoldaş-sirdaş, gilə-damla və s.

Feilin leksik sinonimliyində də feilə məxsus bəzi atributların, əsasən, təsirlik və təsirsizlik, təsdiq və inkar, növ bildirməsinin, funksional formalara malik olmasının, çoxmənalılığa, abstraktlığa daha çox meylliyinin, lüğəvi mənalarının rəngarəngliyinin və s. mühüm rolu vardır. Məsələn:

1. Təsdiq və inkarlığa görə: möhkəmlətmək-bərkitmək, mülayimləşmək-yumşalmaq, oxşamaq-bənzəmək, ödəməmək-qaytarmamaq, öyrəşməmək-alışmamaq, parıldamamaq-işıldamamaq və s.

2. Növə görə: a) məlum növ: azmaq-itmək, artmaq-çoxalmaq; b) məchul növ: bəslənilmək – yetişdirilmək, üzləşdirilmək-görüşdürülmək; v) qayıdış növ: bükülmək-əyilmək; q) şəxssiz növ: verilmək-bağışlanılmaq, inanılmaq-etibar edilmək; ğ) qarşılıq-birgəlik növ: qabaqlaşmaq-qarşılaşmaq, sözləşmək-razılaşmaq; d) icbar növ: bükdürmək-başlatdırmaq, toplatmaq-yışdırmaq və s. Feili sinonimlərin yaranmasında başqa kateqoriyaların da mühüm rolu vardır.

Qeyd edək ki, adların və köməkçi nitq hissələrinin sinonimliyindən fərqli olaraq, feili sinonimlikdə qrammatik kateqoriyalar aparıcıdır. Sayın, sifətin, zərfin sinonimlikdə öz atributları vardır.

Eyni nitq hissəsi daxilində mövcud olması sinonimliyin başqa semasioloji kateqoriyalardan fərqləndirən əsas xüsusiyyətlərdən biridir. Eyni nitq hissəsinə aid yaxın mənalı linqvistik vahidlərin sinonimliyində həmin nitq hissəsinə məxsus qrammatik və semantik əlamətlər mühüm rol oynayır. Məsələn: ağıllı-fərasətli, ağır-çətin, arıq-cılız-zəif-cansız sinonimlərin təkcə sifət nitq hissəsinə aid olması kifayət deyildir, belə ki, ağıllı sözü ilə ağır və arıq sözləri arasında sinonimlik əlaqəsi yoxdur. Eyni nitq hissəsinə aid sinonim cərgələr linqvistik vahidlərin uyğun semantikası əsasında yaranır. Bütün nitq hissələrinə məxsus sinonimlər bu semantik qanunauyğunluğa tabedirlər. Bu və ya digər nitq hissəsinin sinonimliyində eyni məna ətrafında toplanan dil vahidlərinin quruluş fərqi nəzərə alınmır. Sadə, düzəltmə və ya mürəkkəb sözlər sinonim cərgə yarada bilər. Məsələn: aqil-tədbirli-ağıllı, baş-aparıcı-əsas, bəhrələnmək-faydalanmaq-istifadə etmək, izləmək-təqib etmək və s.

Bütün nitq hissələrinin sinonim münasibətlərində leksik mənanın əsas götürülməsi, mənaların ekvivalentliyinə yox, oxşarlığına, yaxınlığına əsaslanması və üslubi keyfiyyətlərin nəzərə alınması onların ümumi əlamətləridir. Deməli, nitq hissələrinin atributları sinonimliyin mahiyyətini dəyişmir. Leksik sinonimliyin ümumi əlamətləri əsas götürülsə, aşağıdakı təsnifatı düzgün hesab etmək olar: ideoqrafik sinonimlər və üslubi sinonimlər. Mənaca yaxın sözlər semantik və üslubi xüsusiyyətlərinə görə diferensiallaşır: hər şeydən əvvəl, eyni bir mənanın müxtəlif çalarlarının fərqləndirilməsi ilə bağlı olan ideoqrafik sinonimliyi (eybəcər-çirkin, eybsiz-nöqsansız-qüsursuz, sadəlövh-sadəqəlbli-sadədil və s.) öz növbəsində funksional-nitq (təşəbbüsçü - ilk başlayan, son-nəhayət müxtəlif məna çalarlarından) və ekspressiv-məna sinonimliyini də (xülasə-icmal, görüş sahəsi-görüş dairəsi məcazi mənasında) özündə birləşdirən üslubi sinonimlikdən ayırmaq lazımdır.

Leksik sinonimlikdə bütün məsələləri hərtərəfli əhatə etmək çox çətindir. Belə ki, burada ntq hissələrinin spesifikliyi mütləq nəzərə alınmalıdır. Məsələn, feili sinonimliyin sistemli təsviri o zaman əldə edilir ki, hər bir funksional struktur növ ayrıca tədqiq olunsun; sonrakı mərhələdə sinonim cərgələrin genişlənməsi, onların əlaqəli şəkildə araşdırılması dil üslubiyyatının tədqiqat metodudur.

Ədəbiyyat

1.Ətraflı bax: N.Məmmədli. Azərbaycan dilində leksik sinonimlik. Bakı, "Maarif", 1991.

2. İ.Musayeva. Leksik sinonimlik. Bakı, ""Maarif", 2002.

3.A.Qurbanov. Müasir Azərbaycan ədəbi dili. Bakı, "Elm və təhsil", 2004.

Matanat Hajiyeva

LEXICAL SYNONYMY

Summary

Lexical synonyms of pairs belong to the same sense of speech, they have the purpose of creating stylistic effect and fluency during thought, not allowing unnecessary repetitions, more effective, expressive and accurate expression of thought. They increase the power of Speech Influence, create emotionality and expressiveness, have a wide and colorful stylistic possibilities for expressing subtle moments. In order to more accurately express his thoughts and feelings, the speaker uses the necessary word belonging to the synonymous line in such a way that it creates accuracy in speech , and harmony is ensured.

The use of lexical synonyms gives oral speech a kind of creative character, everyone tries to use synonyms at the level of their skill, speech capacity and vocabulary. The variety generated through synonyms makes speech interesting, Listeners welcome such a way of speaking with sympathy. Lexical synonymy in our language is quite rich.

Each of the components that form synonymous rows does not exactly coincide in meaning, since it differs from the others in its semantic circle. Each of them clarifies and clarifies the main word in that row in certain aspects.

The use of synonyms in speech is the delivery of the idea to the listener in a more effective, emotional, precise and subtle sense, a certain color of meaning depending on the content (for example, comicality, lyricism, etc.). it is intended to create, anticipate the ethical norms of speech, use language units in accordance with the rules of public courtesy, avoid the use of rough, coarse, foul language (vulgarisms), as well as avoid unnecessary repetitions in speech

The use of synonymous means is of particular importance in the art of public speaking. Observations show that the speech of a person who has sufficient vocabulary, is able to use words on the spot, is clear, charming and effective.

Key words: lexical synonymy, synonymous row, dominant, same-root synonymy, speech culture, parts of speech.

Матанат Гаджиева

ЛЕКСИЧЕСКАЯ СИНОНИМИЯ

Резюме

Лексические синонимы пары относятся к одной и той же части речи, они направлены на создание стилистического эффекта и беглости при произнесении, не допускают лишних повторений, на более эффективное, выразительное и точное выражение идеи. Они усиливают выразительность речи, создают эмоциональность и выразительность, обладают широкими и красочными стилистическими возможностями для выражения тонких моментов. Для более точного выражения своих мыслей и чувств говорящий употребляет на месте нужное слово, принадлежащее к синонимическому ряду , таким образом, создается точность речи, обеспечивается гармония.

Использование лексических синонимов придает устной речи своеобразный творческий характер, каждый старается использовать синонимы на уровне своих навыков, речевых возможностей и словарного запаса. Красочность, порождаемая синонимами, делает речь интересной, слушатели сочувствуют такой манере речи. Лексическая синонимия в нашем языке довольно богата.

Поскольку каждый из компонентов, образующих синонимические строки, отличается от других своей семантической областью, они не полностью совпадают по значению. Каждый из них уточняет, уточняет в определенном аспекте главное слово в этом ряду.

Использование синонимов в речи заключается в передаче слушателю идеи в более выразительном, эмоциональном, точном и тонком оттенке смысла, определенном колорите смысла в зависимости от содержания (например, комичность, лиричность и т.д.).) направлено на создание, ожидание этических норм речи, использование единиц языка в соответствии с правилами общественной вежливости, недопущение употребления грубых, грубых, уничижительных слов (вульгаризмов), а также избежание ненужных повторений в речи

Особое значение в ораторском искусстве имеет использование синонимичных средств. Наблюдения показывают, что речь человека,

обладающего достаточным словарным запасом, умеющего употреблять слова на месте, ясна, увлекательна и действенна.

Ключевые слова: лексическая синонимичность, синонимический ряд, доминанта, однокоренная синонимичность, культура речи, части речи.

Redaksiyaya daxil olma tarixi: 07.12.2022
Çapa qəbul olunma tarixi: 28.12.2022
Rəyçi: filologiya elmləri doktoru, professor N.Məmmədli tərəfindən çapa tövsiyə olunmuşdur

RAMAZANOVA GÜNEL FƏTULLA
ADU
gunelramazanova81@gmail.com

XARİCİ DİLLƏRİN TƏDRISINDƏ MƏDƏNIYYƏTLƏRARASI KOMMUNİKATİV SƏRIŞTƏ

Açar sözlər: dil, mədəniyyət, mədəniyyətlərarası ünsiyyət, mədəniyyətlərarası sərişdə, verbal, qeyri-verbal
Key words: language, culture, intercultural communication, intercultural competence, verbal, non-verbal
Ключевые слова: язык, культура, межкультурная коммуникация, межкультурная компетенция, вербальная, невербальная

Dilin təsiri və gücü mədəni və etnik qrup üzvləri üçün böyük məna kəsb edir. Hər bir nitq cəmiyyətində - etnik, irqi, mədəni və ya cinslə əlaqəli - dildən istifadə həyati əhəmiyyət kəsb edir. Hər bir nitq cəmiyyətinin ünsiyyət normaları, formaları və kodları var. Bir qrup insanların qarşılıqlı əlaqələri bir çox cəhətdən fərqlənir: danışma tezliyi və dəyəri, nitq performanslarının şərhi və ortaq dil formaları, və s. Nitq cəmiyyəti ünsiyyət norma və qaydalarını saxlayır, lakin tədricən onları dəyişə bilər. Digər tərəfdən, hər bir nitq cəmiyyətində normalardan müəyyən dərəcədə fərdi yayınmalar olur, yəni qrup üzvlərinin hamısı eyni şəkildə ünsiyyət qurmaq bacarığına malik olmur. Qrup üzvləri müəyyən bir vəziyyətdə və qarşılıqlı əlaqədə nitq kodunu, simvollar, işarələr, mənalar və qaydalar sistemini bölüşürlər. Əlaqə, yaş, cins, sosial status və nəsil kimi bir neçə aspekt ünsiyyətə təsir göstərir. Eyni şəkildə, verbal və qeyri-verbal ünsiyyətin nisbəti müxtəlif nitq icmalarında dəyişir.

Danışıq qaydaları müəyyən ünsiyyət tərəfdaşları ilə bir vəziyyətdə nəyin uyğun və uyğun olmadığını müəyyənləşdirir. Biz avtomatik olaraq nəyi deyəcəyimizi və nəyi deməməyimizi və hansı şəkildə demək lazım olduğunu bilirik. Qarşılıqlı əlaqə qaydaları bir insana müəyyən bir vəziyyətdə başqalarına qarşı necə davranacağını bilməyə kömək edir. Dil təkcə ünsiyyət vasitəsi kimi deyil, həm də danışanın mədəni şəxsiyyətinin göstəricisi kimi istifadə olunur. Şəxsiyyət qarşılıqlı əlaqə zamanı müəyyən bir dil istifadəsi (diskurs markerləri) vasitəsilə ötürülür. Müəyyən növ ifadələr bir qrupa mənsubluğu ifadə etmək üçün istifadə olunur, lakin eyni şəkildə bəzən istisna etmək, ayırmaq və ya ayrı-seçkilik etmək üçün istifadə olunur [2, 79-80].

Mədəniyyətlərarası ünsiyyət qarşılıqlı əlaqədə olan iştirakçılar fərqli bir ünsiyyət sistemini təmsil etdikdə baş verir. Verbal və qeyri-verbal ünsiyyətdə fərqlər ola bilər, məsələn, göz təması, jestlər, toxunma, fasilələr, növbə götürmə və ya vaxtdan istifadə. Onlar mədəniyyətlərarası ünsiyyətdə toqquşmaların və ya münaqişələrin potensial mənbələridir. Mədəniyyətlərarası ünsiyyət toqquşması

zamanı çaşqınlıq, gərginlik, xəcalət və məyusluq hissləri yarana bilər. Mədəniyyətlərarası ünsiyyət səriştəsi müxtəlif mədəniyyətlər və sosial qruplar arasında məlumat mübadiləsini hədəfləyən ünsiyyət formasıdır. O, müxtəlif dini, sosial, etnik və təhsil mənşəli fərdlərdən ibarət təşkilat və ya sosial kontekstdə təbii olaraq ortaya çıxan geniş diapazonlu ünsiyyət proseslərini və problemlərini təsvir etmək üçün istifadə olunur. Mədəniyyətlərarası ünsiyyət antropologiya, mədəniyyətşünaslıq, dilçilik, psixologiya və kommunikasiya tədqiqatları kimi sosial elmlərdə mühüm rol oynayır. Mədəniyyətlərarası ünsiyyət həm də beynəlxalq biznes üçün əsas kimi istinad edilir. Mədəniyyətlərarası ünsiyyət bacarıqlarının inkişafına kömək edə biləcək bir neçə mədəniyyətlərarası xidmət təminatçıları var. Tədqiqat mədəniyyətlərarası ünsiyyət bacarıqlarının inkişafının əsas hissəsidir. Effektiv mədəniyyətlərarası ünsiyyət bir qrupun normalarını başa düşməkdən daha çoxunu ehtiva edir. Mədəniyyətlərarası ünsiyyətdə daha effektiv olmaq üçün lazım olan bacarıqları müəyyən etmək üçün bir çox cəhdlər edilmişdir. Ünsiyyətə əsaslanan mədəniyyətlərarası səriştənin tərifləri monokultural insandan multikultural şəxsiyyətə çevrilən bacarıqların inkişafını vurğulamağa meyllidir. Multikultural insan mədəniyyətlərə hörmət edən və fərqliliklərə dözümlü olan insandır, yəni dörd bacarıq sahəsini müəyyən edir: şəxsiyyətin gücü, ünsiyyət bacarıqları, psixoloji uyğunlaşma və mədəni şüur. [1, 55-57]. Mədəniyyətlərarası ünsiyyətə təsir edən əsas şəxsi xüsusiyyətlər mənlik anlayışı, özünü açıqlama, özünə nəzarət və sosial rahatlıq. Mənlik anlayışı insanın özünə baxış tərzinə aiddir. Özünü açıqlama fərdlərin özləri haqqında məlumatları həmkarlarına açıq və lazımi şəkildə açıqlamaq istəyinə aiddir. Özünə nəzarət, özünü təqdim etmənizə və ifadəli davranışınıza nəzarət etmək və dəyişdirmək üçün sosial müqayisə məlumatlarından istifadəni nəzərdə tutur. Sosial relaksasiya (rahatlıq) ünsiyyətdə az narahatlıq aşkar etmək qabiliyyətidir. Effektiv kommunikatorlar özlərini yaxşı tanımalı və özlərinin dərk etmələri ilə müsbət münasibət yaratmalıdırlar. Fərdlər mədəniyyətlərarası ünsiyyətdə bacarıqlı olmaq üçün özlərini mehriban şəxsiyyət ifadə etməlidirlər.

Fərdlər verbal və qeyri-verbal davranışlarda bacarıqlı olmalıdırlar. Mədəniyyətlərarası ünsiyyət bacarıqları mesaj bacarıqları, davranış çevikliyi, qarşılıqlı əlaqənin idarə edilməsi və sosial bacarıqlar tələb edir. Mesaj bacarıqları dili və rəyi anlamaq və istifadə etmək bacarığına aiddir. Davranış çevikliyi müxtəlif kontekstlərdə uyğun davranışı seçmək bacarığıdır. Qarşılıqlı əlaqənin idarə edilməsi söhbətin prosessual aspektlərini, məsələn, söhbətə başlamaq bacarığını idarə etmək deməkdir. Qarşılıqlı əlaqənin idarə edilməsi insanın diqqətlilik və həssaslıq kimi digər yönümlü qarşılıqlı əlaqə qabiliyyətini vurğulayır. Sosial bacarıqlar empatiya və şəxsiyyətin qorunmasıdır. Empatiya, digər insanla eyni düşüncələri düşünmək və eyni duyğuları hiss etmək bacarığıdır. Şəxsiyyətin saxlanması, həmin şəxsin şəxsiyyəti haqqında dəqiq bir anlayışı geri qaytarmaqla həmkarının şəxsiyyətini saxlamaq bacarığıdır. Başqa sözlə, səriştəli ünsiyyətçi müxtəlif situasiyalarda müxtəlif insanlarla işləməyi bacarmalıdır [3, 11-12]. Mədəniyyətlərarası ünsiyyətdə

bacarıqlı olmaq üçün fərdlər dilini öyrəndikləri ölkələrin mədəniyyətinin sosial adətlərini və sosial sistemini dərk etməlidirlər. İnsanların necə düşündüyünü və necə davrandığını başa düşmək onlarla effektiv ünsiyyət çox vacibdir. Müxtəlif mədəniyyətlərdən olan insanlarla ünsiyyət qurarkən mədəniyyət və ünsiyyətin sıx bağlı olduğunu xatırlamaq lazımdır. İnsanların ünsiyyətə baxış tərzi - bu nədir, bunu necə etmək və bunu etmə səbəbləri - onların mədəniyyətinin bir hissəsidir. Bu mühüm əlaqə unudulduğunda fərqli mədəniyyətlərin nümayəndələri arasında anlaşılmazlıq şansı artır.

Mədəniyyətlərarası kommunikativ səriştə iki cür müəyyən edilə bilər: birincisi, ictimai həyatın təşkili yolları, zaman və məkan, onun tarixi, bədii və elmi nailiyyətləri, institutları, öz mədəniyyəti, sosial təbəqələşmənin üsulları, onun keçmişi haqqında mifləri və gələcək üçün arzuları, o cümlədən hədəf mədəniyyət haqqında geniş biliklərdən irəli gələn səriştə. İkincisi, dildən istifadə qaydalarını bilməkdə özünü göstərən səriştə. Bütün bunlar müəyyən bir mədəniyyətin göstəriciləri olduğundan, hər iki kompetensiya mədəniyyət çərçivəsində bir-biri ilə mürəkkəb və ayrılmaz şəkildə bağlıdır.

Mədəniyyətin nə olduğunu müəyyən etmək olduqca çətindir. “Mədəniyyət”in ingilis dilindəki ən mürəkkəb sözlərdən biri olduğuna inanılır. Sözün dəqiq tərifini verməyə çox vaxt sərf etmək olar. Bayram mədəniyyəti belə ifadə edir: “xarici ölkənin bütün həyat tərzi, o cümlədən, onun incəsənəti, fəlsəfəsi, mədəniyyəti, davranışı və ümumiyyətlə “yüksək mədəniyyət” göstəricisi” [3, 36040]. Hofstede mədəniyyəti “bir qrup və ya kateqoriya insanların üzvlərini digərindən fərqləndirən zehnin kollektiv proqramlaşdırması” kimi görür. Piramida modelində o, “zehnin proqram təminatı”nın üç səviyyəsini fərqləndirir: universal, mədəni və şəxsi. Mədəniyyətin aysberq bənzətməsi mədəniyyət anlayışını yalnız ucu görünən (ədəbiyyat, yemək, memarlıq, görməli yerlər və s.) aysberqlə müqayisə edir, halbuki aysberqin çox böyük hissəsini görmək və ya onu qavramaq çətindir (inamlar, dəyərlər, münasibətlər, qavrayışlar və s.). Aydındır ki, mədəniyyət geniş ərazini əhatə edir. Onun genişliyi əlbəttə ki, cazibədir, lakin problem kimi də qəbul edilə bilər. Bununla belə, onun daxil olduğu sahələrin siyahısını tərtib etməyə dəyər: ədəbiyyat, ümumiyyətlə incəsənət, adətlər, vərdişlər və ənənələr, insanların davranışı, tarixi, musiqisi, folkloru, jestləri, sosial münasibətləri və s. Bu, mədəniyyətin mürəkkəb təbiətindən irəli gələn problem sayıla bilər. Mədəniyyətin imicini genişləndirmək bizi mədəniyyətin “məhdudiyyətsiz” olduğu fikrinə gətirir ki, bu da əhatə dairəsini daha da genişləndirir.

Digər dillər və mədəniyyətlərlə əlaqə mədəniyyətlərarası kommunikativ səriştənin inkişafına təkan vermək üçün əla imkan yaradır. Mədəniyyətlərarası təmas başlanandan sonra, mədəniyyətlərarası kommunikativ səriştənin inkişafı ümumiyyətlə davamlı və uzun bir proses kimi inkişaf edir. Fərqli fərdlər mədəniyyətlərarası təcrübəyə fərqli məqsədlər və motivasiyalar gətirir ki, bu da müxtəlif səriştə səviyyələri ilə nəticələnir. Bəziləri ev sahibi mədəniyyətdə doğma

davranışa nail olmaq istəyir; başqaları sadəcə qəbul etməkdən məmnun ola bilər; və digərləri üçün sadəcə sağ qalmaq adekvat ola bilər. Ümumiyyətlə, insan ikinci dil mədəniyyətinə (LC2) və ya linqvokulturologiyaya nə qədər dərindən daxil olarsa, doğma dil mədəniyyətinə (LC1) bir o qədər çox təsir edər. Nəticədə, fərdlər tez-tez dünyaya ilk baxışlarını (və ya "dünyagörüşü") dəyişdirirlər. Mədəniyyətlərarası səfər zamanı yeni mədəniyyətlə həqiqətən məşğul olmaq istəyi insanın dünyanı qavramaq, bilmək və ifadə etmək və onun daxilində qarşılıqlı əlaqədə olmaq üçün orijinal üslubunun həm transsendensiyasını, həm də transformasiyasını təşviq edir. Mədəniyyətlərarası bacarıqların inkişafı bu prosesə kömək edir. Bəs mədəniyyətlərarası səriştə tam olaraq nədir? Bu termin bu gün geniş istifadə olunsa da, onun nə olduğu barədə dəqiq fikir birliyi yoxdur. Bəzi tədqiqatçılar qlobal bilikləri vurğulayır, bəziləri həssaslığı vurğulayır, bəziləri isə müəyyən bacarıqlara işarə edir. Mədəniyyətlərarası kommunikativ səriştənin bir tərifi ondan ibarətdir ki, bu, dil və mədəniyyət baxımından özündən fərqli olan başqaları ilə qarşılıqlı əlaqədə olduqda effektiv və lazımi şəkildə yerinə yetirmək üçün lazım olan bacarıqlar kompleksidir.

Dilçilər və antropoloqlar çoxdan qəbul etmişlər ki, müəyyən bir dilin formaları və istifadələri həmin dilin danışdığı cəmiyyətin mədəni dəyərlərini əks etdirir. Bir dili öyrənənlərin həmin dildə səriştəli olması üçün təkcə linqvistik səriştə kifayət etmir [4, 10-15]. Dil öyrənənlər, məsələn, insanlara müraciət etmək, minnətdarlıq bildirmək, xahişlər etmək və kiminləsə razılaşmaq və ya razılaşmamaq üçün mədəniyyətə uyğun üsullardan xəbərdar olmalıdırlar. Onlar bilməlidirlər ki, öz nitq cəmiyyətinə uyğun olan davranış və intonasiya nümunələri hədəf dil nitq icmasının üzvləri tərəfindən fərqli şəkildə qəbul edilə bilər. Onlar başa düşməlidirlər ki, ünsiyyətin uğurlu olması üçün dildən istifadə digər mədəniyyətə uyğun davranışlarla əlaqələndirilməlidir.

Bir çox cəhətdən mədəniyyət tələbələrin öyrəndiyi linqvistik formalara daxil olmaqla, dolayısı ilə öyrədilir. Şagirdləri dildə əks olunan mədəni xüsusiyyətlərdən xəbərdar etmək üçün müəllimlər həmin mədəni xüsusiyyətləri öyrənilən dil formaları ilə bağlı açıq müzakirə mövzusuna çevirə bilərlər. İkinci dil müəllimi kimi ingilis dili tələbələrə sosial cəhətdən uyğun ünsiyyəti başa düşməyə kömək edə bilər, məsələn, hörmət nümayiş etdirən sorğular etmək; məsələn, “Hey sən, bura gəl” (Hey you, come here) dil baxımından düzgün tələb ola bilər, lakin bu, şagirdin müəllimə müraciət etməsi üçün mədəniyyət baxımından uyğun bir üsul deyil. Şagirdlər bir dili ancaq onun həm dil, həm də mədəni normalarını öyrəndikdə mənimsəyəcəklər. Mədəni məlumatlar mühakimə etmədən, tələbələrin doğma mədəniyyəti ilə sinifdə öyrənilən mədəniyyət arasındakı fərqlərə mühakimə yürütməyən şəkildə təqdim edilməlidir. Şagirdlərə mədəniyyətlərin monolit olmadığını başa düşməyə kömək etmək də vacibdir. Hər hansı bir xüsusi mədəniyyətdə istənilən qarşılıqlı əlaqə üçün müxtəlif uğurlu davranışlar mümkündür. Müəllimlər tələbələrə ikinci dil nitq

cəmiyyətində öz səslərini tapmaq imkanı vermək üçün onlara öz perspektivlərindən mədəni qarşılıqlı əlaqələri müşahidə və araşdırmaq imkanı verməlidir.

Xarici dil öyrənmək və mədəniyyət öyrənmək arasında əlaqə uzun müddət əvvəl dilçilər və antropoloqlar tərəfindən qurulmuşdur. Onlar belə nəticəyə gəlib ki, digər dilləri öyrənməklə tələbələr bu dildən istifadə edən mədəniyyətlər haqqında bilik və anlayış əldə edirlər. Üstəlik, tələbələr dilin meydana gəldiyi mədəni kontekstləri mənimsəmədikcə, dili həqiqətən mənimsəyə bilməzlər. Bir dili öyrənənlərin həmin dildə səriştəli olması üçün təkcə linqvistik səriştə kifayət deyil. Müraciət formalarından tutmuş fikir ayrılıqlarını ifadə etməyin uyğun üsullarına kimi sadə, gündəlik işlərdən tutmuş mədəniyyət dil öyrənmə kurikulumunun tərkib hissəsini təşkil edir. Hər halda, ünsiyyətin uğurlu olması üçün dildən istifadə dar mənada təkcə dil qaydaları ilə deyil, digər mədəniyyətə uyğun davranışlarla əlaqələndirilməlidir. Mədəniyyət tez-tez tələbələrin öyrəndikləri dil formalarının bir hissəsi kimi dolayısı ilə öyrədilir. Şagirdləri dildə əks olunan mədəni xüsusiyyətlərdən xəbərdar etmək üçün müəllimlər həmin mədəni xüsusiyyətləri açıq müzakirə mövzusuna çevirə və lazım gəldikdə onları ön plana çıxara bilərlər. Mədəni məlumatların tələbələrin doğma mədəniyyəti ilə sinifdə araşdırılan mədəniyyət arasındakı fərqləri qiymətləndirməyən qeyri-mühakimə üsulu ilə təqdim edilməsi çox vacibdir. Dil öyrətməklə yanaşı, mədəniyyəti effektiv şəkildə öyrətməyin bir neçə praktiki yolu var:

- Tələbələri orijinal materiallarla təmin etmək - Filmlərə, xəbər verilişlərinə və ya televiziya şoularına baxmaq tələbələrə şəxsi məkandan istifadə, göz təması və ya jestlər kimi şifahi olmayan davranışlar haqqında geniş məlumat verə bilər. Digər tərəfdən, orijinal bədii və ya qeyri-bədii materialları oxumaq da hədəf dil mədəniyyətinin dəyərləri və normaları haqqında yaxşı bir giriş ola bilər. Bu materiallar həmçinin tələbələrin dil bacarıqlarını, xüsusən də yazılı mətnləri dinləmək və başa düşmək baxımından təkmilləşdirməyə kömək edir.
- Atalar sözlərini müqayisə etmək - Atalar sözləri iki mədəniyyət haqqında çox məlumatlı olmaqla yanaşı, hər iki mədəniyyətin atalar sözlərində təmsil olunan stereotiplər və ya dəyərlər haqqında müzakirələrə səbəb ola bilər. Bundan əlavə, atalar sözləri və idiomlar hər bir dilin əhəmiyyətli bir hissəsini təşkil edir və onları bilmək hər bir öyrənci üçün vacibdir.
- Rol oyunlarından istifadə etmək - Onlar, xüsusən də tələbələrə öz mədəniyyətlərindən, qəribə ola biləcək və kənardan baxılan mədəniyyətdən və daha çox tanış olan hədəf mədəniyyətdən perspektiv dəyişikliyi etməkdə dəstək olurlar. Bu prosesdə tələbələr gözlənilməz vəziyyətlərdə danışıq və dildən istifadə edirlər.
- Mədəni əşyaları araşdırmaq - Tələbələr hədəf dildə təqdimat və ya yazı bacarıqlarını tətbiq etməklə yanaşı, öz sinif yoldaşlarına xarici

mədəniyyətdən təyin olunmuş element haqqında məlumat verə və əldə etdikləri bilikləri kontekstləşdirə bilərlər.

- Tələbələr mədəni resurslar kimi - Bu gün bir çox sinif otaqları mədəni və etnik cəhətdən çox müxtəlifdir və onlar tez-tez xarici mədəniyyətlərdən mübadilə tələbələri və ya hədəf mədəniyyətdə mübadilə proqramından qayıdan şəxslərə malikdirlər. Onlar ekspert mənbələri kimi sinif otağına dəvət oluna və bu dildə danışanların evi və mədəni həyatı ilə bağlı orijinal fikirləri bölüşə bilərlər.

Beynəlxalq aləmə inteqrasiya təhsil sisteminin qarşısında yeni məqsəd qoyur - özünü təkcə müəyyən bir mədəniyyətin nümayəndəsi kimi deyil, həm də dünya vətəndaşı kimi qəbul edən, qlobal insani proseslərdə öz əhəmiyyətini və məsuliyyətini dərk edən tələbələrin şəxsiyyətinin formalaşdırılması. Xarici dil planetar təfəkkürə malik fərdlərin təhsilinin əsas vasitələrindən biridir. Xarici dil beynəlxalq ünsiyyət vasitəsi kimi tələbələrin ikidilli sosial səriştəsini, o cümlədən digər mədəniyyətlərə, xalqlara və ölkələrə qarşı tolerantlıq, açıq fikirlilik kimi keyfiyyətləri formalaşdıra bilər. Başqa xalqın dilini və mədəniyyətini öyrənən tələbələr sosial-mədəni biliklərini genişləndirmək imkanı əldə edirlər.

ƏDƏBİYYAT

1. Belay, Chen & Starosta Model of Intercultural Sensevity Scale. Intercultural Communication competence. 1996
2. Brown H.D. Learning a Second Culture In Valdez , 1986.
3. Byram, M. & Risager, K. Language Teachers, Politics and Cultures. Clevedon: Multilingual Matters, 1999.
4. Fred E Jandt, An Introduction to Intercultural Communication, Identities in a Global Community, California State University, SAGE Publications, 2010.
5. Hollo, D. & Lazar, I. The neglected element - Teaching culture in the EFL classroom. NovELTy, 7/1, 2000.
6. Krasner D. Defending the national Interest. 1978
7. Martin, J. N., Nakayama, T. K., & Carbaugh, D. The history and development of the study of intercultural communication and applied linguistics. In J. Jackson (Ed.), The Routledge handbook of language and intercultural communication, Oxon, England: Routledge, 2012.

Ramazanova Günel Fətulla

Xarici dillərin tədrisində mədəniyyətlərarasi kommunikativ səriştə

Xülasə

Effektiv mədəniyyətlərarası ünsiyyət dünyanın mədəni müxtəlifliyinin dərk edilməsində qazandığı əhəmiyyətə görə bu gün prioritet məsələyə çevrilmişdir. İmmiqrasiya, urbanizasiya, beynəlxalq məşğulluq, təhsil mübadiləsi proqramları və xarici səyahətlərin asanlığı müxtəlif mədəniyyətlərə mənsub insanlar arasında

gündəlik təmasları asanlaşdırır. fonlar. Məqalə gündəlik həyatda və təşkilatlar daxilində multikultural mübadilə üçün zəruri olan münasibət və ünsiyyət bacarıqlarının inkişaf etdirilməsinin vacibliyini müzakirəsindən bəhs edir. Digər mədəniyyətlər haqqında öyrənmək və mədəniyyətlərarası ünsiyyət səriştələri və bacarıqlarını inkişaf etdirmək multikultural görüşləri asanlaşdırmağa kömək edə bilər və digər əhəmiyyətli insanlara qarşı daha çox açıqlığa və tolerantlığa səbəb ola bilər. Məqalədə bütün ünsiyyətin mədəniyyətin içində baş verdiyi, buna görə də mədəniyyətlər arasındakı fərqlərin mədəniyyətlərarası ünsiyyətdə əsas maneə olduğu, fərqli mədəniyyətlərin fərqli dillər, dəyərlər, davranışlar, adətlər və s. kimi aspektlərə xarakterizə olunduğu vurğulanır. Müəllifin fikrincə mədəniyyət dil öyrənmənin vacib komponentidir və xarici dil müəllimləri tədris etdikləri dilin hər bir aspektində əsas mədəniyyət elementlərini müəyyən etməlidirlər və yalnız bu halda tələbələr öyrəndikləri xarici dildə uğur qazana bilərlər. Müəllif eyni zamanda dil öyrətməklə yanaşı, mədəniyyəti effektiv şəkildə öyrətməyin bir neçə praktiki yolunu nümunə olaraq göstərmişdir.

Ramazanova Gunel Fatulla

Intercultural Communicative Competency in Foreign Language Teaching

Summary

Effective intercultural communication has become a priority today due to its importance in understanding the world's cultural diversity. Immigration, urbanization, international employment, educational exchange programs, and the ease of foreign travel facilitate daily contact between people of different cultural backgrounds. The article discusses the importance of developing relational and communication skills necessary for multicultural exchange in everyday life and within organizations. Learning about other cultures and developing intercultural communication skills and competencies can help facilitate multicultural encounters and lead to greater openness and tolerance toward significant others. The article states that all communication takes place within the culture, therefore differences between cultures are the main obstacle in intercultural communication and different cultures are characterized by aspects such as different languages, values, behaviors, customs, etc. According to the author, culture is an important component of language learning, and foreign language teachers must identify key cultural elements in every aspect of the language they teach, and only then students can succeed in the foreign language they are learning. The author exemplifies several practical ways to effectively teach culture while simultaneously teaching language.

Рамазанова Гюнель Фатулла

Межкультурная коммуникативная компетентность в обучении иностранному языку

Резюме

Эффективная межкультурная коммуникация сегодня стала приоритетом из-за ее важности для понимания культурного разнообразия мира. Иммиграция, урбанизация, международная занятость, программы образовательного обмена и легкость зарубежных поездок облегчают ежедневные контакты между людьми разного культурного происхождения. В статье обсуждается важность развития реляционных и коммуникативных навыков, необходимых для мультикультурного обмена в повседневной жизни и в организациях. Знакомство с другими культурами и развитие навыков межкультурного общения и компетенций может помочь облегчить межкультурные встречи и привести к большей открытости и терпимости по отношению к значимым другим. В статье утверждается, что вся коммуникация происходит внутри культуры, поэтому различия между культурами являются основным препятствием в межкультурной коммуникации, а разные культуры характеризуются такими аспектами, как разные языки, ценности, поведение, обычаи и т. д. По мнению автора, культура – это является важным компонентом изучения языка, и преподаватели иностранных языков должны определить ключевые культурные элементы в каждом аспекте языка, который они преподают, и только тогда учащиеся смогут добиться успеха в изучении иностранного языка. Автор приводит несколько практических способов эффективного обучения культуре при одновременном обучении языку.

Redaksiyaya daxil olma tarixi: 07.12.2022
Çapa qəbul olunma tarixi: 28.12.2022
Rəyçi: fil.f.d. R.Ağayeva
tərəfindən çapa tövsiyə olunmuşdur

İLAHƏ MƏMMƏDOVA
ADU
ilaha_1976
@ mail.ru

EKSTRALİNQVİSTİK AMİLLƏRİN TƏSİRİ NƏTİCƏSİNDƏ İNGİLİS DİLİNDƏ BAŞ VERƏN DƏYİŞİKLİKLƏR

Açar sözlər: ekstralinqvistik amillər, alınmalar, lüğət tərkibi, tarixi dəyişikliklər, texnoloji inkişaf
Key words:. extralinguistic factors, borrowings, vocabulary composition, historical changes, technological development
Ключевые слова: экстралингвистические факторы, заимствования, словарный состав, исторические изменения, технологическое развитие

Dildə olan dəyişikliklər təbii və davamlıdır. Ən sadə dillə desək, insanların ehtiyacları, tapdıqları obyektlərə yeni ad vermək və bir-birilərinə cəlbedici olmaq kimi səbəblər dilə dəyişiklik və inkişaf gətirir. Cəmiyyətdəki hər cür dəyişiklik insanlara olduğu kimi onların dilinə də təsir göstərdiyindən, siyasi, sosial, mədəni, iqtisadi dəyişikliklərə və texnoloji inkişaflara görə dil dəyişir. Misal üçün; dinin dəyişməsi, qəbilələrin köçü və.s.

Ekstralinqvistik amillərin dilin formalaşmasına təsiri hər bir dilin yaranmasının ən mühüm bir mənbəsini təşkil edir, hər bir dilin, o cümlədən də ingilis dilinin leksikasının arxa planında onun mədəniyyəti, həyat tərzi dayanır. Ekstralinqvistik amillər sözün yaranmasında və inkişafında mühüm rol oynayır, onun milli xarakterini əmələ gətirir. Belə sözlərin, bir qayda olaraq, başqa dillərdə adekvat, yaxud yaxın ekvivalenti olmur. Onlar dilin milli spesifik vahidi olub xalqın mədəniyyəti, adət-ənənələri ilə bağlı özümlüyünü ifadə edir. Sözlərdə milli özünəməxsusluq onların semantic xüsusiyyətlərində, məzmununda ifadə olunur. Bütün xalqların, o cümlədən də, ingilislərin sözləri bu xalqın tarixi, mədəniyyəti və məişəti ilə sıx əlaqəlidir. Xalqın psixologiyası, milli ruhu, düşüncə tərzi sözlərə hopmuş, onlarda izini saxlamışdır. Belə sözlər, bilavasitə xalqın həyatı, ona aid realilərlə bağlıdır.

Ekstralinqvistik amillərin əhatə dairəsi olduqca genişdir. Bu amillər ünsiyyətin baş verdiyi qeyri-dil mühiti ilə əlaqəlidir. Dildən istifadə edən fərdin dil mühitindən kənarda əldə etdiyi bütün bilik və bacarıqlar, vərdişlər, adət və ənənələr, məlumatlar və s. ekstralinqvistik amillər toplusuna daxil olur. Ekstralinqvistik amillər sosial amillərdir. Demoqrafik parametrlər, dildə danışanların sayı, onların məskunlaşma xüsusiyyətləri, yaş diferensiasiyası, cəmiyyətin sosial quruluşu, dil və mədəniyyət xüsusiyyətləri, dil əlaqələri dilin ekstralinqvistik amillərini formalaşdırır.

Ekstralinqvistik amillər intralinqvistik amillərlə qarşılıqlı təsir prosesində inkişaf edir. Nəticədə, dil vasitələrinə ekstralinqvistik amillər nüfuz edir. Onların müəyyənləşdirilməsi mövcud vahidlərin müxtəlif plandan təhlil olunmasını tələb edir. Ekstralinqvistik amillər dilə güclü təsir göstərir, bu sistemin vahidlərinin məzmununda öz yerini tutur.

Əsas ekstralinqvistik amillərə aşağıdakıları aid etmək olar:

1) zaman (tarixi amil),
2) ərazi (məkan amili), coğrafi amil;
3) substratın təsiri və dil "ixracı"nın təsiri amili;
4) sosial və sosial-tarixi amil.

Dil tarixi dil yaranan gündən baş verən bütün tarixi dəyişiklikləri özündə ehtiva edir. Dildə baş verən dəyişikliklər birbaşa dilin öz daxili amilləri ilə əlaqədar olanda linqvistik, cəmiyyətin ümumi inkişafı, xalqın tarixi ilə əlaqədar olduqda isə ekstarlinqvistik amillər adlanır. Dilin sözalınmasına təkan verən və mane olan bir sıra səbəblər mövcuddur. Alınma sözə müraciət etmək intralinqvistik və ekstralinqvistik səbəblər kompleksindən bəhrələnir. Ekstralinqvistik səbəblərə siyasi, iqtisadi, sosial, mədəni sahələrdəki dil əlaqələri daxildir. Əvvəl məlum olmayan predmet və hadisələrin adlandırılması zərurəti başqa dildən sözalmanın səbəbinə çevrilir. Belə səbəblər isə az deyildir. Ekstralinqvistik amillər cərgəsində psixoloji, estetik, evfemistik ifadəyə canatma olduğu kimi, sözalma prosesində əhəmiyyətli rol oynayan tarixi şərait, dini mənsubluq, ölkənin siyasi vəziyyəti kimi şərtlər də az deyildir.

Slənq sosial və ya peşə qrupların dili olub ədəbi dilə zidd olan və danışıq dilində işlənən sözləri, ədəbi dil normasına uyğun olmayan danışıq dilinin bir variantıdır. Slənqlərin leksik tərkibindən danışarkən qeyd etmək lazımdır ki, slənq daimi inkişaf edən dinamik sistem yaradır. Slənqlər sistemində işlədilən slənq tez bir zamanda ya yeni slənqlə əvəz olunur, ya da istifadədən çıxır unudulur. Gənclərin istifadə etdikləri slənqləri araşdırmaq məhz bu səbəbə görə bir az çətindir, belə ki, gənclərin istifadə etdikləri slənqlər qısa müddət ərzində yaranır və tez bir zamanda istifadədən çıxır. Lakin bəzi slənqlər vardır ki, onlar onilliklərlə dil sistemində işlənir. Hər bir slənqin izahı həmin ölkənin gənclərinin mentalitet anlayışını anlamağa imkan verir. Slənq dilin dinamik və ayrılmaz sistemidir. Bundan əlavə, slənq gənclərin özünü ifadə etmək üsuludur. İnternetin inkişafı, kompyuter texnologiyalarının gündəlik həyatımıza daxil olması müasir slənqlərin çoxalmasına səbəb oldu. Slənqlərin yaranmasının digər səbəbi isə dilin lüğət tərkibinin zəif olmasıdır. Ümumi təyinatlı ən geniş yayılmış danışıq ifadələrinə diqqət yetirək: Zip it – sus, ağzını bağla; sugar daddy – sponsor; brain drain – sanki aydan gəlib; are you kidding? – zarafat edirsən (edirsiniz)?, doğrudan?; beans – pullar; telly – televizor; get it – nəyisə başa düşmək; blah blah, blah - daha nələr, nələr; nitty-gritty – işin praktik tərəfi və s.

Slənqlərin araşdırılması məsələsi ilə E.Partric, V.Firman, İ.R.Qalperin, İ.V.Arnold kimi dilçilər məşğul olmuşlar. E.Partric qeyd edirdi ki, 1850-ci ilə qədər slənq anlayışı "vulqar dil" kimi başa düşülürdü, lakin XX əsrin 2-ci yarısında bu termin "danışıq dili" bildirən bir termin kimi qəbul edilməyə başlandı. İ.V.Arnoldun fikrincə isə, slənq anlayışına danışıq dilində istifadə olunan sözlər və bədii ədəbiyyatda işlənən kobud, məzəli və ya emosional məna çaları olan sözlər aiddir [5, 15]. İ.R.Qalperin "Slənq" termini haqqında" məqaləsində slənqləri qeyri-müəyyən xüsusiyyətlərinə əsaslanaraq onların mövcud olmasını inkar edir. O belə hesab edirdi ki, slənqlər leksika və frazeologiyanın elə bir layıdır ki, canlı danışıq dilində danışıq neologizmləri kimi yaranır və asanlıqla hamı tərəfindən qəbul edilmiş ədəbi danışıq dilinə keçə bilirlər. Qalperin slənq anlayışını ayrı və müstəqil kateqoriya kimi qəbul etmirdi. O təklif edirdi ki, slənq ingilis sözü olan jarqon sözünə sinonim kimi işlənsin. Məşhur dilçi İ.R.Qalperin slənq haqqında söyləmişdir ki, slənq termini dedikdə asanlıqla hamı tərəfindən başa düşülən, ədəbi danışıq dilinə keçə bilən və canlı danışıq dilində istifadə olunan dilin lüğət tərkibidir.

Ekstralinqvistik amillərdən biri də elm sahələrində olan ixtira və kəşflərdir. Yeni elm və istehsalat sahələrinin yaranması dildə öz əksini tapır ki, bu da yeni terminlərin yaranmasına səbəb olur. Qloballaşma əsrində terminologiya sürətli inkişaf prosesini yaşayır. XX-XXI əsrlərdə kompüterin, internetin kəşfi elmi inqilaba səbəb oldu və bu elm sahəsində bir partlayış yaratdı. İnformatika, telekommunikasiya, şəbəkə texnologiyalarının sürətli inkişafı, kompüterin geniş tətbiqi bu sektorda yeni terminlərin yaranmasına zəmin yaratdı. Dünya əhalisinin internetdən istifadəsi, sosial şəbəkələrə marağın artması nəticəsində sözalma prosesi daha da intensivləşdi. Nəticədə dilə bu sahə ilə bağlı xeyli sayda beynəlmiləl terminlərin axını sürətləndi. Məsələn: domain – domen; login – login; site – sayt; chat – çat; display – displey; e-audit - e-audit; portal – portal; server – server və s.

Hazırda KİV-lərin, müxtəlif xarici agentlik, mətbuat orqanlarının geniş vüsət alması, xarici telekanalların, peyklərin dünyaya yayımlanması nəticəsində dilə alınma, beynəlmiləl söz, terminlərin birbaşa daxil olmasını müşahidə etmək olar. Məsələn: teleanons, moratorium, imic, inaqurasiya, pik-taym, eks-skiper, embarqo, aparteid və s.

- Daxili dilçiliyə ümumi dilçilik (ümumi dil kateqoriyalarını öyrənir), müqayisəli-tarixi və müqayisəli-tipoloji dilçilik (müxtəlif dillər arasında genetik və tipoloji əlaqələri araşdırır), dil sisteminin müxtəlif səviyyələrini öyrənən dilçilik sahələri (fonetika, fonologiya, qrammatika (morfologiya, söz yaradıcılığı, sintaksis), leksikologiya, frazeologiya) daxildir. Dil sisteminin formalaşma tarixi dilin tarixi (tarixi fonetika, fonologiya və s.) və etimologiyası; xüsusi adlar onomastika, o cümlədən toponimika və antroponimika tərəfindən tədqiq edilir.
- Xarici dilçilik (paralinqvistika, etnolinqvistika, sosiolinqvistika, psixolinqvistika və s.) dilin danışanın cəmiyyətdəki fəaliyyəti ilə bilavasitə bağlı olan tərəflərini öyrənir. Buraya dilin ərazi variasiyasını öyrənən dialektologiya və linqvistik coğrafiya da daxildir.

Dövlətin və xalqın ictimai çıxışlarla bağlı təcrübəsindəki dəyişikliklərlə əlaqədar olaraq nitq mədəniyyəti cəmiyyətdə əhəmiyyətli dərəcədə ictimai təsirlərə məruz qalır. Bu təsirlərə misal olaraq nitq mədəniyyətinin və mətbuatın, radio və televiziyanın kütləvi iformasiya və təbliğat vasitəsi kimi bu günə qədər misli görünməmiş inkişafını göstərmək olar. Son zamanlar "media dili" termini ilə tez-tez rastlaşırıq. Bu termin bütün kütləvi informasiya vasitələri - dövri mətbuat, radio, televiziya, internet nəşrləri üçün xarakterik olan dil, bəzən də nitq kimi qəbul edilir. Bu dil mütləq "media dili"nin tanınmasını şərtləndirən xüsusi üslubi çalara malikdir. Əslində, bu "dil" özündə qurultaylarda, mitinqlərdə, yığıncaqlarda bu üsluba müraciət edən siyasətçilərin, ictimai xadimlərin çıxışını əks etdirməyən publisistik üslublu nitqdir. Publisistikanı cəmiyyətin ən mühüm problemlərini – siyasi, sosial, məişət, fəlsəfi, iqtisadi, etik-əxlaqi problemləri əhatə etdiyi üçün "müasirliyin salnaməsi" adlandırmaq olar.

x x x

Müasir televiziya sadəcə kütləvi informasiya vasitəsi deyil, bir mədəniyyət hadisəsidir, bütövlükdə cəmiyyətin inikasıdır. Televiziya bir tərəfdən qloballaşmanın təsiri altındadır, digər tərəfdən spesifik psixoloji xüsusiyyətlərə malikdir. Bəzən müasirliklə konservativliyin daban-dabana gəlməsi televiziyanın xaotik panoramasının yaranmasına səbəb olur. Televiziya vasitəsilə yalnız informasiya qəbul etmirik, sadəcə əylənmirik, eyni zamanda düşüncəmiz və nitq təfəkkürümüz təsirlərə, hətta, bəzən təzyiqlərə məruz qalır. Bunlar onu qeyd etməyə əsas verir ki, televiziya fenomenin öz forma və növləri mövcuddur və onlar fərqli funksiyalar yerinə yetirir.

Tele-informasiyanın ekstralinqvistik xarakteri nitqin tema və motivləri, kommunikasiya aktı iştirakçılarının və auditoriyanın xarakteri, eləcə də, nitq mühiti vasitəsi ilə səciyyələnir [1]. İstənilən mövzu, istənilən təsəvvür müvafiq dilin qanunauyğunluqları çərçivəsində informasiya şəklinə salına bilər. İstənilən

situasiyada istənilən nitq aktının təşkili zamanı nitq axınının daxili düzülüşünü səciyyələndirən vasitələr kontekstin linqvistik və ekstralinqvistik aspektləri arasında mövcud olan sıx və qarşılıqlı əlaqəni göstərir. Danışan (yazan) üçün ekstralinqvistik kontekst nitq aktını şərtləndirən obyektiv gerçəklikdir. Linqvistik kontekstə isə nitq aktı prosesində ayrı-ayrı məqamlarda fərdə təsir göstərən linqvistik amillər məcmusu kimi baxmaq olar. Nitq aktının istər xarakteri, istərsə də strukturu onda təzahür edən ekstralinqvistik hadisələrin kompleks məcmusundan asılıdır. İstənilən tele-nitq aktının limqvistik strukturu mövzu və məzmun, janr, konkret ünsiyyət situasiyası, auditoriyanın xarakteri, həmsöhbətlərin fərdi xüsusiyyətləri kimi faktorların təsirinə məruzdur. Çox dinamik bir KİV vasitəsi kimi televiziya nitqinin bu qeyd olunan xüsusiyyətləri nəzərə alınmaqla – funksional baxımdan araşdırılması bu gün dialoji tendensiya əldə etmiş bu mediya janrın dilinin tam linqvistik təsvirinə nail olmaq üçün vacibdir.

Televiziyanın müxtəlif növləri və formaları olduğu kimi, onun tədqiqinə müxtəlif aspektlər və yanaşmalar mövcuddur. Xüsusilə, televiziyada səslənən nitqlərin təhlilləri zamanı bir çox spesifik cəhətlər aşkar edilir. Bu cəhətlərdən biri də televiziya nitqinin həm onu təcəssüm etdirib yaradanlardan, həm də yönləndirildiyi şəxslərdən daim asılı olan linqvistik-üslubi xüsusiyyətləridir.

Öz auditoriyası uğrunda mübarizə aparan müəllif, yaxud tele-kanal obyektivlik illüziyasını əsas götürür. Televiziya mətnlərində əks olunan informasiyanın özü gerçəkliyin şərhini təqdim etdiyi halda, onun subyektiv şərhindən yayınmaq mümkün deyil. Tərtibat zamanı mətnlərin şərhi istiqamətləndirilir, nizamlanır, yeni məna çalarları yaranır. Öz növbəsində, tamaşaçı qəbul etdiyi xəbəri şərh edir, nəticə etibarilə, şərh olunanın bilavasitə şərhi baş verir və bu baxımdan televiziya mətnlərini "gerçəkliyin şərhi vasitəsi" adlandırmaq olar . Televiziya xəbər mətnləri özündə bir sıra xarici dayaq elementlərinə malik gerçəkliyin interpretasiyasını və subyektiv müəllif şərhini ehtiva edir ki, bu amil informasiyanın şərhinin obyektivlik-subyektivlik balansını yaradır. Televiziya xəbər mətnlərində verilən informasiyanın adekvat (və ya qeyri-adekvat) qəbulunda koqnitiv amillərin rolu danılmazdır və onların verbal və ya qeyri-verbal ifadə vasitələri mövcuddur.

Bu mətnlər vasitəsilə səsləndirilən informasiyanın adekvat qəbulu və dərki zamanı bir sıra linqvistik maneələrlə bərabər meydana çıxan ekstralinqvistik və psixoloji çətinlikləri aradan qaldırmaq üçün fərdin dünyanın dil xəritəsinə inteqrasiyası məqsədilə müəyyən sosial-mədəni fon bilikləri ehtiyatına malik olması və audio-video-nitq situasiyalarını eyni zamanda əlaqələndirə bilməsi üçün onda multimodal praqmatik bacarıqların formalaşması da zəruridir. Məsələn, ingilisdilli televiziya xəbər mətnlərinin müasir gündəlik həyat tərzinə gətirilməsi ingilis dili və mədəniyyəti ilə tanış olan fərdin şəxsiyyətinin yeni bir cəmiyyətə uyğun olaraq sosiallaşmasının uğurlu əsasını qoyur və effektiv mədəniyyətlərarası kommunikasiya üçün onda lazımi bacarıqları inkişaf etdirir.

Televiziya nitqində informasiya proqramlarının xüsusiyyətləri nəzərə alınmaqla, dil sisteminin müxtəlif səviyyələri təqdim olunur və videocərgə ilə müşayiət olunur; bu, səsli nitqdir və kütləvi istehlaka yönəlmişdir.

Televiziya nitqi dedikdə ilk növbədə informasiya proqramlarında, xəbər buraxılışlarında təqdim edilən nitq nəzərdə tutulur. Zənnimizcə, televiziya informasiya proqramlarında reallaşan nitqin öyrənilməsinə kommunikativ, sistemli, funksional və mədəni aspektlərdən yanaşmaq mümükündür.

Kommunikativ yanaşma nitqi insanın kommunikativ fəaliyyətinin növlərindən biri kimi qəbul edir. Nitqin təbiəti dil ictimaiyyətinin digər üzvləri ilə ünsiyyət yaratmaq üçün dildən istifadəyə əsaslanır. Bu, həm danışıq prosesidir - nitq fəaliyyətidir, həm də onun nəticəsidir - yaddaş və ya yazı vasitəsi ilə təsbit edilmiş nitq əsərləridir. Televiziya nitqi - verilişlərin aparıcılarının və jurnalistlərin, televiziya verilişlərinin qəhrəmanlarının televiziya ekranlarından söylədiyi nitqdir. Bu səbəbdən televiziya mütəxəssislərinin nitqi ilə proqram qəhrəmanlarının (qeyri-peşəkarların) nitqinin tamaşaçılar tərəfindən müxtəlif cür qəbul edildiyini nəzərə alaraq, bu iki növ nitqi bütün aspektlərdə müqayisə etmək qeyri-məqsədəuyğundur.

M.P.Senkeviç klassik ritorika ənənələrinə əsaslanaraq nitqin aşağıdakı kommunikativ keyfiyyətlərini göstərir [4, s.36]:

1) Düzgünlük - müasir ədəbi dil normalarına uyğunluq.
2) Dəqiqlik - sözlərin referent obyektlərə, real hadisələrə ciddi şəkildə adekvat olması.
3) Məntiqilik - nitqdə dil vahidləri arasında mövcud semantik əlaqələr ilə obyektiv gerçəklikdəki predmet və hadisələr arasındakı əlaqə və münasibətlərin bir-birinə adekvatlığı.
4) Saflıq - ədəbi dilə yad elementlərin (söz və ifadələrin), habelə etik normalara zidd leksik elementlərin olmaması.
5) İfadəlilik - dinləyicilərin/tamaşaçıların marağını dəstəkləyən keyfiyyətlərin mövcudluğu.
6) Zənginlik - müxtəliflik.
7) Aktuallıq - ünsiyyətin məqsəd və şərtlərinə uyğun olaraq dil vasitələrinin üslubi, kontekstual, situativ, fərdi-psixoloji seçimi əsasında nitqin təşkili.

Sistemli yanaşmanın mahiyyəti isə ondan iabrətdir ki, dil özü uzunmüddətli sabitliyə malik olan sistemdir. Dil və nitq ilə təfəkkür - insan idrakının ən yüksək pilləsi ilə obyektiv reallığın əks olunması prosesi arasında sıx bağlılıq mövcuddur. Bu səbəbdən onlar nəhəng bir bəşəri və ümummilli mədəniyyət sisteminin daxilində mövcuddurlar. Eyni zamanda, televiziya nitqi publisistik nitq üslubunun tərkib hissəsi kimi funksional üslublar sisteminə daxildir. Televiziya nitqi həm də söz, görüntü və səsi özündə birləşdirən unikal bir sistemdir. Televiziya nitqinin üslubi xüsusiyyətləri, ilk növbədə, onun çoxsaylı auditoriyaya ünvanlanan səsli nitq olması ilə bağlıdır. Bu xüsusiyyət televiziyada səslənən nitqin anlaşıqlı olmasına diqqəti, kitab dilini danışıq dilinə yaxınlaşdırmaq meylini izah edir. Bundan əlavə, televiziya

nitqini öyrənərkən onun texniki vasitələrlə ötürülməsi faktını da nəzərə almaq lazımdır. Onu bəzən musiqi, inter-səslər, küylər və ən əsası, videoardıcıllıq müşayiət edir. Bu komponentlərin bir-biri ilə eyni vaxtda əlaqəsi dil vasitələrinin orijinallığına zəmin yuaradır.

Televiziyada səslənən nitq ədəbi dilin qrammatik-sintaktik və qrammatik-morfoloji xüsusiyyətlərini ehtiva edir.

Sintaksis dil sisteminin ekstralinvistik təsirlərə nisbətən dsaha az təsirə məruz qalması ilə xarakterizə olunan bir pilləsidir. Lakin demək olmaz ki, bu dəyişikliklər tamamilə daxili qanunların hərəkətindən irəli gəlir və heç bir halda kənar təsirlərə məruz qalmır. Dil sisteminin xüsusi səviyyəsi kimi sintaksisdəki dəyişikliklər spesifikliyi ilə seçilir: bir tərəfdən qrammatikanın bir bölməsi kimi sintaksis son dərəcə sabitliyə malikdir, digər tərəfdən, məsələn, morfologiyadan fərqli olaraq, daha dəyişkən və variativdir. Bundan başqa, leksik vahidlər cümlə və ifadələrin tərkibində təzahür etdiyi üçün dil sisteminin bu mobil sahəsində fəal şəkildə baş verən bir çox semantik proseslər məhz sintaksis sayəsində həyata keçirilir.

Sintaktik cəhətdən televiziya nitqi publisistik üslubun tələblərinə cavab verir - televiziya nitqi şifahi nitq olduğundan onun sintaktik quruluşu əhəmiyyətlidir. Tamaşaçının geriyə dönüb ona deyilənlərə bir daha qulaq asmaq şansı yoxdur. Bu səbəbdən, televiziya mətnlərindəki cümlələr elə qurulur ki, mümkün qədər geniş tamaşaçı kütləsi üçün anlaşılan və aydın olsun. Bu cümlələr çox uzun olmur; onlarda sifət və zərflərdən çox az istifadə edilir. Yəni təsviri mətnlər üçün səciyyəvi olan sintaksis arxa plana keçir, təsvir videocərgə ilə əvəz edilir. Tamaşaçının diqqətini yayındırmamaq üçün televiziya mətnləri sintaktik olaraq elə qurulur ki, bu mətnlərin emosionallığı itməsin - sual işarələri, nida işarələri, nöqtələr aparıcılar və jurnalistlər tərəfindən adekvat intonasiya vasitəsilə vurğulanır.

Xəbərlərdə dilin sintaktik quruluşu kifayət qədər müxtəlifdir: yarımçıq cümlələr (*Budur, qaliblər ekranda.*); məchul növdə olan konstruksiyalara üstünlük verilməsi meyli (*Ev tikmək üçün icazə alındı; Müəyyən edilmiş yerlər yoxlanıldı.*); proqramların sonunda hər yerdə feilsiz nominativ cümlələr (*Ac insanlar. Bayram əhval-ruhiyyəsi.*); mürəkkəb feilin köməyi ilə təfərrüatlı mürəkkəb konstruksiyalar (*Bu günün əsas vəzifəsi ölkəni böhrandan çıxarmaqdır.*) və s. üstünlük təşkil edir.

Dilin varlığını onun ən mobil hissəsi olan lüğət fondunun daim zənginləşməsi, inkişafı olmadan təsəvvür etmək mümkün deyil. Xüsusilə sosial dəyişikliklər dövründə dilə yeni sözlərin daxil olması prosesi daha da sürətlənir. Bu zaman lüğət fonduna yeni sözlər əlavə olur, bəziləri isə qeyri-fəal lüğətdən fəal yarusa keçir. Müasir dövrün yeni lüğət fondu cəmiyyətin bütün sahələrini əhatə edir:

- siyasət, dövlət quruculuğu, ideologiya (*dövlət quruluşu, avtoritarizm, andiçmə, planlaşdırma*);
- iqtisadiyyat (*barter, biznes mərkəzi, kvazipul, kvota, konvertasiya*);
- tibb (*immun çatışmazlığı, iridologiya, hospis*);
- din (*islamlaşma, karma, çakra*);

- elm və texnologiya (*klon, kilobayt, klan, fayl, disk, internet, kartric*);
- məişət (*yoqurt, keys, hamburger*).

Bununla belə, lüğət fondunda qarşılıqlı əvəzetmə halları da baş verir. Bir çox sözlər məişət leksikasını tərk edir. Bunlara, əsasən, keçmiş siyasi sistemlə bağlı olan sözlər daxildir, məsələn, post-sovet respublikalarının leksikonunda sovet reallığını səciyyələndirən *vilayət komitəsi (обком), komsomol (комсомол), fəal (активист), plandan əlavə (сверхплановый)* və s. söz və ifadələri nümunə göstərmək olar. SSRİ-nin süqutundan sonra ittifaq respublikaları müstəqillik statusu qazandı və millətlər bir çox keçmiş dəyərləri yenidən qaytardı. Hər bir ittifaq respublikası milli adət-ənənələrini qoruyub saxlamağı və inkişaf etdirməyi özünə borc bildi, ayrılan respublikalar iqtisadiyyatını bərpa etmək üçün özünəməxsus vasitələrdən bəhrələndi.

Beləliklə, hər iki sahə (sintaksis və lüğət fondu) televiziyada səslənən nitqin həm ötürülməsində, həm də nəzərdə tütülan mesajın tamaşaçı tərəfindən adekvat (yaxud, qeyri-adekvat) qəbulunda olduqca əhəmiyyətli rola malikdir.

Əgər dilin bir sistem olduğunu qəbul etsək, o zaman nitqin aydın funksional səciyyə daşıdığını müşahidə edərik. Xüsusilə, televiziya xəbər proqramları əsasında nitqin tədqiqinə funksional yanaşma məhz bu postulata əsaslanır. Aşkar funksional səciyyəyə malik olan nitq öz daxilində müəyyən bir mədəni struktura malikdir. Əksər tədqiqatçılar nitqin daim hərəkətdə olması fikrini qəbul edirlər. Nitqin ən mobil forması gündəlik, məişət nitqidir. O, müxtəlif üslubların elementlərini özündə cəmləyərək, onlara yeni semantik çalarlar verir və morfoloji, orfoepik variantlar əlavə edir.

Çağdaş dövrümüz xəbər televiziyasının öyrənilməsi üçün ən zəngin materialı təqdim edir. Əvvəla, ona görə ki, son iyirmi ildə qlobal reallıq kifayət qədər dəyişmişdir, bununla yanaşı telekanalların siyasəti, ekran mədəniyyəti artıq bir neçə dəfə dəyişikliyə məruz qalmışdır. Hətta əyalət şəhərlərində belə yerli telekanallar öz işinə xəbərlərlə başlayır. Əksər hallarda xəbər proqramı rəsmi proqram kimi ciddi telekanallarda ilk olaraq yayımlanır. Bəzi hallarda xəbərlər reklamlarla və musiqili təbriklərlə müşayiət olunur. Məhz xəbərlər kanalın siyasətini müəyyən edir; yaşından, təhsilindən, sosial vəziyyətindən asılı olmayaraq əhalinin əsas hissəsi xəbərləri izləyir.

Müasir elektron jurnalistikanə kütləvi kommunikasiyanın ən effektiv vasitəsi, yəni milyonlarla insanın eyni vaxtda bir-birilə qarşılıqlı əlaqəsi və bir-birinə təsiri üsulu adlandırmaq olar. Təkcə onu qeyd etmək kifayətdir ki, orta amerikalı həyatının 12 ilini, bir ingilis 11 ilini, hər fransız və italyan isə 9 ilini televiziyaya baxmağa sərf edir. Rusiyada, demək olar ki, əhalinin 90 %-i ölkədəki vəziyyət barədə məlumatı məhz televiziya xəbər buraxılışlarından alır. Sovet İttifaqı dövründə televiziya xəbərləri dövlət ruporu (carçısı) kimi xarakterizə olunurdu. Bu gün xəbər heç də az əhəmiyyət kəsb etmir - ciddi reytinqə güvənən istənilən teleşirkət işinə xəbərlərlə başlayır və əsas diqqətini ona yönləndirir.

Bir tərəfdən, xəbərlər cəmiyyətdə baş verən prosesləri əks etdirmək üçün nəzərdə tutulmuşdur. Öz informasiya xidmətinin yaradılması televiziya şirkətinin yetkinliyinin göstəricisidir və bu xidmətin səmərəli fəaliyyəti tele-auditoriya qarşısında televiziya təşkilatının uğurunun rəhnidir. Müasir tele-auditoriya üçün çox geniş seçim bu sahədə kəskin rəqabət situasiyası yaratmışdır. Amma istənilən rəqabət şəraitinin müsbət tərəfləri vardır. Bu yanaşma tele-informasiyanın rəqabət qabiliyyətini artırmaq üçün jurnalistikanın forma və metodlarını kristallaşdırır. Bu və ya digər tele-şirkətin, mülkiyyət formasından asılı olmayaraq, yayımladığı xəbər proqramları həmişə sosial əhəmiyyətli proqramlardır - bütün demoqrafik qruplar, cəmiyyətin bütün sektorları, əhalinin bütün kateqoriyaları üçün nəzərdə tutulmuş proqramlardan ibarətdir. "*Tamaşaçıların əksəriyyətinin maraqlarını ifadə etməyən kütləvi informasiya proqramı cəfəngiyyatdır. Televiziya təşkilatının başında kim dayanırsa-dayansın, bu "kapitan" kimin fikrini əsas götürürsə-götürsün, özünü müəllifi hesab etmədiyi fikirləri, informasiya proqramını bütün cəmiyyətə ünvanlayır və informasiya istehlakçılarının maksimum sayına böyük ehtiyac duyur",* – Valeriy Tsvik yazır [5, s.68]. Müəllif "Televiziya jurnalistikası" («Телевизионная журналистика») dərsliyində informasiya (xəbərlər) proqramına aşağıdakı kimi təyinat verir: *"Cari hadisələr haqqında 8-14, bəzən 20 epizoddan ibarət müntəzəm hesabat ("süjetlər", reportajlar, şifahi hesabatlar). Xəbərlər toplusu universal (siyasətdən havaya qədər) və qeyri-universal (yalnız idman, şəxsi problemlər, avtomobil, biznes, kənd təsərrüfatı və s. mövzulara həsr olunmuş məsələlər) xəbərlərdən ibarət ola bilər. Günün və ya həftənin sonunda informasiya-analitik verilişlər yayımlanır, burada yalnız faktlar deyil, eyni zamanda ekspertlərin və aparıcının rəyləri, ümumiləşdirmələri yer alır. Xəbər proqramları istənilən televiziya şirkətinin "siması", yayım gününün istinad nöqtəsidir*" [5, s.68].

Valeri Saruxanov "Televiziyanın ABC" («Азбука телевидения») kitabında televiziya xəbər buraxılışlarına aşağıdakı tərifləri verir:

1. *"Xəbər buraxılışı günün mövzusu ilə bağlı aktual xəbərləri özündə cəmləyən, ölkədə və xaricdə həyatın bütün sahələrində baş verən fakt və hadisələrə, proseslərə tamaşaçıları operativ şəkildə yönləndirməyə qadir olan informasiya proqramıdır".*
2. *"Xəbər buraxılışı bir növ "tematik bloklar"da qruplaşdırılmış xəbərlər toplusudur. Hər blokun öz mənası, çəkisi, buraxılışda daimi yeri var. Bu gün yayılmış xəbər buraxılışlarından biri yeni faktların və hadisələrin ətraflı şərh edildiyi dövri və davamlı yayımdır"* [3, s.30].

Göründüyü kimi, televiziya nitqini formalaşdıran bir neçə faktor mövcuddur. Bütövlükdə, televiziya nitqi, televiziyanın özü kimi, davamlı olaraq dəyişikliyə məruz qalır. Ekranda bəzi söz və ifadələr fəallaşır, digərləri aktuallığını itirdiyindən qeyri-işlək xassə əldə edir, cümlələr daha da qısa quruluş alır, televiziyanın nitq mədəniyyəti dəyişir. Bundan başqa, televiziyada nəsil dəyişikliyi baş verir ki, bu da özlüyündə əhval-ruhiyyənin, mühakimələrin, nitq tərzinin dəyişməsinə səbəb olur. Bununla belə, zaman televiziyada təqdim olunan bütün janrlar içərisində informasiya

janrlarına, o cümlədən xəbər proqramlarına daha çox təsir edir. Sənədli-bədii janrda yayımlanan verilişlər ən az təsirə məruz qalır; ilk növbədə ona görə ki, onların daxilində yalnız televiziyanın qanunları deyil, eyni zamanda sənət qanunları təzahür edir. Televiziya tamaşası, sənədli film, tele-esse janrları onların əsasını təşkil edən dramaturgiya qanunlarına müvafiq olaraq qurulur. Bütün qeyd edilənlər bu qisim proqramların lüğətdən istifadə, cümlələrin qurulması, üslub seçimi və s. nüanslarda özünəməxsus şəkildə təsirlərə məruz qalmasını göstərir.

Mavi ekranda zamanın təsiri, eyni zamanda analitik janrlarda təqdim olunan nitqlərdə nəzərə çarpır. Şərh və rəylərdə müəyyən dil vahidlərindən istifadə üslubu zamana uyğunlaşır, zamanla dəyişir. Televiziya proqramlarının hazırlanması prosesində yayım şəbəkəsi onlardan asılı olaraq qurulur və kanalın siyasəti də məhz bununla müəyyən olunur. Bundan irəli gələrək, xəbərlər istənilən telekanalın siması olduğundan, xəbər verilişlərinə daha çox diqqət yetirilir. Odur ki, televiziya nitqinin formalaşma amili kimi tarixi və ictimai-siyasi dəyişikliklər faktorunu informasiya proqramlarının təqdim etdiyi nitqlərdə izləmək mümkündür.

R.A.Boretsky və Q.V.Kuznetsov televiziya informasiya janrlarına operativ (şifahi) xəbərləri, videosüjetləri, qısa müsahibə və reportajları; analitik janrlara video-yazışmaları, söhbətləri, şərhləri, icmalları, müzakirələri, mətbuat konfranslarını, tok-şouları; sənədli-bədii janrlara oçerkləri, esseləri, felyetonları, broşürləri aid edirlər. Həmmüəlliflər qeyd edirlər ki, *"İnformasiya bolluğu, reportajın üstünlüyü söz azadlığının göstəriciləridir"* [2, s.76]. Məlum olduğu kimi, informasiyanın obyekti vahid faktdan, konkret hadisədən ibarətdir, metodu isə bu faktın təsdiqidir.

Nəticə. Son iyirmi ildə bütün cəmiyyətlərin dilinə, nitqinə təsir edən ən güclü amillərdən biri məhz televiziya, daha dəqiq ifadə etsək, televiziya nitqidir. Məhz bu səbəbdən mütəxəssislər bu nitqi getdikcə daha çox ayrıca nitq növü kimi fərqləndirməyə meyil edirlər. Nəticədə, üslubiyyat sahəsində televiziya nitqi publisistik funksional üslubun dəqiq sərhədlərə malik olan bir variantı kimi təsnif edilir.

Televiziya nitqi demək olar ki, televiziya ilə yayımlanan ilk verilişdən dərhal sonra formalaşmağa başladı. Əgər ilk əvvəl radioda və ya səhnədə səsləndirilən nitq tamamilə təqliddən ibarət idisə, son iyirmi ildə o, nəinki televiziya nitqi kimi tanınmışdır, eyni zamanda leksik-qrammatik, üslubi vahidlərin istifadəsində konkret norma və qaydaların təsbit olunmasına zəmin yaratmışdır. Buradan çıxış edərək, televiziya nitqini dövrə uyğun - müasir media janrı adlandıra bilərik.

ƏDƏBİYYAT

1. Allahverdiyeva A.M. Televiziya xəbər diskursunun ekstralinqvistik və linqvistik təsviri. Bakı – Mütərcim, 2021, 152 s.
2. Борецкий Р.А., Кузнецов Г.В. Журналист ТВ: За кадром и в кадре. Основы профессионального мастерства. - М., 1990.- 152 с.

3. Саруханов В.А. Азбука телевидения. Учебное пособие для вузов. М.: Аспект Пресс, 2003, - 223 с.

4. Сенкевич М.П. Культура радио- и телевизионной речи: Учебное пособие для вузов. М.: Высшая школа, 1997. – 96 с.
5. Цвик В.Л. Телевизионная журналистика: История, теория, практика: Учебное пособие. — М.: Аспект Пресс, 2004. — 382 с.

АЛЛАХВЕРДИЕВА АЙТАН МУСА

ТЕЛЕВИЗИОННАЯ РЕЧЬ КАК ЖАНР ФУНКЦИОНАЛЬНОГО ПУБЛИСИСТСКОГО СТИЛЯ

Резюме

В статье отмечается, что телевизионная речь, являясь отдельным жанром публицистического стиля, в первую очередь обслуживает общественно-политическую и культурную сферы массовой коммуникации, освещает актуальные проблемы и события текущей жизни общества, формирует общественное мнение. . На основании этого отмечается, что телевизионная речь имеет языковые и стилистические особенности, всегда находящиеся в зависимости как от тех, кто ее воплощал и создавал, так и от тех, на кого она была направлена. Здесь для преодоления экстралингвистических и психологических трудностей, наряду с рядом языковых барьеров при адекватном восприятии и понимании транслируемой по телевидению информации, индивид должен обладать определенным объемом социокультурных фоновых знаний и уметь подключать звуковые - видеоречевых ситуаций одновременно с целью интеграции их в языковую карту мира, то предполагается, что необходимо формирование полимодальных прагматических умений.

Кроме того, отмечается, что речь, услышанная по телевидению, содержит особенности синтаксических и лексических особенностей литературного языка, и каждый уровень анализируется отдельно. В результате делается вывод, что обоим направлениям отводится очень важная роль как в передаче речи на телевидении, так и в адекватном (или неадекватном) восприятии предполагаемого сообщения аудиторией.

В результате подчеркивается, что одним из сильнейших факторов, влияющих на язык и речь всех обществ в XXI веке, является телевидение, точнее, телевизионная речь. Именно по этой причине специалисты все чаще склоняются к выделению этой речи в отдельный вид речи, а в области стилистики вырабатывается представление об отнесении этого вида речи к варианту публицистического функционального стиля с четкими границами.

Ключевые слова: *публицистический стиль, массовая коммуникация, телевизионная речь, телевизионный информационный жанр, теленовостные тексты.*

ALLAHVERDIYEVA AYTAN MUSA

TV SPEECH AS A GENRE OF PUBLICISTIC FUNCTIONAL STYLE

Summary

In the article it is mentioned that TV speech, which is a separate genre of publicistic style, primarily serves the socio-political and cultural spheres of mass communication, illuminates current problems and events of social life and forms public opinion. Based on this, it is noted that television speech has linguostylistic features that are always dependent on both - who embodies and creates it, as well as to whom it is directed. Here, it is also suggested that the formation of multimodal pragmatic skills is necessary in order to overcome extralinguistic and psychological difficulties, along with a number of linguistic barriers during the adequate reception and understanding of the information broadcasted on TV. Moreover, an individual should have a certain amount of socio-cultural background knowledge and be able to connect audio-video-oral situations at the same time in order to integrate them into the language map of the world.

In addition, it is noted that the speech given on TV reflects especially syntactic and lexical features of literary language, and each level is analyzed separately in the article. It is concluded that both fields have a very important role in both the transmission of the speech on TV and the adequate (or inadequate) acceptance of the intended message by the audience.

As a result, it is emphasized that TV is one of the strongest factors affecting language and speech of all societies in the XXI century, to be more precise, TV speeches. It is for this reason that specialists increasingly tend to distinguish this speech as a separate type of speech, and in the field of stylistics, the idea of classifying this type of speech as a variant of publicistic functional style with clear boundaries is yielded.

Key words: *journalistic style, mass communication, TV speech, TV information genre, TV news texts.*

Redaksiyaya daxil olma tarixi: 07.12.2022
Çapa qəbul olunma tarixi: 28.12.2022
Rəyçi: filologiya elmləri doktoru Könül Əbdürrəhmanova tərəfindən çapa tövsiyə olunmuşdur

fil.e.n., dos.SEVDA RZAYEVA
Bakı Avrasiya Universiteti
sevda.rzayeva.1977@mail.ru

İNGİLİS DİLİNDƏ TERMİN YARADICILIĞININ PRODUKTİV ÜSULLARI

Giriş

Dilin inkişafı cəmiyyətin inkişafı ilə bağlı olduğu üçün social-ictimai həyatda baş verənlər bu və ya digər şəkildə dilin leksik tərkibində öz əksini tapır. XXI əsrdə cəmiyyətin inkişafı ilə bağlı elm və texnika sürətlə inkişaf edir, təkmilləşir, yenilənir. Hər bir elmi-texniki yenilik, əldə olunan nəticələr, kəşflər yeni anlayışların meydana gəlməsini şərtləndiyi kimi, dildə də onları adlandıran nominativ xarakterli adların, terminlərin yaranmasına səbəb olur. Müasir dövrdə terminoloji leksikanın zənginləşməsi prosesi daha sürətlə gedir. Son illər yeni yaranan sözlərin əksəriyyəti terminoloji xarakter daşıyır. Bu da təsadüfi deyil, çünki dil və cəmiyyət bir-biri ilə elə bağlıdır ki, cəmiyyətin inkişafının ayrı-ayrı sahələrində özünü göstərən yeniləşmə dildə öz əksini tapır. Bu zaman yeni yaranan elmi-texniki anlayışların terminlərlə adlandırılması zəruri proses kimi meydana çıxır. Deməli, terminoloji qat fasiləsiz olaraq inkişaf edir, bu da dildə termin yaratma prosesi nəticəsində reallaşır. Bu baxımdan dildə yeni terminlərin əmələ gəlməsi zəruri tələbatlardan yaranır. Hər bir dildə terminoloji leksikanın zənginləşmə prosesi (mənbə və üsulları) təxminən eyni formada özünü göstərir. Yəni, elmin inkişafı ilə əlaqədar olaraq müxtəlif sahələrə aid anlayış və məfhumları adlandırmaq üçün hər bir dilin milli bazası ilə yanaşı digər dillərdən də terminlərin alınması və onların vasitəsilə tələbatın ödənilməsi əksər dünya dilləri üçün xarakterik haldır.

Söz düzəltmə dilçiliyin əsas aparıcı mexanizmlərindən biridir. Neologiyanın tədqiqi məsələləri hər zaman dilçilərin diqqət mərkəzindədir, çünki dil canlı, dinamik, daim inkişaf edən bir sistemdir. (2, s.122)

Müasir ingilis dilində söz yaradıcılığı yerli və xarici dilçilər tərəfindən daim tədqiq edilsə da, bu problem haqqında kifayət qədər nəzəri bilik yoxdur. Çünki dilin quruluşu və leksik tərkibi daim dəyişikliklərə məruz qalır, Söz yaradıcılığı sistemində yeni metod, üsulları müəyyənləşdirmək lazımdır. Məhz buna görə müasir ingilis dilində termin yaradıcılığının mövcud üsullarının təhlilini aparmaq zəruridir.

Müasir ingilis dilində sözdüzəltmənin müxtəlif üsullarını təhlil edərkən, belə bir qənayətə gəlirik ki, neologizmlərin məsuldar hissəsi elmi-texniki və KİV sahələrində əmələ gəlir. Bu da öz növbəsində elmi-texniki dilin global inkişafı və KİV-də auditoriya qazanmaqdan ötrü müasir dilin hər növ imkanlarından istifadəsi ilə bağlıdır. (7) İnformasiya texnologiyalarının tətbiqi, həyatımızın hər bir sahəsinə təsir edərək neologizmlərin yaranmasına və dilin yeni şəraitdə fəaliyyət göstərməsinə imkan yaradır. Elmi-texniki, ictimai-siyasi, KİV sahələrində yeni terminlərin yaranması ye-

ni anlayış yaratmaq, eləcə də predmet və ya hadisəni daha ifadəli şəkildə qeyd etmək üçün ekspressiv ehtiyac zərurəti ilə izah olunur (2).

Söz yaradıcılığında sözdüzəltmə üsulların müxtəlifliyi, onların semantik və qrammatik mahiyyəti hər zaman tədqiqatçıların işlərində diqqət və müzakirə mərkəzində olub və olmaqdadır. Yerli alimlərdən İ.Qasımov, D.Yunisov, S.Sadıqova, rus alimlərindən A.Reformatskiy, B.Golovin, V.Vinogradov, Y.Superanskaya, Y.Kubrakova törəmə sözün semantik təhlili, onun mexanizmi və əsasən sözün semantikası ilə müqayisə olunmasını araşdırmışlar. G.Rondo, S.Griknev, Y.Zemskoy və s. alınma sözləri (terminləri) tədqiq etmişlər. (11)

R.Piotrovskiy və V.Proxorovanın konsepsiyaları terminin mürəkkəb məna strukturuna əsaslanır. Xarici arlimlərdən M.Conson və C.Lakoff tədqiqatlarını konseptual metafora üzrə təhlil aparıblar. (5)

Terminləşmənin müxtəlif üsullarının linqvistik təhlili yeni semantik mənaları aşkar etməyə, ayrı-ayrı söz formalaşdırma üsullarının inkişaf perspektivlərini qiymətləndirməyə, həmçinin ingilis dilinin mürəkkəb sözlərinin strukturlarını sistemləşdirməyə və xarakterizə etməyə imkan verir.

Semantik və morfoloji üsullar

Tədqiqatımızda ingilis dilində yeni terminlərin yaranmasının tədqiqi ilə bağlı aşağıdakı üsulları aşkar etmişik.

Semantik üsulla termin yaradıcılığı prosesində yaranmış anlayışı ifadə etmək üçün dilin sözyaratma üsulları əsasında yeni terminlərin yaradılmasına deyil, dildə əvvəlcədən mövcud olan müxtəlif məzmunlu leksik vahidlərə yeni mənalar verməklə elmi-texniki anlayışlar yaradılır. Belə ki, bu zaman sözün-terminin daxili tərkibi dəyişmir, ancaq məna dəyişikliyi ilə əlaqədar yeni məfhum və ya əşya ilə dildə əvvəlcədən mövcud olan anlayış və ya əşya arasında müəyyən assosiativ əlaqə yaratmaqla sözün, terminin mənası genişləndirilə bilir. Deməli, semantik üsulda yeni anlayış yalnız mövcud sözlərlə ifadə edilir, terminin, sözün semantik yükü artır. Məs.: electrode activity, bioenergetic architecure, horse power hour və s.

Morfoloji üsulla termin yaradılan zaman dilin lüğət tərkibində mövcud olan leksik vahidlərə sözdüzəldici şəkilçi artırmaqla yeni məzmunlu anlayışları ifadə edən terminlər yaranır. Semantik üsuldan fərqli olaraq morfoloji üsulla termin yaradıcılığı daha məhsuldardır və daha çox milli dil qanunlarına əsaslanır. Morfoloji üsul ilə yaranan terminlər eyni ilə söz kimi, sözdüzəldici modellər və söz əmələ gətirən affikslərin köməyi ilə düzəlir, yani kök morfemlər və affiksal morfemlər. Affiksal morfemlərə prefikslər, suffikslər və fleksiyalar daxildir. Prefikslər və leksik suffikslər söz düzəltmə funksiyasına malikdir, kök ilə birlikdə onlar sözün başlanğıcını əmələ gətirir. D.Yunusova görə affiksal morfemlərin bir neçə formalarının mövcuddur. Alim affiksal morfemləri sözdüzəldici, sıfır, müsbət və mənfi, birləşdirici morfemlərə bölür [13,s.51]. Dilçilikdə müsbət və mənfi morfemlər anlayışına da rast gəlinir. İngilis və Azərbaycan dillərində bəzi morfemlər var ki, onlar müsbətlik və mənfilik çalarları ifadə edir. Azərbaycan dilində -lı (+) yəni müsbətlik, -sız (-) yəni mənfilik bildirir, -

dir (+), -deyil (-), ingilis dilində -ness (+), -less (-), im (-), in (-) morfemlər. Məsələn, qüdrətli, sevincli, irresponsible, disorder, impatient və s. (4, s.52)

Affiksasiyaya, həmçinin proqressiv derivasiya da deyilir. Proqressiv derivasiya morfoloji prosesdir. Burada sözlərin kök və yaxud sözün əsas dəyişməyən hissəsinə affikslər əlavə olunur.

Suffiksasiya üsulu. "İngilis dilində affiks morfemlərin sayı az olduğundan onun işlənmə tezliyi də çoxdur. Müəyyən dil vahidi nə qədər kiçikdirsə, onun dildə işlənmə əmsalı o qədər də genişdir. Dildə fonemlər ən çox işlənmə tezliyinə malikdir, ikinci yerdə morfemlər gəlir" (4, s.139). Baxmayaraq ki, söz yaradıcılığında bu üsuldan aktiv istifadə olunur, termin yaradıcılığında o qeder de geniş yayılmış üsul deyil. Yenə də bir çox terminlər, məhz bu üsul ilə yaranır.İngilis dilində termin yaradıcılığında suffiksləri aşağıdakı kimi təsnif etmək olar:

mənşəyinə görə: yerli ingilis suffikslər - ly,-ful,-er, -ness, -mis, -out,-over,-semi (lovely, respectful, happiness, dismis, without, cutover) və alınma suffikslər -tion,-fy,-ize,-able (information, spotify, capsize ,capable)

məsuldarlığına görə: yüksək məsuldar -ize,-er,-ism,-ist (maximize, folder, archaism, anarchist,) , məsuldar -ery,-ation,-ic, (machinery, formation, historic), az məsuldar -ee,-nik, (employee, junik) qeyri-məsuldar -ard,-fold,-kin (wizard, twofold, dewilkin,)

üslubi mənsubiyyətinə görə: neytral -er, -able, baker, breathable və üslubi rəngarəng -eer,-ard,

semantikasına görə:agentiv -er,-ess,-ant (driver,electiees,distant)

nitq hissəsinə görə

Terminlərin yaranmasında, xüsusi ilə turizm, qonaqpərvərlik, informasiya texnologiyaları, hüquq sahəsində ən məhsuldar suffiks **- er** sayılır. Yeni terminlərin yaranması prosesində daha çox isimlərə şəkilçi artırılaraq ixtisas və peşə sözlərinin meydana gəlməsi müşahidə olunur. Məsələn : porter -" daşıyıcı "assembler (s. Assemble «topla») «komponent proqram»; loader (cild. load «yüklə») «yükləmə proqramı»; offender - cinayətkar; killer – qatil; lawyer - hüquqşünas; murderer - qatil; owner - sahibi; prisoner - məhbus (8).

-ıng suffiksi demək olar ki, bütün sahələrdə anlayışların yaranmasında ən geniş yayılmış üsuldur: reklam terminləri və qəzet publisistikasında: billing - reklam, tanıtım (mal, ticarət markası), bill - afiş; branding - markalaşdırma, ticarət markasının təşviqi, brand - ticarət markası marka; advertising - reklam, advert - istinad etmək, qeyd etmək; googling – Google axtarış sisteminin köməyi ilə internetdə axtarış (informasiya), -dən Google - Google axtarış sistemi (8);

-ion (-tion, -ation) suffiksinin köməyi ilə iqtisadi terminlər yaranır: globalization - qloballaşma, globalize – yaymaq bütün torpaq; (market) atomization - bazarın bölünməsi.

Terminlərin əmələ gəlməsi üçün ən geniş yayılmış prefikslər multi- çoxluq və cyber- dəyərindədir. Belə terminlər rəqəmsal texnologiyalara aiddir: multimedia

"kompüterin mətn, qrafik, səs və video məlumat "cyberbunny" kiberprofan "(kompüter) yeni gələnlərə «faydalı» məsləhətlər verən amatör), cybercrud «kiberlsleng», kompüter texnikası (8)

Macro-, micro-, de-, sub-, co- etc. prefiksləri iqtisadi, hüquqi terminlərin yaranmasında geniş istifadə olunur: euroegmentation - mikroayırma; decrease - azalma; co-debtor - «müttəfiq» və s. Hüquqşünaslıqda ən məhsuldar prefikslər inkar və mənfi əhəmiyyət daşıyan un-, in-, il- olur. Bu prefikslərlə 300-dən çox terminlər qeydə alınmışdır (8)

Prefix-suffiks üsulu çox istifadə olunan üsul deyil. Bəzi dilçilər mu metodu parasintez adlandırır. Burada terminin əvvəlinə prefix, kökdən sonra isə suffiks əlavə olunur. Bu üsulla yaranan terminlərə demək olar ki, hər sahədə gəlmək olar, ən çox tibbi terminologiyada istifadə olunur. Məsələn: endocarditis, dissolving, destruction, rejuvenation, dehydration

Sintaktik üsul

İngilis dilinin terminologiyasında semantik, morfoloji üsulla yanaşı, sintaktik yolla termin yaratmağın böyük rolu var və geniş yayılan metoddur. Termin yaradıcılığında iki və daha artıq sözün birləşərək mürəkkəb söz və söz birləşməsi şəklində elmi anlayışı ifadə etməsi terminologiyanın zənginləşməsində mühüm rol oynayır. Terminoloji sistemin təhlili göstərir ki, elm və texnikanın müxtəlif sahələrinə aid terminlərin yaranmasında sintaktik üsul xüsusi əhəmiyyət daşıyır. Dilin lüğət tərkibində sintaktik üsulla yaranan terminlər dedikdə, mürəkkəb və termin birləşmələri şəklində olan terminlər nəzərdə tutulur.

Sintaktik üsul ingilis terminlərinin yaranması üçün ən məhsuldar üsuldur. Onun mahiyyəti sözlərin köklərinin birləşməsidir. Nəticədə qısaldılmış terminoloji birləşmələr yaranır. Başqa sözlə desək, yeni terminlər iki sözün kök hissələrinin birləşməsi ilə yaranır. Bir neçə aspektə görə bu üsul mürəkkəb bir sayılır. Mürəkkəbliyi bir neçə aspektdə özünü göstərir: 1) qrafik - yəni, sözün yazılış qaydqasının müəyyən edilməsi (birgə, ayrı, ya defislə), 2)semantik- (mənasına görə), nəhayət 3) struktur aspektində (termin tərkibinə daxil olan elementlər üzrə) özünü göstərir.

Sintaktik üsula sözlərin birləşməsi, kontaminasiya, terminoloji birləşmələr, abbreviaturalarla mürəkkəb sözlər aiddir.

Sözlərin kök hissəsinin birləşməsi kontaminasiya adlanır. Bu üsulda iki sözün müxtəlif elementlərinin birləşməsi nəticəsində yeni söz (ifadə) yaranır. Bu metodala yaranan terminlər sözdüzəlmənin iki əsas meyyarına uyğun gəlir: bütövlülük və yığcamlılıq. Məsələn edutainment, emoticon, decepticon. (9).

Digər metod, abbreviasiya adlanır. Müasir dövrdə abbreviaturlar söz yaradıcılığında, xüsusən də termin yaradıcılığında populyar üsullarından biri hesab olunur. Onun populyarlığına təsir edən əsas ekstralinqvisitik amillər informasiya axınının artması və elm və texnikanın sürətli inkişafıdır.

Abbreviasiya aşağıdakı növlərə bölünür : alfabetizmlər - hərf əlifbadakı kimi səslərir: HR – Human Resourses; səsli akronimlər (adi söz kimi oxunur): NATO –

North Atlantic Treatment Organization ; mürəkkəb sözlərin qısaldılması (sözün əvvəli, ortası və sonunda) – phone (telephone), ad (advertisement), Eurovision (Europe television)

Nəticə

Müasir ingilis dilində müxtəlif termin üsulları mövcuddur, lakin onların hamısı eyni dərəcədə tətbiq olunmur və termin yaradıcılığına kəsin əhəmiyyəti fərqlidir. Bu tədqiqatda təqdim olunan termin yaradıcılığının üsulları ən çox yeni terminləri yaradan üsullardır. Terminləşmənin mövcud üsullarının təhlili göstərdi ki, üsulların hər biri unikaldır. Tədqiqatın nəticələri görə, ən məhsuldar olan - sintaktik üsul və abbreviasiyadır. Bu üsulların mürəkkəb olduğuna baxmayaraq, onların köməyi ilə müxtəlif sahələrdə (iqtisadiyyat, siyasət, tibb, hüquq, və s.) çox sayda termin yaranır. Sözügedən termin üsullarının təhlili ilə məhdudlaşmamaq lazımdır, çünki dil daim yeni söz və terminlərlə dolu canlı bir sistemdir, bunlar da öz növbəsində müxtəlif üsullarla yaranır. Bu tədqiqatda ingilis dilinin terminləşməsinin bir neçə əsas üsulu təhlil edilmişdir.

Ədəbiyyat

1.Vinogradov V. Slovoobrazovaniye i ego otnosheniye k grammatike i leksikologiyi. Moskva,1952, 152

2.Degtyareva E. The functioning of prefix legal terms in the English language and methods for their translation // Bulletin of the University named after O.E. Kutafina, Moskva,2017, No. 11 (39).

3.Qasımov İ. Müasir Azərbaycan dilində hərbi terminlərin yaranma yolları. Bakı: Nurlan, 2000

4.Quliyev C. Mürəkkəb söz və onun strukturu. Bakı: Elm və təhsil, 2011, 195

5.Korneva Y. Metaforiçeskiy sposob terminoobrazovaniya v sovremennoy angliyskoy terminologii marketinga//Vestnik Moskovskogo gosudarstvenogo oblastnogo universiteta.Seriya: Linqvistika,2016. № 3.

6.KuularE. Sposobi popolneniya slovarnogo sostava sovremennogo angliyskogo yazıka//Vestnik Tuvinskogo gosudarstvenogo universiteta. 2011.№ URL:https://cyberleninka.ru/article/n/sposobypopolneniya-slovarnogo-sostava-sovremennogo-angliyskogo-yazyka

7. Lakoff D.,Conson M. Metaforı, kotorımı mı jivem. Moskva:LKİ, 2008.

8. Matveeva D.Polisemantika affiksalnogo sposoba slovoobrazovasniya v sovremennom angliyskom yazıke//Vestnik BUİT.2010.№4.URL: https://cyberleninka.ru/article/n/polisemantika-affiksalnogo-sposob slovoobrazovaniya-v-sovremennom-angliyskom-yazyke

9.Oseçkin V.Anglo-russkiy slovar po ekonomike i biznesu:Feniks.2009,352

10.Rıbakova A.Slovoobrazovatelniye prosessı v sfere angliyskoy kompyuternoy terminologii//Nauka i şkola. 2012. № 5.

11.Smirnitskiy A.Morfologiya angliyskogo yazıka.Moskva:Fors,1959, 440

13.Yunusov D. Müqayisəli tipologiya. Bakı: Mütərcim, 2012

Productive ways of term formation in English language

Summary

The article devoted to the linguistic analysis of the term formation in English by identifying main methods and their functioning in the language. Characteristic nature of terminology dictates the alternative of the most favorable language means for expressions of terms which are special words and concepts. It creates own terminological word formation system, which is based on the common word-building system and on the derivational fund of a particular language. Modern English is constantly evolving and updated with new terms and words. The significance of the article due to a transformation in almost every sphere of modern life, particular in socio-political, economic, medical, IT and environmental fields which conduct to the forming new forms.

The research analyzes the principal methods and ways of term formation, such as semantic, morphological and syntactic. But not all of them are used to the same extent and the meaning is different. According to the research, semantic method is less productive than the morphological and based more on national language rules. Morphologically formed terms, like words, are formed with the help of word-forming patterns and word-forming affixes, that is, root morphemes and affixal morphemes. The most productive method of term formation is the syntactic method and abbreviation. Despite the complexity of these methods, a large number of terms in various fields (economics, politics, medicine, law, etc.) are created with their help.

Key words : term formation, morphological, syntactic, blendung, abbreviation

Xülasə

Məqalə ingilis dilində termin yaradıcılığında əsas üsul və metodların tədqiqinə həsr olunub. İşin aktuallığı müasir dövrdə, demək olar ki, cəmiyyətin bütün sahələrində sürətli dəyişiklər baş verir və dilimiz daim olaraq terminlərlə zənginləşir. Terminoloji sistemin əsaslarını ümumi qəbul edilmiş söz yaradıcılıq sistemi təşkil edir. Tədqiqatımızda ingilis dilində yeni terminlərin yaranmasının tədqiqi ilə bağlı aşağıdakı üsulları aşkar etmişik. Araşdırmaya görə, semantik metod morfoloji ilə müqayisədə daha az məhsuldardır və daha çox milli dil qaydalarına əsaslanır. Morfoloji cəhətdən formalaşmış terminlər də sözlər kimi söz əmələ gətirən qəliblərin və söz əmələ gətirən affikslərin, yəni kök morfemlərin və affiksal morfemlərin köməyi ilə əmələ gəlir. Termin yaradılmasının ən məhsuldar üsulu sintaktik üsul və abreviaturadır. Bu metodların mürəkkəbliyinə baxmayaraq, onların köməyi ilə müxtəlif sahələrdə (iqtisadiyyat, siyasət, tibb, hüquq və s.) çoxlu sayda terminlər yaradılır. Terminləşmənin müxtəlif üsullarının linqvistik təhlili yeni semantik mənaları aşkar etməyə, ayrı-ayrı söz formalaşdırma üsullarının inkişaf perspektivlərini qiymətləndirməyə, həmçinin

ingilis dilinin mürəkkəb sözlərinin strukturlarını sistemləşdirməyə və xarakterizə etməyə imkan verir.

Açar sözlər: termin yaradıcılığı, morfoloji, sintaktik, kontaminasiya, abbreviasiya

Продуктивные способы терминообразования в английском языке

Резюме

Статья посвящена лингвистическому анализу терминообразования в английском языке путем выявления основных способов и их функционирования в языке. Характеристика терминологии диктует альтернативу наиболее благоприятных языковых средств для выражения терминов, являющихся специальными словами и понятиями. Он создает собственную терминологическую систему словообразования, в основе которой лежит общепринятая словообразовательная система и словообразовательный фонд конкретного языка. Современный английский постоянно развивается и пополняется новыми терминами и словами. Значимость статьи обусловлена преобразованиями практически во всех сферах современной жизни, в частности в общественно-политической, экономической, медицинской, ИТ и экологической сферах, которые ведут к формированию новых форм. В исследовании анализируются основные приемы и способы терминообразования, такие как семантический, морфологический и синтаксический. Но не все они используются в одинаковой степени и имеют разное значение. Согласно исследованию, семантический метод менее продуктивен, чем морфологический, и больше основан на национальных языковых правилах. Морфологически образованные термины, как и слова, образуются с помощью словообразовательных моделей и словообразовательных аффиксов, то есть корневых морфем и аффиксальных морфем. Наиболее продуктивным методом терминообразования является синтаксический метод и метод сокращения. Несмотря на сложность этих методов, с их помощью создается большое количество терминов в различных областях (экономике, политике, медицине, юриспруденции и т. д.).

Ключевые слова: терминообразование, морфологический, синтактический, слияние, аббревиация

Redaksiyaya daxil olma tarixi: 07.12.2022
Çapa qəbul olunma tarixi: 28.12.2022
Rəyçi: ***ADPU-nun Xarici Dillər mərkəzinin dosenti, fil.e.n.S.N.Məmmədova***
tərəfindən çapa tövsiyə olunmuşdur

SEVINC BAĞIROVA
mirzoyevasevinj@mail.ru
Gəncə Dövlət universitetinin dosenti
Filologiya üzrə fəlsəfə

SÖZÜN SEMANTİK İNKİŞAFI NƏTİCƏSİNDƏ ƏMƏLƏ GƏLƏN OMONİMLƏR

Açar sözlər: *Azərbaycan dili, omonimlər,semantik əlaqələr*
Ключевые слова: *азербайджанский язык, омонимы, семантические отношения*
Key words*: Azerbaijani language, homonyms, semantic relations*

Danılmaz faktdır ki, istənilən sözün leksik mənası ümumdil sisteminin elementi olaraq yetərincə müstəqil olub, semantik özünəməxsusluğu ilə fərqlənirlər. Leksik vahidin özünəməxsus əlamətləri müxtəlif nominasıyalarda əşyaları, məhfumlarla gerçəklikiyi əks etdirməkdə, faktlara əsaslanmasında, mümkün olan leksik vasitə və imkanlar və yerinə yetirdiyi funksiyaların xarakteri ilə dildə öz təzahürünü tapır.

Qeyd etmək lazımdır ki, söz nə zaman, nə məqsədlə və nə yolla əmələ gəlirsə gəlsin, onun ifadə etdiyi əşya, əlamət, kəmiyyət və s.ilə verbal inikası arasında heç bir üzvi əlaqə olmur və heç bir zaman ola da bilməz. Həqiqi və məcazi mənalarda işlənən söz "nominativ, siqnifikativ, kommunikativ və praqmatik dil vəzifələrini yerinə yetirir....Söz dilin əsas funksional-struktur vahididir və o mürəkkəb tərkibə malikdir" [3,15].

Omonimlərin əmələgəlmə prosesi haqqında S.Cəfərov yazır: "Omonimlərin əmələgəlmə prosesi dilimizdə yeni bir hadisə deyildir. Azərbaycan dilində omonimləşmə hesabına lüğət tərkibinin zənginləşməsi prosesi onun qədim dövrlərindən mövcud olmuşdur"[3,21]. Dillərin inkişaf xüsusiyyətləri ilə bağlı bir sıra məsələlərin öyrənilməsində dilin və xalqın tarixini vəhdət halında özündə birləşdirərək əks etdirən dialektlərin dərindən araşdırılması və eləcə də dillərin müasir inkişaf mərhələsində ədəbi dil və dialekt münasibətlərindəki bəzi məqamların meydana çıxarılması vacib məsələlərdəndir[4,39].

Ümumiyyətlə, bütün dillər,eləcə də Müasir Azərbaycan dili, cəmiyyətin, elmi-texniki tərəqqinin nailiyyətləri ilə ayaqlaşaraq daima inkişaf edir. Sözlər və onların mənaları canlı varlıqların hüceyrələri kimi "doğulur", "bölünür" və ya "məhv olur". Canlı varlıqlardan fərqli olaraq leksik vahidlərin əmələ gəlməsi məhv olma prosesindən dəfələrlə surətlidir. Məhz bu tendensiyaların qarşılıqlı intensivliyi və daimiliyi dilin leksik tərkibini sakit halda dayanmadan yeniləyir. Danılmaz bir faktdırki, dil sisteminin dinamik inkişafı prosessinin xarakterini daxili və xarici amillər müəyyənləşdirir. Daxili faktorlar dildə baş verən təkamül ilə şərtləndirilərkən, xarici faktorlar müxtəlif sistemlərdə həyata keçirilən proseslərin istiqamət spesifikalarını təyin etməklə müəyyənləşirlər. Ümumilikdə isə, daxili və

xarici amillərin vəhdəti dildə baş verən mütamadi əlaqələri və münasibətləri tənzimləyir.

Bildiyimiz kimi, dilimizdə semantik yolla omonim sözlərin əmələ gəlmə tarixi çox qədimdir. Belə ki, omonimlər hesabına dilin lüğət tərkibinin zənginləşməsi, ən qədim dövrlərdən başlayan və bu günə qədər mütamadi davam edən dil hadisələrindəndir[14].

Bir çox türk dillərində olduğu kimi, Azərbaycan dilində də sözün semantik parçalanması nəticəsində bir sıra omonimlər əmələ gəlmişdir. Belə ki, semantik dəyişikliklər fonetik dəyişikliklərdən sayca daha çox və müxtəlifdir. Semantik dəyişikliklərə məruz qalmış sözlər fonetik dəyişikliklərdən sayca daha çox və müxtəlifdirlər. Şübhəsiz, sözün semantik dəyişikliklərə uğraması yeni mənaların əmələ gəlməsi və köhnə mənaların aradan çıxması ilə əlaqədardır. Belə hallarda, yeni mənalar ya müstəqim məna əsasında, ya da ardıcıl olaraq mənalar bir-birindən doğaraq inkişaf edərək yaranır [13].

Həqiqətən də, konkret olaraq bu və ya digər sözün semantik inkişaf tarixinə nəzər salsaq, onların daxilində yeni mənanın əmələ gəlməsi və yaxud hansısa mənanın aradan qalxması proseslərinin hər ikisinin vəhdətini görmüş oluruq[12,96]. Bu haqqda V.Vinoqradov qeyd edir ki, "semantik sözəmələgəlmə yolları və imkanları məsələsi tarixi leksikologiya üçün çox vacibdir. Çünki, onun tədqiqi lüğət tərkibinin daxili inkişaf qanunlarını kəşf edir"[7,152].

Polisemantın mənalarının parçalanması nəticəsində omonimlərin əmələ gəlməsi prosesi dilçiliyə çoxdan məlumdur. İlk dəfə bu məsələyə, yəni polisemantın dağılması nəticəsində yeni sözlərin əmələgəlmə imkanına malik olması xüsusiyyətinə Ş. Balli diqqət yetirmişdir. Əksər dilçilərin istifadə etdiyi "semantik omonimlər"istilahı da məhz onun tərəfindən təklif edilmişdir. "Homogen omonimlər" və "genetik əlaqəli omonimlər" kimi istilahlar da məhz ona məxsusdur [6,48–49;10,8;12,227].Bildiyimiz kimi, polisemantin mənşəyi, insan şüurunun gerçək aləmi differensiallaşdırmasının nəticəsidir. Belə ki, ictimai həyat və istehsal təcrübəsi prosesindən irəli gələn insan düşüncəsinin inkişafının dərinləşməsi nəticəsində geniş anlayışlardan daha dəqiq-böyük konseptual anlayışlar, texniki alətlərin müəyyən hissələrini,detallarını və tərəflərini ifadə edən konkret anlayışlar yaranmışdır.

Daha öncə iqtibas gətirdiyimiz fikirləri təkrarlasaq da, qeyd etmək yerinə düşərdi ki, bir qayda olaraq, dilin formal hissəsi hesab edilən səs tərənnümündə baş verən diyişikliklər məzmun dəyişikliklərindən geridə qalır, çünki sözlərin yeni mənaları uzun müddət köhnə,diffuz anlayışları ifadə edən səslərə qoşulur. Nəticədə isə, genetik əlaqəli sözün müxtəlif mənalarının sayı bir neçə dəfə arta bilir. Bildiyimiz kimi, polisemiya hadisəsi dilin qədim dövrlərə aid vəziyyətinin xüsusi əlamətlərini özündə əks etdirir. Zaman keçdikcə isə sözlərin müəyyən mənaları arasında əlaqə tədricən bir-birindən ayrılır və nəticədə çoxmənalı sözün mənalarının parçalanaraq sərbəstləşməsi omonimlərin yaranmasına gətirib çıxardır. Belə sözlərin leksik mənaları dəyişməz qalmır, çünki onlar daima inkişaf edir, zamanla

ayaqlaşırlar. Belə bir təkamül prosesinin səbəbini isə gercək aləmin öz inikasını dilimizdə tapmasında, insan fikrinin, düşüncələrinin mərhələli şəkildə qradasiyasında və nəhayət ki, dil daxilindəki sözlərin bir- birindən qarşılıqlı asılılığında axtarmaq lazım gəldiyi ortaya çıxır.

Beləliklə, həyatımızın dinamik inkişafı, çoxlu sayda hal və hadisələrin, əşyaların yaranması prosesi sözün fərqli mənada istifadəsini labüd edir,daha dəqiq desək, onda yeni mənaları inkişaf etdirir. İnsan şüurunda gerçəkliyin daha dərin,tam və dəqiq əks olunması elmdə geniş istifadə olunan mücərrəd mənalı sözlərin sayını artırır,məsələn, *nisbət, münasibət*, *anlayış, qarşılıqlı fəaliyyət, təsir, ifadə* və s.

Beləliklə, çoxmənalı sözlərin mənaları əsasında yaranmış olan semantik omonimlərin əmələ gəlməsini müxtəlif səbəblərlə şərtləndirmək olar: 1)xalqın ictimai həyatında baş verən dəyişikliklər; 2)sözün ilkin mənasının arxaikləşməsi; 3) xarici əlamətlərin oxşarlığı əsasında ümumişlək sözləri müxtəlif elmi-texniki anlayışları ifadə etməsi üçün istifadəsi (əgər adın əsasındakı əlamət sırf xarici, əhəmiyyətsiz olduqda məna əlaqəsi tamamilə qırılır,beləliklə də ilkin söz və ondan əmələ gələn törəmə söz omonimlərə çevrilirlər). Yeri gəlmişkən qeyd etmək lazımdır ki, polisemantın mənalarının dağılması nəticəsində əmələ gələn omonim cütlüklərinin müəyyən edilməsi məsələsində bir qədər çətinliklər baş verir. Bu haqqda D.N Şmelyov yazır "bunun səbəbi ***sözün daxilində gedən semantik parçalanma prosesinin gedişatı müxtəlifliyində*** yəni müvafiq prosesin bəzi hallarda bitmək üzrə,bəzi hallarda isə təzə başlamasından irəli gələ bilər.***Sözün məna tərkibinin fərqli və ya oxşar olması, həmin sözün formal və semantik dəyişmələrinin mövcud olmasını bir daha təsdiqləyir*** [11,68].

Xatırladaq ki, ümumi dilçilikdə polisemantik sözlərin parçalanması nəticəsində omonimlərin əmələ gəlməsi ehtimalı haqqında dəfələrlə fikirlər söylənilmişdir. L.A.-Bulaxovskiy, sözün şaxələnmiş köhnə mənalarının bir-biri ilə əlaqəsi itdikdən sonra leksemlərin eyni söz kimi qəbul edilmədiyini və "yalnız etimoloji təhlillərin nəticəsində onlar arasında salınmış olan psixoloji körpülərin köməklik etdiyini" bildirmişdir. Məsələn "*alov sönür*" və "*həyat sönür*" ifadələri ayrı-ayrılıqda mətn daxilində uyğun mənalarla dərk edilir. Bu cür hallarda isə əsas mənalardan şaxələnərək uzaqlaşmış olan mənaları isə omonimlərə çevrilirlər. Və buradan da bir daha bəlli olur ki, çoxmənalılıq və omonimlik arasında qəti sərhədlər yoxdur. Dil tarixində polisemiya və omonimiya hadisələri arasında münasibətlərə nəzər salsaq görərik ki, mütamadi olaraq sözün semantik sərhədlərinin hüdudları dəyişir.

Dildə leksik və morfoloji sistemlərin qanunauyğun əlaqəsi sayəsində dilin söz yaratma imkanı tədricən inkişaf edərək zənginləşir,təkmilləşir. Kök sözlər yeni mənalar kəsb edir və ya şəkilçilərin köməyi ilə onlardan yeni sözlər əmələ gəlir. Məsələn, fel və isim arasındakı qarşılıqlı münasibəti, şüurumuzda hərəkətlə onu icra edən əşya arasında olan münasibəti abstraktlaşdırsaq "istər əşya,istərsə də ona xas olan hərəkəti ifadə edən forma-söz öz vəhdətini (eyniliyini) mühafizə edir, yəni eyni

tərkibə malik olan söz həm əşyanı,həm də hərəkəti bildirmək xüsusiyyətini mühafizə edərək özündə qoruyub saxlayır; məsələn, qoyun-qoy(maq), saç-saç(maq) və s

Nənəm a nazlı ***qoyun,***
Qırqovul gözlü ***qoyun,***
Südünü kəsmə,kəsmə,
Qatığı üzlü ***qoyun***

S. Cəfərov bu növ sözlərin təyin edilməsini "sözün müxtəlif mənaya ayrılması yolu ilə deyil,əksinə,öz mahiyyəti etibarilə bir vəhdət təşkil edən əşya və hərəkət məhfumlarının qədim ifadə formasının indiyə qədər mühafizə olunması ilə bağlı" olması ilə əlaqələndirir. Bu təkliflə H.Həsənov razılaşaraq çoxmənalı sözlər və omonimləri bir-birindən fərqləndirən əlamət kimi sözün "distribusiya" cəmini, yəni onu xarakterizə edən sintaksik və leksik münasibətlərdə sözəmələgətirmə imkanlarını vurğulayır. Distributiv metod əksər hallarda sintaktik faktların təsirindən sözün semantik strukturunun dağılmasına gətirib çıxardaraq istifadəsini məhdudlaşdırır. Göründüyü kimi, məsələyə formal yanaşma köməkçi xarakter daşıyır. Təhlillərimizdən belə nəticəyə gəlmək olar ki, omonimlərin və polisemantların semantik differensasiyası formal və semantik prinsipdən istifadə etmək məqsədəuyğundur.Prinsiplərin kombinasiyası bəzi meyarların çatışmamazlıqlarını kompensasiya edərək sözdə baş verən semantik prosesdən tutmuş onun əlaqələrinin dağılmasına kimi gedən prosesi izləməyə imkan verir. Belə ki, formal cəhətlərə əsaslanaraq qrammatik və leksik sistemlərin təhlilləri omonimlər və çoxmənalı sözlərin fərqləndirilməsində əsas sayılır.

Mülahizələrimizə aydınlıq gətirmək üçün dəyərləndirmələrimizi bir qədərdə konkretləşdirməyə çalışaq, belə ki, fasiləsiz olaraq sözün leksik-frazeoloji formalarının-omonimlərə çevrilməsi və yaxud əksinə,omonimlərin bir sözün forma sisteminə birləşmə prosesi gedir. Azərbaycan dilçilərindən H. Həsənovda bu fikirlərlə razılaşaraq yazır ki, ominiim və omonim hadisələr, çoxmənalı sözlər leksik cəhətdən dilin lüğət tərkibini zənginləşdirir,poetik obrazlıq mahiyyətini gücləndirir. Dilçinin fikrincə omonimiya və polisemiya arasında ortaq nöqtədə məhz bu məqamdır. Təbii ki, polisemiya və omonimiya hadisələrini qarışdırmaq olmaz [5,187]. H. Həsənəv omonimiya və polisemiya hadisələrinin "oxşarlığının" mümkünsüzlüyünü təsdiqləyir. O, bu çür yerdəyişmə əsasında əmələ gələn hər bir yeni sözün istifadəsi və buradan da hər bir polisemantın omonimə çevrilməsi prosesini linqvistik qanunauyğunluq kimi dəyərləndirir.Daha sonra dilçi, omonimiya və polisemiya hadisələrininin səbəbini leksikanın sözügedən aktual məsələləri haqqında formalaşan mülahizələrin məhz sinxron yanaşma bucağından irəli gəldiyini bildirir. Belə ki, dil faktları arasında baş verən münasibətlərin təhrif olunduğunu nəzərdən qaçırmır. Bu zaman burada dil kollektivində mənalarar arasında varislik əlaqəsi də itərək, dil tarixi yaddan çıxdığına da nəzər yetirir. Maraqlı faktdır ki, çoxmənalə sözlər hesabına omonimlərin artmasına əsaslanan dilçilər heç vaxt nə bu prosesi izah, nə də onun nə vaxt dayanacağının mümkün olduğunu sübut edə biləcəklər. Belə ki,

onlar arasında sərhədlərin aşırılması çox çətindir. Belə hallarda subyektivlik və istibdad labüddür[5].

Maraqlıdır ki,tarixi omonimya hadisəsinin tərəfdarları diqqəti dəfələrlə dildə baş verən deetimolizasiya prosesinə yönəltmişlər. Deetimolizasiya-eyni etimoloji yuvaya mənsub olan sözün digər sözlərə qarşı qohumluq əlaqəsinin itməsidir[15]. Deetimolizasiya prosesi, çoxmənalı sözün mənalarına da toxuna bilər ki, bu zaman nəticə etibarı ilə tamamilə mənalar arasında qohumluq əlaqələri itə bilər. Söz daxilində gedən bu prosess semantik vahidin məna bütövlüyünə toxunur. Məsələn, heç cürə şüurumuzda *dolu* sözü *dolmaq* sözünə müvafiq gəlmir. Omonimiya məsələsinin həllində mütləq dil tarixini və onun müasir dövrdə mövcud olan vəziyyətini nəzərə almaq lazımdır. Leksik omonimlərə("semantik omonimlər") misal olaraq **don** "*uzun qadın paltarı*"**- don** "*şaxta*". *Qızılgüldən, lalədən;* ***Don*** *biçib gey qırmızı*.(Ə.Cəmil); *Şaxtalı qışlarda həsirə bürünmüşdü ki,* ***don*** *vurmasın* (M.İbrahimov) [2,82]. Doğrudanda, "tarixi leksikologiyada hər bir göstərilən söz cütlüyü bir sözün müxtəlif mənalarının ifadəsidir, dil daşıyıcıları üçünsə bu müxtəlif sözlərdir". Türkologiyada çoxmənalı sözlərin omonimlərə çevrilməsi ilə zənginləşməsi "leksik üsul" istilahı ilə ifadə edilir [8,89; 9,76]. Müasir Azərbaycan dilində leksik omonimlərin əmələ gəlməsinin aşağıdakı yolları var: a) sözlərin mənalarının əşya və ya hadisələrin əlamət, forma, hərəkət xüsusiyyətlərinə görə keçməsi.Məsələn:- xarici oxşarlığına görə: ***duvaq -***"*örpək*"və ***duvaq-*** "*qazanın üstünə qoyulan dəstəkli taxta*". *Dönüb baxdılar. Zərnigar da üzündəki* ***duvağı*** *araladı*(İ.Şıxlı) [2]; ***kəfgir-*** "*xörəyin köpüyünü yığmaq üçün alət*"və ***kəfgir*** -"*saat rəqqası*" *Anam əlindəki* ***kəfkirlə i****ri tavada qovurduğu əti qurdalayıb sözünə əlavə etdi* (S.Qədirzadə). *Adam boyda olan satın iri* ***kəfgiri*** *ətalətlə sağa -sola hərəkət etdikcə otağa ahəngdar bir çıqqıltı yayılırdı*(İ.Şıxlı) [2, 106]; xarakter oxşarlığı əsasında: ***koma*** - "*ev, daxma*" və **koma-** "*topa, yığılmış torpaq kol*". *Atasını öldürdülər,****komasını*** *yıxdılar* (R.Rza). *Cüyür,ceyran qaça bilmir;Koma qalın,****kol*** *qalın...*(O.Sarıvəlli) [2,107]; -hərəkətin oxşarlığı əsasında: ***acıtmaq*** - "*acı etmək, acılaşdırmaq*" və ***acıtmaq*** - "*incitmək,acığını tutdurmaq*".*Qaşqabağı,sallaq dodağı,çatılan qaşı,qırışıq alnı müəllimi lap acıtdı* (Ə.Vəliyev) [2,50]; ***ağaclaşmaq*** "*bir-birini ağacla vurmaq,ağacla vuruşmaq*" və ***ağaclaşmaq "****ağac kimi bərkimək****"*** [2,50]və s. b) funksiyasına görə məna keçməsi.

Omonimlərin yeni mənalarının əşyalara keçməsi, cəmiyyətin inkişafından və həyatı zərurətlərdəndən irəli gəlir. "Əksər hallarda, əmək prosesi zamanı hadisələr dəyişir, onları ifadə edən adlar isə olduğu kimi qalır və ya əşyanın mövcudluğu itir, adı isə varis kimi yaşayır". Şübhəsiz, bu zaman əşyanın və ya mexaniki alətin adı digər, daha müasir alətə və ya əşyaya keçə bilir.Məsələn,qədim zamanlar buğdanın əl ilə üyüdülməsi "dəyirman" adlanırdısa da,müasir zamanda öz quruluşuna görə keçmiş qurğu ilə heç bir əlaqəsi olmasa da eyniylə yenə də "dəyirman"adlanır [13]. Eyni fikri çoxmənalı leksik vahid ***bas(maq)****- "üstən sıxmaq", "tapdalamaq", "altına alıb şikəst etmək", "qalib gəlmək", "soxmaq","geymək","örtmək","boğmaq",*

*“ansız hücum etmək” “keçirmək”,”batırmaq”,”bürümək”,”vurmaq”,”özünü”,-“tərifləmək”*və *bas* -“*çap edilmiş, mətbəə və ya basma üsulu ilə hazırlanmış*”söz haqqında demek olar[16]. Məhz, ***basma*** ”*saç boyamaq üçün rəng*” və ***basma*** *“möhür”leksemləri bas* sözündən törəmişdir. Onu da qeyd etmək istərdik ki, adətən, çoxmənalı sözün məna əlaqələrinin qırılması nəticəsində deyil, məhz müxtəlif dillərə və ya eyni dilə məxsus olan sözlərin səslənməsinin oxşarlığı nəticəsində semantik (leksik) omonimlərə etimoloji və ya homogen omonimlər qarşı-qarşıya qoyulur. Omonimlərin formalaşması prosesi,onun istər polisemiya əsasında, istərsə də müxtəlif mənşəyə mənsubiyyətindən asılı olmayaraq səs eyniliyindən əmələ gəlməyinə baxmayaraq oxşar nəticələrə gətirib çıxardır.

Polisemantlar zaman keçdikcə mənşəcə ifadə etdiyi mənanı itirərək omonimlərə çevrilirlər. Və beləliklə də “çoxmənalı sözlər və omonimlər ”arasında keçilməsi mümkün olmayan sərhədlər yoxdur” fikri ilə də razılaşmaq lazım gəlir.Belə ki, qəbul olunmuş omonimlər ümumi semantik tərkibə məxsus ola bilərlər. Çoxmənalı sözlərin semantik parçalanması zəminində omonimlərin əmələ gəlməsi faktı çoxmənalı sözlərin omonimlərə çevrilməsi faktını danılmaz edir və bu prosesi omonimləşmə adlandırır. “Omonimləşmə - məzmun ilə sintaqmatik əlaqədə olan çoxmənalı sözün müstəqil,sərbəst, nominativ semantik mənası ilə şərtlənmiş olan paradiqmatik mənanın yerinə gəlməsi tendensiyasıdır.Təbiidir ki,omonimləşmə prosesi də öz əksini ilk növbədə lüğətlərdə tapır. Qeyd etmək lazımdır ki, omonimlərin xarakterik xüsusiyyətlərindən biri məna əlaqələrinin tamamilə qırılmasıdır (əlbəttə,qarşımızdakı omonimlərin eyni kökdən əmələ gəlməsi faktı nəzə alınmalıdır). Omonimiya və polisemiya arasında ortaq heç nə yoxdur deyə bilmərik. Polisemiya heç zaman omonimiya və yaxud da əksinə ola bilməz. Omonimiya və polisemiya “qarşıdyrması” mümkünsüzlüyünə əsaslanaraq demək olar ki,bu cür yerdəyişmə əsasında hər bir sözün istifadəsi yeni sözün əmələ gəlməsinə və buradan da hər polisemiyanın omonimiya çevrilməsi baş verir. Hər bir mərhələdə polisemantik sözün hüdudlarından kənarda qalan məna onlar arasında əlaqələrin zəifləməsi faktı kimi izah olunmalıdır. Yuxarıda qeyd etdiyimiz kimi,polisemantın mənalarının dağılmasının əsas əlaməti onun mənaları arasında əlaqənin itməsidir.

Məlum məsələdir ki, dilin formal strukturu arxasında, onun mahiyyətini təşkil edən mürəkkəb quruluşlu insan fikri dayanır. Dilin leksik -semantik sisteminin araşdırılmasının da əsas məqsədi, ele fikrin mürəkkəb sistemli strukturunun təyinidir. Dilçiliyin bütün inkişaf mərhələlərində, elmi yanaşmaları insan təfəkkürünün ən böyük sirri hesab edilən dilə və fikrin verballaşmasının inkişafına öz əvəzolunmaz töhfəsini bəxş etmişdir. Bəlli məsələdir ki,İnsan düşüncələrini təşkil edən tərkiblərin axtarışı iki istiqamətdə həyata keçirilir. Birinci yanaşma semantik reprezentasiyadan,yəni semantik metadil vasitəsi ilə bölünməsi mümkün olmayan mürəkkəb mənalrın daha kiçik elementlərə ayrılmasından ibarətdir.Bu yanaşmanın əsas məqsədi, dili təşkil edən ifadələrin tərkibindəki əsas tikinti materialları olan məna elementlərinin izahın axtarışıdır. Digər yanaşma isə sözün və ya söz

formalarının komponentlərinin konnotasiya təhlilindən və onun məna ifadəliliyi potensialının imkanlarından ibarətdir. Bildiyimiz kimi, dilçilik tədqiqatlarında həqiqi və məcazi mənaların komponentlərinin təhlili metodu ən univarsal vasitələrdən hesab edilir. Lakin bəzi hallarda müəyyən bir kontekst çərçivəsində əmələ gəlmiş yeni mənanın təhlili zamanı bu metodun imkanları onu müəyyən etməyə kifayət emir.Belə ki, izahı mümkün olan və müxtəlif məna çalarlığına malik leksik vahidlərin bədii mətn daxilində şərhi və ya onun bir neçə variantda oxunması dilin uzual imkanları xaricindədir. Bu zaman, məhz əsirlərdən süzülüb gələn maddi-mənəvi yaddaşımızın, psixikamızın,altşüur imkanlarımızın nəticələri köməyimizə gəlir.

Beləliklə, nə zamansa vahid sözün əsasında omonimlərin əmələ gəlməsini və inkişafını izlədikdə,bir daha əmin olmaq olar ki, sözün omonimlərə çevrilməsi çox uzun və mürəkkəb bir prosesdir. Qeyd etmək yerinə düşərdi ki, omonimlər və çoxmənal sözləri eyni üslubi məqsədlərlə müxtəlif janrlarda istifadə olunur. Çünku, eyni və ya müxtəlif leksemlərin mənaları arasında toqquşmaları maraqlı təzadlar yaradır.Bununla yanaşı,inkar etmək olmaz semantik cəhətdən əlaqəsi olmayan leksik vahidlərin qarşılaşdırılması, bir sözün mənaları ilə müqayisəsi zamanı daha da təzadlı və ziddiyyətli olur. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, üslub baxımından omonim sözlər mətnə polisemantlardan daha çox rəngarənglik qatır,onu daha da zənginləşdirir. Leksik omonimlər dilin ən effektli üslub vasitələrindən biri hesab edilir. Omonimləşmə yolu ilə əmələ gələn söz və söz qrupları bədii memarlıq əhəmiyyəti qazanaraq aktuallaşır, bədii ünsiyyət aktına xidmət göstərir.

Ədəbiyyat

1. Azərbaycan dilinin izahlı lüğəti Dörd cilddə. I cild. “Şərq-Qərb” Bakı.,2006
2.Azərbaycan dilinin omonimlər lüğəti. Bakı., “Şərq-Qərb”, 2007,168 s.
3.Cəfərov S. Müasir Azərbaycan dili. Leksika II hissə. “Şərq-Qərb” Bakı.,2007 192s
4. Qazıyeva N.Q. Ədəbi dil və dialekt münasibətləri *Nəsimi adına Dilçilik İnstitutunun Əsərləri – 2012)*
5. Həsənəv H.Nitq mədəniyyətinin və üslubiyyətinin əsasları.Bakı.,1999.,s187
6.Аракин В.Д. Об омонимах в турецком языке // Советская тюркология. – 1978. – № 2. – С. 48–61. 3.
7.Виноградов В.В. Избранные труды. Исследования по русской грамматике. – М., 1975. – 307 с.
8.Гасанов А.А. Омонимия в азербайджанском языке: Дисс... канд. филол. наук. – Баку, 1980. – 337 с.
9. Гулямова Н.Г. Русские лексические заимствования в узбекском языке. – Ташкент: Изд-во Фан Узбек- ской ССР, 1985. – 112 с.
10.Саттарова З.М. Виникнення етимологічних омонімів у сучасній кримськотатарський мові // Мова і культура. – К.: Видавничий центр Д. Бураго. – 2002. – Віп.5. – Т. 3. Ч. 2. – С. 139–143

11. Шмелёв Д.Н. Проблемы семантического анализа лексики (на материале русского языка). – М.: Наука, 1973. – 278 с.
12. Юлдашев А.А. Принципы составления тюркско-русских словарей. – М., 1972. – 286 с.
13.http://dspace.nbuv.gov.ua/bitstream/handle/123456789/36734/15-Sattarova.pdf?-sequence=1
14. file:///C:/Users/User/Downloads/d_pdf_refe_other_6168%20(1).pdf
15.http://enc-dic.com/linguistics/Dejetimologizacija-1152.html
16. https://azerdict.com/az/izahli-luget/basma.

Sözün semantik inkişafı nəticəsində əmələ gələn omonimlər.

Bildiyimiz kimi, sözlərin formal-səs quruluşlarında baş verən dəyişikliklər onların məzmunlarında gedən dəyişikliklərindən geridə qalır. Bu isə öz növbəsində sözün mənalarını artmasına səbəb olur. Zaman keçdikcə isə eyni sözün mənaları arasında əlaqə tədricən bir-birindən uzaqlaşaraq çoxmənalı sözün parçalanmasına gətirib çıxardır.Çoxmənalı sözün mənalarının dağılması isə omonimlərin əmələ gəlməsinə səbəb olur. Belə sözlərin leksik mənaları da dəyişilməz qalmır, daima inkişaf edirlər. Sözügedən prosesin səbəbi isə dilimizin ifadə etdiyi həyatımızda və şüurumuzda baş verən dəyişikliklərdir. Polisemantizmin mənşəyi şüurumuzun differensasiyası ilə birbaşa əlaqədədir. Belə ki, istehsal sahələrinin inkişafı insan təfəkkürünün nəticəsi olaraq çoxlu sayda sözlərin, yeni anlayışların əmələ gəlməsinə səbəb olmuşdur. Yəni, kompleks anlayışlardan yeni məzmunlu sözlər əmələ gəlmişdir. Bəzən, həyatımızda baş verən dəyişikliklər, yeni əşya, hal və hadisələrin yaranması sözdə yeni mənanın əmələ gəlməsini zəruri edir və yeni məna inkişaf edir. İnsan təfəkkürünün inkişafı isə öz növbəsində gerçəkliyi daha dəqiq və dolğun əks etdirərək elmdə geniş şəkildə istifadə edilən mücərrəd anlayışları ifadə edən sözlərin sayının çoxalmasına gətirib çıxardır.

РЕЗЮМЕ

Об омонимах, которые образованы в результате семантического развития слова

Как известно, изменение формально - звуковой стороны языка отстаёт от изменения его содержания. В результате число различных значений одного и того же слова увеличивается. С течением времени отдельные значения слова всё больше расходятся, постепенно утрачивается связь между ними, в результате происходит распад многозначного слова, который приводит к возникновению омонимов. Лексические значения таких слов не остаются неизменными – они развиваются. Причина этого процесса кроется в изменении отражаемой языком жизни, в развитии мышления и сознания

человека. Происхождение полисемантизма слов связано с дифференциацией мышления: из диффузных, нерасчленённых понятий вследствие развития сознания людей, вызванного процессом их производственной практики, выделялись ряды более определённых понятий, относившихся к отдельным сторонам, частям или деталям нерасчлененного комплексного понятия. Изменение жизни, возникновение в ней новых предметов и явлений часто делает необходимым переосмысление слова, то есть развитие в нём нового значения. Развитие человеческого мышления, всё глубже, полнее и точнее отображающего действительность вызывает, например, увеличение количества слов с отвлечёнными значениями, широко применяемых в науке: отношение, понятие, взаимодействие, влияние, выражение и так далее

SUMMARY

On homonyms formed as a result of the semantic development of the word

As it is known, the change in the formal - sound side of the language lags behind the change in its content. As a result, the number of different values of the same word increases. With the passage of time, individual meanings of the word increasingly diverge, the connection between them gradually loses, as a result, the decay of a multi-valued word that leads to the formation of homonyms occurs. The lexical meanings of such words do not remain unchanged when they develop. The reason for this process lies in the change in the life reflected by the language, in the development of thinking and consciousness of man. The origin of the polysemanticism of words is connected with the differentiation of thinking: from diffuse, undifferentiated concepts, as a result of the development of people's consciousness, caused by the process of their industrial practice, a number of more specific concepts were distinguished, related to individual sides, parts or details of an undivided complex concept. Changing life, the emergence of new objects and phenomena in it often makes it necessary to rethink the word, that is, the development of a new meaning in it. The development of human thinking, which reflects reality ever deeper, more fully and more accurately, causes, for example, an increase in the number of words with abstract meanings that are widely used in science: attitude, concept, interaction, influence, expression, and so on.

Redaksiyaya daxil olma tarixi: 07.12.2022
Çapa qəbul olunma tarixi: 28.12.2022
Rəyçi: Elmlər doktoru, professor M.Yusifov
tərəfindən çapa tövsiyə olunmuşdur

A.SƏFIXANOVA
V.ABIYEVA
Azərbaycan Tibb Universiteti
Xarici dillər kafedrası

SÖZ YARADICILIĞINDA PREFİKSƏRİN ROLU

Xülasə

İngilis dilində söz yaradıcılığı digər dillərdə olduğu kimi dilin yarandığı dövrdən başlayaraq daim inkişafda olmuş bir proses kimi insanların bir tarixi quruluşdan digərinə keçdiyi zaman özünü göstərir.Affiksial morfemlərə daxil olan prefiks və leksik suffikslər sözdüzəltmə funksiyasına malikdir və kök ilə birlikdə sözün əsasını yaradır.

Affikə morfemlərin sözdüzəltmə xarekterli 3 forması var:sözdüzəldici müsbət və mənfi morfemlər və birləşdirici morfemlər.Müsbət və mənfi morfemlərdən ən çox işlənəni söz yaradıcılığına kömək edir.Bu morfemlərə in,un,inu,dis,mis prefikslərini misal göstərmək olar.Birləşdirici morfemlərə nümunə olaraq face to face,day-by-dy və s morfemləri aid etmək olar.Prefikslər sözlərin əvvəlinə artırılaraq sözün mənasını dəyişdirir və yeni söz əmələ gətirir.Onların suffikslərdən əsas fərqi odur ki,onlar sözü bir nitq hissəsindən digərinə çevirmir.Lakin nadir hallarda prefikslərin birləşdirilməsi sözlərin bu və ya digər nitq hissəsinə mənsubiyyətini dəyişir.Məsələn circle(dairə) (N),encircle (mühasirəyə almaq) (F).İngilis dilində çox işlənən prefikslərə en,mis,re,un,de,over,under,il,pre və s aiddir.Bu prefikslər feillərin əvvəlinə artırılaraq bəzən əks mənanı bildirir.

Açar sözlər:leksik sistem,leksika,prefikslər,semantik məna

Müxtəlif sistemli dillərdə və eləcə də ümumi dilçilikdə sözdüzəltmə modellərinin,o cümlədən müxtəlif mənalı prefiks araşdırılması onların müəyyən təsnifatında böyük əhəmiyyət kəsb etmişdir.Demək olar ki,bu səpkidə aparılan araşdırmalar dilçilikdə həmişə diqqət mərkəzində olmuşdur.Bu da müxtəlif dillərin qanunauyğunluqlarını müəyyənələşdirməyə imkan yaratmışdır.Dilin inkişafı onun öz funksiyalarını necə yerinə yetirə bilməsindən asılıdır.Dilin inkişafı onun yalnız lüğət tərkibinin artması ilə deyil,onun mofoloji-sintaktik və üslubi imkanlarının genişlənməsiylə ölçülməlidir.İstər ingilis dilində,istərsə azərbaycan dilində,həmçinin digər dillərdə söz yaradıcılığı leksikalogiyanın əsas tədqiqat obyektlərindən biridir.Söz yaradıcılığı və bu prosesdə sintaktik və analitik vasitələr,morfoloji əlamətlərin və eləcə də nitq hissələrinin bir model şəklində təsviri və onların tədqiqi dilçilər tərəfindən həmişə diqqət mərkəzində yoxlanılır.Prefikslərin tədqiqatının ilk bölümlərində aparılan təhlillərin dil özəyini təşkil edən tipoloji təmayülünün düzgün obyektiv təsvirinin istənilən dilin adekvat tipoloji xarekterizə edə bilməsində müstəsna rol oynadığı aydın şəkildə özünü göstərir.Bütün dillərdə o cümlədən ingilis

dilində söz yaratma modelləri özünəməxsus və önəmli yer tutur.Belə ki,prefikslər vasitəsilə sözlərin bu və ya digər model əsasında yaradılması hər bir dilin eləcə də ingilis dilinin leksik sisteminin inkişafına,lüğət tərkibinin zənginləşməsinə güclü təsir göstərir.Prefikslərin vasitəsilə yeni-yeni sözlər əmələ gəlir.Yeni sözlərin formalaşmasında və digər kriteriyalara əsasən bir qisim sözlərin yaradıcılıq əmsalı müəyyənləşdirilir və burada dilin struktur çertyoju ,"determinata"sı və ya dominant qismində səciyyələndirilən struktur-tipoloji özülün və anlama gəldiyini və nələri ehtiva etdiyini müəyyənləşdirir.Əksər tədqiqatlarda struktur dominantının yalnız bir tipoloji mexanizmi üzərində məna tapdığı qəbul edilirsə də,digər qisim tədqiqatlarda isə,hətta determinantanın özünü belə mövcud ola biləcəyi fiziki əsas götürülərək ,müxtəlif komponentli prefikslərinin aparıcı təmayül özüllü təsbit edilir.Tipoloji təsnifatın ümumiləşdirilmiş məntiqindən çıxış edərək,dilçiliyə görə aqlütinativ dillərdəki dominant elementlər,əslində polisintezinin və təcridi quruluş ünsürlərinin sintezindən başqa bir şey deyil.Göründüyü kimi ,prefiklərin tipologiyasının bir çox mərhələlərində aparıcı təmayülün təsbit mexanizmi ilə bağlı problemdə də yekdilliyin hökm sürdüyünü söyləmək çətindir.İngilis dilində sintetik köklər təcridi dil quruluşunun rudimentləri qismində səciyyələnə bilər.Onlar isə öz tipoloji dominantı təmin edən mexanizmin tərkib ünsürləri hesab oluna bilər.Bu problemin uğurla həlli üçün ilk olaraq prefikslərin semantikasında sinonimlərin dublet və ya nisbi uyarlılıq səviyyəsini müəyyənləşdirərərək linquistik dəyərləndirmə verilməlidir. Geniş istifadə sahəsi əldə edən prefikslər geneoloji səpkil araşdırmalardakı tipoloji tədqiqatlara keçid etməsi uzun zaman almamış və tezliklə bir çox müvafiq istiüamətli tədqiqatlarda sözü gedən istiqamətin işlənməsi halları müşahidə edilməyə başlamışdır.Lakin bu istilahların sırf tipoloji mahiyyət kəsb edən araşdırmalar tərəfindən mənimsənilməsi zamanı müəyyən məna dəyişkənliyinin meydana gəldiyini qeyd etməmək olmaz.Belə ki,bir qrup tədqiqatda çoxmənalı prefiklər özünün ilkin mənasında uyğun olaraq,yəni dildə daha çox kütləvilik qazanmasından dolayı,struktur quruluşun ana sütunu qismində səciyyələndirilə bilən mexanizmlər məzmunu statusunda işləklik qazanmışdır.Tipoloji dilçiliyin prinsiplərini araşdırmaq prefikslərin ənənəvi semantikasından yararlanaraq,bu sahədəki tədqiqatların bir çoxunun əsas məqamının "dil quruluşunda dominant tipoloji xüsusiyyətlərin "təsbitinə yönəldiyini qeyd etməklə həmin xüsusiyyətlətin aparıcı tipoloji təmayül qismində nəzərdən keçirdiyini ortaya qoyulmuşdur.Kontensiv tipoloqiyanı ideya altyapısının fərqindən dolayı buradakı "struktur dominant" anlayışı arasındakı bərabərlik işarəsini qoymaq olmaz.Tipoloji təlimdə dominant implikasiya və frekvental anlayışlarını fərqləndirərərək,tipoloji araşdırma platformasında təqdim olunan qarşıdurma əsasında mövcud olan antinomik dəyərləndirmələrdən əsaslı şəkildə fərqlənən triadanın meydana gəlməsi anlamına gəlmişdir.Bu üç bölgünü tipoloji səciyyələndirmə zamanı daha dəqiq xarekteristikasının aşkara çıxarılması məqamı ilə qeyd olunur.Məsələn bu və ya digər dildə iqtisadi dil mexanizminin tətbiq edilməsi mümkün şəkildə əsas faktorların biri kimi sözdüzəldici şəkilçi

monosemiyası kimi göstərilir.Başqa sözlə bu prefiklərin aparıcı təmayül şəkilçilər sıralamaları kimi mümkün edilir.Sonrakı mərhələlərdə linquistik universallar əxz edilməsinin inkişaf ardıcıllığına diqqət yetirmək lazımdır.Bu zaman ilkin anlayışda bir çox hallarda yer ala bilən proseslər silsiləsini nəzərdən keçirə bilərik.Prefikslər məlum aslılıq yaradırlar.Prefikslər aparıcı tipoloji təmayülün tərkib hissəsini təşkil etməklə irəli gələn spesifik özəlliklərlə tənzimlənir.Prefikləərin həm tipoloji dominant tərəfindən tənzimlənməsindən,həm də digər tərəfdən,onların dil strukturunda realizasiya qazanmış ifadə vasitələrinin dominanta uyğunluğuna nəzarət etməsindən gedir.Dildə kəmiyyət dəyişmələrinin böyük payı sözdüzəldici şəkilçilərin üzərini düşür ki,bunları da dilin zənginləşməsinin,təkmilləşməsinin və inkişafının göstəricisi kimi qeyd olunur.Prefikslərin elementləri və bununla da funksional vahidlərini eyniləşdirmək olmaz.Məna planında dəyişikliyin olub-olmamasını müəyyənləşdirməkdən və ya əksinə,ifadə planında dəyişikliyin olub-olmamasını müəyyənləşdirmək üçün empirik əvəzolunmalardan istifadə edilir. Elementlərin əvəz olunmasını aşağıdakı misallarla göstərmək olar.

a-alike,anormal,anew,aloud

ad-addict,adjust,admit,asleep və s

İmkanlıq bildirən prefikslər semantik baxımdan yalnız bir məna ifadə edən tipoloji xarakter mövqeyindən fərqli olmasına baxmayaraq,yalnız sözügedən dil ailəsində yer almışdır.un-untidy,unable in independent, inactive indefinitive,im+ moral,im+perfect,im+ possible,il+ legal,il+logical və s.

Semantik baxımdan birgə fəaliyyətə təhrik edən prefikslər də müəyyən qrup yaradır.

Co:co-author,co-education və s..Semantik baxımdan prefikslərin müxtəlifliyi özünü qoşulduqları sözlərdə aydın göstərir. Məs.anormal(mədəniyyətsiz) awake(oyanmış) repair (təmir etmək) impossible(qyi-mümkün)

Nümunələrdə verilən sözlərin kompakt təsvirini qurmaq üçün ayrı-ayrı prefikslərin xarekteristikası verilmişdir.Prefikslərin distrubutiv təhlili kök və şəkilçi kimi verilmişdir.Buradan belə nəticə çıxarmaq olar ki,prefikslər sözyaradıcılığnda mühüm rol oynayır.

The role of prefixes in vocabulary

Summary

Key words:prefixes,wordbuilding,semantic meaning,analysis

This article is about prefix and their usages in wordbuilding.Unlike derivational suffixes,English derivational prefixes typically do not change the lexical category of base.Thus,the word do,consisting of a single morpheme,is a verb as is the word.However there are a few prefixes in English that are class-changing.A lexical category that is different from the lexical category of the base.Example of this type include a,be,anti,en typically creates adjectives,from noun and verb bases.An,ante evvel auto ozu.Meselen automobile ve s.By menas of wordbuilding prefixes new

words are formed.Some new words with prefixes are taken from other foreign languages.In this articleword formation in English and Azerbaijani languages are demonstrative.The famous researches of these two languages about the formation and their works such as prefixes and suffixes.However a fuat deal of works were written in two languages.The information of grammar material are given to students.

Təhlilin əhəmiyyəti bundadır ki,hər bir prefix qarşılıqlı əlaqə formaları ilə tədqiq edilir və müəyyən distrubusiya ilə səciyyələnir.Distributin qaydaları prefikslərin yazısının yenidən qurulmasına yol verir.

Bu yazılar əvvəlcə morfemin siqment ünsürlərinin ardıcıllığı şəklində olur və sonra prefikslərin ardıcıllığı şəklinə salınır.Morfemlərin ekvivalentlik siniflərinfə birləşdirilməsi onların əhatəsindəki bəzi məhdudluqlaı aradan qaldırmaqla müşaiət edilir.

Prefikslərin tam distubusiyası böyük sərbəst birləşə bilmə imkanıykla fərqlənir.Əhatənin oxşarlığına görə prefiksə və onları qruplaşdırma prosedurları təsnifat üsullarından distubusiyasın bəzi fərqli məqamlarda onların ekvivalentliyini müəyyənləşdirmək üçün yol açır.Prefikslərin siniflərini müəyyənləşdirərkən onların məna baxımından bəzi spesifik məqamlarını nəzərə almaq olar.Bu məqsədlə eyniləşdirmə ardıcıl yaxınlaşdırma metoduyla aparılar biləra

a)təkrarlılıq

b)inkarlılıq dis,mis,in,ir,un

c)birgə fəaliyyət bildirənlər co,com

d)məna qüvvəsini artıranlar be-,ad-,ac-

d)fəaliyyəti zəiflədən il,de,ex,sub

f)müxtəlif məna çalarları yaradanlar

REZЮME
КИЮГЕВОГЕ СЛОВА.СЛОВООБРАЗОВАНИЕ,СЕМАНМИМИШС ГЕСЛЕВЪЕ ЗНАИЕШЕЕ,ПРЕФИКС

Роль префиксы в словообразовании

Префиксы добавлюмся впереди слова для создания нового слова.Как правило префиксы имеюм особое знагение.англиислий невероямно инмерусний язнк.На самом дем он не макой слонснпи как кажетя.К таиу тсе мноше слова в англисйкае язике образованьа из одного корня или основного слова.Когда к дсновнму слово становится суи цсетсвсетельным,его называют префиксон сущестелвительпм.Префиксы алуисать для слообразованиея, елхменяют знагение слова,но принадлежность к той или щеой засти реги щстфутся нееуменной.Вальеиинство префиков в англмискои язпке,как в азербайдисанском,универсалвнег для всех гастей пепрефиксы к тем елеи иным словам,следует свериться со словарем.В статье дайотся кратких информаций о проиурйонных наугно-исамдовательских работах в области англииской и азербайдтсанской язпкознаний.Такше указиваеся имена иссмдователей

йнаписавщих в рауные времена науне статви в области слово образование в англискком язпке.В этой облфсты язпкознаний написано много работ.

Ədəbiyyat:

1)Oruc Musayev “Ingilis dilnin grammatikasi” 1992
2)A.Axundov “ Ümumi dilçilik” Bakı 2009
3)A.Məhərrəmov Dil qrammatikasını yeni mərhələsi Bakı 2004
4)A.Bayramov Leksik mənaların dilin zənginləşməsində rolu

Redaksiyaya daxil olma tarixi: 07.12.2022
Çapa qəbul olunma tarixi: 28.12.2022
Rəyçi: prof.Məmmədova Z.Ş
tərəfindən çapa tövsiyə olunmuşdur

GÜNAY SÜLEYMANOVA
Bakı Slavyan Universiteti
İngilis Filologiyası kafedrasının müəllimi
Şamil Əzizbəyov küç., 102
gunayenglish@gmail.com

AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ FRAZEOLOJİ BİRLƏŞMƏ ŞƏKLİNDƏ OLAN NİDALAR

XÜLASƏ

Nidalar digər nitq hissələrindən mənşəyinə, nominativ xüsusiyyətlərinə, fonetik quruluşuna, eləcə də semantik, morfoloji və sintaktik quruluşuna görə fərqlənir. Nidalar müəyyən bir dilə və mədəniyyətə aiddir, bir dildən başqa dilə keçərkən tərcümə və xarici dili mənimsəyərkən isə xüsusi öyrənmə tələb olunur. Anlaşma, bir-birini başa düşmə həm əqli yolla, yəni müstəqil sözlərlə, həm də hisslərlə, yəninidalarla mümkün olur. Həm Azərbaycan, həm də ingilis dillərində nidaların indiyə qədər verilmiş semantik bölgüsü mütləq səciyyə daşımaqdan məhrumdur, bu bölgüdəki məna çalarlarının qruplaşdırılması şərti səciyyə daşıyır.

Həm Azərbaycan, həm də ingilis dillərində nidaların əsas kommunikativ funksiyası emosiyaların ötürülməsi, emosional qiymətləndirmələr, danışanın və ya dinləyənin iradəsidir.

İngilis dilində emosional nidalar sabit məna daşıyan sözlər qrupu ilə müşayiət olunur. Emosional nidaların tərkibinə danışanın ifadəyə münasibətini ifadə edən emosional-qiymətləndirici və leksik təbiəti ilə ümumən hissi ifadə edən nidalar daxildir.

Frazeologizmlər dil vahidlərinin xüsusi sinfi kimi aşağıdakı xüsusiyyətlərə görə seçilir: məna büyövlüyü, nitqdə təkrarlanma və sabitlik. Frazeoloji vahidlərin sabitliyi onların çoxalma qabiliyyətində, lakin nitq prosesində təşkil olunmamasında özünü göstərir. Nida tərkibli frazeoloji vahidlər iki xüsusiyyəti birləşdirir: 1) frazeoloji vahidlərin formal xüsusiyyətlərinə malikdir (bu qrammatik cəhətdir); 2) emosional münasibətin aktuallaşdırılması vasitəsidir.

Açar sözlər: frazeoloji birləşmələr, törəmə nidalar, əsli nidalar, emosionallıq.

Nitq prosesinin və fikir mübadiləsinin reallaşmasına kömək edən dil, çox dəyişkən, eyni zamanda mükəmməl təşkil olunmuş sistem təqdim etdiyindən, tamamilə fərqli və mürəkkəb funksiyalar yerinə yetirir. Dil, bir tərəfdən səslərlə ifadə olunmuş fonem, morfem, sözdən ibarətdir, digər tərəfdən isə, dil daxili struktur və saysız-hesabsız elementlərin qarşılıqlı əlaqə sistemi əsasında qurulmuş struktura malikdir ki, bu onun nitq prosesində işlənməsini təmin edən əsas amildir. Belə bir mürəkkəb struktura malik dil sistemində frazeoloji birləşmələrin də özünəməxsus yeri vardır. Digər dil vahidləri kimi, frazeoloji birləşmələr də bəzi xüsusiyyətlərlə

xarakterizə edilir. Frazeoloji birləşmələrin bu xüsusiyyətlərin təyin edilməsi frazeologiyanın qarşısında duran əsas məsələlərdəndir. Dilçilərin böyük əksəriyyəti frazeoloji birləşmələrin dörd əsas xarakterik xüsusiyyəti olmasını qeyd etmişdir: *dildə hazır şəkildə işlənməsi, tərkib hissələrin sabitliyi və mənanın bötövlüyü və komponentlərin ayrı yazılması.* Frazeoloji birləşmələrin xarakterik xüsusiyyətlərinin onunla qarşılıqlı əlaqədə olan vahidlərlə - söz və sərbəst söz birləşmələri ilə müqayisəli şəkildə müəyyənləşdirmək olar. Buna frazeoloji birləşmənin öz təbiəti də imkan verir, çünki onun tərkib hissələri sözlərdən ibarətdir və bu birləşmələr dildə vahid söz kimi işlənirlər, struktur cəhətdən isə, frazeoloji birləşmələr sərbəst söz birləşmələrinə bənzəyirlər, çünki onların hər ikisi də, iki və daha artıq komponentin birləşməsindən əmələ gəlmişdir. Bu səbəbdən də, frazeoloji birləşmələrin bütün xarakterik xüsusiyyətlərini 3 əsas qrupa bölmək olar:

a) frazeoloji birləşmələri sözdən fərqləndirən xüsusiyyətlər;
b) frazeoloji birləşmələri sərbəst söz birləşmələrindən fərqləndirən xüsusiyyətlər;
c) frazeoloji birləşmələrin differensial xüsusiyyətləri.

Frazeoloji birləşmələrin struktur – semantik cəhətdən bölgüsünü aparan *prof. A.V. Kunin,* onların ünsiyyət zamanı yerinə yetirdiyi funksiya baxımından da funsional bölgüsünü aparmışdır ki, bu funksiyalar bilavasitə onların srtuktur-semantik xüsusiyyətləri ilə əlaqədardır. Bu prinsipə əsasən frazeoloji birləşmələr dörd qrupa bölünür:

- Nominativ frazeoloji birləşmələr – müəyyən məfhumları, anlayışları ifadə edir: "*a bull in a china shop" (yöndəmsiz adam), "well and good" (daha yaxşı), "as the crow flies" (qısa yolla, kəsə yolla).*
- Nominativ – kommunikativ frazeoloji birləşmələr – feili frazeolji birləşmələr bu funksiyada işlənir. Belə ki, bu birləşmələr məlum növdə birləşmə, məchul növdə isə, cümlə formasında işlənir: *"to break the ice – the ice is broken" (buzları əritmək).*
- Nida frazeoloji birləşmələr – bu birləşmələr dildə nə nominativ, nə də kommunikativ funksiya daşıyır: *"a pretty kettle of fish!" (Çətin vəziyyətdir!)*
- Kommunikativ frazeoloji birləşmələr – cümlə şəklində olan birləşmələr (atalar sözləri və zərb-məsəllər) bu funksiyada işlənir: *"Still waters run deep" (Suyun lal axanı, adamın yerə baxanı), "The world is a small place" (Dağ dağa qovuşmaz, insan insana rast gələr)* [4, 105].

Frazeologizmlər dil vahidlərinin xüsusi sinfi kimi aşağıdakı xüsusiyyətlərə görə seçilir: məna büyövlüyü, nitqdə təkrarlanma və sabitlik. Frazeoloji vahidlərin sabitliyi onların çoxalma qabiliyyətində, lakin nitq prosesində təşkil olunmamasında özünü göstərir. Nida tərkibli frazeoloji vahidlər iki xüsusiyyəti birləşdirir: 1) frazeoloji vahidlərin formal xüsusiyyətlərinə malikdir (bu qrammatik cəhətdir); 2) emosional münasibətin aktuallaşdırılması vasitəsidir (bu, funksional cəhətdir). Xüsusilə, A.V. Kunin dediyi kimi, "duyğunun ümumiləşdirilmiş ifadəsi, şüurun əks

etdirdiyi emosional vəziyyət nidanın əlamətidir", "emotivliyin komponentləri (ifadəlik, intensivlik, qiymətləndiricilik) nidanın konnatativ tərəfini təşkil edir.

Frazeoloji birləşmə şəklində olan törəmə nidalara onları əmələ gətirən komponentlərdən asılı olaraq aşağıdakı əsas növlər daxildir.

- Yiyəlik əvəzliyi + tək isim: *My God! My Word!, My goodness!* və s. - başıma xeyir;

*"**My God**," said Macomber. "I hate that damned noise."* [13, 13].

*"Henry, eh?" I said, surprised. "**My word!** Do you really call him Henry? Not Lord Southampton?"* [15, 16].

- Sifət + tək və ya cəm isim: *Good God!, Good Heavens! Dear God!, good Lord, holy cats!, Blessed Virgin!* və s. – başıma xeyir! (təəccüb hissini bildirəndə)

*"**Good Heavens**, Louisa!" said Mr. Dombey* [10, 58].

*"**Good God!**" he burst out at last. "What a miserable thing a woman's love is to a man's* [14, 489].

- Tək və ya cəm isim + sifət: *man alive!, saints alive!* və s. – aman Allahım! mənasında tərcümə olunur.
- 'for' sözönü + yiyəlik halda olan isim + *'sake'* ismi: *for heaven's sake!, for God's sake!, for Christ's sake!, for goodness' sake!, for pity's sake!, for Mercy's sake!* və s. – Allah xatirinə!

*"Sister, **for goodness' sake** let 'em put the horse in the carriage and take me home"* [14, 102].

*"**For heaven's sake** dry up and let's hear what they're saying"* [12, 19]

"***For Christ's sake**," he said, "That's been my trade"* [13, 53].

- 'for' sözönü + isim: *For shame!- ayıb olsun! Allahın olsun!*

*"**For shame, for shame!"** cried the lady's-maid. "What shocking conduct, Miss Eyre, to strike a young gentleman, your benefactress's son!"* [11, 8].

- Sifət + şəxs əvəzliyinin obyekt halı: *poor me!, dear me! - Ay Allah! Allah görür! Yaxşı-yaxşı! Sözüm yoxdur!*
- Sifət + sifət: *good gracious!- Allahım!*
- Tək isim + şəxs əvəzliyinin obyekt halı: *Goodness me! – İlahi!, Dad-aman əlindən! Vaxsey!*
- Tək isim + 'in' sözönü + tək isim: *Christ in heaven!*
- Zərf + zərf: *there now!, now then!, well then!* və başqaları.
- Yiyəlik halda olan isim + tək isim: *bull's eye!, God's truth! - Allah haqqı!*
- (Sifət) + tək isim + 'of' sözönü + tək isim: *Holy Mother of God!, Mother of God! – Aman Allahım! Ola bilməz!*
- 'All' əvəzliyi + yiyəlik əvəzliyi + tək isim + 'and' bağlayıcısı +xüsusi isim + xüsusi isim: *all my eye and Betty Martin! – cəfəngiyyat*
  All my eye and Betty Martin, thought I will have no more truck with you.

Frazeoloji tərkibli nidalar arasında "*by the Lord Harry" – (lənət sənə!)* nidasına bədii ədəbiyyatda tez-tez rast gəlinir. Bu nida qəzəb, qıcıqlanma mənasını ifadə edir. Etimologiyasını araşdırsaq, görərik ki, *Lord Harry* (və ya Old Harry) şeytanın ümumi adlarından biri olub, hətta, '*to play old Harry with someone or something'* frazeoloji birləşməsi 'bir insana və nəyəsə problem yaratmaq', 'fəsad törətmək' və ya 'şeytanla oynamaq' mənasında işlənir.

"I am not going to take him at once, he is to finish his educational cramming before then," said Mr. Bounderby.

***"By the Lord Harry,** he'll have enough of it first and last"* [10, 114].

Azərbaycan dilçiliyində bir çox hallarda nida tərkibli frazeoloji birləşmələrə "nida olan idiomlar" yaxud "frazeoloji nidalar" da deyilir. Frazeoloji nidalar əsasən feilin əmr forması ilə yaranır.

Frazeoloji nida müxtəlif nitq janrlarında alqış, qarğış, xahiş, əzizləmə, oxşama, təbrik, gözaydınlığı, lənətləmə, şərəfləndirmə janrlarında ola bilir. Frazeoloji nidalar poetik mətn daxilində mikrodialoqlarla da verilir.

Poetik mətnlərdə nida xarakterli frazeoloji birləşmələrdə ekspressivliyi yaradan əsas amillərdən biri intonasiyadır. Məhz intonasiya frazeoloji vahidi poetik dilin başqa vahidlərindən fərqləndirir və xüsusi qabardır.

Frazeoloji nidalar poetik ekspressivliyi gücləndirir, müəllifin, lirik qəhrəmanın emosional durumunu, yaxud hadisələrə, şəxslərə psixoloji mövqeyini bildirir.

Alqış tipli frazeoloji nidalar onların yaradıcılığında, şeirlərin lüğətində daha geniş yer alır. Alqış tipli frazeoloji vahidlər poetik mətnin emosional-poetik gücünü artırır. Alqış və qarğış tipli frazeoloji vahidlərin semantikası xalq dünyagörüşü, xalq inancları və mərasimləri ilə bağlı olur.

- uğur diləmə, xeyir-dua məzmunlu frazeoloji nidalar:
  Get, oğlum, yaxşı yol, ***uğurlar olsun***
  Vətən məhəbbəti sənə yar olsun! [8, 177]
- şükranlıq, təşəkkür bildirən frazeoloji nidalar:
  Niyə ağlayırsan, - dedim
  Şükür Allaha, *ölməmişəm ki…* [8, 125]
- gözaydınlığı, müjdə bildirən frazeoloji nidalar:
  Yurda mərdlər verənim!
  ***Gözün aydın**, gözü tarix boyu odlar görənim* [7, 12].
  *Burada arvadlar hamısı ağız-ağıza verib: "**Allah mübarək eləsin!** Başa çıxanlardan olsun!" – deyib yenə bir-birinə qarışdırlar* [9, 153].
- Çağırış ruhlu frazeoloji nidalar:
  Get, qoşul sən də, igid, cəbhəçi qardaşlarına,
  ***Kül ələ** torpağına qan tökənin başlarına* [7, 16].
- yalvarış, rica, xahiş bildirən frazeoloji nidalar:
  Kimi axtarırsınız, söyləyin, burada siz?

- ***Allah eşqinə**, əl çək!- dedi yüyürən nəfər, -*
  Arvadım suya düşüb, yoxdur ondan bir əsər [8, 270].
  Oğul! Bağlı gözünü
  *Aç, o **gözünə qurban**!*
  Güllə harandan dəyib?
  *Özüm, **özünə qurban**!* [7, 24]

*Bəsdir, **allah xatirinə**!.. Sizlər kompliment söyləməyi adət edibsiz, amma komplimentə mənim hərgiz ehtiyacım yoxdur* [9, 91].

***Ağrını alım**, a kirvə, bu camadan əmanətdir, munun yiyəsi bu qəstinsədədir, zəhmət çək, onun mənzilin mən göstər, öz əlinə tapşırım* [9, 114].

- Qarğış, lənət, nifrət bildirən frazeoloji nidalar: *evin yığısın, Allah çarxını çevisin, başına kül olsun, Allah üzünü qara eləsin* və s.
- Söyüş, məzəmmət, nifrət, qəzəb bildirən frazeoloji nidalar: *cəhənnəm ol, köpək (it) oğlu.*

Frazeoloji nidalar həmcinin Azərbaycan dastan və nağıllarında da çox işlədilmişdir. Onlar həm bədii üslubda, həm də danışıq üslubunda işlədilərək cümlədə emosiya yaradır. Frazeoloji nidalar subyektin obyektə, müxtəlif predmet və hadisələrə münasibətini bildirir. Bütün bunlar üslubi xarakter daşıyır və obrazların daxili həyəcanını, vəziyyətini ifadə etməklə müxtəlif məna çalarlarına malik olur.

Ədəbiyyat

1. Khaimovich B.S. A Course in English Grammar. M., 1967, pp. 298.
2. Kobrina N.A. and others. An English Grammar. Morphology.S.P, 2008, pp. 528
3. Krylova I.P., E.M. Gordon. A Grammar of Present-day English. M., 2006.
4. Кунин А.В. Курс фразеологии современного английского языка. М.: Высш. шк., Дубна: Изд. центр "Феникс", 1996 - 381 с.
5. Мюллер, М. Лекции по науке о языке /М. Мюллер. М., 2009. –317 ст.
6. Пешковский А.М. Русский синтаксис в научном освещении. М.,1956, 119с.
7. Mirvarid Dilbazi. Seçilmiş əsərləri. Bakı, 2004, 280 s.
8. Nigar Rəfibəyli. Seçilmiş əsərləri. Bakı, 2004, 392 s.
9. Sultan Məcid Qənizadə. Gəlinlər həmayili. Bakı, Yazıçı, 1986, 271 s.
10. Charles Dickens. Dombey and son. 1964, pp.918.
11. Charlotte Bronte. Jane Eyre. Moscow, 2005, 272 pp.
12. C.S. Lewis. The Silver Chair. London, 1965, pp. 133
13. Ernest Hemingway. The short stories. New York, 1986, 501 pp.
14. George Eliot. The mill on the Floss. 1994, pp.535
15. Jennifer Bassett. William Shakespeare. Oford University Press, 2008, pp.64

GUNAY SULEYMANOVA

INTERJECTIONS IN THE FORM OF PHRASEOLOGICAL COMBINATIONS IN AZERBAIJAN AND ENGLISH LANGUAGES

SUMMARY

Exclamations differ from other parts of speech according to their origin, nominative features, phonetic structure, as well as semantic, morphological and syntactic structure. Exclamations are specific to a specific language and culture, while translation and mastering a foreign language require special learning when moving from one language to another. Understanding and mutual understanding is possible both mentally, that is, with independent words, and with feelings, that is, with expressions. The semantic division of exclamations given so far in both Azerbaijani and English languages does not have an absolute characteristic; the grouping of shades of meaning in this division has a conditional characteristic.

The main communicative function of exclamations in both Azerbaijani and English languages is the transfer of emotions, emotional evaluations, the will of the speaker or listener.

Emotional exclamations in English are accompanied by a group of words with a fixed meaning. The composition of emotional exclamations includes emotional-evaluative and lexical exclamations that express feelings in general, expressing the speaker's attitude to the statement.

Phraseologisms are selected as a special class of linguistic units due to the following characteristics: completeness of meaning, repetition and stability in speech. The stability of phraseological units is manifested in their ability to multiply, but not be organized in the speech process.

Key words: phraseological units, primary interjections, secondary interjections, emotionality.

ГЮНАЙ СУЛЕЙМАНОВА

МЕЖДОМЕТИЯ В ФОРМЕ ФРАЗЕОЛОГИЧЕСКИХ СОЧЕТАНИЙ В АЗЕРБАЙДЖАНСКОМ И АНГЛИЙСКОМ ЯЗЫКАХ

РЕЗЮМЕ

Междометие знаки отличаются от других частей речи своим происхождением, номинативными признаками, фонетической структурой, а также семантическим, морфологическим и синтаксическим строением. Междометие знаки специфичны для конкретного языка и культуры, а перевод и овладение иностранным языком требуют специального обучения при переходе с одного языка на другой. Понимание и взаимопонимание возможно как мысленно, т. е. с помощью самостоятельных слов, так и с помощью чувств, т. е. с помощью выражений. Приведенное до сих пор семантическое деление

междометий как в азербайджанском, так и в английском языках не имеет абсолютной характеристики, группировка оттенков значения в этом делении имеет условную характеристику.

Эмоциональные междометия в английском языке сопровождаются группой слов с фиксированным значением. В состав эмоциональных восклицаний входят эмоционально-оценочные и лексические восклицания, выражающие чувства в целом, выражающие отношение говорящего к высказыванию.

Фразеологизмы выделены в особый класс языковых единиц благодаря следующим характеристикам: полнота значения, повторяемость и устойчивость в речи. Устойчивость фразеологизмов проявляется в их способности умножаться, но не организовываться в речевом процессе. Фразеологизмы, содержащие междометие, сочетают в себе два признака: 1) имеют формальные признаки фразеологизмов (это грамматический аспект); 2) это средство актуализации эмоционального отношения.

Ключевые слова: фразеологизмы, первичные междометия, вторичные междометия, эмоциональность.

Redaksiyaya daxil olma tarixi: 07.12.2022
Çapa qəbul olunma tarixi: 28.12.2022
Rəyçi: dosent Elmar Nəcəfov
tərəfindən çapa tövsiyə olunmuşdur

.

HUSEYNOVA M. AYSHAN
Ganja State University
PhD student of the Ganja State University
Department of Foreign Languages, Senior Lecturer
h_aysen@yahoo.com

PHRASEOLOGICAL UNITS IN POLITICAL DISCOURSE

Summary

In the modern world, in the era of globalization and a wide information space, when interest in politics is growing, the study of political discourse, its typology and genre features, basic concepts of politics, phraseosemantics and syntactics of political texts becomes relevant. Based on the anthropological and linguoculturological approaches, political discourse is a multidimensional complex of speech actions in the sociocultural and historical space, the achievement of which is oriented towards the choice of linguistic means, among which phraseological units play a special role.

The article is aimed at analyzing the features of the functioning of phraseological units in political texts presented by electronic mass media.

Political media language is characterized by the use of phraseological units of two types: “properly political” and those related to other spheres of society. Phraseological units in political discourse have such features as informative saturation, emotional coloring and evaluativeness, figurativeness, violation of the principle of impenetrability and a high degree of variability. Each position in the work is confirmed and demonstrated by examples from modern Russian-language and English-language media sources.

Key words: political discourse, phraseologisms, phraseological combinations, political texts, media examples

Political discourse is a certain type of practical language activity that not only serves various political processes, but also constitutes a significant part of a person's "information life". Van Dijk, the founder of text theory, believes that political discourse plays a key role in the exercise of power, as it expresses social knowledge, and therefore can “control the minds” of social groups and their members. Such a manipulative function of political discourse, that is, the function of managing society, public opinion, imposing their will on the audience by politicians, is achieved through certain communication tactics and techniques. The success of the policy pursued often depends on well-constructed political communication, and the strategies of power are formed taking into account the predominance of the communicative component.

According to the well-known scientist in the field of political communication V. A. Maslova, political discourse is a verbal communication in a certain socio-psychological context, in which the sender and recipient are assigned certain social roles according to their participation in political life, which is the subject of communication.

Anthropological and linguoculturological approaches, which are becoming more and more actual in modern linguistics, make it possible to consider political discourse as a multidimensional complex of speech actions in the sociocultural and historical space, which reflects the socio-ideological consciousness of a linguistic society. One cannot but agree with the opinion of E. I. Sheigal that "political language is not the prerogative of state officials or professional politicians; it is a resource open to every member of the linguistic community, associated with the specific use of the common language as a means of control and persuasion". In addition, in the modern media space, political content has the ability to reach any, even an uninterested consumer through various media channels. The rapid flow of information in the form of various texts is characterized by a wide coverage and has an impact on every member of society.

For a political media text, speech impact is the main goal of communication, the achievement of which is oriented towards the choice of linguistic means. Phraseological units play a special role among the language means that ensure successful political speech practice - semantically monolithic and figuratively motivated phrases that are consistently reproduced in speech. According to N. N. Kirillova, phraseological units are a projection of the world in the linguistic consciousness, which forms its own linguistic picture of the world in each language. Phraseological units, on the one hand, act as a vivid means of expressing the national and cultural vision of the world of a certain people, reflect the characteristics of national identity and are a clear marker of the political situation in the state. On the other hand, they are linguistic means that contribute to full-fledged communication in the intercultural media space, allowing to explicate such signs of political discrus as manipulativeness, semantic uncertainty, evaluativeness, imagery, saving speech efforts, as well as to establish the main trends in interpretation and evaluation of political events.

Thus, the relevance of this study is due to several factors. Firstly, in the conditions of the current aggravation and attempts to harmonize interethnic relations, the political sphere is increasingly attracting the attention of scientists from various sciences. Modern linguists, in turn, are building a new paradigm for the study of political language, basic concepts of politics, typical contextual models, phraseological semantics and syntactics of political texts. Secondly, recently there has been an increase in the "specific weight" of phraseological units in political texts and speeches of political leaders. Thus, phraseological units act not only as markers of the national and cultural specifics of the people, but also as a powerful means of influencing the addressee, which is mainly aimed at political discourse. Thirdly, the study is interdisciplinary in nature and was carried out in line with such disciplines as linguoculturology, cognitive linguistics, political linguistics, and text theory.

As N.V. Basko notes, one of the main features of a phraseological unit as a language tool that provides intercultural communication is a greater informative

saturation than their synonymous word . “The meaning of idioms is always richer than the meaning of a synonymous word (or words). And this means that the meaning of idioms is always more detailed than words. For example, the Russian phraseological unit “red line” has synonymous words “border”, which mean a dividing line that cannot be crossed. In political discourse, which became popular in the XX-XXI centuries. phraseologism also denotes the limit of patience of one of the parties - a position in case of violation of which "security is no longer guaranteed". In order to refrain the opponent from any irreversible actions, usually the head of state or his authorized representative makes an open statement, which involves a long preliminary discussion. “The United States has crossed a red line, the Iranian nation will respond decisively at the appropriate time in the near future,” he (Prime Minister Ali Rabia) was quoted as saying on the government’s Telegram channel. The English phraseological unit cut corners has the synonyms “save; economize", expressing reasonable expenses, the desire to preserve what is available, thrift, saving money. However, phraseologism also denotes dishonorable or evasive actions of a person / group of people or a company in the name of preserving capital / fortune, which negatively affects the company's reputation. Rolls-Royce has denied claims it "cut corners on quality-control requirements" and lied to customers (Rolls-Royce denies allegations that it saved on quality control costs and thereby defrauded customers.)

The figurativeness of a phraseological unit, another of its features, clearly represents the corresponding fragment or phenomenon of reality in human knowledge about it; contains stereotypical or associative representations of the people, paradoxes oriented to the surrounding reality. The majority of political phraseological units have in their semantic structure a typical image based on metaphorical transfer, which makes it possible to enhance the expressive potential. For example, in a political context, Russian phraseology anchoring means the initial position of the parties at the start of negotiations, which will slow down negotiations when circumstances change and hinder the achievement of an agreement. In the meaning of a political phraseological unit, the main properties of an anchor are projected as a structure for holding a ship or other floating object in one place. Another phraseological unit is a colossus on clay feet expressing something majestic in appearance, but essentially weak. The origin of this expression is connected with the Old Testament, which speaks of the Babylonian king Nebuchadnezzar, who dreamed of a huge metal idol on clay legs, which was broken by a stone.

The idiom witch hunt, quite common in American news blocks, has the meaning “to pursue, hunt witches”, which historically dates back to the 15th-17th centuries, when Europeans, suffering from an economic crisis, famine, plague and crop failure, began to associate the cause of misfortunes with witchcraft, in as a result, thousands of people suspected of witchcraft were persecuted and executed. The image of medieval witches, sorcerers and the persecution of them brought to the point of absurdity formed the basis of the English. witch hunt in the middle of the 20th

century, when mass persecution of Americans with communist views began, and in modern political discourse, the expression means campaigns to discredit any social groups for political or other reasons without proper evidence and reason.

Literature

1. Basko N.V. Phraseology of political discourse in the aspect of intercultural communication // Political Linguistics. 2017. No. 5 (65). pp. 175-180.
2. Кириллова Н.Н. Фразеология романских языков: этнолингвистический аспект: монография. СПб.: Изд. РГПУ им. А.И. Герцена, 2003. Ч. 1. 319 с.
3. Kondratieva O.N. Politics in the mirror of language and culture: the Ural school of political linguistics // Language and Culture. 2018. No. 41. P. 153-166.
4. Maslova V. A. Political discourse: language games or word games? // Political linguistics. 2008. No. 1 (24). pp. 43-48.
5. Parshina O.N. Russian political speech. Theory and practice. M. : LKI, 2007. S.17-25.
6. Ravochkin N.N. Features of political discourse // Bulletin of KSU. 2018. No. 3. S. 244-248.
7. Solovyov V.A., Moreva A.N. Mediatization as a factor of political influence on the mass audience // Vestnik MSLU. Social Sciences. 2018. No. 1 (794). pp. 89-102.
8. Dijk V. Critical Discourse Studies: A Socio-cognitive Approach (new version), Methods of critical discourse analysis. London: Sage, 2015. P. 63-85.

Hüseynova Ayşən Mahir qızı

Siyasi nitqdə frazeoloji vahidlər

Xülasə

Müasir dünyada, qloballaşma dövründə və geniş informasiya məkanında siyasətə marağın artdığı bir dövrdə siyasi diskursun, onun tipologiyasının və janr xüsusiyyətlərinin, siyasətin əsas anlayışlarının, siyasi mətnlərin frazeosemantikasının və sintaktikasının öyrənilməsi aktuallaşır. Antropoloji və linqvokulturoloji yanaşmalara əsaslanaraq, siyasi diskurs sosial-mədəni və tarixi məkanda nitq hərəkətlərinin çoxölçülü kompleksidir, nailiyyəti linqvistik vasitələrin seçilməsinə yönəldilir, onların arasında frazeoloji vahidlər xüsusi rol oynayır.

Məqalə elektron kütləvi informasiya vasitələrində təqdim olunan siyasi mətnlərdə frazeoloji vahidlərin fəaliyyət xüsusiyyətlərini təhlil etmək məqsədi daşıyır.

Siyasi medianın dili iki növ frazeoloji vahidlərin istifadəsi ilə xarakterizə olunur: “düzgün siyasi” və cəmiyyətin digər sahələrinə aid olan. Siyasi nitqdəki frazeoloji vahidlər informativ doyma, emosional rəngləmə və qiymətləndiricilik, obrazlılıq, keçilməzlik prinsipinin pozulması və yüksək dəyişkənlik kimi xüsusiyyətlərə malikdir. Məqalədəki hər bir mövqe müasir rusdilli və ingilisdilli media mənbələrindən nümunələrlə təsdiqlənir və nümayiş etdirilir.

Açar sözlər: siyasi diskurs, frazeologizmlər, frazeoloji birləşmələr, siyasi mətnlər, media nümunələri

Гусейнова М. Айшан

Фразеологизмы в политическом дискурсе

Резюме

В современном мире в эпоху глобализации и широкого информационного пространства, когда возрастает интерес к политике, актуальным становится исследование политического дискурса, его типологии и жанровых особенностей, базовых концептов политики, фразеосемантики и синтактики политических текстов. Исходя из антропологического и лингвокультурологического подходов, политический дискурс это многомерный комплекс речевых действий в социокультурном и историческом пространстве, на достижение которого ориентируется выбор лингвистических средств, особую роль среди которых играют фразеологические единицы.

Статья нацелена на анализ особенностей функционирования фразеологических единиц в политических текстах, представленных электронными масс-медиа. Политическому медиаязыку характерно употребление фразеологизмов двух видов: «собственно политических» и связанных с другими сферами жизни общества. Фразеологические единицы в политическом дискурсе имеют такие особенности, как информативная насыщенность, эмоциональная окрашенность и оценочность, образность, нарушение принципа непроницаемости и высокая степень вариативности. Каждое положение в работе подтверждается и демонстрируется примерами из современных русскоязычных и англоязычных медиаисточников.

Ключевые слова: политический дискурс, фразеологизмы, фразеологические сочетания, политические тексты, медиаобразцы

Redaksiyaya daxil olma tarixi: 07.12.2022
Çapa qəbul olunma tarixi: 28.12.2022
Rəyçi: dos. Allahverdi Həmidov
tərəfindən çapa tövsiyə olunmuşdur

ELMİRA XANƏLİYEVA
Bakı Slavyan Universitetinin
Avropa dilləri kafedrasının müəllimi
S.Rüstəm küç.33
kh.elmira88@gmail.com

AZƏRBAYCANDA MƏDƏNİ MÜXTƏLİFLİK VƏ ƏSAS XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Mədəniyyətin vacib amillərindən biri mədəni müxtəliflik sayılır. Azərbaycan qədim zamanlardan həm müxtəlif xalqların, həm də mədəniyyətlərin diyarı olmuşdur. Ölkəmiz tarixən çoxmillətli, çoxdinli və çoxdilli ərazi olmuşdur. Müxtəlif milli-etnik qrupların nümayəndələrinin yaşadığı Azərbaycan unikal coğrafi, geosiyasi və mədəni məkan hesab olunur.

Vətənimiz tarixin bütün dövrlərində özünün rəngarəng tərkibli olması ilə fərqlənmişdir. Bu səbəbdən Azərbaycanda mədəni müxtəlifliyin etnik-milli mənbələri mövcuddur. Azərbaycanda yaşayan onlarla etnik-dini birliklərin qarşılıqlı hörmət, münasibəti və mədəniyyəti - folklor, dialekt, adət, məişət tərzi, inam və s. amillər müxtəlifliyin vəhdətini müəyyənləşdirmişdir.

Tarixən Azərbaycanda yaşayan bütün xalqlara, milli azlıqlara və etnik qruplara bərabər - ədalətli münasibət bəslənib. Azərbaycan dövlətinin uğurlu və düzgün milli siyasətinin nəticəsində milli azlıqların hüquqlarının təminatı sahəsində nəzərəçarpacaq nailiyyətlər əldə olunmuşdur. Dövlət tərəfindən atılan məqsədyönlü addımlar və uğurlu siyasət nəticəsində dinindən, millətindən asılı olmayaraq, Azərbaycan xalqının bütün dövrlərdə mehriban ailə, dost, qardaş şəraitində yaşamaq ənənələrini daha da möhkəmləndirib. Azərbaycan xalqı ölkə ictimaiyyətinin əsas hissəsi olan azərbaycanlılardan və ölkənin müxtəlif ərazilərində yığcam halda yaşayan 30 sayda millət və etnik qruplardan ibarətdir. Onlar sayı, dil və dinlərinin müxtəlifliyindən asılı olmayaraq Azərbaycanın bərabərhüquqlu vətəndaşlarıdır.

Hazırda, Azərbaycanda onlarla milli azlığın nümayəndəsi yaşayır. Məsələn: rus, ukrayn, tat, kürd, belorus, talış, yəhudi, türk, alman, ləzgi, tatar, avar, gürcü, saxur, udin və s. Həmin xalqlar öz dillərində danışır, maddi-mənəvi mədəniyyətlərini qoruyub saxlayır, özlərinin milli-mədəni birliklərini, assosiasiyalarını və ittifaqlarını yaradırlar.

Açar sözlər: mədəni müxtəliflik, milli azlıq, mədəniyyət, adət-ənənə, etnik qrup, azərbaycançılıq ideologiyası, folklor, multikulturalizm

Mədəniyyəti təcəssüm etdirən vasitələrdən biri mədəni müxtəliflik və plüralizmdir. Milli-mədəni müxtəlifliyin fakt və ya prinsiplərinin əsasını araşdıranlardan biri alman mütəfəkkiri İ.Herder idi. O, mədəniyyəti ən vacib alət kimi bəşəriyyətin tarix fəlsəfəsinə dair ideyalar adlı əsərində vurğulamışdır. İ.Herderin fikrincə, bu anlayışı şərtləndirən amillərdən biri onun bənzərsizliyidir.

Cəmiyyətin ayrılmaz hissəsi olan mədəni birlik müəyyən bir etnosu özündə ehtiva edən toplum deməkdir. Bu kontekstdə mədəniyyət sosial həyatın bütün yönlərini - siyasət, elm, iqtisadiyyat və s. əhatə edir. Bəs etnos dedikdə nə başa düşülür? Etnos və ya etnik qrup ictimai şüur səviyyəsində dərki nəticəsində yaranan sosial qrupdur. Bu sosial qrup isə din, dil, irq və milli bənzərsizliyə malikdir.

Azərbaycanın zəngin tarixi göstərir ki ölkəmiz müxtəlif xalqların və mədəniyyətlərin vətəni olmuşdur. Şərq mədəniyyətinin dünya və Avropa mədəniyyətlərinə inteqrasiyası, eləcə də dünya və Avropa mədəniyyətlərinin Şərq mədəniyyətinə keçidi üçün Azərbaycan körpü rolunu oynamışdır. Bu səbəbdən müxtəlif etnik mənsubiyyətli qrupların yaşadığı Azərbaycan mükəmməl coğrafi və mədəni diyardır. Ölkəmiz tarixin bütün dövrlərində özünün rəngarəng tərkibli olması ilə seçilib. Burada yaşayan etnik birliklərin qarşılıqlı hörməti, münasibəti və mədəniyyəti daim nümunə olmuşdur.

Hazırda Azərbaycanda milli azlıqlar sülh və mehriban şəraitdə yaşayır. Türk, rus, ləzgi, avar, ukrayna, tat, kürd, belarus, talış, yəhudi və s. kimi onlarla milli azlıq nümayəndələri öz dillərində danışır, özünəməxsus mədəniyyətlərini qoruyub saxlayır, milli-mədəni birlik və ya ittifaqlarının əsasını qoyurlar. Sayı, dil və dinlərinin müxtəlifliyindən asılı omayaraq onlar Azərbaycanın bərabərhüquqlu vətəndaşlarıdır.

Qələbə ilə bitən, qəhrəmanlıq dastanına çevrilən 44 günlük Vətən müharibəsi göstərdi ki, Azərbaycan xalqı etnik tərkibindən asılı olmayaraq bir yumruq kimi birləşməyi, bir amal uğrunda mübarizə aparmağı bacarır. Azərbaycanda yaşayan bütün xalqların Vətən müharibəsində böyük payı vardır. Vətən müharibəsi bir daha onu göstərdi ki, ölkəmizdə məskunlaşan bütün xalqlar dostluq, qardaşlıq, və həmrəylik şəraitində yaşayır və 44 günlük müharibə bir daha onu təsdiq etdi ki, ölkəmizdə hər zaman milli birlik və milli həmrəylik vardır. I Qarabağ müharibəsində olduğu kimi, II Qarabağ savaşında da vətən uğrunda canını verən, şəhid və qazi olan yüzlərlə Azərbaycan türklərinin, rusların, ləzgilərin, yəhudilərin, talışların, zaxurların, tatların və digər millətlərdən olan gənclər özlərinin vətən sevgisini sübut etdilər. Bu əzm Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu azərbaycançılıq ideologiyasından qaynaqlanırdı. Heydər Əliyevin fəlsəfi baxışlarına görə, azərbaycançılıq milli mənsubiyyəti, milli-mənəvi dəyərləri qoruyub saxlamaq, eləcə də onların ümumbəşəri dəyərlərlə sintezindən və inteqrasiyasından bəhrələnməkdir. Azərbaycançılıq ideologiyası xalqımızın milli-mənəvi dəyərlərini nəyinki müdafiə etmək, həm də qoruyub saxlamağı bacaran, dövlətlə vətəndaşların

mənafeyini üzvi şəkildə birləşdirmək deməkdir. Ölkədə vətəndaş birliyi və vahid sosium üçün uğurlu təməl hesab olunur. Azərbaycançılıq ideyasının bütün tarixi inkişafının zirvəsi Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı idi. Öz müdrik siyasəti və tarixi uzaqgörənliyi sayəsində Ulu Öndər müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail oldu. Bununla bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev deyir: "1993-2003-cü illər inkişaf, sabitlik illəri oldu. Məhz o illərdə dövlətçiliyimizin əsasları qoyuldu, milli ideologiya – azərbaycançılıq ideologiyası xalq tərəfindən dəstəkləndi" (Multikulturalizm: ədəbi-bədii, elmi-publisistik jurnal -2019, səh. 49).

Bu gün respublikamızda yaşayan milli azlıq və etnik qrupların mədəniyyələrinin qorunması və inkişafı ilə bağlı mühüm addımlar atılır. Əsas məqsəd milli azlıqların mədəniyyəti, incəsənətinin inkişafına nail olmaq, təbliğ etmək və yaşatmaqdır. Bunun ən bariz nümunəsi UNESKO-nun 20 oktyabr 2000-ci ildə qəbul etdiyi „Mədəniyyətlərin müxtəlifliyinə dair bəyannamə"dir. İyirmi istiqamətdən ibarət fəaliyyət planı bəyannaməni yerinə yetirmək üçün planlaşdırıb. Bəyannaməni təsdiq edən üzv dövlətlər mədəni müxtəlifliklə əlaqədar dəyərlərin yerli və beynəlxalq səviyyədə tanınması öhdəliklərinə götürüblər. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi UNESKO-nun, Avropa Şurası və ATƏT-in mədəni müxtəlifliyinə dair proqramlarda fəal iştirak edir.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra vətənimizdə məskunlaşan milli azlıq və etnik qrupların mədəniyyəti Azərbaycan mədəniyyətinin tərkib hissəsi kimi qorunur və inkişafi üçün addımlar atılır. Buna bariz nümunə kimi Sovet İttifaqının süqutundan sonra Azərbaycanda açılan bir çox mədəniyyət mərkəzləridir. Hazırda respublikamızda milli azlıqlar mədəni adət-ənənələrini qoruyub saxlamaq üçün mədəniyyət mərkəzləri yaradıblar. Hər biri öz fəaliyyətini uğurla davam etdirir.

Azərbaycanın dövlət siyasətində mədəni müxtəlifliyin dəstəklənməsi və qorunması öz əksini tapıb. Azərbaycan rəhbərliyi ölkəmizdə məskunlaşan bütün millətlər və xalqların rifahı, inkişafını hər zaman diqqətdə saxlayır. Ümumilli lider Heydər Əliyevin rəhbərliyi dövründə milli azlıqların mədəniyyətinə diqqət və qayğı hər zaman olmuşdur. Bu siyasət hazırda Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev tərəfindən də uğurla davam etdirilir.

UNESKO-nun 20 oktyabr 2005-ci il tarixli "Mədəni özünümüdafiə müxtəlifliyinin qorunması və təşviqi haqqında Konvensiya"sına uyğun olaraq, ölkəmizdə yaşayan milli azlıq və etnik qrupların mədəniyyəti, incəsənəti, adət-ənənələri və dilinin qorunub saxlanması istiqamətində məqsədyönlü işlər aparılır. Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin 2009-cu il 26 noyabrda imzaladığı qanunla ölkəmiz bu Konvensiyaya qoşulub.

Milli azlıqların öz adət-ənənələrini yaşatmaq, bizim mədəniyyətimizin tərkib hissəsi kimi bu xalqların mədəniyyətlərinin qorunaraq nəsildən-nəslə ötürülməsi üçün hər bir imkan yaradılmışdır. Həyata keçirilən müxtəlif tədbirlər, dövlət qayğısı,

azsaylı xalqların mədəniyyətinin inkişafına dəstək onları ruhlandırır, qarşlıqlı anlaşma və tarixi dostluq münasibətlərini möhkəmləndirir. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi öz fəaliyyətini hər zaman azsaylı xalqların nümayəndələri ilə əlaqəli şəkildə qurur. Azərbaycanda yaşayan və fəaliyyət göstərən xalqların həyatı, mədəniyyəti və adət-ənənələrinin işıqlandırılması müxtəlif layihələrlə və nəşrlərlə həyata keçirilir.

Azərbaycan Respublikası təminat verir ki, ölkə ərazisində yaşayan bütün azsaylı xalqlar qanunla nəzərdə tutulan hər cür təşkilat yarada bilərlər. Konstitusiya və qanunlar isə bu cür təşkilatların hüquqi vəziyyətini tənzimləyir. Belə təşkilatlardan Talış Mədəni Mərkəzi, Kürd Mədəni Mərkəzi (Ronai), Ləzgi Mədəni Mərkəzi (Samur), Ləzgilərin Mifologiyasını Öyrənən Mərkəz, "Saxur" Mədəni Mərkəzi, Şeyx Şamil adına Avar Cəmiyyəti, Udinlərin "Orayin" Mədəni Mərkəzi, tatların "Azəri" Mərkəzi, Buduq Mədəni Mərkəzi, Azərbaycan Slavyanlarının Mədəni Mərkəzi, Rus İcması Cəmiyyəti, Xınalıq Mədəni Mərkəzi, Azərbaycan Tatlarının İcması, Azərbaycan Gürcülərinin Cəmiyyəti, Azərbaycan Ukraynalılarının Cəmiyyəti, Azərbaycan Avropa Yəhudilərinin İcması, Almanların Milli - Mədəni Cəmiyyəti, Azərbaycan Yəhudiləri Cəmiyyəti, Beynəlxalq "İudaika" Cəmiyyəti, Məhsəti Türklərinin Vətən Cəmiyyətini göstərmək olar. Azlıqların hüquqlarının qorunması, fəaliyyətləri üçün geniş şəraitin yaradılması, təbii ki, cəmiyyətin demokratikləşdirilməsinin bariz əlamətidir. Sovet İttifaqı dağılandan sonra milli azlıqlar öz mədəniyyət, adət-ənənələrini qoruyub saxlamaq üçün mədəniyyət mərkəzlərinin əsasını qoymuşdular. Hal-hazırda Azərbaycanda onlarla müxtəlif milli-mədəniyyət mərkəzləri fəaliyyət göstərir. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi UNESKO-nun, Avropa Şurası və ATƏT-in mədəni müxtəlifliyə aid proqramlarında iştirak edir.

Milli mənsubiyyətindən asılı olmayaraq, Azərbaycan Respublikasında yaşayan bütün xalqların keçmişinə aid olan hər bir tikili "tarix və mədəniyyət abidələri" olaraq siyahıya alınır və dövlət tərəfindən qorunaraq bərpa edilir. Buna nümunə olaraq Şəki rayonunun Kiş və Qəbələ rayonunun Nic kəndindəki kilsələri, Qax rayonu ərazisində xristian kilsəsi, Masallı rayonunun Ərkivan kəndində XIX əsr məscidi dövlət tərəfindən bərpasını qeyd etmək olar.

Azsaylı xalqların folklorunun, mədəniyyətinin geniş təbliği aparılır. Bu məqsədlə bədii özfəaliyyət kollektivlərinin repertuarının milli zəmində inkişafı üçün bir sıra geniş tədbirlər həyata keçirilir. Məsələn, Saatlının "Adıgün" – Axıska türkləri, Cəlilabadın "Ruçeyok" - rus, Qaxın "Şividkatsa" - gürcü, Zaqatalanın "Ceyranım" - saxur, Qubanın tat, yəhudi, Qusarın "Trillo", "Şahnabat", "Mel", "Qayıbulaq", "Şahdağ", "Dustaval" və "Melodiya" - ləzgi, Laçının kürd, Balakənin "Xoylo" - avar, Lənkəranın "Şənlik", “Bacılar" folklor mahnı və rəqs, Masallı rayonu "Halay", Lerik rayonunun “Laqutto”, Astaranın "Sevinc" - talış, İsmayıllı rayonu İvanovka kənd mədəniyyət evinin - malakan, Bakı şəhərindəki “Gözəlim” tatar bədii özfəaliyyət kollektivlərini nümunə olaraq göstərmək olar.

Bu gün Azərbaycanda yaşayan milli azlıqlar öz ana dillərində danışır. Bir çox məktəblərdə ana dillərinin işlənməsi təmin olunur. Respublikamızda yaşayan milli azlıqların demək olar ki hamısı isə Azərbaycan dilini bilir və ondan ünsiyyət vasitəsi kimi istifadə edir. Azsaylı xalqların və etnik qrupların dillərinin effektiv təşkili üçün dərs, metodik vəsaitlər, dərslik və proqramların nəşri daim diqqət mərkəzindədir. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin başlıca məqsədlərindən biri Azərbaycan Respublikasında mədəni-etnoqrafik müxtəlifliyin azərbaycançılığın inkişafına xidmət göstərməsi yollarını müəyyənləşdirib gerçəkləşdirməkdir. Mərkəzin bu istiqamətdə hərtərəfli fəaliyyətini xüsusilə qeyd etmək lazımdır. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi tərəfindən görkəmli Azərbaycan yazıçısı Qurban Səidin Avropanın və ABŞ-ın tanınmış ədəbi tənqidçiləri tərəfindən XX əsrin ən yaxşı romanlarından biri kimi qiymətləndirilən "Əli və Nino" əsəri talış, ləzgi və udi dillərinə tərçümə edilərək çap edilib. "XX-XXI əsr Talış poeziya antologiyası" kitabı nəşr edilərək 126 müəllifin talış dilində yazdığı poetik əsərlərdən nümunələr toplanıb. Talış poeziya məktəbinin fərqli xüsusiyyətlərini özündə ehtiva edən bu kitabda uşaqlar üçün yazılan şeirlər əksəriyyət təşkil edir. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi tərəfindən "Azərbaycanca-Tatarca-Rusca-İngiliscə" danışıq kitabçası nəşr edilib. Layihə rəhbəri BBMM-in Himayəçilər Şurasının sədri, akademik Kamal Abdullayev, layihəyə məsul BBMM-in icraçı direktoru Rəvan Həsənovdur.

Multikulturalizmin "Azərbaycan modeli" sübut edir ki, müxtəlif millətlərin, etnik azlıqların və dini konfessiyaların nümayəndələri davamlı şəkildə inkişaf etməyə qadirdirlər. Onlar öz kimliklərini qoruyub saxlayır və bir-birilərinə əsl ehtiramla yanaşırlar. Bu səbəbdən Azərbaycan multikulturalizmi özünü bir ideologiya kimi deyil, əsrlər ərzində formalaşmış gündəlik həyat tərzi kimi təsdiq etmişdir. Respublikamızda ən yüksək təşəkküllü tolerant mühit hökm sürür. Vahid Azərbaycan ərazisində ən müxtəlif milliyyətlərin mənsubları olan Azərbaycan vətəndaşları qarşılıqlı hörmət, mərhəmət və təbii yardım şəratində çox mehriban yaşayırlar.

Beynəlxalq və milli səviyyədə həyata keçirilən tədbirlər ölkəmizin beynəlxalq arenada nüfuzunu artırır, xalqımızın milli həmrəyliyini daha da möhkəmləndirir və ölkəmizi mədəniyyətləri qovuşduran məkan kimi beynəlxalq aləmə təqdim edir. Burada əsas məqsəd Azərbaycan dövləti tərəfindən mədəniyyətlərarası dialoqun təşviqidir. Sözsüz ki, bu gün doğma diyarımız Azərbaycan dünyada xalqların - azlıq və ya çoxluğun fərqinin hiss edilmədiyi ölkələr sırasında ilk yerlərdən birini tutur. Bu o deməkdir ki, Azərbaycan dövlətinin apardığı uğurlu milli siyasət xalqların bir-biriləri ilə mehriban yaşamalarına şərait yaradır.

İstifadə edilmiş ədəbiyyat:

1.N.Nifityev, Azərbaycanda birgəyaşayış və Multikulturalizm, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Bakı-2015, 407 səh.
2. Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi. Bakı: ”Azərbaycan Universiteti” Nəşriyyatı, 2002, 232 səh.
3. YUNESKO-nun mədəni müxtəliflik haqqında ümumi bəyannaməsi: YUNESKO-nun Baş konfransının 31-ci sessiyasında 2001-ci ilin noyabrın 2 də Parisdə qəbul edilmişdir.- Paris: UNESCO, 2002.- 8 s.
4. Multikulturalizm: ədəbi-bədii, elmi-publisistik jurnal, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Yaradıcılıq Fondunun birgə nəşri, Bakı – 2019, 139 səh.
5. Multikulturalizm birgəyaşayışda stimul kimi... http://olaylar.az/news/sosial/122940
6. https://multiculturalism.preslib.az/
7. https://multikultural.az/az/
8. http://multikulturalizm.gov.az/az

ELMIRA KHANALIYEVA

CULTURAL DIVERSITY IN AZERBAIJAN AND ITS MAIN CHARACTERISTICS

SUMMARY

One of the important factors of culture is cultural diversity. Azerbaijan has been a land of various peoples and cultures since ancient times. Historically, our country has been a multi-ethnic, multi-religious and multilingual area. Azerbaijan is considered a unique geographical, geopolitical and cultural place where representatives of various national-ethnic groups live.

Our homeland has been distinguished by its colorful composition in all periods of history. For this reason, there are ethnic-national sources of cultural diversity in Azerbaijan. Mutual respect, attitude and culture of dozens of ethnic-religious communities living in Azerbaijan - folklore, dialect, custom, lifestyle, faith and other factors determined the unity of diversity.

Historically, all peoples, national minorities and ethnic groups living in Azerbaijan have been treated equally and fairly. As a result of the successful and correct national policy of the Azerbaijan state, significant achievements have been made in the field of ensuring the rights of national minorities. As a result of purposeful steps taken by the state and successful policies, regardless of religion and nationality, the traditions of living in a united family, friendly and brotherly atmosphere of the Azerbaijani people have been further strengthened. The people of Azerbaijan consist of Azerbaijanis, who are the main part of the country's

community, and 30 nationalities and ethnic groups living compactly in different areas of the country. They are equal citizens of Azerbaijan regardless of their number, language and religion.

Currently, dozens of representatives of national minorities live in Azerbaijan. For example: Russian, Ukrainian, Tat, Kurdish, Belarusian, Talysh, Jewish, Turkish, German, Lezgi, Tatar, Avar, Georgian, Sakhur, Udin, etc. Those peoples speak their own languages, preserve their material and moral culture, create their own national-cultural associations and unions.

Keywords: cultural diversity, national minority, culture, tradition, ethnic group, Azerbaijani ideology, folklore, multiculturalism

ЭЛЬМИРА ХАНАЛИЕВА

КУЛЬТУРНОЕ РАЗНООБРАЗИЕ В АЗЕРБАЙДЖАНЕ И ОСНОВНЫЕ ХАРАКТЕРИСТИКИ

РЕЗЮМЕ

Одним из важных факторов культуры является культурное разнообразие. Азербайджан с древних времен был землей различных народов и культур. Исторически наша страна была многонациональной, многоконфессиональной и многоязычной территорией. Азербайджан считается уникальным географическим, геополитическим и культурным местом, где проживают представители различных национально-этнических групп.

Наша родина отличалась своим красочным составом во все периоды истории. По этой причине в Азербайджане существуют этнонациональные источники культурного разнообразия. Взаимное уважение, отношение и культура десятков национально-религиозных общин, проживающих в Азербайджане - фольклор, диалект, обычаи, образ жизни, вера и т.д. факторов, определяющих единство разнообразия.

Исторически ко всем народам, национальным меньшинствам и этническим группам, проживающим в Азербайджане, относились одинаково и справедливо. В результате успешной и правильной национальной политики Азербайджанского государства были достигнуты значительные успехи в области обеспечения прав национальных меньшинств. В результате предпринятых государством целенаправленных шагов и успешной политики, независимо от вероисповедания и национальности, еще больше укрепились традиции проживания в дружной семье, дружбе и братстве азербайджанского народа. Народ Азербайджана состоит из азербайджанцев, составляющих основную часть общины страны, и 30 национальностей и этнических групп,

компактно проживающих в разных районах страны. Они являются равноправными гражданами Азербайджана независимо от их численности, языка и религии.

В настоящее время в Азербайджане проживают десятки представителей национальных меньшинств. Например: русский, украинский, татский, курдский, белорусский, талышский, еврейский, турецкий, немецкий, лезгинский, татарский, аварский, грузинский, сахурский, удинский и т.д. Эти народы говорят на своих языках, сохраняют свою материальную и нравственную культуру, создают свои национально-культурные объединения и союзы.

Ключевые слова: культурное разнообразие, национальное меньшинство, культура, традиция, этнос, азербайджанская идеология, фольклор, мультикультурализм.

Redaksiyaya daxil olma tarixi: 07.12.2022
Çapa qəbul olunma tarixi: 28.12.2022
Rəyçi: fil.ü.f.d., dos. Rasim Heydərov
tərəfindən çapa tövsiyə olunmuşdur

LEYLA QOCAYEVA
Azərbaycan Tibb Universitetinin müəllimi
Filologiya üzrə fəlsəfə doktoru,
qocaleyla511@gmail.com

BAĞLAYICILARIN MORFOLOJİ QURULUŞU, ONLARIN SEMANTİK-FUNKSİONAL XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *dilin qrammatik quruluşu, qrammatik koteqoriya, nitq hissələri, tabelilik bağlayıcıları, tabesizlik bağlayıcıları, funksional-semantik xüsusiyyət.*

Ключевые слова: *грамматическая структура языка, грамматическая категория,части речи, подчиняя крепеж, неповиновения крепеж, функционально-семантический признак.*

Key words: *grammatikal structure of the language, grammatical categoru, parts of speech, subordinatinq fasteners, disobedience fasteners, functional semantic-feature.*

İctimai bir hadisə olan dili yaradan və o dildə danışan xalqın inkişaf tarixi həm də onun zəngin lügət tərkibinin mövcudluğu ilə şərtlənir.

Çağdaş Azərbaycan ədəbi dilinin lüğət tərkibindəki inkişaf dövrün mürəkkəb hadisələrini, cəmiyyətin təkamül qanunlarını, elmi-fəlsəfi, ədəbi-estetik düşüncələrini əks etdirməyə, ifadə etməyə yetərli olması faktı ilə reallaşır.

Təbii ki, cəmiyyətin mədəni inkişafı onun dilinin lüğət fondundakı müsbət, çevik və modern dəyişikliklərdə əks olunur.

Onu da qeyd etmək lazımdır ki, bu inkişaf dilin daxili qanunlarının meyarı ilə tənzimlənməli, qrammatik quruluşu əsasında inkişaf etməlidir.

Dilimizin lüğət tərkibinə daxil olan sözlərin məna, forma və qrammatik cəhətdən qruplaşması nitq hissələri ilə bağlıdır. Dilin qrammatik quruluşunun tədqiqində nitq hissələrinin müqayisəli öyrənilməsi daha məqsədəuyğundur.

Ümumi qrammatik kateqoriya olan nitq hissələrinin bölgü prinsipi tarixən müxtəlif dillərdə fərqli şəkildə aparılmışdır. "Aristotel (e.ə.384-322) yunan dilində üç nitq hissəsi-adlar, fellər və bağlamalar (bağlayıcı, artikl, əvəzlik) olduğunu qeyd edirdi. Onun adlara və fellərə yanaşma tərzi də maraqlı idi. Onun fikrincə, ad zaman anlayışı bildirməyən, fel zaman anlayışı bildirən müstəqil sözlərdir. Həm də adlar o sözlərdir ki, adlıq halda, fellər o sözlərdir ki, indiki zamanın birinci şəxs təkində işlənir. Sözlərin bu normadan fərqli halları kənaraçıxma hallarıdır.

Qədim İskəndəriyyə dövrü qrammatikasında (e.ə III-I əsrlər) artıq 8 nitq hissəsi müəyyən edilmişdir: ad, fel, feli sifət, artikl, əvəzlik, zərf, qoşma, bağlayıcı. Sonralar Roma dilçiləri bu sıradan artiklı çıxarmış (onların dilində artikl yox idi), əvəzində nidaları daxil etmişlər. İskəndəriyyə qrammatikləri nitq hissələri adı altında cümləni təşkil edən sözləri nəzərdə tuturdular. Ona görə də həmin termini "nitq

hissələri" termini ilə yanaşı, "cümlənin hissələri" şəklində də tərcümə etmək olar".(8; 361)

Sonralar dillərin morfoloji quruluşunun öyrənilməsi daha əhəmiyyətli bir məsələyə çevrildi və morfoloji prinsip əsasında təsnifat aparıldı.

Lüğət tərkibindəki sözlər nitq hissələrinə leksik-qrammatik mənasına görə, morfoloji əlamətinə və sintaktik vəzifəsinə görə bölünür. Leksik məna daşımayan köməkçi nitq hissələri cümlə üzvü vəzifəsindən də məhrumdur və morfoloji baxımdan dəyişə bilmir. Bu nitq hissələrindən daha çox istifadə olunanı bağlayıcıdır. Dilçilik nəzəriyyəsində bağlayıcıları qrammatik məna yaxınlığına görə qoşmalarla bir qrupa daxil edirlər. Cümlənin həmcins üzvləri, söz birləşmələri və mürəkkəb cümlənin tərəfləri arasında sintaktik, qrammatik, həmçinin məntiqi əlaqə yaradan bağlayıcılar aydındır ki, söz yaradıcılığında iştirak edə bilmir.

İlk dəfə olaraq Azərbaycan dilinin bağlayıcıları haqqında məlumata Mirzə Kazım bəyin "Türk-tatar dilinin qrammatikası" əsərində təsadüf edilir.

Bağlayıcıların mühüm sintaktik vəzifəsi cümlə üzvləri və mətnin komponentləri arasında əlaqə yaratmaqdan ibarətdir. Digər köməkçi nitq hissələri ilə müqayisədə bağlaycıların fəaliyyət dairəsi, mətndə əlaqələndirici rolu daha genişdir.

Sözləri, cümlələri, abzasları bir-birinə bağlamaq funksiyasına görə bağlayıcılar bədii yaradıcılıqda ən çox müraciət olunan nitq hissəsidir.

Qadınlar oturan evdə ikinci dəfə qopan qıydan kişi məclisində olanlar da anladı ki, bu dəfə gələn Xədicəxanımdır.

Necə olsa, onun kəndi idi, qonaqlar küçədə qalmayacaqdı ki...

Amma... Xədicəxanımın nəyinə gərək idi, dünyada qlobal dəyişikliklər gedir, siyasi arenada sualtı aysberqlər üzə çıxır, ərazi və nəzarət üstündə təşkilatlanmış şəbəkələr qarşı-qarşıya durur, biznes imperiyalarının qanunları kimlərisə sıradan çıxarır, kimlərisə hakimiyyətə gətirir, yəhudi və rus mafiyası bir-birinə tələ qurur, böyuk şəhərlərdə imkanlı adamlar və onları dəstəkləyən adamlar zəiflədilir və yaxud aradan götürülür...

Bu böyuk siyasi oyunların qanlı çanağı Qobuluda yetim Xədicəxanımın başında çatlamalı idi?

Amma... çatladı. Özü də məhz Xədicəxanımın başında. (N.B)

Bu misallardan birincisində "da"-iştirak, "ki"-tabeli aydınlaşdırma bağlayıcıları tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlənin tərkibində işlənib.

İkinci misalda isə "amma" bağlayıcısı makromətndə müxtəlif abzasları əlaqələndirib. Diqqət yetirsək görərik ki, həm də burada "amma" bağlayıcısı xüsusi intonasiya ilə ifadə edildiyi üçün (üç nöqtə durğu işarəsi davamlı və sualedici intonasiya yaradıb) üslubi keyfiyyət də qazanıb.

Bağlayıcılar sintaktik vəzifə yerinə yetirmək baxımından tabesizlik və tabelilik qruplarına ayrılır. Bağlayıcıların bir qismi adətən söz və söz birləşmələrini, tabesiz mürəkkəb cümlələri, digər qismi isə tabesiz mürəkkəb cümlənin komponentlərini əlaqələndirir.

Tabesizlik bağlayıcılarının əlaqələndirdiyi komponentlər bərabərhüquqlu olur, onlardan əsas və asılı, tabe edən və tabe olan tərəf yoxdur.

Tabesizlik bağlayıcılarının qruplaşdırılması məsələsinə Azərbaycan dilçiliyində müxtəlif yanaşmalar mövcuddur.Q.Kazımov tabesizlik bağlayıcılarının 4 növündən (birləşdirmə, qarşılaşdırma, bölüşdürmə, aydınlaşdırma), M.Hüseynzadə 6 növündən(birləşdirmə-bitişdirmə, qarşılaşma, bölüşdürmə, iştirak, inkarlıq, aydınlaşdırma), Ə.Xəlilov 7 növündən (birləşdirmə,bitişdirmə, iştirak, inkarlıq, qarşılaşdırma, bölüşdürmə. aydınlaşdırma) bəhs edir.

Birləşdirmə bağlayıcıları: və, ilə(-la,-lə) . Onu da qeyd edək ki, "ilə" mürəkkəb cümləyə daxil olan sadə cümlələri əlaqələndirə bilmir.

Tabesizlik bağlayıcılarını 4 növə ayıran Q.Kazımov və A.Aslanov digər alimlərin iştirak və inkarlıq kimi təsnif etdiyi (həm, həm də, həmçinin, da, də, nə, nə də) bağlayıcıları da birləşdirmə bağlayıcıları qrupuna daxil edir. Bu bölgü ilə razılaşmaq mümkün deyil, çünki bu prinsip mətndə verilən informasiyanın iştirak çalarını nəzərə almır və bağlayıcının bu funksiyasını arxa plana keçirmiş olur.

" Və"- bağlayıcısı: Mən bu sözümü istinasız olaraq erməni və müsəlmanlara deyirəm. İndi bilirsiniz ki, biz qafqazlılar rus millətinin qapazları və zülm-sitəm boyundurğunun altında yaşayıb, kefləri istədiyi qədər əllərindən və dillərindən gələni bizlərə edirlər.(M.S.Ordubadi)

Bu gün ermənilərin məğlubiyyəti son həddə yetişdi və onlar tələş edib keçən günkü məğlubiyyətin əvəzini çıxmaq istəsələr də ağır tələfata məruz qalıb öz hissələrini də müsəlmanlara verdilər. (M.S.Ordubadi)

"Və" bağlayıcısı birinci misalda sözlər arasında, ikinci misalda isə tabesiz mürəkkəb cümlənin komponentləri arasında birləşdirmə əlaqəsi yaradıb. Tabesiz mürəkkəb cümlənin tərkibindəki ikinci cümlə (Onlar tələş edib keçən günkü məğlubiyyətin əvəzini çıxmaq istəsələr də ağır tələfata məruz qalıb öz hissələrini də müsəlmanlara verdilər) qarşılaşdırma əlaqəli tabeli mürəkkəb cümlədir.

" İlə"(-la,-lə): Müsəlman qadınlarıyla qızları erməni vəhşiliklərinin əlində qalıb o tərəf, bu tərəfə qaçmaqda idilər. (M.S.Ordubadi)

Amma, ancaq, lakin, halbuki, isə, fəqət- qarşılaşdırma bağlayıcıları bir çox hallarda makromətnlərdə abzasları da birləşdirir.

"Bağlayıcıların mətn komponentləri arasında əlaqə yaratmasından danışarkən bir məsələni də qeyd etmək vacibdir. Altmış, yetmişinci illərdən başlayaraq, bir sıra yazıçıların, xüsusilə Ə.Məmmədxanlı, Anar, Elçin, Ə.Əylisli,S.Əhmədli və başqalarının əsərlərində abzasların bağlayıcılarla başlanması hallarına tez-tez rast gəlirik. Deməli, bu bağlayıcılar nəinki mətnin komponentləri arasında, həmçinin mətnlər (hadisələr) arasında da rabitə yarada bilirlər.(9;85)

...Hətta həyətlərində tərpəşən qocalar əllərində güclü "mil" işığı uzağı vuran Çin fənəri ilə gəzirdi və hamı bilirdi ki, fənəri də Çaxçux gətirir, köhnə arvadı Qaradonlu Badsəba isə hökumət adamı sayılan təlimatçı kürəkəni Məsimin narazılığına, deyinməsinə baxmayaraq, malı açıq-açığına töküb satır, hətta Qurbanlı

sovetliyinin Üçpara kəndindən, o cümlədən Qonaqlıda da alverçilərə qılınc çəkən Qılınc Qurbandan da ehtiyatlanmayıb, alverindən qalmırdı. (İ.Hüseynov)

Aydındır ki, bağlayıcılar mtndə müxtəlif informativ vasitələr arasında əlaqə yaratmaqla yanaşı, məntiqi-semantik bağlılığı, sintaktik vahidlərin qarşılıqlı münasibətini də tənzimləyir və məna, qrammatik əlaqə mexanizmini nizamlayır, sistemləşdirir.

Tarixdə üç il bəlkə də böyük müddət deyil, ancaq insan ömrü üçün bu üç il kifayət qədər böyük idi.(O.Salamzadə)

Qasid atabəyin zarafatla və ya ciddi danışdığını başa düşməyib, müti görkəmdə otağı tərk etdi, amma məlum olanda ki, Bəhram şah, qasidin dediyi kimi, axşam yetişəcək, atabəy rahat nəfəs aldı və əmr etdi ki, hökmdarı qarşılamaq üçün hazırlıq görülsün.(O.Salamzadə)

Şeyx Mahmud şairə bəxşiş vermək üçün yaxasını açıb əlini qurşağının altına saldı, atabəy isə qımıldanmayıb İlyasın hərəkətlərini izləməkdə davam etdi. Lakin bəylər barədə heç nə demədi.(O.Salamzadə)

Bəxtinə deyilən sözlər onu həyatdan küsdürdü, halbuki o, bu gün elə qəşəng geyinib-kecinmişdi ki,İlyas onu heç vaxt belə gözəl qiyafədə görməmişdi. (O.Salamzadə)

" Fəqət" bağlayıcısı əvvəllər ədəbi dilimizdə işlək olsa da indi az hallarda işlədilir.

Bəlkə də inanardım, fəqət son hadisələr məni daha ehtiyatlı olmağa vadar edir.(Ə.Sadiq)

"Yoxsa" bağlayıcısı ikinci komponentin əvvəlində işlənməklə birinci komponentə əks, zidd olan nəticəni göstərir: Mal-qara üçün bol yem tədarük etmək lazımdır, yoxsa heyvanı qışdan çıxarmaq olmaz.

Bu bağlayıcı bəzən "yxud" bağlayıcısının mənasına yaxın məna ifadə edir. Məsələn: Qurbanın olum, ay oğul, sənsən, yoxsa yuxu gorürəm? (M.Hüseyn)

"Buna baxmayaraq" bağlayıcısı da qarşılaşdırma bağlayıcılarına məxsus funksiyanı yerinə yetirir və bu bağlayıcını "amma", "ancaq", "lakin" bağlayıcıları ilə əvəz etmək olar.Məsələn: Neçə, bir neçə yerdən səs gəldi ki,gündəlik təsdiq olunsun. Buna baxmayaraq, Nəcəf demokratiyanı gözləyərək səsə qoydu.(M.İbrahimov)" (7;361)

Tabesizlik bağlayıcılarının ən çox işlənən, məhsuldar növlərindən biri də bölüşdürmə bağlayıcılarıdır(ya, ya da, gah, gah da, istər, istərsə də, yain ki və s.)

Məscidlərdə suyu, ya da şərbəti gürcülərdən qənimət alınmış gümüş qablarda verirdilər.(O.Salamzadə)

Məni ya Bayburaya, ya onun qohumlarına, ya da padşahın, sağdırsa, özünə çatdır.(O.Salamzadə)

Toğrul gah onu haylayan səsə tərəf boylanır, gah da köməyə adam axtarırdı.(Ə.Sadiq)

İstər dostlar, istərsə də düşmənlər onun sərhəddi silahsız keçib getməsini heyrətlə izləyirdilər.(Ə.Sadiq)

Gördüyümüz kimi, bu növə daxil olan bağlayıcılar da həmcins üzvlər və bölüşdürmə mənalı tabesiz mürəkkəb cümlənin tərkib hissəsini bağlayır.

Qarşılaşdırma bağlayıcıları əşya, hadisə, əlamət, hərəkət və s qrammatik mənalı söz qruplarını qarşılaşdırır, önların əks mövqelərini vurğulayır, tabesiz mürəkkəb cümlədə isə iki bitkin məlumatı üzləşdirərək bir-birinə zidd sitüasiyanı əks etdirir.

Aydınlaşdırma əlaqəli tabesizlik bağlayıcıları (yəni, yəni ki, məsələn) söz, söz birləşmələri və cümlələri aydınlaşdıraraq izah edir, konkretləşdirir.

Ondan ötrü qəhrəmanlıq, yəni fədakarlıq insanı ucaldan insani dəyərlərdən idi.(Ə.Sadiq)

Bu işi hamı görə bilər, məsələn, elə mən də.(Ə.Sadiq)

Tabeli mürəkkəb cümlənin komponentlərini əlaqələndirən, budaq cümlələri baş cümləyə bağlayan tabelik bağlayıcılarının bir neçə növü var. Bu bölgü də zaman-zaman dilçilik elmimizdə müxtəlif prinsilər əsasında qruplaşdırılıb. Məsələn, M.Hüseynzadə tabelilik bağlayıcılarının 5 növünü (aydınlaşdırma, səbəb, müqayisə və bənzətmə, şərt, güzəşt) qəbl etdiyi halda, Q.Kazımov özünün "Müasir Azərbaycan dili" (Bakı,2010) dərsliyində bu qrupda olan bağlayıcıların cəmi 3 növündən (aydınlaşdırma, səbəb, nəticə) danışır.

Lakin bu gün dilçilik nəzəriyyəsində tabelilik bağlayıcılarının 4 növü müəyyənləşdirilib və konkretləşdirilib:

1.Səbəb bağlayıcıları; çünki, ona görə ki, ondan ötrü ki, o səbəbə ki, o səbəbdən ki və s.

2.Şərt bağlayıcıları; əgər, hərgah, madam, madam ki, indi ki, bir halda ki və s.

3.Güzəşt bağlayıcıları; hərçənd, hərçənd ki. Bu bağlayıcılar klassik ədəbiyyatımızda və ədəbi dilimizdə -gərçi, əgərçi şəklində işlənib.

4.Aydınlaşdırma bağlayıcıları.; ki, belə ki. "Ki" bağlayıcısı çox hallarda tabeli mürəkkəb cümlələrin tərkibində budaq cümləni baş cümləyə bağlayır və adətən baş cümlədən sonra gəlir. "Belə ki" bağlayıcısı isə nisbətən qeyri-məhsuldar bağlayıcı hesab edilir.

Zəlzələ vaxtı meşədə gecələmişdi, o səbəbdən də ailədən sağ qalan təkcə o idi.(O.Salamzadə)

Heç bir an keçmədi ki, darğanın adamları ağız-burunlarının qanı bir-birinə qarışmış daha iki çörəkçini komaya saldılar. Çünki qara-qışqırıqdan qulaq tutulur, çörəkçilər darğanı qarğayır, hədələyirdi.(O.Salamzadə)

Qazax uyezdinin əvvəlinci sahəsində erməni-müsəlman kəndlərinin bir-birinə qonşu olan kəndlilərin halına baxdıqda müsəlmanlar son dərəcə imkansız və zəif idilər, təzyiqə tab gətirə bilmir, buna görə də müsəlmanlar əvvəlcədən daşınıb başqa kəndlərdə yerləşmişdilər.(M.S.Ordubadi)

Onu da eşitmişdilər ki, bu tayfanın adamlarının gözü bir şeyi tutdumu, əl çəkən deyillər, ona görə də cığırdan çıxıb aralanmaq istədi.(İ.Şıxlı)

Bir halda ki döyüşmək lazımdı, mənə otryad verin, qaçaqların üstünə gedəcəm.(İ.Şıxlı)

İndi ki mənə rast gəlmisən, deməli, anan namaz üstəymiş, yoxsa, meyidin qurd-quşa yem olacaqdı.(İ.Şıxlı)

Əgər mənim haqqımda məlumat almısansa, bundan sonrakı işlərin necə olacağını bilməlisən.(Ə.Sadiq)

Madam ki işin üstü açılıb, vicdanımı təmizləmək üçün hər şeyi demıliyəm, savadsızdı, güclə qol çəkir.(İ.Şıxlı)

Hərçənd ki Cavanşir başa düşdü ki, onun qarşısında dayanan adını eşidib üzünü görmədiyi Həcərdi, Şəmistan ağanın qızı Həcər. Özünü ələ aldı.Sözün düzü bu tayfadan qorxurdu.(İ.Şıxlı)

On doqquz yaşı vardı, şıvırtı bir oğlandı, belə ki qaşları çatma, gözləri ala, kürəyi enli bir cavan yolnan gedəndə çəpərlərin dibindən boylanan qızların sayı artırdı.(İ.Şıxlı)

Mahmud heç cürə başa düşə bilmirdi ki, bu səsdə ki bu qədər kədər var, qəmginlik var, bu səsdən necə nəşələnmək olar və bu səsə qulaq asa-asa necə arxayınca plov yemək olar, necə dünyanın ən tərifli sözlərini tapıb Ziyad xanın zövqünü tərifləmək olar?(Elçin)

Çağdaş Azərbaycan dilçiliyində bu gün hətta bağlayıcı sözlərdən bəhs olunanda bəzi bağlayıcıların bağlayıcı, yxsa bağlayıcı söz olması ciddi polemika mövzusuna çevrilir: "Bunları nəzərə aldıqda əgər, əgər ki, hərçənd, hərçənd ki, hərgah, madam, madam ki, bir halda ki, vəqta ki, sözləri mübahisəli görünür. Bunlar da əslində bağlayıcı sözlərdir və bağlayıcı sözlərlə eyni funksiyanı yerinə yetirir, cümlənin əvvəlində gələrək özündən əvvəlki yox, sonra gələn komponentlə- baş cümlə ilə əlaqə yaradır. Indi ki, vəqta ki zaman, bir halda ki, madam ki şərt bildirir və bunlar zaman və şərt zərflikləri sayıla bilər. Lakin əgər, hərçənd, hərgah sözləri daha çox bağlayıcılaşmışdır. Bu cəhəti nəzərə almaqla, onları da bağlayıcı sözlər sırasında qeyd etmək olar Hərçənd və hərgah sözləri bağlayıcılara çox yaxın görsənsələr də, əslində bağlayıcı söz kimi formalaşmışlar (hər çənd- hər neçə, hərgah-hər gah)"(8;367)

Ümumiyyətlə, bağlayıcı sözlərlə bağlayıcılar arasında bənzərlik bir çox hallarda sual doğurub. Məsələn, bu gün bağlayıcı söz kimi qəbul etdiyimiz necə, necə ki, nə cür, nə cür ki sözləri M.Hüseynzadə müqayisə və bənzətmə bildirən tabelilik bağlayıcıları hesab etmişdir: Bu məsələni necə desən ,həll edərik. Nə cür istəsən, razılaşa bilərik və s.

Gördüyümüz kimi, dilçilik ədəbiyyatında bağlayıcının funksional-semantik xüsusiyyətləri fərqli baxış bucaqlarında təhlil edilir. Eyni fikrə gəlmək və bölgünü dəqiqləşdirmək üçün bu mövzu davamlı olaraq işlənməlidir.

Bağlayıcıların quruluşu ilə bağlı da müxtəlif fikirlər var. Vaxtilə M.Hüseynzadə özünün Müasir Azərbaycan dili kitabında bağlayıcıları quruluşca sadə, düzəltmə və mürəkkəb olmaqla üç yerə bölmüşdü. "Və", "həm", "ki", "amma", "ancaq", "lakin", "ya", "əgər","hətta", "yəni" və s- mürəkkəb hesab etmişdir.

Q.Kazımov da bağlayıcıları quruluşuna görə üç növə ayırır, lakin M.Hüseynzadədən fərqli prinsiplərlə: "Quruluşuna görə bağlayıcılar üç cür olur: sadə bağlayıcılar, mürəkkəb bağlayıcılar, tərkibi bağlayıcılar.

Əsas nitq hissələri kimi, sadə bağlayıcılar da bir morfemdən ibarət olurvə ikinci bir qrammatik mənalı morfemə ayrılmır. Amma, ancaq, lakin, hətta, yəni, zira, ki, ilə, isə, da, də, və, həm, nə, ya, gah, istər, və s bağlayıcılar sadə quruluşludur. Dilimizdə mürəkkəb bağlayıcı az olub: çünki, habelə,həmçinin sözlərindən ibarətdir. İlkin formadan fərqli bütün bağlayıcı variantları tərkibi bağlayıcılardır. Məsələn, habelə bağlayıcısı mürəkkəbdir, onun və habelə, və habelə də, habelə də variantları tərkibidir." (8;355)

A.Aslanov, Ə.Xəlilov və bir çox dilçilərimiz isə bağlayıcıları sadə və mürəkkəb deyə iki qrupa bölür. Bu gün də orta məktəb dərsliklərində bu prinsip əsas götürülür: "Bağlayıcılar quruluşuna görə sadə və mürəkkəb olur.

Sadə bağlayıcılar: və, ilə(la,-lə), lakin, amma, ancaq, hətta, yəni, əgər, hərçənd, ki, çünki, da, də, ya, gah, həm, nə, nəinki, həmçinin,yaxud.

Mürəkkəb bağlayıcılar. Bu bağlayıcılar bitişik və ayrı yazılır.

Bitişik yazılanlar:habelə, halbuki, hərgah.

Ayrı yazılanlar (bunlara bəzən tərkibi bağlayıcılar da deyilir): nə də, nə də ki,ga da, gah da ki, həm də, həm də ki, nə də, nə də ki, o cümlədən, o sıradan, yəni ki, və ya, istərsə də, madam ki, indi ki, bir halda ki, hərçənd ki, belə ki və s." (1;268)

Bu gün dilimizdə geniş şəkildə işlətdiyimiz bağlayıcıların böyük əksəriyyəti alınmadır, Türk və Azərbaycan dilinə məxsus bağlayıcılar azlıq təşkil edir. Vaxtilə bağlayıcıların funksiyasını intonasiya və başqa dil faktları yerinə yetirmişdir.

Yazılı ədəbi dilin inkişafı və ümumiyyətlə, yazı dilində bağlayıcılardan çox istifadə etmək zərurəti bu gün bağlayıcıları dilin qrammatik cəhətdən formalaşmasında mühüm rolu olan nitq hissəsinə çevirib. Lüğət tərkibindəki sözlər nitq hissələrinə leksik-qrammatik mənasına görə, morfoloji əlamətinə və sintaktik vəzifəsinə görə bölünür. Leksik məna daşımayan köməkçi nitq hissələri cümlə üzvü vəzifəsindən də məhrumdur və morfoloji baxımdan dəyişə bilmir. Bu nitq hissələrindən daha çox istifadə olunanı bağlayıcıdır. Dilçilik nəzəriyyəsində bağlayıcıları qrammatik məna yaxınlığına görə qoşmalarla bir qrupa daxil edirlər. Cümlənin həmcins üzvləri, söz birləşmələri və mürəkkəb cümlənin tərəfləri arasında sintaktik, qrammatik, həmçinin məntiqi əlaqə yaradan bağlayıcılar aydındır ki, söz yaradıcılığında iştirak edə bilmir. Bağlayıcılar sintaktik vəzifə yerinə yetirmək baxımından tabesizlik və tabelilik qruplarına ayrılır. Bağlayıcıların bir qismi adətən

söz və söz birləşmələrini, tabesiz mürəkkəb cümlələri, digər qismi isə tabesiz mürəkkəb cümlənin komponentlərini əlaqələndirir.

L.V.Qocayeva

Bağlayıcıların morfoloji quruluşu, onların semantik-funksional xüsusiyyətləri

Xülasə

Dilimizin lüğət tərkibinə daxil olan sözlərin məna, forma və qrammatik cəhətdən qruplaşması nitq hissələri ilə bağlıdır. Dilin qrammatik quruluşunun tədqiqində nitq hissələrinin müqayisəli öyrənilməsi daha məqsədəuyğundur.

Yazılı ədəbi dilin inkişafı və ümumiyyətlə, yazı dilində bağlayıcılardan çox istifadə etmək zərurəti bu gün bağlayıcıları dilin qrammatik cəhətdən formalaşmasında mühüm rolu olan nitq hissəsinə çevirib. Lüğət tərkibindəki sözlər nitq hissələrinə leksik-qrammatik mənasına görə, morfoloji əlamətinə və sintaktik vəzifəsinə görə bölünür. Leksik məna daşımayan köməkçi nitq hissələri cümlə üzvü vəzifəsindən də məhrumdur və morfoloji baxımdan dəyişə bilmir. Bu nitq hissələrindən daha çox istifadə olunanı bağlayıcıdır. Dilçilik nəzəriyyəsində bağlayıcıları qrammatik məna yaxınlığına görə qoşmalarla bir qrupa daxil edirlər. Cümlənin həmcins üzvləri, söz birləşmələri və mürəkkəb cümlənin tərəfləri arasında sintaktik, qrammatik, həmçinin məntiqi əlaqə yaradan bağlayıcılar aydındır ki, söz yaradıcılığında iştirak edə bilmir. Bağlayıcılar sintaktik vəzifə yerinə yetirmək baxımından tabesizlik və tabelilik qruplarına ayrılır. Bağlayıcıların bir qismi adətən söz və söz birləşmələrini, tabesiz mürəkkəb cümlələri, digər qismi isə tabesiz mürəkkəb cümlənin komponentlərini əlaqələndirir.

Л. В. Годжаева

Морфологическое строение союзов,
их семантико-функциональные свойства

Резюме

Значение, форма и грамматическая группировка слов, входящих в словарный запас нашего языка, связаны с частями речи. При изучении грамматического строя языка более целесообразно сравнительное изучение частей речи.

Развитие письменного литературного языка и необходимость использования союзов в письменной речи вообще превратили сегодня союзы в часть речи, играющую важную роль в грамматическом образовании языка. Слова в словаре разделены на части речи по их лексико-грамматическому значению, морфологическому признаку и синтаксической функции. Вспомогательные части речи, не имеющие лексического значения, лишены функции члена предложения и не могут изменяться с морфологической точки зрения. Наиболее употребительной из этих частей речи является союз. В теории

языкознания союзы включены в группу с союзами в силу близости грамматического значения. Союзы, создающие синтаксические, грамматические, а также логические связи между членами предложения, словосочетаниями и частями сложного предложения, явно не могут участвовать в словообразовании. Союзы делятся на подчинительные и подчинительные группы по своей синтаксической функции. Часть союзов обычно связывает слова и словосочетания, самостоятельные сложные предложения, а другая часть соединяет компоненты самостоятельного сложного предложения.

L. V. Gojayeva

Morphological structure of conjunctions, their semantic-functional properties

Summary

The meaning, form and grammatical grouping of the words included in the vocabulary of our language is related to the parts of speech. In the study of the grammatical structure of the language, the comparative study of parts of speech is more appropriate.

The development of the written literary language and the need to use conjunctions in the written language in general have today turned conjunctions into a part of speech that has an important role in the grammatical formation of the language. Words in the dictionary are divided into parts of speech according to their lexical-grammatical meaning, morphological sign and syntactic function. Auxiliary parts of speech that do not have lexical meaning are deprived of the function of a sentence member and cannot change from a morphological point of view. The most commonly used of these parts of speech is the conjunction. In the theory of linguistics, conjunctions are included in a group with conjunctions due to the closeness of grammatical meaning. Conjunctions that create syntactic, grammatical, and also logical connections between the members of the sentence, word combinations, and the parts of the complex sentence are clearly unable to participate in word creation. Conjunctions are divided into subordination and subordination groups in terms of their syntactic function. Some of the conjunctions usually connect words and phrases, independent complex sentences, and the other part connects the components of an independent complex sentence.

Ədəbiyyat:

1.Azərbaycan dili. Bakı,TQDK-“Abituriyent”,2010.
2.Azərbaycan dilinin qrammatikası. Bakı,” Maarif”, 1960.
3.Azərbaycan bədii dilinin üslubiyyatı (oçerklər), Bakı, EA nəşriyyatı,1970
4. Hacıyev K.Azərbaycan dilində xüsusi nitq hissələri, Bakı, “Təhsil”,1999
5.Hüseynzadə M.. Müasir Azərbaycan dili. Bakı, “Maarif”, 1983.

6.Kazımov Q. Seçilmiş əsərləri,VIII cild. Bakı, “Nurlan”, 2009
7. Kazımov Q. Müasir Azərbaycan dili. Morfologiya. Bakı,”Elm və təhsil”, 2010.
8. Müasir Azərbaycan dili. II cild. Morfologiya, Bakı, “Elm”, 1980.
9.Novruzova N.Mətn sintaksii. Bakı, “Təhsil”, 2002.
10.Zeynalov F. Müasir türk dillərində köməkçi nitq hissələri. “Maarif”, Bakı,1971.

Redaksiyaya daxil olma tarixi: 07.12.2022
Çapa qəbul olunma tarixi: 28.12.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru Durdanə Nağıyeva tərəfindən çapa tövsiyə olunmuşdur

İMANOVA İRADƏ İSA QIZI
Azərbaycan Tibb Universiteti
Azərbaycan dili kafedrası
imanovairade1960@gmail.com

LƏQƏBLƏRİN AD SİSTEMİNDƏ YERİ

Açar sözlər: *ləqəblər, morfoloji xüsusiyyətlər, semantik anlayışlar,fərdi xüsusiyyətlər*
Ключевые слова: *прозвища, морфологическая характеристика, семантические понятия, личностные характеристики*
Key words: *nicknames, morphological characteristics, semantic concepts, personal characteristics*

Hələ min illər bundan qabaq "Odisseya"da deyilmişdir: "Adamlar arasında heç kim adsız olmaz" /səkkizinci nəğmə/. Hamının adı olsa da, insanı tanıdan onun adıdır. Təsadüfi deyildir ki, ad tanınmaq simvoludur. Müxtəlif dövrlərdə hər bir xalqın özünəməxsus advermə ənənələri olmuşdur. Qədim türk xalqalarının da ad vermə ənənəsi başqa xalqlardan, o cümlədən müasir dövrümüzdəkindən əsaslı şəkildə fərqlənirdi.

Müasir dövrdə də bəzi xalqlarda qəbilə adlarını bildirmək üçün quş və heyvan adlarından istifadə olunur. Y.V.Çəmənzəminlinin "Qızlar bulağı" romanında da Qoç, Xoruz, Meymun və Quzqun kimi qəbilə adlarına rast gəlirik. Orta əsrlərdə Azərbaycanda mövcud olan Qaraqoyunlu, Ağqoyunlu dövlətlərinin adları da məhz qəbilə adları ilə əlaqədardır.

Min illər keçməsinə baxmayaraq, Azərbaycanın bir çox rayonlarında indi də yaşlı ər-arvadlar başqalarının yanında bir-birini "uşaqların atası", "uşaqların anası", "bizim kişi", "Musanın atası", "Musanın anası", "Çoban oğlu" kimi atalarının ləqəbi ilə adlandırırlar.

M.Adilov ad qazanmaq ənənələri haqqında yazır:

"Məşhurlaşmaq, tanınmaq" mənasına uyğun gələn bu ifadənin "ad almaq", "ad çıxarmaq" kimi sinonimləri, habelə "ad vermək", "ad qoymaq" və s. kimi ifadələr dilimizdə geniş miqyasda işlənməkdədir...

Demək, şəxs yeni ad aldığı gündən cəmiyyətin bərabər hüquqlu vətəndaşı olur və bu adla məhşurlaşardı. Bəzən də şəxsin əvvəlki adı ya yeni adla birlikdə işlənər, ya da tamam unudulardı. Qədim türklərin advermə ənənəsi müxtəlif xalqlarda son əsrlərə qədər yaşamışdır. Məsələn, S.İ.Baynişteyn tuvinlərin ad vermə ənənəsi haqqında yazır ki, onlar XIX əsrə qədər uşağa anadan olan kimi ad verməzdilər. Uşağı ümumi adlarla oğlan, oğul və s. adlarla çağırar, on yaşında at bəzəyib yoldaşları ilə ilk dəfə ova gedəndən sonra ata-ana ad vermə şənliyi təşkil

edər və ağsaqqallar ona ad verərmişlər. Adlar ən çox uşaqların xarici görünüşü, xarakter və temperamenti ilə bağlı olardı.

"Dədə Qorud" dastanında ad sistemi çox rəngarəngdir və mürəkkəbdir. Dastanlarda qəbilə adı, şəxs adı, ata adı, şəxsin oğlunun adı ilə adlanması, ər adı ilə adlanma, bacıoğlu, qayınata adı ilə adlanma, titul, ləqəb, kiçiltmə və əzizləmə adlar və s. olmuşdur. Əgər "Dədə Qorqud"un ad sistemini ərəb ad sistemi ilə müqayisə etsək, türk ad sisteminin zənginliyi məlum olar. Orta əsrlərdə "ləqəb" dedikdə şəxsin cəmiyyətdəki mövqeyi, vəzifəsi ilə əlaqədar olan titulları nəzərdə tutulmalıdır. Orta əsrlərdə türk xalqları heyvan və quş adlarından şəxs adı kimi daha çox istifadə edirdilər. Qədim türklərdən məlumdur ki, şəxsin titulu artdıqca, vəzifəsi böyüdükcə, onun adı da dəyişilərdi. İlxanilər dövründə də bu cür hadisələrə rast gəlmək olur. Məhz, Tekeder xan hökmdar olandan və müsəlmanlığı qəbul edəndən sonra Soltan Əhməd adını qəbul etdi.

Azərbaycan folklorunda ləqəblər kimi şəxsin xarici görünüşü, xarakteri, vərdişi, igidliyi, ictimai həyatdakı fəaliyyəti, peşəsi və s. ilə əlaqədar olan, özündə müəyyən atribut daşıyan şəxs adları zəngindir. Məsələn, Basar İgid, Qaraca oğlan, Dəli çoban, Xanbala, Bəybala, Nərbala və s. kimi yüzlərlə adlara rast gəlmək olur.

"Koroğlu" dastanındakı halaypozan, Topdağıdan, Dəmirçioğlu, Dilbilməz, Geridönməz, Kiziroğlu, Kürdoğlu və s. adlar onların igidlikləri, xasiyyətləri ilə əlaqədar olan adlardır. Bura qədər deyilənlərdən bir daha aydın olur ki, qədim türklərdə şəxsin adı onun xarici görünüşü, igidliyi, xasiyyəti və s. ilə əlaqədar olarmış: titul, ləqəb, fəxri ad və s. kompleks halda əsil ad funksiyasında işlənirmiş.

"Təxəllüs" ərəb sözüdür və iki mənası vardır.

"I. Qurtarma, xilas olma; II. Yazıçıların, şairlərin özləri üçün götürdükləri ad" deməkdir. Təxəllüs haqqında müxtəlif fikirlər söylənsə də onun bu izahı daha düzgündür. Ən qədim dövrlərdə sənətkarlar yazdıqları əsərlərində öz adlarını və ya təxəllüslərini işlətməzdilər. Təxəllüs XX əsrdən geniş istifadə olunmağa başlanmışdır. Təxəllüslərdən istifadə isə tədricən sənətkarlar arasında bir ənənəyə çevrilmişdir.

Təxəllüslər sənətkarın xarakteri, xarici görünüşü, sənətkarlıq qabiliyyəti, istək və arzusu, peşəsi və s. ilə əlaqədar olur. Təxəllüslər çoxdan tədqiqatçıların diqqətini cəlb etmiş və onlar geniş miqyasda tədqiq olunmaqdadır. Rus antronomikasında M.F.Masakov, V.V.Vinoqradov, V.Q. Dmitriyev, A.V. Superanskaya və başqaları öz tədqiqatlarında təxəllüslərdən ətraflı bəhs etmişlər.

Azərbaycan antroponimikasında isə Ş. Sədiyev, Z. Sadıqov, M.Çobanov, H.Həsənov və başqalarının tədqiqatlarında təxəllüslər haqqında ümumi məlumat verilmişdir.

Təxəllüs də, ləqəb də şəxs üçün köməkçi ad rolunu oynadığına görə XVI əsrdən başlayaraq ta indiyə qədr bir çox sənətkarlar, hətta tədqiqatçılar belə bu terminləri eyniləşdirirlər, gah təxəllüsə ləqəb, gah da ləqəbə təxəllüs deyirlər. Məsələn, mərhum ədəbiyyatşünas M.Rəfili "Nizami Gəncəvi" adlı məqaləsində

yazırdı: “Nizami şairin ləqəbidir” /”Revolyusiya və kultura” jurnalı, №2, 1938, səh. 47/.

S.Vurğun Əbülhəsənin “Müharibə” romanındakı “Rus Mahmud” haqqında yazır: “Yoldaşlarının “Rus Mahmud” deyə çağırdıqları bir serjant da diqqəti cəlb edir. Bakı neftçisinin oğlu Mahmud bu təxəllüsü öz tələbkarlığına, əla intizamına görə qazanmışdır”. /Əsərləri 6 c. Bakı, 1972, səh. 37/. “Təxəllüs” və “ləqəb” terminlərini bir-birindən fərqləndirən xüsusiyyətlər çoxdur. Əsas fərq belədir ki, təxəllüslər /ancaq ədəbi-bədii təxəllüslər nəzərdə tutulur/. Rəsmi səciyyə daşıyır və əsasən müəllifin özü tərəfindən qəbul olunur. Ədəbiyyat aləmində müəllif məhz təxəllüsü ilə tanınır, dövlət tərəfindən onun təxəllüsü rəsmiləşdirilir və saxlanılır: Füzuli, Xətai, Vaqif, Vidadi, Zakir, Səbuhi, Qüdsi və s.

Ləqəblər isə şəxsə əsasən başqaları tərəfindən verilir, lakin heç bir rəsmi sənədlərdə qeyd olunmur, daha çox canlı nitqdə işlənir: Koroğlu, Məmməd, Dəmirçioğlu, Bəlli Əhməd, Qaçaq Nəbi və s.

Azərbaycan antroponimikasında təxəllüslər haqqında ilk fikir söyləyən Ş.Sədiyev olmuşdur. O, “Adlar necə yaranmışdır” kitabında təxəllüslər haqqında məlumat vermişdir. Bu vaxta qədər tədqiqatçılarımız təxəllüslə “imza”, “gizli imza” terminlərini də gah fərqləndirmiş, gah da eyniləşdirmişlər. İlk növbədə demək lazımdır ki, “təxəllüs” və “imza” müxtəlif anlayışları bildirən ayrı-ayrı terminlərdir. “İmza” daha geniş mənaya malikdir. Təxəllüs də, ləqəb də şəxs üçün köməkçi ad rolunu oynadığına görə sənətkar və tədqiqatçılar bu vaxta qədər onları qarışdırmışlar.

Köməkçi ad kateqoriyalarının ən geniş və maraqlı növlərindən biri ləqəbdir. “Ləqəb” ərəb sözüdür və şəxsə əsl adından başqa, xarici görünüşü, xarakteri, peşəsi və s. ilə əlaqədar olaraq verilən köməkçi ad mənasında işlənir. Elmi ədəbiyyatdan bi termindən geniş istifadə olunsa da, canlı danışıqda və dialektlərdə “yama” termini dfə işlənir. Azərbaycanın müxtəlif dialekt və şivələrində ləqəb və ayama mənasında ayaqla /Şamxor/, nəssə /Culfa/, təyəlğa-təlğa /Qazax/ və s. kimi variantları da vardır.

Müasir Azərbaycan dilində titullar ləqəblərə daxil edilmir və ləqəblə yanaşı söz də işlədilir.

Bədii ədəbiyyatda isə “ayama” sözünə ilk dəfə C.Məmmədquluzadənin əsərlərində rast gəlirik: “Bizlər ayama deyirik. Bilmirəm başa düşdünüz ya yox? Ayama, yəni ləqəb /əsərləri I c. B., 1966, səh.232/.

Azərbaycan antroponimikasında ləqəbləri ilk dəfə geniş və müqayisəli şəkildə tədqiq edən Z.Sadıqova yazır: “Ləqəblər şəxsin adına onun fərdi xüsusiyyətləri, bədəninin xarici görünüşündəki bu və ya digər əlamətləri, sənət və peşə, yaşadığı yer, ictimai və iqtisadi vəziyyət, əsil nəcabəti və s. ilə əlaqədar olaraq artırılan sözlərdir”. “Şəxsin fərdi xüsusiyyətləri onu göstərir ki, dünyagörüşü, xarakteri, düşüncələri və qabiliyyəti, müəyyən vərdiş, əqidəsi, igidlik və qorxaqlığı, obyektiv varlığı subyektiv münasibətləri və s. ilə bağlıdır”.

Məfhum ifadə etdiyini, şəxslə heç bir əlaqəsi olmayan adlara hər hansı bir ləqəb artırdıqda, şəxs haqqında onun özü ilə bağlı əlavə məlumatları vermiş oluruq.

Məsələn, Aşıq Alı həm də birinci mənasında ifadə edə "Şıx Alı" adı ilə məşhur olub. Ona "təcnis Alı", "təbib Alı" da deyilib (Az.K.q.22.12.1981). Burada Şıx , təcnis , təbib lıəqəbləri ayrı-ayrılıqda Alı haqqında müəyyən məlumatı verir.

Deməli, ona əlavə olunan addan fərqli olaraq bilavasitə şəxsin özü ilə əlaqədar olur. Şəxsi daha da konkretləşdirmək, dəqiqləşdirmək məqsədilə işlədilir. Ləqəb bu və ya digər cəhətdən şəxsi xarakterizə edir.

Folklorun ayrı-ayrı janrlarında ləqəblərin işlənmə dərəcəsi müxtəlifdir. Bayatılarda müəlliflərin xüsusi adlar içərisində ləqəb və titullar işlənilmiş Aşıq Vəli, Xan Kərəm, Aşıq Rza, Molla Cəbi, Kiçik Hüseyn (Bayatılar, Bakı, 1960-1977) və s. kimi adlara rast gəlirik. Nağıl və dastanlarda ləqəblər daha çoxdur. Bütün dastanların hamısının, nağılların isə çoxunun adı qəhrəmanların həqiqi və ya sonradan aldıqları ad ilə bağlıdır.

Dialekt və şivələrdə ləqəblər daha çox işlənir. Elə bir kənd yoxdur ki, orada ləqəbə rast gəlməyək. Bəzi ləqəblər kəndlərdə çox, bəzi kəndlərdə isə az olur. Ləqəb insana müxtəlif vaxtlarda verilir: uşaqlıq illərində verilən ləqəblər, bəzən gənclik illərində ya tamam unudulur, ya da başqası ilə əvəz olunur. Kənddə və ya hər hansı kollektivdə şəxslərə ləqəb daha çox verilir və onlar ancaq kollektivdə, özü də məhdud dairədə işlədilir, məs. Ararat rayonunun Şirazlı kəndində Topal Mamed, Uzun Mamed, Kor Mamed, Dəli Mamed və s. ləqəbli mamedlər vardır. Ləqəblərdən adətən 2 formada istifadə olunur:1. Əsl adsız işlənən ləqəblər. 2.Əsl adı ilə birlikdə işlənməyən ləqəblər. Əsl adsız işlənən ləqəblər adətən əsl adı ilə əvəz edilir, onun yerində işlənir: Koroğlu-Rövşən, Məcnun –Qeys və s. Ləqəblərin çoxu əsl adla birlikdə işlənir, məs. çoban Məmməd, uzun Mamed, aşıq Əhməd, müğənni Vaqif və s.

İstifadə olunan ədəbiyyat:

1. Əzizə Mikayılova. Onomastik vahidlərin üslubi imkanları (XIX əsrin ikinci yarısında yaranmış nəsr əsərlərinin materialları əsasında linqvistik tədqiqat), Bakı, 2008 , 303 s.
2. H.Həsənov. Təxəllüslər və ləqəblər. Elm və həyat jurnalı II cild, 2007, s.38-39
3. Aydın Paşayev, Musa Adilov. Azərbaycan onomastikası, Bakı, 2019, 104 s.
4. Fərzəliyev Ş. Azərbaycan XV-XVI əsrlərdə. Bakı. 1983.
5. C. Məmmədquluzadə. Seçilmiş əsərləri, 6 cilddə, 3-cü cild, Bakı, !ndər " nəşriyyatı, 2004

İradə İmanova

LƏQƏBLƏRİN AD SİSTEMİNDƏ YERİ

Xülasə

Təsadüfi deyildir ki, ad tanınmaq simvoludur. Müxtəlif dövrlərdə hər bir xalqın özünəməxsus advermə ənənələri olmuşdur. Qədim türk xalqalarının da ad vermə ənənəsi başqa xalqlardan, o cümlədən müasir dövrümüzdəkindən əsaslı şəkildə fərqlənirdi. Demək, şəxs yeni ad aldığı gündən cəmiyyətin bərabər hüquqlu vətəndaşı olur və bu adla məhşurlaşardı. Bəzən də şəxsin əvvəlki adı ya yeni adla birlikdə işlənər, ya da tamam unudulardı. Qədim türklərin advermə ənənəsi müxtəlif xalqlarda son əsrlərə qədər yaşamışdır. Məsələn, S.İ.Baynişteyn tuvinlərin ad vermə ənənəsi haqqında yazır ki, onlar XIX əsrə qədər uşağa anadan olan kimi ad verməzdilər. Uşağı ümumi adlarla oğlan, oğul və s. adlarla çağırar, on yaşında at bəzəyib yoldaşları ilə ilk dəfə ova gedəndən sonra ata-ana ad vermə şənliyi təşkil edər və ağsaqqallar ona ad verərmişlər. Adlar ən çox uşaqların xarici görünüşü, xarakter və temperamenti ilə bağlı olardı.

"Dədə Qorud" dastanında ad sistemi çox rəngarəngdir və mürəkkəbdir. Dastanlarda qəbilə adı, şəxs adı, ata adı, şəxsin oğlunun adı ilə adlanması, ər adı ilə adlanma, bacıoğlu, qayınata adı ilə adlanma, titul, ləqəb, kiçiltmə və əzizləmə adlar və s. olmuşdur. Əgər "Dədə Qorqud"un ad sistemini ərəb ad sistemi ilə müqayisə etsək, türk ad sisteminin zənginliyi məlum olar. Orta əsrlərdə "ləqəb" dedikdə şəxsin cəmiyyətdəki mövqeyi, vəzifəsi ilə əlaqədar olan titulları nəzərdə tutulmalıdır. Orta əsrlərdə türk xalqları heyvan və quş adlarından şəxs adı kimi daha çox istifadə edirdilər. Qədim türklərdən məlumdur ki, şəxsin titulu artdıqca, vəzifəsi böyüdükcə, onun adı da dəyişilərdi. İlxanilər dövründə də bu cür hadisələrə rast gəlmək olur. Məhz, Tekeder xan hökmdar olandan və müsəlmanlığı qəbul edəndən sonra Soltan Əhməd adını qəbul etdi.

Ирада Иманова

МЕСТО ПРОЗВАНИЙ В СИСТЕМЕ НАИМЕНОВАНИЙ

Резюме

Не случайно имя является символом узнаваемости. В разное время у каждого народа были свои рекламные традиции. Традиция именования древних тюркских народов принципиально отличалась от других народов, в том числе и нашего времени. То есть с того дня, как человек получает новое имя, он становится равноправным гражданином общества и прославляется этим именем. Иногда предыдущее имя человека либо использовалось вместе с новым именем, либо было полностью забыто. Рекламная традиция древних тюрков жила у разных народов до последних столетий. Например, С. И. Байништейн пишет о традиции имянаречения тувинцев, что они не давали имени ребенку сразу после его рождения до XIX века. Ребенка называют нарицательными именами мальчик, сын и т. д. называет его по именам, в

возрасте десяти лет, после того, как он украсил лошадь и впервые отправился на охоту с друзьями, его родители организуют церемонию имянаречения, и старейшины дают ему имя. Имена в основном связаны с внешностью, характером и темпераментом детей.

Система именования в эпосе «Деда Горуд» очень красочна и сложна. В былинах родовое имя, личное имя, имя отца, обращение человека по имени сына, обращение по имени мужа, обращение по имени племянника, обращение по имени тестя, титул, прозвище, уменьшительно-ласкательное ласковые имена и т.д. был. Если мы сравним систему имен «Даде Горгуд» с системой арабских имен, то станет известно богатство тюркской системы имен. В средние века под «прозвищем» должны были подразумеваться титулы, связанные с положением человека и положением в обществе. В средние века тюркские народы чаще использовали названия животных и птиц как личные имена. От древних тюрков известно, что по мере увеличения титула человека и повышения его положения менялось и его имя. Такие события можно найти и в период Ильханидов. А именно, после того как Текедер-хан стал правителем и принял ислам, он принял имя Солтан Ахмад.

Irada Imanova

PLACE OF NICKNAMES IN THE NAME SYSTEM

Keyword

It is no coincidence that the name is a symbol of recognition. At different times, each nation had its own advertising traditions. The naming tradition of the ancient Turkic peoples was fundamentally different from other peoples, including those of our time. That is, from the day a person gets a new name, he becomes an equal citizen of the society and becomes famous with this name. Sometimes the person's previous name was either used together with the new name or was completely forgotten. The advertising tradition of the ancient Turks lived in various nations until the last centuries. For example, S.I. Bainishtein writes about the naming tradition of the Tuvins that they did not give a name to a child as soon as it was born until the 19th century. The child is called by common names boy, son, etc. calls him by names, at the age of ten, after decorating a horse and going hunting with his friends for the first time, his parents organize a naming ceremony and the elders give him a name. The names would mostly be related to the appearance, character and temperament of the children.

The naming system in the epic "Dada Gorud" is very colorful and complex. In epics, clan name, personal name, father's name, calling a person by his son's name, calling him by his husband's name, calling him by his nephew's name, calling him by his father-in-law's name, title, nickname, diminutive and endearing names, etc. was. If we compare the name system of "Dade Gorgud" with the Arabic name system, the richness of the Turkish name system will be known. In the Middle Ages, "nickname"

should mean titles related to a person's position and position in society. In the Middle Ages, Turkic peoples used the names of animals and birds more often as personal names. It is known from the ancient Turks that as a person's title increased and his position increased, his name would also change. Such events can also be found during the Ilkhanid period. Namely, after Tekeder Khan became the ruler and converted to Islam, he adopted the name Soltan Ahmad.

Redaksiyaya daxil olma tarixi: 07.12.2022
Çapa qəbul olunma tarixi: 28.12.2022
Rəyçi: f.ü.f.d., dosent D.Ə.Nağıyeva
tərəfindən çapa tövsiyə olunmuşdur

RƏNA ƏLİYEVA
Filologiya üzrə fəlsəfə doktoru
Bakı Slavyan Universiteti
rena_344@mail.ru

XLV ƏSR AZƏRBAYCAN-TÜRK YAZILI ƏDƏBİ DİLİNİN XALQ DİLİ ƏSASINDA İNİKŞAFI

Açar sözlər:orta əsr, ana dili,poeziya,abidə,bədii forma,Azərbaycan-türkcəsi
Ключавые слова: средние века, родной язык, поэзия, памятник, художественная форма, азербайджано-турецкий
Key words:medieval, native language,poetry,monument,artistic form, Azerbaijani-Turkish

Orta əsrlər Azərbaycan ədəbiyyatının ən başlıca əhəmiyyəti ana dilli ədəbiyyatın təşəkkülüdür. Belə ki,ədəbiyyat tariximizdə Azərbaycan dilində bizə gəlib çatan ilk əsərlər məhz XIII əsrin payına düşür. Ona görə də ana dilli ədəbiyyatımızın təşəkkül tarixini bu əsrdən başlayırıq. Gələcək araşdırmalar, ola bilsin ki, daha əvvəlki əsrlərə aid ana dilli ədəbiyyat nümunələrini üzə çıxarsın. Bu baxımdan biz həmin təşəkkülün tarixini də əvvəlki dövrlərə keçirək.

Qədim və orta əsr Azərbaycan ədəbiyyatı geniş bir dövrü əhatə edir.Xalqımızın bu böyük dövrdə yaratdığı bütün ədəbi abidələr və yetişdirdiyi bütün şəxsiyyətlər bizə eyni dərəcədə məlum deyildir.Orta dövr Azərbaycan ədəbiyyatı üç mərhələdən ibarətdir.1.XIII əsr, 2.XIV əsr, 3.XV-XVI əsr.Azərbaycan intibah mədəniyyəti xüsusən XIV əsrdə gur inkişaf yoluna qədəm qoymuşdur.Elmin və mədəniyyətin başqa sahələrindən fərqli olaraq ədəbiyyatda intibah özünü daha aydın şəkildə büruzə verirdi.XIV yüzilliyi Mahmud Şəbüstəri,Marağalı Əvhədi, Əssar Təbrizi,Arif Ərdəbili ,Qazi Bürhanəddin,Mustafa Zərir,Suli Fəqih bu dövrün rəngarəng yaradıcılığı olan sənətkarlarıdır. Bu dövrdə həm ana dilində,həm də fars dilində lirik və epik şeir örnəkləri yaranır. Həmçinin bu dövrdə Nizami mövzularının təsiri də müşahidə olunur. Marağalı Əvhədinin"Dəhnamə","Cami-Cəm", Arif Ərdəbilinin"Fərhadnamə", Əssar Təbrizinin"Mehir və Müştəri", poemaları Nizami poemalarının mövzu və ideyalarını əks etdirir.

XIV əsr ana dili ,ədəbi düşüncə və bədii fikirin ən mühüm qatlardan biri də sənətkarlıq problemi və ona baxış,münasibət tərzidir.Bu dövr söz sənətimizin sərrafları,onu yaradan və ucaldanlar müxtəlif mətləbləri,rəngarəng ideyaları,çeşidli mövzu və məzmunları daha gözəl biçimdə, daha əlverişli bədii formada, daha ürəyəyatan görkəmdə təqdim etməyi bir məqsəd kimi mütəmadi olaraq qarşılarına sanki məqsəd qoymuşdurlar.Başqa sözlə, forma ilə məzmunun,mahiyyətlə təzahürün ,məna ilə surətin vəhdətini yaratmağa səy göstərmişdirlər. Bu səbəbdən də ardıcıl olaraq münasib bədii forma və janr axtarışında olmuşdurlarlar.

XIV əsr Azərbaycan ədəbiyyatda çeşidli mövzu,məzmun,ideya,xarakterlər silsiləsini, rəngarəng mətləbləri çatdırmaqdan ötrü qələm sahibləri dilin və sözün imkanlarına geniş şəkildə müraciət etmişdirlər.Onlar dilin və sözün imkanlarından,onun bədii sözü daha əlverişli,mükəmməl və gözəl şəkildə söyləmək üçün yaratdığı bədii-estetik, ekspressiv-sematik, fonetik-leksik, assossativ və s. şəraitdən maksimum yararlanmağa çalışmışlar.

XIII-XIV əsrlər ana dili ədəbiyyatımızın bədii örnəkləri bəlağət vasitələrinin bolluğu ilə müşahidə olunur.Ümumiyyətlə, ədəbiyyatda, o cümlədən XIV əsr ana dilli poeziyamızda bəlağət vasitələri epik şeirə nisbətən lirik poeziyada həmişə üstünlük təşkil etmişdir. Cinas,rəddül-əcuz,ələs-sədr,təkrir,touzi`,əks-təbdil-tədvir,iştiqaq,səc`,züqafiyəteyn,tərsi`,məzduc,lüzum,müdəvvar,müləmmə və s. kimi əsərdə forma və gözəllik yaradan bəlağət kateqoriyalarından istifadə bu dövr üçün səciyyəvi olmuşdur.

Ana dilində yazan klassik sənətkarlarımız müxtəlif bəlağət vasitələrindən,məcazlardan,fonetik və leksik-sematik səciyyəli obrazlardan və s.-dən ustalıqla yararlanmışlar.Bununla da onlar dilimizin gözəlliyini,zənginliyini,ifadə imkanlarının genişliyini,elastikliyini,polifonik xassəsini,istənilən mətləbi bədii sözün uğurlu və obrazlı dilinə çevirməyin mümkünlüyünü təsbitə yetirmişdirlər.

XIV yüzillikdə ana dilli epik şeirdə məsnəvi aparıcı bədii forma olaraq qalmışdır. Bu bədii forma,ümumiyyətlə,orta əsrlər şərq ədəbiyyatında epik poeziyanın əsas ifadə vasitəsi funksiyassını hifz edir. Bu yüzillikdə Azərbaycan türkcəsində yaranan epik əsərlərin bizə məlum nümunələrinin hamısı poema janrındadır. Bunlardan yalnız Q.Əlinin "Qisseyi-Yusif"-i dördlük formasındadır.Qalanları isə məsnəvi şəklində qələmə alınmışdır.

XIV yüzillikdə Azrbaycan poeziyasında lirika janrı da mühüm yer tutur. Bu janrda yaranmış əsərlər də bir tərəfdən XII-XIII əsrlər yazılı ədəbiyyatın,digər tərəfdən isə şifahi xalq yaradıcılığının təsiri altında inkişaf edirdi. Bununla yanaşı, bu dövrdə çox geniş yayılmış sufi-panteist cərəyanlar, xüsusilə hürufilik təriqəti lirik şeirlər yazan şairlərin də elmi-fəlsəfi görüşlərində silinməz izlər buraxmışdır.

Şərq fəlsəfi fikir tarixində qiymətli əsərləri ilə əbədi yer qazanan görkəmli Azərbaycan filosofu və şairi **Mahmud Şəbüstəri** çox qısa ömür sürməsinə baxmayaraq, elm sahəsində böyük şöhrət qazanmışdır. Qədim yunan fəlsəfəsi, zərdüştilik, bütpərəstlik, xristianlıq, islam dini və müxtəlif mistik-fəlsəfi cərəyanlar haqda da dərin bilik sahibi olan Mahmud Şəbüstəri 1827-ci ildə Təbriz yaxınlığındakı Şəbüstər adlanan yerdə ilahiyyatçı ailəsində anadan olmuşdur.

Şəbüstəri geniş dünyagörüşü və biliyi olan bir alim idi. O, ilahiyyat, fəlsəfə, astronomiya, tibb, filologiya və başqa elm sahələrinə dərindən bələd olmuşdur.

Mahmud Şəbüstəri hələ cavanlıq illərindən Misir, Hicaz, Suriya, İraq və başqa ölkələrə səyahətlər etmiş, orada görkəmli alimlərlə tanış olmuş, onlarla əlaqə yaratmış və daimi məktublaşmışdır. Məhəmmədəli Tərbiyətin yazdığına görə, şirvanlı səyyahlardan biri Şəbüstərinin Kirmanda da olduğunu iddia edir. O,

Kirmanda evlənmiş və orada uşaq və nəvələri də olmuşdur. Şəbüstərinin nəslindən çıxanlar arasında elm və ədəbiyyat xadimləri də vardı. Onun oğlu şair olmuş və atasının məşhur "Gülşəni-raz" əsərinə şərh yazmışdır.

Gülşəni-raz" ("Sirlər gülşəni") məsnəvisi Mahmud Şəbüstəriyə böyük şöhrət qazandıran əsərlərindən biridir. "Gülşəni-raz" təsəvvüf ədəbiyyatında işlənən bir sıra anlayış və istilahların, incə mətləb və rəmzlərin açıqlanmasına həsr olunmuşdur. Bu əsər yazıldığı dövrdən başlayaraq təsəvvüfün təməl kitablarından, ana qaynaqlarından biri sayılıb, sonradan bu mövzuda yazılmış əsərlərdə ona dönə-dönə üz tutulub. "Gülşəni-raz"ın çoxlu saylı qədim əlyazmaları, eləcə də ona yazılan orta yüzil şərhləri bunu əyani şəkildə sübut edir.

Şəbüstəri ilk nəzm əsəri olan "Gülşən-raz" məsnəvisi maraqlı tarixçəsi ilə ortaya çıxmışdır. Şəbüstəri özünün ilk fəlsəfi əsərlərini nəsrlə yazmışdır. O yalnız ömrünün sonlarında şeirə müraciət etmişdir.

Orta yüzilliklərdə "Gülşəni-raz"ın təsiri ilə yazılmış bir sıra əsərlər də məlumdur. Xəlvətiyyə təriqətinin şeyxlərindən olmuş İbrahim Tənnurinin türkcə məsnəvi şəklində yazdığı "Gülzarnamə" kitabında "Gülşəni-raz"ın güclü təsiri görünür. XVII yüzil Osmanlı müəllifi Sarı Abdullah ana dilində yazdığı "Səmərətül-Fuad" əsərində "Gülşəni-raz" əsərinə istinad etmişdir. Bu əsər orta yüzilliklərdə iki dəfə türkcəyə tərcümə edilib. Klassik tərcümələrdən birincisi "Şirazi" təxəllüslü Azərbaycan şairi-mütərciminə məxsusdur.

1426-cı ildə "Gülşəni-raz" Azərbaycan şairi Şirazi tərəfindən ana dilimizə-Azərbaycan türkcəsinə çevrilir. 1944-cü ildə isə Əbdülbaqi Gölpınarlı əsəri Osmanlı türkcəsinə tərcümə edir. XIX əsrdən başlayaraq, poema müxtəlif müəlliflər tərəfindən bir çox Avropa dillərinə çevrilir və dəfələrlə dərc olunur. Əsər yarandığı gündən bütün şərqin sufiləri arasında böyük rəğbətlə qarşılanır.

M.Tərbiyətin yazdığına görə, Şəbüstəri indiyə qədər dünyanın kitab saxlanclarında təsadüf olunmamış "Şahidnamə" adlı başqa bir poemanın da müəllifidir. olmadığını iddia edirlər.Həmin tarixçə " Gülşəni-raz"ın başlanğıcında təsvir olunur:

Hicri tarixin 700-cü ilindən on yeddi il keçirdi.
Şəvval ayında gözlənilmədən Gülşəni-raz
Bir qasid min bir hörmət-ehtiram ilə
Xorasan camaatının yanından bizə gəldi.
Orada bir məşhur və böyük (şəxs) var
Mərifətlərinin çoxluğuna görə nur mənbəyinə bənzəyir
Bütün Xorasan əhli kiçikdən böyüyə qədər
Deyiblər ki, əsrin butun (mütəfəkkirlərindən) yaxşı
Məna haqqında o məktub yazıb
Mənalardan baş çıxaran adama göndərə bilər.
Orada mulahizələrdə bir çox ağırlıqlar var
"İşarət" əhlinin çətinliklərindəndir. Şeir yazaraq

O mənalar aləminin hər bir məsələsi haqda
Qısaca suallar göndərib. Xahişlə cavab gözləyir.
Qasid bu məktubu oxuyan kimi
Bu məsələ barədə söz-söhbət yayıldı.
Hörmətli adamlardan çoxu orada idi.
Hamının nəzərləri dərvişə (yəni, Şəbüstəriyə) dikildi.
Onlardan daha təcrübəli olan birisi
Bu mənalar haqda bizdən yüz dəfə eşitmişdi.
O mənə dedi: cavab ver ki
Dünyamızın adamları feyziyab olsunlar.

Şəbustərinin yaradıcılığı Azərbaycanın orta əsrlər fəlsəfəsi tarixində mühüm yer tutur. Onun əsərləri Avropa və Asiyanın bir çox ölkələrində nəşr olunmuşdur.

XIII-XVI əsrlər Azərbaycan təsəvvüf ədəbiyyatında fəlsəfə və poeziyanın qarşılıqlı münasibəti Mahmud Şəbüstəridən Füzuliyə qədər çox mürəkkəb bir inkişaf yolu keçmişdir. Bu inkişaf özünün ilk iki əsrini poetik fəlsəfədən fəlsəfi poeziyaya doğru (Mahmud Şəbüstəri, Marağalı Əvhədi, İzzəddin Həsənoğlu, İmadəddin Nəsimi), sonrakı dövrlər inkişafını isə istər çılpaq şəkildə, istərsə də simvollarla əyaniləşən fəlsəfi məzmunun daxili qata (şeirin nüvəsinə) sıxışdırıb poetik büllurluğa can atma istiqamətinə keçmişdir. Belə bir can atma Füzulinin timsalında özünün zirvə məqamına yetişmişdir" (4, s.11).

Bir şairi kimi M.Şəbüstəriyə dünya şöhrəti gətirmiş "Gülşəni-raz" əsərini sufizmin qamus kitabı, ensiklopediyası kimi qiymətləndirmək olar. Bu əvəzsiz abidənin fars dilindən filoloji tərcümə edərək, məzmunlu ön söz və izahlarla çap etdirmiş görkəmli şərqşünas və mətnşünas filologiya elmləri doktoru Möhsün Nağısoylunun qeydlərindən və əsərin "Kitabın yazılma səbəbi" hissəsindən məlum olur ki, 1317-ci ildə Xorasanın böyük sufi alimi Seyid Hüseyn Hərəvi (1246-1320) Şəbüstəriyə bir məktub göndərib ondan sufizmə dair 15 çətin suala şeirlə cavab verməsini xahiş edir. İndiyədək şeir yazmadığını bəhanə edərək və nəsrlə yazdığı əsərlərdə bu sualların cavabları açıqlandığını bildirərək Şəbüstəri bu xahişdən boyun qaçırmaq istəyir. Lakin yaxın bir adamının xahişi ilə o, ilk nəzm əsəri olan "Gülşəni-raz" məsnəvisini yazır (11,s.4-5).

"Gülşəni-raz" təxminən min beytdən ibarətdir, məsnəvisi təsəvvüflə bağlı məsələlərə həsr olunduğu üçün daha çox təsəvvüf məzmunlu bir əsər kimi tanınır. Mahmud Şəbüstəri 1320-ci ildə rəhmətə getmiş və öz vətənində, Şəbustərdəki Gülşən qəbistanlığında müəllimi Bəha əd- Din Yaqub Təbrizinin yanında dəfn olunmuşdur.İndi də onun qəbiri ziyarətgahdır.Dəfələrlə məqbərəsi bərpa edilmişdir.

Mahmud Şəbüstəri özündən sonra zəngin bir irs qoymuşdur.

Ana dilli Azərbaycan ədəbiyyatının ilk nümayəndələrindən biri də Bakılı Nəsirdir. Nəsir Bakuyi XIII əsrin sonları – XIV əsrin əvvəllərində Azərbaycan türkcəsində şeirlər yazmışdır. O, Sultan Olcaytunun zamanında ona türk dilində

müxəmməs həsr etmişdi. Azərbaycan dilində şeirlər yazan bu şair haqqında təssüflər olsun ki,çox az məlumat var.

Nəsir Bakuyunin həyatı,yaradıcılığı barədə geniş məlumat yoxdur.Onun müxəmməsi son illərdə üzə çıxarıldığından çox da məşhur deyil. Ərqun xanın üçüncü oğlu, 23 yaşlı Olcaytu qardaşı Qazan xanın vəfatından sonra Təbrizə gəlib onun yerini tutmuşdu. Tarixi mənbələrdə ədalətli və maarifpərvər bir sultan kimi xatırlanan Olcaytu şair Nəsir Bakuyi tərəfindən yüksək qiymətləndirilmişdir.

Ədəbi irsindən yalnız on bir bəndlik müxəmməsi məlunmdur.Həmin şeiri ilk dəfə şair-ədəbiyyatşünas Cəfər Rəmzi İsmayılzadə Azərbaycan Elmlər Akademiyasının Əlyazmalar İnstitutunda saxlanılan cünglərin birindən,Həsən bəy Vəhdətinin XVII əsrə aid "Cüngi-şüərayi-qədimi Baku"("Bakının qədim şairlərinin cüngü") məcmuəsindən tapıb aşkara çıxarmış və 1977-ci ildə elmi ictimayyətə təqdim etmişdir(3,s. 67-71).

Nəsir Bakuyinin Sultan Məhəmməd Ulcaytunu mədh edən bu əsəri "tarixi mövzuda olan şeir nümunələrindəndir"(1,s.87).Müxəmməsin yazılması konkret bir tarixi hadisə ilə əlaqədardır.1304-1316-cı illərdə hakimiyyətdə olmuş Elxani hökmdarı Sultan Məhəmməd Ulcaytu Bakıya da gəlmiş,şəhərin abadlaşdırlması üçün bir sıra tədbirlər həyata keçirmişdir.Sultan Ulcaytunun verdiyi fərmana əsasən Bakı şəhəri və ətraf vilayətin əhalisi bir sıra vergilərdən azad edilmişdir. Sultan Ulcaytunun bu qərarı yerli əhali tərəfindən rəğbət və ehtiramla qarşılanmışdır.

Nəsir Bakuyinin mədhiyyə xarakterli həmin şeiri,sözsüz ki,Sultan Məhəmməd Ulcaytunun hakimiyyəti illərində(1304-1316) qələmə alınmışdır. Son vaxtlarda nəşr olunmuş "Azərbaycan ədəbiyyatı tarixi" altıcildliyinin 3-cü cildində N.Bakuyinin bu müxəmməsi 1306-1310-cu illər arasında yazdığı göstərilmişdir.(5, s.86).Həmin tarixin daha da dəqiqləşdirilməsi üçün Sultanın Bakıya nə zaman gəldiyini müəyyənləşdirmək gərəkdir. Tarixçi alim S.Aşurbəylinin fikrincə: "Ehtimal ki, bu, onun Arrandan qayıdaraq Gülüstanda dayandığı 1309-cu ildə olmuşdur"(13,s.134).Buna əsasən demək olar ki, Nəsir Bakuyinin şeiri də təxminən elə 1309-cu ildə yazılmışdır.

Müxəmməsin ilk bəndi əsas təqdim üçün bədii zəmin rolunu oynayır. Şair ağlayan,ah-zar edən könlünə üz tutaraq onu Tanrıya dua etməyə çağırır,çünki məhz Allaha itaət ilə din,iman rövnəq tapmışdır. Bu itaət isə cism ilə cana(bədənə və ruha),yəni əslində hər bir insana vacibdir.

Şair Tanrıya həm də ona görə şükür edir ki, həqq-təala Ulcaytu kimi sultan sayəsində başımızı uca etmişdir. Beləcə,birinci bənddən anlaşılır ki,əsas tərənnüm ünvanı məhz Sultan Ulcaytudur:

Zar könlüm,tanrığə qıl gəl səna imanilən,
Buldi rövnəq dinü-iman taəti-sübhanilən.
Taəti-sübhan bizə fərz oldu cismü canilən,
Şükr ola şol həqqə kim,bimüntəha ehsanilən,
Sərfəraz etdi bizi Ulcaytutək sultanilən.(8, səh 19)

Şair hökmdara İslamı qoruduğu, xristianları rədd etdiyi, İslam dinini ucaltdığı üçün təşəkkür edir, onu böyük adam adlandırır.

Sultanın adına,qismətinə əzəl gündən fatehlik yazıldığını deyən müəllif qadir Allahın onu öz himayəsində saxlamsını arzulayır. Burada maraqlı təşbehlər də vardır. Şair bakı şəhərini asimana, şahı isə bu səmanı nurlandıran işıqlı Aya bənzədir. Son misralarda isə şair öz kimliyini bildirmiş, "hünər şahı" kimi səciyyələndirdiyi Sultanı dürr saçan ilhamı ilə həmişə mədh etdiyini deməklə fikrini tamamlamışdır. Sanki müəllif mədhiyyə yazmasının səbəbini də əsaslandırır, belə yüksək keyfiyyətlərə malik hökmdarı səmimiyyətlə tərifləyir:

Naminə kişvərgüşalıq yazdı əzzəldən dəbir,
Hifz edə zilli-inayətdə xüdavəndi-qədir,
Şəhrimiz bir asimandır, şahimiz mahi-münir,
Şol hünər şahini eylər mədh Bakuyi Nəsir,
Hər zaman çini-könüldən təbi-dürrəfşanilən.(8,s.25)

Göründüyü kimi,Nəsir Bakuyi bu müxəmməsdə Elxani hökmdarı Sultan Məhəmməd Ulcaytunu sidq ürəklə mədh etmiş,onun həyata keçirdiyi tədbirləri- Bakı əhalisini bir sıra vergilərdən azad etməsini,geniş abadlıq işləri apartdırmasını, xalqın inancına hörmətlə yanaşmasını,ehtiyacı olanlara yardım göstərməsini və s. minnətdarlıqla poetikləşdirmişdir.

Nəsir Bakuyi şeirində müxəmməs janrının bütün poetik tələblərinə layiqincə əməl etmişdir.Bəndlərdə misraların sayı və qafiyələnməsi, son bənddə müəllifin təxəllüsünün göstərilməsi və s. bu qəbildəndir. Şairin işlətdiyi bədii təsvir və ifadə vasitələri,nümayiş etdirdiyi deyim tərzi də diqqət çəkir.Əsərdə tematikanın xüsusiyyətlərinə müvafiq şəkildə bədii ifadə vasitəsi kimi mübaliğədən daha çox istifadə olunmuşdur. Bununla yanaşı, təşbəh,istiarə(metafora),touriyyə (metonimiya),touzi(alliterasiya), təcahül-arif(bədii sual) kimi bədii təsvir və ifadə vasitələri də şeirin poetik səviyyəsini yüksəltmişdir.

XIV əsr Azərbaycan ədəbiyyatında yer alan sənətkarlardan biri də Əhməd Cəlairi olmuşdur. Bütün mənbələrdə göstərilir ki, Sultan Əhməd qətiyyətli dövlət xadimi,qorxmaz,şücaətli sərkərdə olduğu kimi, eyni zamanda xoş təbli şair, gözəl musiqiçi,mahir rəssam,qabil xəttat kimi də dövrünün tanınmış sənətkarlarından olmuşdur. Onun hərtərəfli inkişaf etmiş bir şəxsiyyət kimi yetişdirilməsində,şübhəsiz ki, atası Şeyx Üveysin verdiyi təlim və tərbiyə,yaratdığı ədəbi-mədəni mühit böyük rol oynamışdır. Onun ədəbiyyat və incəsənət mərkəzi kimi şöhrət tapmış sarayında dövrün bir sıra ustad şair,rəssam və xəttatları fəaliyyət göstərirdilər.Sultan Üveysin özü də sənətkar,incə təbli söz ustadı,eyni zamanda zahiri gözəlliyə malik şahlardan olmuşdur.

Sultan Əhmədin həyatının və səltənət illərinin tarixin keşməkeşli bir dövrünə təsdüf etməsinə baxmayaraq, o hər zaman əlverişli şərait tapan kimi elm və sənət adamlarını ətrafına toplamış, onlara himayədarlıq etmiş, özü də ədəbiyyat və incəsənət sahəsində fəaliyyətini davam etdirmişdir.

Sultan Əhmədin bədii əsərləri içərisində onun elm aləminə məlum olan farsca "Divan"ından başqa,bəzi təzkirə və tarixi sənədlərdə ayrı-ayrı beytlərinə də rast gəlirik. Bunların arasında Sultan Əhmədin vaxtilə Teymura göndərdiyi məktubların birində ona yazdığı ərəbcə bir beyt həcv də məlumdur.

Şairin ana dilində yazdığı əsərlərdən hələlik bi qəzəli aşkar edilmişdir. Bu yeganə qəzəl barədə ilk dəfə görkəmli türk alimi Məhəmməd Fuad Köprülzadə məlumat vermişdir.(6,s.82)

Həmin şeiri 1969-cu ildə professor Cahangir Qəhrəmanov "Azərbaycan Elmlər Akademiyası Məruzələri"nin 4-cü nömrəsində "Əhməd bin Veysin azəricə qəzəli" adlı məqaləsində çap etdirmişdir.

XIII əsrdən etibarən canlı xalq dili əsasında inkişaf etmiş Azərbaycan-türk yazılı ədəbi dili artıq XIV əsrdə yüksək səviyyəyə çatmışdı. Bu dövrdən anadili yazılı abidələrimizin sayı getdikcə artmağa başlayır. Professor Tofiq Hacıyevin dediyi kimi: "XIII əsrdən ölkədə ədəbi dilin üçləşməsi müşahidə olunur,ərəb,fars dilləri ilə yanaşı, Azırbaycan(türk) dilli də dövlət,sənət,elm dili kimi işlənmək hüququ qazanır"(5,s.86)

İzzəddin Həsənoğlu,Əbdülqadir Marağayi,Şah Qasim Ənvar,Sultan Əhməd kimi şairlərin şeirləri tutarlı dəlil olmaqla bərabər,eyni zamanda İmadəddin Nəsimiyə qədərki yazılı ədəbi dilimizin sənədləri kimi tarixi-faktoqrafik əhəmiyyətə malikdir.

XIV əsr ana dilli ədəbiyyatımızda ərsəyə gətirilmiş poemalar məsnəvi formasındadır. Bu poemaların hamısında epik mətnin daxilində lirik nümunəyə qəzələ də yer verilir. Belə ki, «Dastani Əhməd Hərami»də 1, «Mehri və Vəfa»da 2, «Vərqa və Gülşah»da 10, S.Fəqihin «Yusif və Züleyxa»sında 9, M.Zəririn «Yusif və Züleyxa»sında isə 17 qəzəl verilmişdir. Qəzəllər, əsasən, qəhrəmanların dilindən, onların əhvali-ruhiyyəsini, daxili hiss və duyğularını ifadə etmək məqsədilə verilir.Qəhrəmanın daxili hisslərini ifadə etməsi mənasında tipik bir örnək kimi «Mehri və Vəfa» poemasında «Mehrin gəlişinə Vəfanın dedikləri» sərlövhəli iri həcmli qəzəldən bir parçanı burada vermək yerinə düşər:

Yenə uşbu mürdə cismə can gəlür,
Sallanıb ol sərvi-xuraman gəlür.
Bağ behişt oldu, doludur gül ilə,
Bülbülü şeydaya gülüstan gəlür.
Çıxdı bulutdan səadət günəşi,
Getdi zülmət, uş mahitaban gəlür.
Bəs canıma sən Xızr oldun məgər,
İçirəsən çeşmeyi-heyvan gəlür.
Yaşlı gözüm, bir dəm əksilsin yaşın,
Dərdli könlüm, dərdinə dərman gəlür.
Qədəmində həp nisar oldu türab,
Qanda kim baksa, gülü-reyhan gəlür.

Göründüyü kimi, şeirdə yarına həsrət aşiqin öz sevgilisini görmək məqamındakı sevinc və vəcd hisslərinə qədər tələtümlü şəkildə öz poetik ifadəsini tapmışdır.

Orta əsr Azərbaycan bədii fikrində, o cümlədən XIVəsr anadilli ədəbiyyatımızda poetik məna çalarlarl da qabarıq şəkildə öz təzahürünü tapmışdır.

Müqayisəli təşbehdə bənzəən və bənzədilən paralel olaraq bir başqa məfhumla müqayisə edilir:

Nigar bizüm ilə necə bir qılur nazı,
Necə əsir edə kəklik cəhanda şahbazı.
Rüxün xəttilə xalindən çəri çəkmişdir, ey dilbər,
Zəhi şahzadeyiə'zəm ki, xoşu ğurlu ləşkərdir.

Mürəkkəb təşbehdə bənzətmə predmetlərinin və əlamətinin səciyysi daha mürəkkəb, çox əlamətli xarakter daşıyır.

Incəldi tənümü yürəgüm toludurur qan,
Tənbelinə, dil lə'linə oxşaşa neçə bir.

İstiarə bir məcaz növü kimi təşbehə yaxın və oxşardır. Fərq burasındadır ki, təşbehdə həm bəzəyən, həm də bənzədilən mətndə iştirak etdiyi halda istiarədə bənzəyənin müəyyən əlaməti götürülüb bənzədilənin üzərinə köçürülür

Gözüni zülfi çərisin ə qaravul qılıban
Könüli gözləri elçisinə casus eyləyə. (2,406)

XIV əsr anadilli şeirimiz təzadlarla,mübaliğə,bədii xitab,bədii sualla da zəngindir. Müxtəlif çalarda, rəngarəng mənalarda, fərqli mahiyyətdə olan təzad növləri bu dövrün poeziyasına məzmun gözəlliyi aşılayan bəlağət vasitələrindən biri kimi əhəmiyyətlidir. Antonimlərlə yaranan təzadlara nümunə:

Şəkkər ağzundan acı dil verəli
Yaxşılardan başladı gəlür yaman. (2,375)

Beləliklə, biz XIV əsr ana dilli ədəbiyyatımızda işlən bir sıra bədii ifadə vasitələrini yığcam şəkildə nəzərdən keçirdik. Əlbəttə, haqqında söhbət açdığımız dövrün milli dildə yaranan ədəbiyyatındakı məcazlar sistemi bu deyilənlərlə məhdudlaşmır. Bəzi başqa bədiiyyat vasitələri də axtarıb tapmaq olar. Biz isə həcmi nəzərə alıb ən mütəhərrik və işlək poetik kateqoriyalardan bəhs etdik.

İstifadə olunmuş ədəbiyyat

1.Azərbaycan ədəbiyyatı tarixi, 6 cilddə,3-cü cild. 1-ci cild. Bakı:Elm,2009
2.Bürhanəddin Q. Divan / Tərtib edəni: Səfərli Ə. Bakı: Azərnəşr, 1988; 2005
3.Cəfər Rəmzi ismayılzadə.Bir müxəmməs haqqında,zərbaycan EA məruzələri,fəlsəfə və hüquq seriyası, cild.XXXIII,1977,№12,s 67-71
4.Xavəri S. Azərbaycan təsəvvüf ədəbiyyatı: XIII-XVI əsrlər, NDA. Bakı, 2000, s.11
5.Hacıyev Tofiq.Azərbaycan ədəbi dili tarixi,Bakı,ADU nəşri,1976,s.86
6.Həyat məcmuəsi",1928,№82
7.Hikmət xəzinəsi. Bakı: Maarif, 1992

8.Hüseyn Həşimli.Azərbaycan dilində lirik poeziyanın inkişaf yolu(XIII-XIV əsrin əvəlləri) Bakı: Elm və təhsil, 2017, 128 s

9. İsmayılov Ş. Filosofiya Maxmuda Şabustari. Bakı, "Elm", 1976

10.Mustafa Zərir. Yusif və Züleyxa / Tərtib edənləri: Qəhrəmanov C. , Xəlil ov Ş. Bakı: Elm, 1991

11.Nağısoylu M. "Gülşəni-raz" təsəvvürün ana qaynaqlarından biridir. "Gülşəni-raz", Bakı, "Nurlan", 2005, s.4-5

12.Sara Aşurbəyli. Bakı şəhərinin tarixi. Bakı:Avrasiya-press,2006

Xülasə

XlV əsr Azərbaycan ədəbiyyatı ana dilli ədəbiyyatımızın təşəkkül tapdığı dövrdür. Bu dövrün Mahmud Şəbüstəri,Marağalı Əhvədi,Əssar Təbrizi,Arif Ərdəbilli,Qazi Bürhanəddin,Mustafa Zərur,Suli Fəqih kimi zəngin yaradıcılığı olan sənətkarları Azərbaycan- türkcəsində yazmışdırlar.Lirik şeirləri ilə klassik bədii formalarda gözəl sənət nümunələri yaratmışdılar. XIII əsrdən etibarən canlı xalq dili əsasında inkişaf etmiş Azərbaycan-türk yazılı ədəbi dili artıq XIV əsrdə yüksək səviyyəyə çatmışdır. Bu dövrdən anadili yazılı abidələrimizin sayı getdikcə artmağa başlayır. XIV əsr Azərbaycan ədəbiyyatinda çeşidli mövzu, məzmun, ideya, xarakterlər silsiləsini, rəngarəng mətləbləri çatdırmaqdan ötrü qələm sahibləri dilin və sözün imkanlarına geniş şəkildə müraciət etmişdirlər.Onlar dilin və sözün imkanlarından,onun bədii sözü daha əlverişli,mükəmməl və gözəl şəkildə söyləmək üçün yaratdığı bədii-estetik, ekspressiv-sematik, fonetik-leksik, assossativ və s. şəraitdən maksimum yararlanmağa çalışmışlar.

Резюме

Азербайджанская литература XIV веке является периодом формирования литературы на родном языке. Поэты этого периода, такие как Махмуд Шабустари, Марагали Ахвади, Ассар Тебризи, Ариф Ардабилли, Гази Бурханеддин, Мустафа Зарур, Сули Факих, писали на азербайджано-турецком языке.Своими лирическими стихами они создали прекрасные образцы искусства в классических художественных формах. Азербайджано-турецкий письменный литературный язык, развивавшийся на основе живого народного языка с 13 века, достиг высокого уровня в 14 веке. С этого периода стало увеличиваться количество памятников, написанных на родном языке. В азербайджанской литературе XIV века для передачи разнообразных тем, содержания, идей, рядов персонажей, красочных тем поэты широко применяли возможности языка и слова. Они старались максимально использовать условия создающие языком и словом это художественно-эстетические, выразительно-смысловые, фонетико-лексические, ассоциативные и др., которые создаются языком и словом для того,чтобы художественное слово было произнесено более удобным, совершенным и красивым способом.

Resume

14th century Azerbaijani literature is the period when our native language literature was formed. Poets of this period, such as Mahmud Shabustari, Maragali Ahvadi, Assar Tabrizi, Arif Ardabilli, Gazi Burhaneddin, Mustafa Zarur, Suli Faqih, wrote in Azerbaijani-Turkish. They created beautiful examples of art in classical artistic forms with their lyric poems. The Azerbaijani-Turkish written literary language, developed on the basis of the living vernacular since the 13th century, reached a high level in the 14th century. From this period, the number of monuments written in the native language began to increase. In the 14th century Azerbaijani literature, in order to convey a variety of topics, content, ideas, series of characters, colorful themes, the authors of the pen widely applied the possibilities of language and words. They tried to make the most of the conditions such as artistic-aesthetic, expressive-sematic, phonetic-lexical, associative, etc. which are created by the language and the word in order to say the artistic word in a more convenient, perfect and beautiful way.

Redaksiyaya daxil olma tarixi: 07.12.2022
Çapa qəbul olunma tarixi: 28.12.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru Gülbəniz Mehdiyeva tərəfindən çapa tövsiyə olunmuşdur

AYGÜL QULIYEVA
ADU
R.BEHBUDOV KÜÇ., 134

DİSKURSDA MARKERLƏRİN İSTİFADƏSİ

Xülasə

Müasir dilçilikdə diskurs müxtəlif səpkidə – sosioloji, psixoloji, tarixi aspektlərdə öyrənilir. Dilçilikdə diskursa maraq funksionalizminin fundamental xüsusiyyətidir və bu amil onu dilçiliyin digər müasir sahələrindən, eləcə də əvvəlki istiqamətlərdən fərqləndirir. Ötən əsrin 70-ci illərində N.Xomskinin törəmə dilçiliyilə razılaşmayan bir sıra dilçilər qrammatik hadisələrə diskurs baxımından izahatlar axtarmağa başladılar. Bu dilçilərdən P.Hopper, T.Qivon, U.Çeyf və digərlərini qeyd etmək olar. Müasir dilçilik elmi diskursu insanın gündəlik həyat təcrübəsinin ən mühüm hissəsi kimi qəbul edir [1, s.12]. Eyni zamanda müasir dilçilik onu mətndən başqa mətni anlamaq üçün vacib olan dünya haqqında bilikləri, rəyləri, adresatın məqsəd və hədəflərini özündə əks etdirən mürəkkəb kommunikativ hadisə olaraq müəyyənləşdirir[1, s.12].

Diskurs anlayışı dilçilik, antropologiya, ədəbiyyətşünaslıq, etnoqrafiya, sosiologiya, sosio və psixodilçilik, fəlsəfə, koqnitiv psixologiya və bir sıra digər elmlərin kəsişmə nöqtəsində durur. Aparılan tədqiqatlara əsaslanaraq bu fikrə gəlmək olar ki, hazırda diskurs nəzəriyyəsi müasir elmin inkişafındakı inteqrasiya meylini əks etdirərək müstəqil fənlərarası sahə kimi formalaşmaqdadır.

Açar sözlər: diskurs, marker, söz, ifadə, məna, intonasiya

Diskurs markerləri müxtəlif seqmentləri bir-birinə bağlayan söz və ifadələrdir. Yazıda və danışıqda bu cür markerlərin istifadəsi nəzərəçarpacaq dərəcədə əhəmiyyətlidir. Bu əlamətlər diskursun yaranmasında aparıcı rol oynayır. Ümumiyyətlə, diskurs markerlərinin yazıda və danışıqda istifadəsinin hər birinin öz məqsədi vardır. Onların xarakterik xüsusiyyətlərdən əsası odur ki, onlar cümlənin quruluşuna daxil deyil. Belə ki, müxtəlif nitq hissələrinin cümlə və diskursda istifadəsi bir-birindən fərqlidir. Məsələn, /*now*/ sözü həm zərf, həm də diskurs markeri kimi fərqli funksiyalarda çıxış edə bilər. Nümunələrə nəzər salaq:

/ I didn't really need it, but I bought it ***anyway****.// (Mənim ona həqiqətən ehtiyacım yoxdur, amma mən hər ehtimala qarşı onu aldım.)*

Bu cümlədə ***/anyway/*** sözü güzəşt əlavəsi kimi çıxış edir.

Digər nümunə:

/ You know *what we need? Another helper.// (Bilirsinizmi, bizim ehtiyac hiss etdiyimiz nədir? Digər bir köməkçi.)*

Bu cümlədə /***You know/*** birləşməsi /*what we need*/ cümləsinin tamamlığıdır.

/ I bought extra food, ***so*** *we'd have enough in case more people turned up.// (İşdir birdən daha çox adam gələr deyə, biz əlavə ərzaq aldıq.)*

Bu cümlədə /***so/*** sözü məqsəd zərfliyi budaq cümləsinə giriş verən tabelilik əlaqəsi bildirən bağlayıcıdır. Bu cümlələrdə istifadə olunan /***anyway/ / you know/ so/*** diskurs markeri kimi deyil, cümlə formalaşdırılan söz kimi istifadə olunur.

İndi isə eyni sözlərin diskurs markeri kimi istifadə olunmasına baxaq:

Danışan şəxs qonşuluqda olan müxtəlif ev növləri barədə danışır.

/You have got high rises, you've got terrace houses, ***you know****, bungalows on the edge and everything.// (Sizin yüksək əmək haqqınız, teras evləriniz****, bilirsiniz,*** *hər bucaqda bunqalonuz və hər şeyiniz var.)*

Bu cümlədə istifadə olunan /***you know/*** danışanla qulaq asanın eyni fikirə malik olduğuna işarə edir, yəni qulaq asan şəxsin danışanın hansı evlərdən danışdığı barədə məlumatı vardır.

Digər nümunə:

A danışan İngiltərədən Velsə gedən yolun uzun və çətin olduğundan və pulu tam ödəmək istəmədiyindən şikayətlənir.

A: /*But you only pay one way*.//

B: ¿*Oh do you?*

A: /*Yeap you only pay going into Wales. You don't pay coming out*.//

B: /*Oh. Right*.//

A: /*But er yeah,* ***anyway****, we drove in the rain and the dark for eight hours*.//

Bu söhbətdə danışan /***anyway*** / sözündən istifadə etməklə yenidən uzaqlaşdığı mövzuya qayıtmağına işarə edir.

Digər nümunə:

A danışan maliyə məsləhətçisidir və o, **B** və **C** –yə ev almaq üçün borc pul götürməyi məsləhət görür. **B** və **C** ilk dəfədir ki, ev almaq istəyir. Onların heç vaxt evləri olmayıb.

A: ¿*You've probably got some burning questions to ask me? ¿'How much can we borrow and how much is it gonna cost? Am I right*?

B: /*Yes*.//

A: /*Okay,* ***so****, if you just tell me a little bit about yourselves.//¿ Are you first-time buyers*?

B: /*Yeah. We're first-time buyers*.//

Bu söhbətdə istifadə olunan /***so/*** sözü müzakirənin giriş hissəsi ilə əsas biznes söhbəti arasında keçid yaratmağa xidmət edir.

Diskurs markerlərinin danışıqda istifadə olunması danışana söhbətə nəzarət etməyə imkan verir. Bu markerlər danışanla dinləyən arasında güclü əlaqə yaratmağa kömək edir. Məsələn, sinif otağında *marker* istifadə etməklə vəziyyətə nəzarət edən ancaq müəllimdir. Məsələn, müəllim mühazirə deyərkən belə bir söz işlədir:

/Right, *let's do an experiment*.// (***Yaxşı***, *gəlin bir təcrübə aparaq*.) Bu cümlədəki /***right/(yaxşı)*** markerinin tələbə tərəfindən istifadə olunması münasib olmazdı.

Müəllimin bu dialoqda marker istifadə etməsinin məqsədi materialı əlaqəli və məqsədyönlü şəkildə öz dinləyicisinə çatdırmaqdır. Kiçik bir mühazirə nümunəsinə baxaq:

elmi mühazirə

We can then have toxic effects. ***Right.*** *These again can be direct. They can be subtle. But cause lots and lots of injuries.* ***Right****. Here is an example of one. There is a section of normal liver.* ***Right.*** *The thing to notice is that all cells, all the cells look roughly the same.* ***Right****. So we've got at the top we've got portal triad. At the bottom we've got central vein.* ***Right.***

Müəllim mühazirənin detallarını tələbələrə çatdırmaq, danışığının daha anlaşılan və daha ünsiyyətli olması məqsədilə bu markerdən kiçik bir parçada beş dəfə istifadə edir. Bu da diskursun real zamanda həyata keçdiyinə bir işarədir.

Funksional dilçilikdə diskurs təhlilinin mərkəzi rol oynamasının əsas səbəbini belə izah edirlər. Müşahidə olunan dil formasının izahını axtararkən belə əsaslandırmaq olar ki, forma əhəmiyyətli dərəcədə real həyatda daşıdığı funksiya ilə sıx bağlıdır[2,s.45]. Bəzi hallarda funksionalistlər diskursla qrammatika arasında münasibətlər haqqında xüsusilə radikal fikirlər söyləyirlər. Belə ki, P.Hopperin 'yaranan qrammatika' (emergent grammar) konsepsiyasında qrammatika təkrarlanan diskurs modelinə aid edilir[2,s.56]. Eyni zamanda, bəzi hallarda funksionalistlər müstəqil qrammatikanın mövcudluğunu etiraf edirlər.

Qeyd etmək lazımdır ki, diskurs markerləri qrammatik olmaqdan daha çox leksik kateqoriyadır. Onların təsnifi də uzun müddət mübahisəli olmuşdur. Belə ki, onların cümlə tərkibinə daxil olmaları, yaxud müstəqil şəkildə bir sinif təşkil etmələri alimlərin fikir çarpazlığına səbəb olmuşdur. Müxtəlif dilçilər markerləri fərqli şəkildə təsnif etmişlər. R. Kohen diskurs funksiyalarına uyğun olaraq markerlərin təsnifatını 'birləşdirici sözlərin taksanomiyası' adı altınad vermişdir. O, öz bölgüsündə R. Kvirkin bölgüsünə əsaslanmışdır[3,s.252-255]. R. Kvirk öz bölgüsündə markerlərin hər sinifini semantik funksiya ilə əlaqələndirmişdir[4,s.333]. B. Qros və K. Sidney isə markerləri diskurs nəzəriyyəsində rast gəlinən düşünülmüş struktur və məqsədyönlü toplu dəyişikliyinə əsaslanaraq təsnif etmişdir[5,s.182]. Digər bir dilçi D. Şrifrin isə markerləri onların cümlədaxili istifadəsinə məsələn, bağlayıcı, zərf və s. uyğun olaraq təsnifləndirmişdir[6,s.232]. R. Rayçman və J. Hobs isə markerləri onların ritorik əlaqələri göstərmələrinə uyğun olaraq bölürdü[7,s.343]. Nəhayət, I. Zukerman diskurs markerlərinin ikili bölgüsünü 3 əsas funksiya ilə müəyyən edir: biliyin təşkil edilməsi (knowledge organization) , biliyin qazanılması (knowledge acquisition), və təsir göstərməsi (affect maintenance)[8,s.607].

Diskurs markerlərinin əsas əhəmiyyəti diskursun hissələri arasında əlaqə yaratmaqdan başqa, eyni zamanda anaforanın müəyyən olunmasına xidmət edir. Məsələn, aşağıdakı nümunədə /**it/** anaforasının müəyyən edilməsində /***say***/ və /***then***/ markerlərinin rolu görünür:

/"If the system attempts to hold rules, ***say*** *as an expert system,* ***then*** *we expect* ***it*** *not only to hold the rules but to in fact apply them for us in appropriate situations."//*
(Əgər sistem qaydaları saxlamağa cəhd edərsə, ***deyək ki***, ekspert sistemi kimi, ***o halda*** biz **onun** təkcə qaydaları saxlamağını deyil, eyni zamanda onları münasib vəziyyətlərdə tətbiq etmələrini gözləyirik.)
Bu nümunədə istifadə olunan /***say*** / feli diskursun başlanğıcını, /***then***/ isə həmin mini mətndən geri qayıtmaya işarə edir.
Diskurs markerləri cümlə quruluşuna daxil olmadıqları üçün onları əsas nitq hissələrinə, yəni ismə, sifətə, zərfə və s. bölə bilmərik, amma eyni zamanda onların özlərinin də müstəqil sinif kimi formalaşa bilərlər. Bildiyimiz kimi, bir çox söz, ifadə, və cümlə diskurs markerləri kimi çıxış edə bilər. Məsələn, /*anyway, good, well, right*/, /*at the end of the day, in other words*/, /*you see, look, listen there you go/* və bir sıra digər birləşmələr: /*okay, cos (because)*, *no, now then*, *so, yes/yeah*/ və s. Bu sözlər çox zaman sifət və zərf kimi işlənməkdən daha çox marker kimi çıxış edirlər. Nümunələrə baxaq:
A və **B** söhbət edir; **A** internet barədə danışır; **B** isə **A**-nın ödədiyi içkinin pulunu ona qaytarmaq üçün onun sözünü kəsir.
A: /*Not bad hey. We could do that.*//
B: /*There's your change.*//
A: /*Oh cheers. Yeah, the scar=****as I was saying****, er,* ***talking about*** *internet, the scariest thing I've ever seen on the internet* [laughs] *is Ted's page.//*
B: /*Oh I've not seen it.//.*
Bu söhbətdə rast gəldiyimiz /***as I was saying, talking about*** / diskurs markeridir. Buradan belə bir sual yarana bilər. Biz bu cür cümlələrin müstəqil cümlə kimi deyil, diskurs markeri olduğunu necə müəyyənləşdirə bilərik? Əlbəttə tam cümlə yaratmaq üçün cümlənin özünün mübtəda və xəbəri olmalıdır. Əksinə əgər onlar ara cümlələri kimi istifadə olunurlarsa, o halda onlar diskurs markerləri hesab edilir.

Müxtəlif qrammatik formalar eyni marker funksiyasını yerinə yetirə bilər. Məsələn, aşağıdakı formalar dinləyəni yeni mövzuya hazırlaya, yaxud da mövzunun dəyişikliyinə yönəldə bilər:
/Incidentally*, Rita's going to come round tonight.//* (zərf)
/By the way, *Rita's going to come round tonight.//* (sözönülü birləşmə)
/While I think of it, *Rita's going to come round tonight.//* (zaman budaq cümləsi)
/Speaking of which, *Rita's going to come round tonight. //* (şəxssiz cümlə)
/Listen, *Rita's going to come round tonight.//* (əmr cümləsi)
/Hey, *Rita's going to come round tonight.//* (nida)

Məlumdur ki, prosodik amillərin mətn dilçiliyinə mətnin differensial elementləri kimi daxil edilməsi sintaktik münasibətlərin öyrənilməsinə struktur-semantik yanaşma ilə izah olunur. Həm cümlə, həm də mətn intonasiyadan asılı olaraq dəyişə bilər. Aksentlərin tema-rematik yerdəyişməsi yalnız mətndə məzmun planının tərkib hissələri arasındakı nisbəti deyil, həmçinin tərkib hissələrini də

dəyişir. Aydındır ki, bu vacib amil mətnin şifahi variantında reallaşır[2,s.48]. Bu hal diskursda da belədir. Şübhəsiz ki, diskurs markerləri və digər nitq hissələri arasındakı fərqləri müəyyən etmək üçün prosodik xüsusiyyətlərin rolu böyükdür. Əgər söz və ifadədən sonra kiçik sakit bir fasilə yaxud da nəfəs fasiləsi varsa, o halda bu həmin ifadə, yaxud sözün diskurs markeri olduğunu müəyyən etməyə imkan verir:

*/**You know** she didn't like it. //*

Bu cümlədə istifadə olunan /***You know/*** birləşməsi diskurs markeri funksiyasında çıxış edir və odur ki, özündən sonra fasilə tələb edir.

ƏDƏBİYYAT

1. Veysəlli F.Y. Struktur Dilçiliyin Əsasları. Bakı, Mütərcim, 2009.
2. Azad Məmmədov., Misgər Məmmədov. Diskurs təhlilinin koqnitiv prinsipləri. Bakı, Çaşıoğlu, 2010.
3. Cohen R. A Computational theory of the function of clue words in argument understanding. In Proceedings, pages 252-255, Standford, 1984.
4. Quirk R. A Grammar of Contemporary English. Longmans, London, 1972.
5. Grosz B.and Sidney C. Attention, intentions, and the structure of discourse. Computational Linguistics, 12(3): 175-204, 1986.
6. Schiffin D. Discourse Markers: Semantic Resource for the Construction of Conversation. University of Pennsylvania, 1982.
7. Reichman R. Getting computers to talk like you and me: discourse context, focus, and semantics. Bradford. MIT Press, Cambridge. MA, 1985.
8. Zuckerman I. and Pearl J. Comprehension-driven generation of meta-technical utterances in math tutoring. In Proceedings of the Fifth National Conference, pages 606-611, Philadelphia, 1986.
9. Вейсалли Ф. Я. Структура и семантика текста. Баку, Мютарсим, 2008.
10. Вейсалли Ф.Я. Тарасова Д.В. Проблема дискурса в современным лингвистике. Azərbaycanda xarici dillər, Bakı, NO.2/2007.
11. Abdullayev K. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı, Maarif, 1998.
12. Halliday M.A.K. and Hassan R. Cohesion in English. Longman, 1976.
13. Church K.W. A stochastic parts program and noun phrase parser for unrestricted text. In Proceedings of the Second Conference on Applied Natural Language Proceedings, pages 136-143, Austin, 1988.
14. Grosz B. The representation and the use of focus in dialogue undersdanding. Technical Report 151, SRI International,Menlo Prk Ca., 1977.
15. Hobbs J. Coherence and conference. Cognitive science, 3(1): 67-90, 1979.
16. Carter R., Micheal McCarthy. Cambridge Grammar of English. Spoken and Written English Grammar and Usage. Cambridge University Press,2006.

Guliyeva A.

THE USAGE OF MARKERS IN WRITTEN AND SPOKEN DISCOURSE

SUMMARY

The article deals with the usage of markers in written and spoken discourse. The author proves that discourse markers do not enter the structure of the clause. Reading the article, it becomes clear that discourse markers serve to indicate various kinds of relationship between utterances, and simultaneously indicate social relations regarding power and formality. In other words, discourse markers enable the speaker to exercise control in the discourse and they are power-related. Then the author explains that discourse markers are a lexical rather than a grammatical category, but their classification in terms of the conventional major word classes (noun, verb, adjective, adverb) is problematic since they stand outside of phrase and clause structures, and they are best considered as a class in their own right.

In modern linguistics, discourse is studied in different ways - sociological, psychological, historical aspects. In linguistics, interest in discourse is a fundamental feature of functionalism, and this factor distinguishes it from other modern branches of linguistics, as well as from earlier directions. In the 70s of the last century, a number of linguists who did not agree with N. Chomsky's derivative linguistics began to look for explanations of grammatical phenomena from the point of view of discourse.

Key words: discourse, marker, word, expression, meaning, intonation

Гулиева А.

ИСПОЛЬЗОВАНИЕ МАРКЕРОВ В ПИСЬМЕННОМ И УСТНОМ ДИСКУРСЕ

РЕЗЮМЕ

В статье рассматривается использование маркеров в письменной и устной речи. Автор доказывает, что дискурсивные маркеры не входят в состав предложения. Читая статью, становится понятно, что дискурсивные маркеры служат для обозначения разного рода отношений между высказываниями и одновременно обозначают социальные отношения относительно власти и формальности. Другими словами, дискурсивные маркеры позволяют говорящему осуществлять контроль над дискурсом, и они связаны с властью. Затем автор объясняет, что дискурсивные маркеры являются лексической, а не грамматической категорией, но их классификация в терминах общепринятых основных классов слов (существительное, глагол, прилагательное, наречие) проблематична, поскольку они стоят вне фразовых и клаузальных структур, и они лучше всего рассматривать как самостоятельный класс.

В современном языкознании дискурс изучается по-разному - в социологическом, психологическом, историческом аспектах. В языкознании интерес к дискурсу является фундаментальной чертой функционализма, и этот фактор отличает его от других современных разделов языкознания, а также от более ранних направлений. В 70-х годах прошлого века ряд языковедов, не согласных с производной лингвистикой Н. Хомского, стали искать объяснения грамматических явлений с точки зрения дискурса.

Ключевые слова: дискурс, маркер, слово, выражение, значение, интонация

Redaksiyaya daxil olma tarixi: 07.12.2022
Çapa qəbul olunma tarixi: 28.12.2022
Rəyçi: fil.f.d., dos. Sahilə Bağıq qızı Mustafayeva tərəfindən çapa tövsiyə olunmuşdur

ГАСАНОВА СЕВИНДЖ АГАГУСЕЙН ГЫЗЫ

АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ
sevinjhasnova@yahoo.com

ФОНЕТИЧЕСКИЕ И ЛЕКСИКО-ГРАММАТИЧЕСКИЕ ОСОБЕННОСТИ ДИАЛЕКТОВ АНГЛИИ

Ключевые слова: стандартный английский язык, диалект, вариант,
Açar sözlər: standart ingilis dili, dialekt, variant
Key words: Standard English, dialect, variant

Говоря об английском языке мы безусловно понимаем официальный, государственный язык Великобритании (Англия, Шотландия, Уэльс и Северная Ирландия), Ирландии, Соединённых Штатов Америки, Новой Зеландии, Австралии, Канады и многих других стран. Являясь на сегодняшний выступает некой доминантой, на которой говорит или пытается говорить подавляющее большинство прогрессивной мировой общественности. Однако наивно было бы полагать, что английский язык используемый в самых разных частях мира способен сохранить свою первозданную, стандартную форму. В отличии от азербайджанского, русского, турецкого и многих других языков английский язык разительно разница от страны к стране, от региона к региону, порой на столько, что обитатели одной англоговорящей географии с трудом понимают другую.

Как известно Объединённое Королевство является многонациональным государством, этнический состав которого составляет более 80% англичан; около 10% шотландцев;2,5% ирландцев ;около 2,5% ; около 2% валлийцев и другие национальности.

Исследуя проблему диалектной вариативности английского языка, мы безусловно должны попытаться сформировать для себя представление о собственно таких понятиях как: диалект, вариант и акцент. Хоть эти термины и близки по значению, представляя собою те или иные формы региональных стандартов, их не следует путать.

Согласно изученным определением в различных лингвистических словарях под «диалектом» (от греч. «наречие, говор») стоит понимать разновидность языка, употребляемого в общении широкими группами лиц, тесно связанных между собою социальной, территориальной либо профессиональной общностью.

Согласно Оксфордскому словарю диалектом считается языковая норма ,характерная той или иной территории и отличающаяся от литературной нормы языка на самых разных лингвистических уровнях, таких как фонетический, лексический, грамматический и т.д.

Таким образом можно утверждать, что стандартная языковая норма английского языка противопоставлена многочисленной вариативности данного языка, которые принято называть диалектами. Одной из самых сложных задач для лингвиста является разграничение таких понятий как вариант языка и диалект, но, несмотря ни на что между ними существует разительное различие.

Дэвид Кристал определяет региональные диалекты совокупностью лексики, грамматики и артикуляционной специфики, характерной для определенной географии. На ряду с региональными диалектами, ученный также выделяет также так называемые социальные диалекты, характерные для определенных классов и уровней, а также профессиональные диалекты. [4,с.179].

Вариантом английского языка, подходящим для всех сфер общественной коммуникации, выступает официальный, государственный, так называемый Стандартный английский язык. Стандартный английский язык () будучи государственным языком Объединенного Королевства, преподаётся в школах и университетах, используется на телевидении, в радиовещание, и в средствах массовой информации. По сравнению с другими разновидностями английского языка, данный вариант языка пользуется большим социальным одобрением, престижностью и некой элитарностью. Иными словами Стандартный английский обладает неким негласным, социолингвистическим преимуществом над другими акцентами английского языка, что обусловлено тем фактом, что данный экспонент языка был сформирован элитой, т.е. богатыми людями, имеющими доступ к образованию в одних из первых школах и университетах мира.

Однако очевидным становится и тот факт, что сегодня люди, говорящие с присущими диалектам особенностями, воспринимаются далеко иначе чем в предыдущих поколениях, к ним более не относятся как к объекту насмешек и юмора либо как к чернорабочим.

На сегодняшний день диалектизмы в речи не способны помешать человеку занять определенное положение в обществе. Так, сравнивая отношение общества к диалектизмам в прошлом и в настоящее время, можно смело утверждать, что современное общество намного более толерантно к региональным особенностям речи.

Лондонские диалекты являются наиболее ярко выраженными и узнаваемыми городскими диалектами, к можно отнести:

- Кокни (Cockney)— диалект восточной части Лондона;
- Скауз (Scouse) – ливерпульский диалект
- Джорди (Geordie)диалект северо-востока Англии
- Брамми (Brummie) – бирмингемский диалект

Рассмотрим вышеперечисленные диалекты более подробно.

Фонетически-просодические признаки Кокни(Cockney)

- Звук [h] может опускаться, например, «not 'alf» вместо «not half».
- Звуки [tj], [dj] произносятся как[tʃ], [dʒ]: tuna [tʃu:na], during [ˊdʒʊərɪŋ]
- Произношение межзубных звуков [θ] и [ð] как [f] и [v]: мother [ˊмɒvə]
- Дифтонг [aʊ] превращается в [æ:], например, down звучит как [dæ:n].
- Буквосочетание -er на конце слов произносится как [ə].
- [ɬ] в зависимости от позиции звуков может превращаться в [u], [ʊ], [o] . [3]

Лексико-грамматические особенности Кокни(Cockney)

Что касается лексико-грамматических особенностей кокни, то здесь можно отметить следующие характерные черты:

- использование рифмованного сленга является одной из самых типичных черт этого диалекта. Например :

«loaf of bread» вместо *head*
«trouble and strife» вместо *wife*
china plate вместо *good mate*
Adam and Eve вместо *believe* [6]

- игнорирование правил грамматики.
- употребления местоимения me вместо my;
- двойные отрицания, например: *she ditn't say nuffink.*
- употребление глагольной формы ain't вместо isn't; [5, c. 122]

Фонетически-просодические признаки Estuary English:

- эмфатическое ударение на обычно безударные предлоги в речи
- усиленное произношение обычно безударных вспомогательных глаголов
- низкий диапазон, напоминающий речь без энтузиазма
- замена межзубных звуков [θ] и [ð] на звуки [f] , [v]: nothing [nofɪŋ]
- [j] исчезает после [n]: dew [du:]
- замена [ɬ] звуком [ʊ]: field [fɪʊd]
- дифтонги [eɪ], [aɪ] произносятся как в кокни: plate [plaɪt], knight [knoɪt]
- [tj] и [dj] произносятся как [tʃ], [dʒ] : tune [tʃu:n], dune [ˊdʒʊn]
- глоттализация [t] перед согласными или паузой [8]

Лексико-грамматические особенности Estuary English:

- частое употребление разделительных вопросов в конце предложения.
- использование двойного отрицания: *he never say it, no he never.*
- опущение окончания наречий : *we're doing it too slow; They walked very quiet .*
- отсутствие согласования между подлежащим и сказуемым – *I goes out at night; We was dancing.*
- использование слова *cheers* вместо *hello*, *thank you u goodbye.*
- отсутствие согласования форм прошедшего времени

- использование слова *basically*/*actually* во избежание долгих пауз
- специфические употребление предлогов: *jumped off of the bench; She looked out the window* [9, с. 308].

Фонетически-просодические признаки **Джорди (Geordie)**

- используют восходящую интонацию в конце повествовательных предложений
- неотчетливое произношение, например:

What ye uptee tomorra?", вместо what will you do tomorrow?
"I divvina – I don't know; fettel вместо mood; gorra вместо got

- [ɪŋ] в конце слова звучит как [ən]: например, speaking [ˊspi:kən]
- Сочетания [tj], [dj] произносятся как [tʃ],[dʒ], например dew превращается [dʒuː]
- согласного "v", например "saz it ti**v** us" ('say it to me') или "A give ti**v** im" ('I gave it to him')

Лексико-грамматические особенности **Джорди (Geordie)**

- Использование *was* перед существительным во мн.ч.: *"**Them wasn't*** **propa paggered** (They weren't really tired *)*
- Суффикс -s прибавляется ко всем формам глагола (I tells, we asks, they answers)
- Использование причастия done вместо формы прошедшего времени did
- Отсутствие страдательного залога "they call him/her/i" вместо "he/she/it is called ...":
- Использование местоимения 1-го л. мн.ч. us вместо формы ед.ч. me;
- Употребление личного местоимения them вместо these/those
- Двойные отрицания; You **can't** do **nothing** with us
- Использование глаголов в настоящем времени вместо причастия прошедшего времени в перфекте. *"we knows, you've say something wrang, calm doon";*

Фонетически-просодические признаки диалекта **Скауз (Scouse):**

- Фрикативы: /θ/ меняются на обычные звуки [t̪] *th*ank,*th*eatre, *th*ose; /ð/ меняется на [d̪] *th*is, bo*th*er
- Звук /t/ произносится с искусственным добавлением звука/s/ для достижения аффриката [t͡s] подобного русскому звуку [ц] в словах типа: *par*t*, wi*t*. t*ea, *t*alk* и т.д.
- Слова оканчивающиеся на /k/ последний звук заменяется на фрикатив [x], *ba*ck*ground, ki*ck*, ro*ck *blac*к.
- Слова оканчивающиеся на /t/ like ho*t*, i*t*, no*t* tha*t*, конечный звук /t/ замещается звуком [h]

- **Звук /t/ в позиции между гласными произносится как [r]** : *getting, witty, a lot* и т.д.

  Лексико-грамматические особенности диалекта **Скауз (Scouse)**

  - употребление во 2-м лице ед.ч. ирландских местоимений «youse/yous/use» [juːz] вместо традиционного местоимения *you*
  - использование местоимения me вместо my, например: *That's me webs*
  - употребление специфических слов и выражений типа: ozzy – hospital ; webs – shoes; sound/belter/boss – good; bird – woman /girlfriend; bifter – cigarette; bevvy –a drink и т.д. [6]

Список использованной литературы:

1. Arthur Hughes , Peter Trudgill , Dominic Watt, English accents and dialects,UK : Routledge; 2015, 224 p.
2. Blommaert Jan, The Sociolinguistics of Globalization, Cambridge University Press, 2010,229 p.
3. Clive Upton, J.D.A. Widdowson, David Parry, Survey of English Dialects,UK : Taylor & Francis, 1994, 516 p.
4. David Crystal, The English Language: A Guided Tour of the Language,UK: Penguin; 2002 , 336p.
5. Haciyeva A. Constructive Lexicology,Bakı:Elm və təhsil,2011,238 s.
6. https://greatbritishmag.co.uk/uk-culture/learn-scouse-liverpudlian-slang/

ГАСАНОВА СЕВИНДЖ АГАГУСЕЙН ГЫЗЫ

РЕЗЮМЕ
ФОНЕТИЧЕСКИЕ И ЛЕКСИКО-ГРАММАТИЧЕСКИЕ ОСОБЕННОСТИ ДИАЛЕКТОВ АНГЛИИ.

На сегодняшний день изучение иностранных языков является неотъемлемой частью жизни современного человека. На каком бы языке не говорил человек, он обязательно сталкивается с культурой и историей, отображенной в нем.

Так, язык находится в тесной связи с культурой, т.к. последняя является основой коммуникации. В целом культура это такое понятие, которое сопряжено со всеми областями и отраслями человеческой деятельности без исключения. Интерпретация текста также не является исключением из этого правила, она не мыслима без учета ментальности.

В современный период глобализации мира, с каждым днем все больше и больше развиваются отношения между странами и культурами. Мы

можем наблюдать разительную степень взаимовлияния между культурами различных народов.

Однако, для установления адекватного межкультурного диалога необходимо более глубинное изучение иностранного языка. Таким образом, можно полагать ,что статья под названием «Фонетические и лексико-грамматические особенности диалектов Англии» посвящена одной из актуальных проблем языкознания, а именно, изучению основных особенностей различных диалектов английского языка .

В статье разграничиваются понятия диалекта и варианта, даются их определения, подчеркиваются их основные схожие и различные черты, а также выделяются изменения в языковой картине мира, так же как и в языковой норме.

Основными объектами изучения в статье являются характерные черты таких диалектов английского языка, как *Cockney, Geordie, Estuary English и Scouse,*выделяются их основные фонетические, лексические, грамматические особенности и приводится большое количество примеров.

SEVINC AĞAHÜSEYN QIZI HƏSƏNOVA

XÜLASƏ

İNGILTƏRƏ DIALEKTLƏRININ FONETIK,LEKSIK VƏ QRAMMATIK XÜSÜSIYYƏTLƏRI

Bu gün xarici dillərin öyrənilməsini müasir dövrün tələbatıdır. İnsanların hansı dildə danışmasından asılı olmayaraq dil həmin dildə danışanların tarix və mədəniyyətini özündə əks etdirir. Bəllidir ki, dil və mədəniyyət bir-birilə sıx bağlıdır. Mədəniyyət kommunikasiyanın əsasıdır. Ümumiyyətlə, mədəniyyət belə məsələdir ki, o hər yerdə və hər bir halda olmalıdır. Belə bir sahə mövcud deyil ki, orada mədəniyyət lazım olmasın. Həmçinin mətnin interpretasiya mədəniyyəti – çox böyük və vacib məqamlardan biridir.

Müasir zamanda qloballaşan dünyada mədəniyyətlərarası əlaqələr günü-gündən inkişaf edir. Müxtəlif xalqların mədəniyyətləri bir-birinə güclü şəkildə təsir edir. Dövlətlərarası anlamlı şəkildə dialoq aparmaq üçün xarici dillərin öyrənilməsi yaşadığımız dövrün tələbatlarından biridir.

İngiltərə dialektlərinin fonetik,leksik və qrammatik xüsüsiyyətləri adlı elmi məqalə müasir dilçiliyin aktual problemlərindən birinə - ingilis dilinin müxtəlif dialektlərinin xarakterik xüsusiyyətlərinin tədqiqinə həsr olunmuşdur.

Elmi işdə dialekt və variant məfhumları, onların əsas fərqləri, o cümlədən qloballaşma prosesində ingilis dialektlərinin əhəmiyyəti təhlil edilir. Burada qloballaşma prosesi nəticəsində dünya dil mənzərəsinin və dil standartlarının xeyli dəyişdiyi xüsusilə vurğulanır. İngiltərə ərazisində mövcud olan bir sıra dialektlər təhlil edilir, çoxlu sayda nümunələr gətirilir.

Elmi məqalədə ingilis dilinin *Cockney, Geordie, Estuary English , Scouse* kimi dialektlərin spesifik xüsusiyyətləri təhlil olunur. Sözügedən dialektlərin fonetik, leksik və qrammatik xüsusiyyətləri diqqət mərkəzindədir. Dialektlərin yaranmasına tarixi nöqtəyi-nəzərdən yanaşılır və onların etimologiyasına diqqət yetirir.

SEVINJ AGAHUSEYN HASANOVA

SUMMARY

PHONETIC AND LEXICAL-GRAMMATICAL FEATURES OF ENGLISH DIALECTS

Today, the study of foreign languages is an integral part of the life of a modern person. Whatever language a person speaks, he necessarily encounters the culture and history reflected in it.

Thus, language is in close connection with culture, because the latter is the basis of communication. In general, culture is a concept that is associated with all areas and branches of human activity, without any exception. The interpretation of the language is also not an exception to this rule, as it is not conceivable without mentality.

In the modern period of globalization of the world, relations between countries and cultures are rapidly developing every day. We can observe a striking degree of mutual influence between the cultures of different nations.

However, a deeper study of a foreign language is necessary in order to establish an adequate intercultural dialogue. Thus, it can be assumed that the article "Phonetic and lexical-grammatical features of the dialects of England" is devoted to one of the problems of current linguistic interest, namely, the study of the main features of various dialects of the English language.

The article distinguishes between the concepts of dialect and variant, gives their definitions, emphasizes their main similar and different features, and highlights changes in the linguistic picture of the world, as well as in the language norm.

The main objects of study in the article are the characteristic features of such dialects of the English language as Cockney, Geordie, Estuary English and Scouse; their main phonetic, lexical and grammatical features are highlighted and illustrated by a large number of examples.

Redaksiyaya daxil olma tarixi: 07.12.2022
Çapa qəbul olunma tarixi: 28.12.2022
Rəyçi: dosent Amil Cəfərov
tərəfindən çapa tövsiyə olunmuşdur

NURİYEVA SƏADƏT TAPDIQ QIZI
Filologiya Elmləri üzrə Fəlsəfə Doktoru
(PhD, Associate Professor)
Orcid id: 0000-0002-8366-8019
Bakı, Azərbaycan Dillər universiteti,
İngilis dilinin qrammatikası kafedrası
Əlaqə nömrəsi: Tel: 994-050-662-13-76.
E-mail: saadetnuriyeva@gmail.com

MÜASİR İNGİLİS DİLİNDƏ İNVERSİYA MODALLIQ KATEQORİYASININ İFADƏ VASİTƏSİ KİMİ

Xülasə

Məqalə müasir ingilis dilinin özünəməxsus əsas xüsusiyyətlərindən hesab edilə bilən inversiyadan, yəni cümlə üzvlərinin sırasının məqsədyönlü şəkildə dəyişdirilərək danışanın ifadə etdiyi hərəkətə müəyyən münasibəti ifadə etmə vasitəsi olmasından bəhs edir. Tədqiqatçı irəli sürdüyü bu fikrə əsaslanaraq, ilk dəfə olaraq, dildə baş verən inversiya hadisəsinin modallıq ifadə etməsi səbəbindən yaranması iddiası ilə çıxış edir.

Məqalənin əsas məğzi inversiyanın modallıq kateqoriyasının ifadə vasitəsi olmasının təhlil edilərək əsaslandırılmasıdır. Irəli sürülən bu fikir tədqiqatçı tərəfindən bədii ədəbiyyatdan bu mövzuya dair seçilmiş nümunələr vasitəsilə də öz təsdiqini tapır. Məqalədə inversiyanın modallığın digər vasitələri ilə əlaqəli olmasından və eləcə də, inversiyanın növlərindən (qrammatik, üslubi) bəhs edilir. Tədqiqatçı qrammatik inversiyanın da üslubi inversiya kimi modallıq ifadə etdiyini qeyd edir. O, cümlənin məna növünə görə təsnifatına əsaslanaraq qeyd edir ki, nəqli təsdiq cümlələr təsdiq modallığı, nəqli inkar cümlələr inkar modallığı, sual cümləsi sual modallığı, nida cümləsi nida modallığı, əmr cümləsi isə əmr modallığı ifadə edir. Tədqiqatcı cümlə növlərinin inversiya əsasında fərqli şəkildə formalaşdığını əsas tutaraq modallığın məhz bu cümlələrdə qeri-şərtsiz olaraq inversiya vasitəsilə formalaşdığını göstərir.

Analitik quruluşa malik olan ingilis dilində söz sırası istər söz birləşməsi istərsə də cümlələrin məna yükünün formalaşmasında böyük əhəmiyyət daşıyır. Sözlərin yerinin dəişməsi mənanın dəyişməsinə və ya pozulmasına səbəb ola bilir. Əksər dilçilər tərəfindən "bədii ifadə vasitəsi" kimi qəbul edilən inversiya hadisəsi natiqin ifadə etdiyi fikrin emosionallığını qarşı tərəfin diqqətinə çatdırmaq üçün istifadə edilir. Latın sözü olub, "yerdəyişmə" mənası verən "inversiya" cümlə üzvlərinin yerinin qəsdən dəyişdirilməsi nəticəsində reallaşır. Məqalədə modallıq və inversiya haqqında tədqiqatlar aparan dünya dilçiləri ilə bərabər, Azərbaycan dilçilərinin də fikirlərinə istinad edilir, onların əldə etdiyi nəticələr təhlil edilərək sisitemləşdirilir və müəllifin ona münasibəti bildirilir.

Açar sözlər: “modallıq”, “inversiya”, “modal feillər”, “üslubi inversiya”, “söz sırası”

Giriş

Məlumdur ki, ingilis dili dillərin analitik tipinə aiddir, yəni bu dildə qrammatik mənanı analitik formada ifadə etmək üstünlük təşkil edir. [17]

Bu səbəbdən ingilis dilinə xas olan əsas xüsusiyyətlərdən biri söz sırasının sabit olmasıdır, bu da o deməkdir ki, söz sırası cümlənin mənasına birbaşa təsir edir, söz sırasının dəyişməsi mənanın itməsinə səbəb olur. Ancaq, qeyd etmək lazımdır ki, ingilis dilində söz sırasının sabit olması fikri də nisbi xarakter daşıyır, çünki söz sırasının dəyşməsi halları məqsədyönlü şəkildə danışan tərəfindən icra edilir, bu isə ondan irəli gəlir ki, ingilis dilində cümlənin məna növlərinin formalaşması halları birbaşa inversiyanın baş verməsi ilə reallaşır.

Sabit söz sırasına malik olan müasir ingilis dilində mübtəda xəbərdən əvvəl gəlir. (S+P+O) Ancaq danışan müəyyən bir fikir ifadə edərkən məqsədyönlü şəkildə cümlənin baş üsvlərinin yerini dəyişir (xəbər və ya xəbərin bir hissəsi mübtədadan əvvələ keçir), beləliklə, inversiya yaranır.

Məqaləni yazmaqda əsas məqsəd analitik quruluşa malik olan müasir ingilis dilində dilin müxtəlif səviyyələrində baş verən inversiyanın cümləin mənaca növlərinin formalaşmasında və üslubi nöqteyi-nəzərdən modallıq ifadə etməsi hallarından bəhs etməkdir.

Sözsüz ki, qarşıya qoyulan məqsədə çatmaq üçün modallıq kateqoriyası ilə bərabər inversiya haqqında dilçilərin önəmli fikirlərini nəzərdən keçirmək lazımdır. Beləliklə, məqalənin nüvəsini inversiya, onun modallıq ifadə etməsi və ona dair nümunələr əsasında nəzəri və praktik təhlillər təşkil edir. Sonda isə əldə edilmiş nəticələr ümumiləşdirilir.

Nəzəri təhlillər

Məlumdur ki, modallıq kateqoriyası ifadə vasitələri ilə zəngindir. Onlara modal feillər, modal sözlər, şəkil kateqoriyası, nida, intonasiya aid edilir. Bu məqalədə isə inversiya modallığın ifadə vasitələrinin sırasına daxil edilir və nəzəri təhlillər əsasında irəli sürülən fikir təsdiq edilir. Tədqiqatçı inversiyanın modallığın digər ifadə vasitələrindən fərqli cəhətini onun həmin ifadə vasitələrinin əksəriyyəti ilə eyni məqamda işlənməsi ilə izah edir. “İzahlı dilçilik terminləri” sorğu lüğətində predikativlik kateqoriyasının ayrılmaz tərkib hissəsi olan modal mənanın zaman və şəxs mənaları ilə birləşərək tam bir vahid əmələ gətirdiyi qeyd edilir. Eyni zamanda, linqvistik kateqoriya olan modallığın qrammatik və leksik vaistələrin köməyi ilə ifadə olunduğu göstərilir. Həmin ifadə vasitələrinə feil formaları, modal sözlər, intonasiya, ədatlar aid edilir. [1, s.164]. Ancaq inversiya bu siyahıya əlavə edilmir.

Inversiyanın modallıq kateqoriyasının ifadə vasitəsi kimi verilməsi modallığı tədqiq edən dilçilərin elmi araşdırmalarına baş vurmaq məcburiyyətini yaradır. Məqalədə O.Jespersen, İ.R. Galperin, C. Qrinberq, B.L Kaushanskaya,

F.Cahangirov, S.T.Nuriyeva və digərlərinin modallıq və inversiyaya dair elmi tədqiqat işlərinə istinad edilərək müəyyən nəticələr əldə edilmişdir.

O.Yespersen ingilis dilində söz sırasının sabit olmasını vurğulayaraq bu barədə yazır: " The English language has developed *a tolerably fixed word order* which in the great majority of cases shows without fail what is the Subject of the sentence." [14, p.99] Tədqiqatçı "a tolerably fixed word order" dedikdə ingilis dilində söz sırasının "S-V-O", yəni (mübtəda+xəbər+tamamlıq) olduğunu nəzərdə tutur. O qeyd edir ki, ingilis dilində XIV əsr yazıçılarının əsərləri üzərində aparılan statistik məlumata əsasən 82-97 faiz civarında söz sırası S-V-O şəklində təzahür edir. [14, p.99] Qeyd edilən söz sırasından fərqli söz sırasına malik olan cümlələrdə inverisiya baş verdiyi göstərilir. Biz də bu fikirlə tam razıyıq.

İ.R.Galperin isə "Stylistcs" əsərində söz sıraslndan və onunla slx bağlı olan inversiyadan-stilistik inversiyadan bəhs etmişdir. [12, p. 203]

C. Qrinberq dilin cümlə səviyyəsində söz sırasının tədqiqi ilə məşğul olmuşdur. O, cümlədə sözlərin sıralanmasının tipoloji aspektinə aid təxminən 1400 dil üzrə nəzəri-tipoloji araşdırmalar apararaq cümlə üzvlərinin cümlədə sıralanma qanunauyğunluqlarını düsturlaşdırmışdır. [20]

Tədqiqatda əsas olaraq "subyekt", "obyekt" və "verb" terminlərindən istifadə olunmuşdur. Subyekt (S)– mübtəda, verb (P) – xəbər, obyekt (O) – tamamlıq kimi qəbul edilir. C. Qrinberq dünya dilləri üzrə cümlədə sözlərin sıralanmasının aşağıdakı tiplərini müəyyənləşdirmişdir. İngilis dilində söz sırasını SVO ─ Subject +Verb+Object kimi vermişdir. [20] Qeyd edilən söz sırasından kənar hallar inverisiya kimi dəyərləndirilir.

Beləliklə, ingilis dilinin sintaktik strukturuna görə, mübtəda xəbərdən əvvəl gəlir. Düzgün söz sırası S+P+O formulasında öz əksini tapır. Ancaq natiq öz fikrini ifadə edərkən cümlə üsvlərinin yerini məqsədli şəkildə dəyişərək üslubi dəyişikliyə, inversiyanın yaranmasına səbəb olur, yəni xəbər və ya xəbərin bir hissəsi mübtədadan əvvələ keçir.

Joe's business was going well: like I told you, he'd given John a job at the factory. [15, 261]

Söz sırası ilə sıx əlaqəli olan inversiya danışanın ifadə etdiyi ideyanın emosionallığını dinləyicinin diqqətinə çatdırmaq üçün ifadə etdiyi cümlələrin tərkibindəki cümlə üzvlərinin yerinin dəyişməsinə deyilir.

Ingilis dilində nəqli cümlələrin söz sırası dəyışməzdir, yəni sabitdir. Onların hər hansı birinin yerinin dəyişməsi başqa bir cümlə növünün yaranmasına və ya məna ifadə etməyən söz yığınının əmələ gəlməsinə səbəb ola bilir. V.L.Kauşanskayanın ingilis dilində nəqli cümləyə məxsus söz sırasına aid verdiyi təsnifat əksər dilçilər tərəfindən öz təsdiqini tapmışdır. [16, s. 265] Həmin təsnifatı nəzərdən keçirək: Mübtəda+ xəbər +tamamlıq +zərflik

V.L.Kauşanskaya təyinə yer ayırmamışdır. Bizim fikrimizcə, bunun səbəbi təyinin yerinin sərbəst olması ilə izah edilə bilər, çünki təyin əksər hallarda təyin etdiyi sözdən əvvəl və ya sonra işlənir.

Ingilis dilində ümumi sual cümlələri inversiya vasitəsilə reallaşır. Bu zaman sual cümlələri özünəməxsus intonasiyaya malik olur. Söz sırası bir növ cümlədə sözlər arasında əlaqə yaratmağa xidmət edən şəkilçilərin funksiyasını əvəz edir. Elə bu səbəbdəndir ki, inversiya ən çox şəkilçisiz dillərdə daha çox işlənir.

Ş.Sadiq, E.Nəcəfov, A.Əsədov inversiya haqqında yazır: "Nitqin bədii təsirini artırmaq üçün sözlərin sırasının qəsdən pozulması inversiya adlanır. İnversiya obrazlılığın qrammatik səviyyədə göstəricilərindən biridir. [2, s.77]

F.Cahangirov isə "İngilis və Azərbaycan dillərində modallığın struktur-semantik tədqiqi" adlı müqayisəli tipoloji tədqiqat işində linqvistik modallıqda dilin bütün səviyyələrinə xas əlamətlər və xüsusiyyətlər (qrammatik, sintaktik, semantik) olduğunu qeyd edir. Onun fikrincə, modallıq fəlsıfi, məntiqi, linqvistik bir kateqoriya olub danışanın söyləmin məzmununa və gerçəkliyə münasibətini əks etdirir. [2, s.77]

Y. Qaraşova da "Ingilis və Azərbaycan dillərində modalliğin struktur – semantik tədqiqi" adlı məqaləsindədə bu məsələdən bəhs etmişdir. [6, s. 384-395.]

Onların fikrinə istinadən deyə bilərik ki, linqivistik modallıqda dilin bütün səviyyələrinə xas əlamət və xüsusiyyətlər-qrammatik, sintaktik, semantik əlaqələr toplusu cəmləşmişdir.

Fəlsəfi modallıqda isə obyektiv reallıq, təfəkkür və dilin qarşılıqlı əlaqə və münasibətləri araşdırılır.

Məntiqi modallıq hökmün ən mühüm əlaməti hesab olunur. Beləliklə, fəlsıfi, məntiqi, linqvistik bir kateqoriya kimi ifadə vasitələri ilə zəngin olan modallıq vaciblik, zərurilik, reallıq, qeyri- reallıq, düzgünlük, həqiqilik və ya onun əksi kimi müxtəlif məna çalarları ifadə edərək dilin zənginləşdirir.

F.Cahangirov "İngilis və Azərbaycan dillərində modallığın struktur-semantik tədqiqi" adlı müqayisəli tipoloji tədqiqat işində modallığın fonetik, leksik, morfoloji ifadə vasitələrinin olduğunu göstərir. O, modallığın semantik təhlilini verərək modallığın bir sıra növlərini qeyd edir. Onlara "təsdiq modallığı", "inkar modallığı", "sual modallığı", "əmr modallığı", "şərt modallığı", "gələcək zaman modallığı" aid edilir. Biz əlavə olaraq qeyd edək ki, modallığın bu növlərinin əksəriyyəti inversiya vasitəsilə reallaşır. Deməli, inversiya birbaşa modallığın yaranmasına xidmət edir. Məsələn, "Not a word could be spoken" .

Bu cümlədə "not" inkar ədatı əslində "could" modal feilindən sonra gəlməlidir. Danışanın xüsusi eyhamla hərəkətin baş veməməsini vurğulaması səbəbindən inversiya baş verir, bu isə modllıq kateqoriyasının əsas əlamətinin formalaşması – baş verən, icra edilən hərəkətə münasibətin bildirilməsi deməkdir.

"Not only must he do it, but...", nümunəsində inkar modallığı inversiya ilə çuğlaşmış şəkildə işlənmişdir. Bu cümlədə qoşa modallıq özünü biruzə verir, çünki hərəkətə

münasibət daha güclüdür. Həm modal feil ”must”, həm də inkar ətatıın yerinin dəyişməsi ikiqat modallığa gətirib çıxarır.

S.T.Nuriyeva “Müasir İngilis dilində qoşa modallıq” [9], “Müasir ingilis dilində qoşa modalliq gələcək zamanin leksik-qrammatik ifadə vasitəsi kimi” [10] adlı məqalələrində bu məsələdən bəhs etmişdir. Müəllifin fikrincə, qoşa modallıq modallığın ifadə vasitələrindən ikisinin, hətta bəzən üçünün cümlə səviyyəsində yanaşı işlənərək fikri daha da təsirli, ifadəli, rənarəng ifadə etməsidir. Məqalələrin ümumi məzmunundan belə məlum olur ki, qoşa modallıq müasir ingilis dilinin həm ədəbi dilində, həm də danışıq dilində işlənir. İngilis ədəbi dilində qoşa modallığın tərkib hissələri ən çox modal feil və hər hansı bir modal feilin ekvivalentinin birgə işlənməsi şəklində təzahür edir. Bu fikrə ramən, onu da əlavə edə bilərik ki, artıq inversiyanı da qoşa modallığın ona rəngarənglik, emosianallıq çaları verən əsas komponenti kimi dəyərləndirə bilərik.

İndi isə təsdiq modallığına dair nümunədə inversiyanın baş verdiyi nümunəyə nəzər salaq:

So acutely could Mrs. Dashwood feel this ungracious behaviour, and so earnestly did she despise her daughter-in-law for it, that, on the arrival of the latter, she would have quitted the house for ever.....

Formaca təsdiqdə işlənən bu cümlədə əslində modallığın üç ifadə vasitəsi eyni zamanda işlənimişdir. Birinci modal feil, ikinci feilin şərt şəkli, üçüncü inversiya. Bunların hər üçü modallığın ifadəsinə xidmət edir, ancaq onlardan birinci və ikinci fikrin dəqiq ifadə olunması üçün şərtdir, üçüncüyə, yəni inversiyaya gəldikdə isə o da ifadə edilən fikrin daha dolqun və vurğulu, emfatik şəkildə ifadə edilməsinə xidmət edir.

Təsdiq modallığı, eyni zamanada, qrammatik inversiyanın labüd olduğu “there” ilə başlayan cümlələrdə olur. Məsələn,

There was a kind of cold-hearted selfishness on both sides, which mutually attracted them. [11, p.166]

Sual modallığına gəldikdə isə inversiyanı onun ayrılmaz tərkib hissəsi kimi vermək lazım gəlir, çünki sual cümlələri qrammatik inversiyanın baş verməsi ilə reallaşır. [16]

“But did he die alone? [15. s. 96]

How well did they know each other?

Modallığın əsas ifadə vasitələrindən biri feilin şəkil kateqoriyasıdır ki, onun müxtəlif növlərinin işlənməsində danışanın öz fikrini necə ifadə etməsindən asılı olaraq inversiya istifadə oluna bilər. nümunələr belə qənaətə gəlməyə imkan verir ki, felin şəkil kateqoriyası daha çox inversiya ilə çuğlaşmış şəkildə işlənir. Məsələn,

Had he married a more amiable woman, he might have been made still more respectable than he was. [11, p.5]

Feilin arzu şəklinin “Past Subjunctive” forması işlənən “Had he married a more amiable woman” budaq cümləsində üslubi inversiya işlənmişdir.

"This compliment would effecually frighten me from giving any opinion on the subject ***had I formed one***. [11, p.109]

Bu cümlədə isə feilin "Past Perfect Subjunctive" şəklini əmələ gətirən birinci element "had" mübtədadan əvvələ keçmişdir və bu cümlədə üslubi və qismən inversiya baş vermişdir.

Feilin arzu şəklinin "Present Subjunctive" forması işlənən cümlələrdə də qrammatik inversiya baş verir. Məsələn,

Far be it from me to repine at his doing so.... [11, p.164]

Bəzən feilin arzu şəklinin "Present Subjunctive" forması işlənən cümlələrdə modal feil işlənir və modal feil mübtədan əvvələ keçərək inversiya əmələ gətirir. Məsələn,

May the force be with you.

M.T.Qayıbova və L.M.Cəfərova "Stylistics of the English Language" adlı əsərdə haqlı olaraq qeyd edirlər ki, sual cümlələrinin əmələ gəlməsində normativ qayda olan qrammatik inversiya ilə üslubi inversiyanı eyniləşdirmək olmaz. [18, p.42]

V.l. Kauşanskaya isə onlardan fərqli olaraq qrammatik inversiyanın bir neçə ifadə vasitəsini qeyd ediir. Onlara aşağıdakılar aid edilir:

1. Sual cümlələri
2. There ilə balayan cümlələrdə
3. "so" və "neither" ilə başlayan tabesiz mürəkəb cümlələrdə
4. Arzu, istək ifadə edən sadə nida cümlələrində.

Qeyd edək ki, biz bunların hamısı ilə razılaşa bilmərik. Məsələn, "There" ilə başlayan cümlələrdə, bizcə, inversiyanın qrammatik deyil, üslubi forması işlənmişdir, çünki "There is a book on the table" cümləsinin mənaca ona bərabər olan "The book is on the table" variantı vardır. Bu cümlədə söz sırası ingilis dilindinin söz sırası ilə tamamilə üst-üstə düşür. "There" ilə başlanan cümlədə isə mübtəda funksiyasında işlənən əşyanın yerini xüsusi olaraq nəzərə çatdırmaq üçün onu əvəz edən "İntroductory there" cümləni əvvəlində işlənir və bu danışanın öz fikrini xüsusi olaraq vurğulamasından irəli gəlir.

"So" və "neither" ilə başlayan tabesiz mürəkəb cümlələrdə də, bizcə, qrammatik deyil, üslubi inversiya işlənmişdir. Bu isə təsdiq və inkar modallığının ifadəsinə xidmət edir. Məsələn,

They had a wonderful time and so did I... (1)

və ya

Her actions and thoughts became distorted. So did her behavior. (2)

Birinci cümlədə həmin fikir düzgün qrammatik formada " I did too", ikinci cümlədə isə "her behaviour did, too" kimi işlənməlidir. Sadəcə hər iki cümlədə təsdiq modallığı öz ifadəsini üslubi inversiyada tapır. Bu tabesiz mürəkkəb cümlələrdə ikinci tərəfdə baş verən inversiya birinci tərəfdə işlənən mənaya uyğun olaraq təsdiq modallığı ifadə edir. Aşağıdakı nümunələrdə isə inversiya vasitəsilə

inkar modallığı reallaşır və inversiyanın baş verməsi cümlənin düzgün qrammatik strukturunun dəyişməsinə səbəb olur. Məsələn,
He didn't remember, and neither did I.
Əslində bu cümlənin düzgün qrammatik strukturu belədir:
He didn't remember, and I didn’t remember either.
Başqa bir nümunəyə nəzər salaq:
I can't ever recall Dad hugging me. Neither did I sit on his knee.
Bu cümlənin düzgün qrammatik strukturu belədir:
I can't ever recall Dad hugging me. I didn’t sit on his knee either.
V.L.Kauşanskaya üslubi inversiyanın hansı hallarda baş verdiyini müəyyənləşdirərək onları sistemləşdirmişdir. Biz də onun fikirlərinıə istinadən qeyd edə bilərik ki, həmin hallarda baş verən inversiya danışanın fikrinə əlavə çalarlıq verərək modallıq ifadə edir. Məsələn,
No sooner was his father’s funeral over, than Mrs. John Dashwood, without sending any notice of her mention to her mother-in-law, arrived with her child and their attendants.[11, p.5]
....only the more the merrier say I, and I thought it would be more comfortable for them to be together.... [11, p.111]
“I’m writing home, Marianne,” said Elinor; “had not you better defer your letter for a day or two?” [11, p.116]
“...and no sooner was it complete than Marianne, ringing the bell, requested the footman who answered it, to get that letter conveyed for her to do the two-penny post. [11, p.116]
There is nobody here but you, that can feel for me. [11, p.168]

Inversiyanı modallığın digər ifadə vasitələrindən fərqli cəhəti onun onun modallığın bütün ifadə vasitələri ilə bərabər işlənə bilməsidir. Məsələn,

> Had both the children been here, the affair might have been determined too easily by measuring them at once.... [11, p.170]

Bu nümunədə modallıq həm feilin şərt şəklinin “might have been determined” modal feili + məsdərin bitmiş davamedici forması vasitəsilə ifadəsi ilə, həm feilin keçmişə aid olan arzu şəkli vasitəsilə, və eyni zamanda inversiya ilə ifadə olunmuşdur. Fikrimizi dəqiqləşdirmək üçün, gəlin, müqayisəyə nəzər salaq:

1. Had both the children been here, the affair might have been determined too easily by measuring them at once.... [11, p.170]

Cümləsini inversiya işlətmədən verək:

2. If both the children had been here, the affair might have been determined too easily by measuring them at once.... [11, p.170]

Modallıq inversiyanın baş verdiyi birinci cümlədə ikinciyə nisbətən daha qüvvətli və emosional şəkildə ifadə olunmuşdur. Inversiya baş verən digər bir nümunəyə nəzər salaq.

Should the result of her observations **be unfavourable**, she was determined at all events to open the eyes of her sister; ***should*** it **be** otherwise, her exertions would be of different nature... [11, p.115]

Bu cümlədə üslubi inversiya modallığın ifadə vasitəsi kimi işlənmişdir, feilin yalnız bir komponenti mübtədadan əvvələ keçdiyi üçün qismən inversiya baş vermişdir.

Nəticə

Inversiya modallığın ifadə vasitəsi olub nitqin təsirini artırmaq üçün və danışanın öz fikrini daha emosional şəkildə dinləyiciyə çatdırmaq məqsədilə işlədilir.

Inversiya modallığın digər ifadə vasitələri ilə eyni cümlə tərkibində əlaqəli şəkildə işlənərək mövcuddur. Belə ki, sual modallığı ancaq qrammatik inversiya vasitəsilə dildə reallaşır.

Modallığın əsas ifadə vasitələrindən olan şəkil kateqoriyası əksər vaxtlarda danışanın ifadə olunan fikrini daha dolğun nəzərə çatdırmaq üçün işlədildikdə inversiya baş verir.

Inversiya intonasiyanın dəyişməsi və əsasən məntiqi vurğudan istifadə olunması vasitəsilə yaranır.

Inversiya cümləyə əlavə modal şalarlıq gətirir. Inversiya modallıq kateqoriyasının digər ifadə vasitələri olmadan mövcud deyildir. Amma, modallığın digər ifadə vasitələri inversiyadan fərqli olaraq, tək halda işlənə bilər.

Inversiya dilin cümlə səviyyəsində modallıq kateqoriyasının digər ifadə vasitələri ilə birlikdə işləndikdə qoşa modallıq yaranır.

Goşa modallığın birinci komponenti, məsələn, şəkil kateqoriyası əgər modallıöın nüvəsini təşkil edirsə, inversiya ona əlavə modal çalarlıq verir.

References

Azərbaycan dilində

1. Adilov M.İ., Verdiyeva Z.N., Ağayeva F.M. İzahlı dilçilik terminləri lüğəti. Bakı, “Elm və təhsil”, 2020, 656 səh.
2. Cahangirov F. “İngilis və Azərbaycan dillərində modallığın struktur-semantik tədqiqi”, Bakı-“Elm”-2005, 312s.
3. Cavadov Ə. “Müasir Azərbaycan dilində sintaktik vahidlərin sırası”. Azərbaycan SSR Elmlər Akademyası Nəsimi adına Dilçilik İnstitutu. - Bakı : Elm, 1977 (AZ), 112 s.
4. Haciyeva M.T. “Söz sırası analitik ifadə vasitəsi kimi” Azərbaycan müəllimi. Bakı, 2012. 30 mart. S.9.
5. İsmayılova R.H. “Azərbaycan və ingilis dillərində inversiya hadisəsi və onun sadə cümlə tərkibində ifadəsi, AEM, Bakı: Azərtədrisnəşr.
6. Qaraşova Y. “Ingilis və Azərbaycan dillərində modalliğin struktur – semantik tədqiqi”, Bakı Dövlət Universiterti. Ilahiyyat fakültəsi. Elmi məcmuə 10, Sentyabr 2008, s. 384-395.

7. Mehdixanli K. Ə. İngilis və azərbaycan dillərində inversiya. Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın AVTOREFERATI, Bakı, 2018, 29 s.
8. Musayev O. İ. İngilis və Azərbaycan dili cümlələrində sözlərin sırası [Mətn] / Musayev, Bakı: Azərtədrisnəşr, 1960. 81s.
9. Nuriyeva S.T. "Müasir İngilis dilində qoşa modallıq gələcək zamanın ifadə vasitəsi kimi " Bakı, Milli Emlər Akademiyası, Tədqiqlər I, 2019. Dilçilik Institutunun nəşri.
10. Nuriyeva S.T. "The Double Modal Constructions in English." Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Dillər Universiteti, Elmi xəbərlər, Bakı-2010, №5.

Ingilis dilində

11. Austen J. "Sense and Sensibility", MOSCOW, JUPITER-INTER, 2004, 280 p.
12. Galperin İ.R. "Stylistc", Moscow, "Higher school" 1997, 335 p.
13. Jespersen O. A Modern English Grammar on Historical Principles, Part V, Syntax, GB, London, 1961, 528 p.
14. Jespersen, O. Essentials of English grammar. Ldn, 1943, p.99
15. Jim Kelly, The Coldest Blood, Penguin Books Ltd. London, 2006, 342 p.
16. Kaushanskaya B.L., Kovner R.L and others, A Grammar of the English Language, Leningrad, Isdatelstvo, 1973, 319 p.

Internet resursları

17. https://az.wikipedia.org/wiki/%C4%B0nversiya
18. https://1000kitap.com/yazar/mehpar-qayibova/kitaplar?s=en-iyiler
19. https://englhouse.ru/uchashhimsya/kakoj-poryadok-slov-v-anglijskom-yazyke.html
20. 37ru.wikipedia.org> Типология порядка слов.

Резюме

В статье говорится об инверсии, которую можно считать одной из основных характеристик современного английского языка, то есть это средство выражения определенного отношения к действию, выражаемому говорящим, путем целенаправленного изменения порядка членов предложения. На основе этой идеи исследователь впервые утверждает, что явление инверсии, происходящее в языке, обусловлено выражением модальности.

Суть статьи заключается в анализе и обосновании инверсии как средства выражения категории модальности. Эта мысль, выдвинутая исследователем, подтверждается примерами, отобранными из литературы по данной теме. В статье говорится о связи инверсии с другими средствами модальности, а также о видах инверсии (грамматической, стилистической). Исследователь отмечает, что грамматическая инверсия также выражает модальность, как и стилистическая инверсия. Основываясь на классификации предложения по

типу значения, он отмечает, что утвердительные предложения выражают утвердительную модальность, отрицательные предложения выражают отрицательную модальность, вопросительные предложения выражают вопросительную модальность, восклицательные предложения выражают восклицательную модальность, а повелительные предложения выражают повелительную модальность. На основании того, что типы предложений формируются по-разному на основе инверсии, исследователь показывает, что модальность в этих предложениях безусловно формируется посредством инверсии.

Порядок слов в английском языке, имеющем аналитическую структуру, имеет большое значение при формировании значения как словосочетаний, так и предложений. Изменение места слов может вызвать изменение или искажение смысла. Явление инверсии, рассматриваемое большинством лингвистов как «художественное средство выражения», используется для доведения до внимания собеседника эмоциональности мнения говорящего. «Инверсия», латинское слово, означающее «смещение», осуществляется в результате преднамеренного изменения места членов предложения. В статье приводятся мнения азербайджанских лингвистов, а также мировых лингвистов, проводящих исследования модальности и инверсии, анализируются и систематизируются их результаты, сообщается отношение к ним автора.

Ключевые слова: «модальность», «инверсия», «модальные глаголы», «стилистическая инверсия», «порядок слов».

Summary

The paper deals with the inversion, which can be considered one of the main characteristics of the modern English language, that is, it is a means of expressing a certain attitude to the action expressed by the speaker by purposefully changing the order of the sentence members. Based on this idea, the researcher, for the first time, claims that the phenomenon of inversion occurring in the language is due to the expression of modality.

The main point of the article is the analysis and justification of inversion as a means of expression of the category of modality. This idea put forward by the researcher is confirmed by the examples selected from the literature on this topic. The article talks about the connection of inversion with other means of modality, as well as the types of inversion (grammatical, stylistic). The researcher notes that grammatical inversion also expresses modality like stylistic inversion. Based on the classification of the sentence according to the type of meaning, he notes that affirmative sentences express affirmative modality, negative sentences express negative modality, interrogative sentences express question modality, exclamatory sentences express exclamatory modality, and imperative sentences express command modality. Based on the fact that sentence types are formed differently based on inversion, the

researcher shows that modality is unconditionally formed through inversion in these sentences.

Word order in English, which has an analytical structure, is of great importance in forming the meaning of both word combinations and sentences. Changing the place of words can cause a change or distortion of the meaning. The phenomenon of inversion, considered by most linguists as an "artistic means of expression", is used to bring the emotionality of the speaker's opinion to the attention of the other party. "Inversion", which is a Latin word meaning "displacement", is realized as a result of the deliberate change of the place of sentence members. The article refers to the opinions of Azerbaijani linguists as well as world linguists conducting research on modality and inversion, their results are analyzed and systematized, and the author's attitude to it is reported.

Keywords: "modality", "inversion", "modal verbs", "stylistic inversion", "word order"

Redaksiyaya daxil olma tarixi: 07.12.2022
Çapa qəbul olunma tarixi: 28.12.2022
Rəyçi: filologiya üzrə elmlər doktoru Şəfaqət Mahmudova tərəfindən çapa tövsiyə olunmuşdur

МЕТАНЕТ ГАДЖИЕВА
Доктор философии по философии, доцент
Азербайджанский медицинский университет
кафедра Азербайджанский язык
Адрес: ул. Марданов кардашлары 98.
naila.abasova@mail.ru

СТРУКТУРА ГРАММАТИЧЕСКОГО ЗНАЧЕНИЯ И ЕГО СТАТУС В СИСТЕМЕ ЯЗЫКА

Резюме

Центральным участком языковой системы является грамматический строй - это соединение формы со значением, звука со смыслом, плана выражения с планом содержания. На осуществление такого соединения так или иначе нацелены все звенья, все стороны и уровни языка и речи. Но некоторые из них участвуют в решении этой задачи, сами непосредственно не воспроизводя связь плана выражения с планом содержания, а лишь обслуживая эту связь, создавая для нее предпосылки. Это касается в первую очередь фонетической системы языка как таковой. Такая сердцевинная и репрезентативная роль грамматического строя в языковой системе делает его исключительно важным объектом изучения при исследовании природы языка. Когда период структурализма уже закончен, становятся очевидными и те точки соприкосновения, которые между ними были. Главная из них - ориентация как на решающий и отправной пункт в исследовании языка не на языковой знак в его целостности, а на одну из сторон этого знака, притом на сторону звуковую. Двигаясь в этом направлении, как младограмматики, так и структуралисты достигли исключительно больших успехов. Младограмматики создали понятие звукового закона, понятие, которое оказалось необычайно плодотворным и устояло как основное в исследовании истории языка, несмотря на ожесточенную критику со стороны психологистов, представителей территориальной диалектологии и некоторых структуралистов.

Так образования, обладающие своей формальной структурой и своим значением. Между тем в языкознании высказывалось и нередко высказывается мнение, что значение грамматических форм по ряду причин объективно установить невозможно, а изучение грамматической семантики теперь нередко отделяется от изучения грамматических форм. У грамматических форм часто ставится под сомнение на том основании, что у многих грамматических форм имеется целый ряд различных, несводимых друг к другу и не поддающихся

обобщению значений. Опровергнуть это возражение можно как конкретными наблюдениями над языковыми фактами, так и исходя из общих свойств языкового строя.

Ключевые слова: грамматические формы, грамматическая структура, малое грамматическое понятие, теория грамматики, морфологические словоформы, обобщенное значение.

Центральным участком языковой системы является грамматический строй. Важнейший признак языка - это соединение формы со значением, звука со смыслом, плана выражения с планом содержания. На осуществление такого соединения так или иначе нацелены все звенья, все стороны и уровни языка и речи. Но некоторые из них участвуют в решении этой задачи, сами непосредственно не воспроизводя связь плана выражения с планом содержания, а лишь обслуживая эту связь, создавая для нее, - правда, необходимые и поэтому исключительно важные - предпосылки. Это касается в первую очередь фонетической системы языка как таковой. Фонема выделяется в своем существовании внутри системы данного языка своей смыслоразличительной способностью.

В продолжение многих десятилетий в языкознании было принято рассматривать младограмматиков и структуралистов как два полярных, во многом противоположных друг другу теоретических направления в лингвистике. Но теперь, когда период структурализма - по крайней мере в его классических проявлениях - уже закончен, становятся очевидными и те точки соприкосновения, которые между ними были. Главная из них - ориентация как на решающий и отправной пункт в исследовании языка не на языковой знак в его целостности, а на одну из сторон этого знака, притом на сторону звуковую. Двигаясь в этом направлении, как младограмматики, так и структуралисты достигли исключительно больших успехов. Так, в основном направлении генеративной грамматики на первом этапе ее развития вообще декларировался отказ от привлечения анализа грамматических значений, хотя фактически ее огромный успех объяснялся именно тем, что она давала возможность в формализованном виде эксплицировать смысловую сторону грамматических явлений. От анализа семантики отказываются нередко и представители грамматики зависимостей. И все же характерный для последних десятилетий перенос центра тяжести в теории языка со звуковой системы на систему грамматическую представляется нам одним из проявлений общей тенденции лингвистики наших дней к более цельному, синтезирующему подходу к языку (1, 27-29). Грамматический строй существует в человеческой памяти как организованное многообразными связями иерархическое множество типов (моделей), одновременных в своем существовании. Хотя каждый из этих типов

обладает способностью выступать в процессе формирования мысли в речи и в конечном счете только для этого и создан, он вместе с тем определен в своем своеобразии как своей собственной структурой, так и своими отношениями к остальным компонентам внеоперационной грамматической системы языка. В этом смысле грамматическая традиция, включая сюда и Соссюра, и классический структурализм, с полным правом устанавливала грамматическую систему как систему внеоперационных парадигматических и синтагматических категорий и связей, к которой мне кажется необходимым присоединить и связи «батизматические», т. е. колонны грамматических значений, опирающиеся на отдельные отрезки речевой цепи (2).

Таким положением в языкознании является положение о том, что языковые явления, относящиеся к области грамматики, отмечены наложением некоего нового значения, притом значения обобщенного, на значение лексическое. Другими словами, грамматической форме свойственно наслаивание на лексическое значение выражаемого в ней лексического материала некоего значения, характерного именно для данной грамматической формы, причем в синтаксисе ситуация оказывается еще более сложной: синтаксические значения наслаиваются, как правило, на значения морфологические.

Правда, конкретная трактовка этого положения стала за последние сто лет несколько иной, чем она была, например, у А.А.Потебни. Если для А.А.Потебни грамматическая форма отождествлялась здесь с формой слова (3, 35-36), то в современном языкознании ставится вопрос и о наслоении обобщенного грамматического значения на соединение лексических значений, а в первую очередь значений морфологических форм, в таких синтаксических единствах, как предложение и словосочетание. Чрезвычайно важно подчеркнуть, что наслаивание грамматических значений происходит здесь не просто на отдельные обобщенные значения морфологических словоформ (и на лексические значения отдельных слов), а на эти значения в их взаимосвязи, причем формальные скрепы, фиксирующие такое наслаивание, трактуются очень широко. Они не исчерпываются самими морфологическими формами, а включают в себя формы просодические, формы порядка слов, формы сочетаемости, когда она выступает как явление, охватывающее целые разряды слов, и некоторые другие формы. А сама структура обобщенного значения грамматических форм стала рассматриваться в современном языкознании как образование сложное, не лишенное противоречий. Но по существу сам принцип наслаивания обобщенных значений на значения лексические как примета грамматической формы остается незатронутым.

Наслаивание обобщенного грамматического значения на лексическое значение в грамматической группе резко отличается от соотношения разных значений в слове как лексической единице. Это различие очевидно, когда

смысловые признаки, образующие значение лексемы, лежат в одной плоскости, так что каждый из таких «семантических множителей» является представителем смыслового ряда, который может быть сделан основой для характеристики значения данной лексемы. Наконец, в языке существуют также грамматические формы, обладающие чисто структурным, композиционным, назначением. Это формы, свойственные языку не как системе отношений, а как системе построения. Они представлены, например, в сфере порядка слов, где с помощью дистанцирования тесно связанных друг с другом грамматических форм создается рамка, придающая особую структурную устойчивость и прочность («портативность») соответствующим синтаксическим образованиям.

Тем не менее наличие обобщенного («общего») значения у грамматических форм часто ставится под сомнение на том основании, что у многих грамматических форм имеется целый ряд различных, несводимых друг к другу и не поддающихся обобщению значений. Опровергнуть это возражение можно как конкретными наблюдениями над языковыми фактами, так и исходя из общих свойств языкового строя. Здесь, однако, мы не будем касаться этого второго (дедуктивного) вида доказательства (2, 44-45), я прямо перейдем к характеристике реального положения в сфере грамматических форм с точки зрения выражения ими обобщенных значений.

1. Обобщенное значение грамматических форм в принципе отнюдь не совпадает с так называемым (часто весьма приблизительным) общим значением морфологических форм, взятых как некие единства, т. е. с охватом всех функций этих форм. В очень многих случаях обобщенное значение свойственно той или иной морфологической форме в определенном ее употреблении. Так, в весьма многозначном русском творительном падеже в функции предикатива и предикативного определения явственно выступает обобщенное значение переменного субстантивного признака (*Он у нас учителем; Он работает учителем*).

2. Обобщенное значение грамматической формы не перестает быть таковым, если под влиянием определенных контекстных и ситуативных факторов некоторые ее реализации получают иной смысл; например, побудительная форма в конструкциях типа *Скажи он мне это заранее, все было бы в порядке* начинает выражать прошедшее сослагательное.

3. Существуют и грамматические формы, в том числе и морфологические, обладающие во всей совокупности своих реализаций отчетливым обобщенным значением, которое в таких случаях оказывается и общим значением данной формы. Так, отчетливое единое обобщенное значение характерно, например, для существительного: оно обозначает предмет в самом общем смысле этого слова, т. е. предметность, вообще любое опредмеченное понятие (5).

4. Существуют разные степени обобщенности значения грамматических форм. Иногда большая пестрота значений, обнаруживаемых у какой-либо грамматической формы, оказывается лишь множеством проявлений какого-либо более общего значения, лежащего в иной плоскости, чем противопоставленные друг другу частные значения данной формы. Так, приименной (определительный) родительный падеж, который может быть и субъектным, и объектным, и посессивным и т. д., в значительном большинстве этих своих разновидностей и в значительном большинстве своих реализаций в речи обозначает вместе с тем внешний признак предмета, обозначенного определяемым существительным.

5. Наиболее важно, что в соответствии с общей тенденцией грамматических форм к полевой структуре обобщенные значения грамматических форм, как правило, также обладают полевым построением. Таким образом, обобщенное значение грамматических форм следует понимать отнюдь не примитивно, как механическое соответствие определенной формы определенному значению, а как сложное соотношение, в котором, однако, обнаруживается некая система, обладающая определенной доминантой (6, 47-51). Особенно резкие расхождения между семантикой отдельных реализаций данных форм при условии возникновения тех или иных специфических формальных примет этих реализаций даже могут повести к возникновению особых типов синтаксических конструкций, в частности особых логико-грамматических типов предложения.

Таким образом, семантика грамматических форм в случае сложности своей структуры характеризуется, как правило, не полной разобщенностью отдельных наблюдаемых здесь значений, а наличием ряда связей между ними, ряда переходных случаев. Другими словами, для структуры значения грамматической формы при его сложном составе типичны не дискретность, а образование некоего сложного континуума, который здесь и обозначается термином «поле». Этим не отрицается, естественно, что иногда подобная дискретность возможна. Но внутри отдельных синтаксических функций грамматической формы она является, скорее, исключением.

Литература

1. См. мое выступление по докладу Б. Мальмберга на X Международном конгрессе лингвистов. - Actes du Xe Congres international des Linguistes, X. Bucarest, 1969.

2. Ср.: Адмони В. Г. Партитурное строение речевой цепи и система грамматических значений в предложении. - Научные доклады высшей школы. Сер. Филол. науки. 1961, No 93.

3. Потебня А. А. Из записок по русской грамматике, т. I-II. М., 1959.

4. Лексическая семантика. Синонимические средства языка. М., 1974.

5. Недавние попытки опровергнуть такое понимание обобщенного значения существительного только показали невозможность без него обойтись. Так, в книге С. Д.Кацнельсона «Типология языка и речевое мышление» (Л., 1972) сперва, в плане самых общих речемыслительных различий, термин «предмет» употребляется не «в традиционном расплывчатом грамматическом понимании» как значение существительного, а как обозначение предметов как таковых (с. 150), но затем, в плане определения семантико-синтаксических категорий, все же признается, что и признаки могут быть представлены в языке как субстанция (с. 172). В книге В. Н. Мигирина «Язык как система категорий отображения» (Кишинев, 1973) сначала резко опровергается положение А. М. Пешковского об опредмечивании в существительном признака предмета (с. 59), но взамен предлагается определить значение существительного как значение носителя признака, что по существу не отличается от значения предмета, и на с. 127 прямо говорится, что «существительное выражает предмет».

6. См.: Адмони В. Г. Основы теории грамматики. М.-Л., 1964.

Mətanət Hacıyeva

QRAMMATİK MƏNANIN STRUKTURU VƏ DİL SİSTEMİNDƏ ONUN STATUSU

Xülasə

Açar sözlər: qrammatik formalar, qrammatik quruluş, kiçik qrammatik konsepsiya, qrammatika nəzəriyyəsi, morfoloji söz formalar, ümumiləşdirilmiş məna.

Dil sisteminin mərkəzi sahəsi forma məzmunu planı - məna, məna ilə səs, ifadə planı ilə birləşmələr qrammatik quruluşdur. Belə bir əlaqələnmənin həyata keçirilməsində bütün dil yaruslarıi, tərəflər - dil və nitq səviyyələri hədəflənir. Lakin onların bəziləri bu məsələnin həllində bilvasitə iştirak edir, özləri ifadə planının məzmun planı ilə əlaqəsini bilavasitə əks etdirmədən, yalnız bu rabitəyə xidmət etməklə, onun üçün ilkin şərtlər yaratmaqla iştirak edirlər. Bu, ilk növbədə, dilin fonetik sisteminə aiddir. Dil sistemində qrammatik quruluşun bu cür əsas və reprezentativ rolunu, dilin təbiətini tədqiq edərkən onu öyrənmək üçün son dərəcə vacib bir obyekt rolu oynayır. Strukturalizm dövrü başa çatanda onların arasında olan təmas nöqtələri bi daha aydın olur. Onların əsas hissəsi dilin tədqiqatında həlledici və başlanğıc nöqtəsi kimi bütövlükdə dil işarəsi yox, bu işarənin tərəflərdən birinə, ələlxüsus səs tərəfinə yönəldilir. Bu istiqamətdə tədqiqat aparan strukturalistlər son dərəcə böyük nailiyyətlər əldə ediblər. Qrammatiklər dil tarixinin tədqiqində

psixoloqların, dialektoloqların və bəzi strukturalistlərin sərt tənqidlərinə baxmayaraq, qeyri-adi dərəcədə məhsuldar olan səs qanunu anlayışlarını yaratdılar. Belə ki, bu, təhsildə xüsusi əhəmiyyət daşıyır. Dilçilikdə tez-tez belə bir fikir söylənilir ki, qrammatik formaların bir sıra səbəblərdən obyektiv şəkildə müəyyən edilməsi mümkün deyil, lakin qrammatik semantikanın öyrənilməsi yalnız qrammatik formaların öyrənilməsindən başlayır. Qrammatik formalarda bir-birinə uyğun gəlməyən və ümumiləşdirilməsi qeyri-mümkün olan müxtəlif mənalara rast gəlinir. Bu aksiomu həm dil faktları üzərində konkret müşahidələr, həm də dil sisteminin ümumi xüsusiyyətləri əsasında təsdiq etmək olar.

Metanet Hacıyeva

THE STRUCTURE OF GRAMMATICAL MEANING AND ITS STATUS IN THE LANGUAGE SYSTEM

Resume

The central part of the language system is the grammatical structure - it is the connection of form with meaning, sound with meaning, the plan of expression with the plan of content. All links, all sides and levels of language and speech are aimed at the implementation of such a connection in one way or another. But some of them participate in solving this problem, not directly reproducing the connection of the plan of expression with the plan of content, but only serving this connection, creating prerequisites for it. This applies primarily to the phonetic system of the language as such. Such a core and representative role of the grammatical structure in the language system makes it an extremely important object of study in the study of the nature of language. When the period of structuralism is over, the points of contact that were between them become obvious. The main one is the orientation as a decisive and starting point in the study of language, not on the linguistic sign in its entirety, but on one of the sides of this sign, moreover, on the sound side. Moving in this direction, both young grammarians and structuralists have achieved exceptionally great success. The young grammatists created the concept of the sound law, a concept that turned out to be extremely fruitful and stood as the main one in the study of the history of language, despite fierce criticism from psychologists, representatives of territorial dialectology and some structuralists.

These are formations that have their own formal structure and their own meaning. Meanwhile, in linguistics, the opinion has been expressed and is often expressed that the meaning of grammatical forms cannot be objectively determined for a number of reasons, and the study of grammatical semantics is now often separated from the study of grammatical forms. Grammatical forms are often questioned on the grounds that many grammatical forms have a number of different,

irreducible to each other and not amenable to generalization of meanings. This objection can be refuted both by specific observations on linguistic facts, and based on the general properties of the linguistic system.

Keywords: grammatical forms, grammatical structure, small grammatical concept, grammar theory, morphological word forms, generalized meaning.

Redaksiyaya daxil olma tarixi: 07.12.2022
Çapa qəbul olunma tarixi: 28.12.2022
Rəyçi: filologiya elmləri doktoru, professor N.Hacıyeva
tərəfindən çapa tövsiyə olunmuşdur

ƏDƏBİYYATŞÜNASLIQ

HƏSƏNOVA NURANƏ VƏLI QIZI,
Bakı Dövlət Universiteti
Zahid Xəlilov, 23
quliyeva.nurane@gamil.com

XX ƏSRIN SONLARINDA TARIXI KÖKLƏRƏ QAYIDIŞ MƏSƏLƏLƏRININ MƏTBU SƏHIFƏLƏRIMIZDƏ IŞIQLANDIRILMASI (1985-1995)

XÜLASƏ

Məqalədə müstəqillik uğrunda mübarizə dövrünün mətbuatında tarixi köklərə qayıdış, milli-mənəvi, ədəbi dəyərlərin bərpası məsələlərinə yer verilməsi barədə məlumatlara nəzər salınıb. Azərbaycanda azadlıq hərəkatı dalğasının başlaması, respublikada vəziyyətin gərginləşməsi, həm gizli, həm də açıq şəkildə mətbu orqanların yaranması və onların ideoloji mübarizəyə qoşulması XX əsrin sonlarında baş verən proseslərin əsas xarakterik xüsusiyyətləri kimi qiymətləndirilir. Əsrin əvvəllərindən başlayan bu tendensiya əsrin sonlarına doğru özünün yüksək inkişaf mərhələsini yaşayır, haqqını tələb edən, ayağa qalxan Azərbaycanın kökə qayıtma meylləri getdikcə güclənirdi. Sovet İttifaqının siyasətinə qarşı mübarizəyə qalxan yenilikçi milli mətbuat orqanları yaranır və onun ətrafına toplaşan ziyalılar əsrin sonlarında baş verən proseslərdən məharətlə istifadə edirdilər. Bu dönəmdə fəaliyyət göstərən "Aydınlıq", "Azadlıq", "Vətən səsi", "Odlar yurdu", "Azərbaycan", "Meydan" kimi mətbu orqanlar nəşrə başlayandan sonra səhifələrində milli şüur, milli birlik, müstəqillik ideyalarını təbliğ edirdilər. XX əsrin 80-cı illərinin sonu 90-cı illərinin əvvələrində xalqa təqdim olunan, qədim dövlətçilik ənənələrini təbliğ edən həmin qəzetlər milləti soy-kökünə nəzər salmağa səsləyirdi. Mətbu səhifələrdə Azərbaycan dövlətçiliyinin qorunub saxlanması, milli şüurun möhləmləndirilməsi naminə bütün xalqı mübarizəyə səsləyən materiallar dərc edilirdi. Azərbaycan gənclərinə, ümumilikdə xalqa milli-azadlıq, demokratiya uğrunda mübarizələrdə qazanılmış tarixi nailiyyətlər çatdırılırdı. Zamanın ruhuna uyğun fəaliyyət göstərən bu mətbuat orqanları hər kəsi vahid milli ideya, millli mənafe ətrafında birlik olmağa dəvət edirdi. Məhz bu baxımdan məqalədə dövrün əsas məlumat mənbəyinə çevrilən qəzetlərin sovet jurnalistika ənənələrindən uzaqlaşaraq müstəqillik uğrunda mübarizə yolu gözdən keçirilir, xalqı milli dəyərlərinə qayıdışına səfərbər etməsi məsələləri təhlil edilir və xalqa təsirinin səbəbləri şərh edilir.

Açar sözlər: mətbuat, XX əsrin sonları, milli şüur, tarixi köklərə qayıdış, bayraq, əlifba

Giriş. XX əsrin sonlarında dövlət müstəqilliyinin bərpası yolunda ictimai-mədəni mühiti, sosial-siyasi həyatı əks etdirən mətbuat orqanları xalqı oyatmaq, onu tərəqqiyə çatdırmaq üçün ən qüdrətli vasitəyə çevrildi.

Sovet hakimiyyəti illərində elm və mədəniyyət xadimlərimiz, görkəmli şəxsiyyətlərimiz, tarixi simalarımız, onların yaradıcılığı, həyat fəaliyyəti, eləcə də mili bayramlarımız, dövlət rəmzlərimiz, əlifbamız represiyyaya uğramışdı. Sovetlər İttifaqı yeddi on illik ərzində sadalanan bütün tarixi məqamları xalqın yaddaşından silməyə çalışırdı. XX əsrin sonlarında yenidənqurma, aşkarlıq və demokratiya şəraitində mətbuat tarixi köklərə qayıdış üçün real əlverişli şəraitdən istifadə edir. "Xalqın fikir, əxlaq və amallarının ifadə vasitələrindən olan milli mətbuat öz ictimai və vətəndaş fəallığı ilə kütlələri "milli sərxoşluq" vəziyyətinə, yəni milli hiss və duyğuların coşğunluğu səviyyəsinə gətirə bilmişdi". (1, s.74)

Mətbuat səhifələrində tarixi köklərə qayıdış. 1989-cu ildə təsis edilən "Azadlıq" qəzeti fəaliyyəti illərində demokratiya, söz azadlığı, eləcə də müstəqil dövlət ideyasını təbliğ edən, milli-mənəvi, tarixi dəyərlərimizin bərpası, ortaya çıxarılması istiqamətində əhəmiyyətli, aktual və faydalı materiallar dərc edərək cəmiyyətin milli şüurunun oyanmasında əvəzsiz xidmətlər ilə fərqlənmişdi. Qəzetin müdafiə etdiyi ideyalar, hadisələrə obyektiv baxışı, tarixi faktların xalqa çatdırılması cəmiyyət arasında böyük marağa səbəb olmuşdu. "Azadlıq" qəzetinin 28 fevral 1991-ci il nömrəsində müzəffər bayrağımıza həsr edilmiş "Bayraq" başlıqlı yazı dərc olunub. Məlumdur ki, "müqəddəs bayrağımızın üç rəngli parçasını övci-səmayə qaldıran ağacı iti bir ox olub alçaq düşmənlərin qara qəlblərini deşərək" (4) milli bayrağımızı 70 il xatirələrdə dustaq saxlayıb, "millətlərə istiqlal, insanlara hürriyyət" deyənlərlə birlikdə didərgin salıblar. Qəzet böyük cəsarətlə bayrağımızn rənglərinin mənasını anladan "Bayraq" adlı materialında Məhəmməd Əmin Rəsulzadənin "Açıq söz" qəzetinin proqram xarakteri daşıyan "Tutacağımız yol" (8, s.1) məqaləsini geniş auditoriyanın diqqətinə çatdırıb. Müəllif Elmira Əmrahqızı həmin materialda xüsusi olaraq klassiklərin, eləcə də Xalq Cümhuriyyəti qurucularının irsindən faydalandığını vurğulayıb. Müəllif bu münasibətlə tarix elmləri namizədi Nəsib Nəsibzadəyə müraciət edərək bayrağımızın rənglərinin mənasını soruşarkən alimin cavabı uzun illərin sükutunun pozulmasını sübut edir: " İndi bizi narahat edən cavabların çoxunu klassik irsimizdə tapmaq olar". (3) Daha sonra "Tutacağımız yol" məqaləsinin əsas hissəsi geniş oxucu kütləsinə təqdim edilir: "Demək, çalışmaq istərsək – ki, zaman bunu iqtiza ediyor – mütləqən üç əsasa sarılmalıyız: türləşmək, islamlaşmaq və müasirləşmək". (8, s.1)

Milli bayrağımızın rəngləri də məhz bu ideyaları ifadə edir; mavi-türklüyümüzü, yaşıl –islam dininə mənsubluğumuzu, qırmızı –müasirliyimizi. Qeyd edək ki, ilk dəfə 1918-ci il noyabrın 9-da Fətəli xan Xoyskinin məruzəsi əsasında

milli kimliyimizin əsas simvolu olan üçrəngli bayrağımızın təsdiqi ilə bağlı qərar qəbul edilir. 1988-ci ildə azadlıq arzusu ilə qaynayan Azadlıq meydanında üçrəngli bayraq meydan hərəkatında xalqın başı üzərində dalğalanaraq millətin keçmişini, milli sərvətini, azadlıq rəmzini özünə qaytarır. Beləliklə, suverenleyimizin rəmzi olan üçrəngli dövlət bayrağımız 1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikasının Ali Sovetinin qərarı ilə müstəqil Respublikanın Dövlət bayrağı elan edilir. 2004-cü il iyunun 8-də "Azərbaycan Respublikası Dövlət bayrağının istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə bu sahədə qanunvericilik bazası təkmilləşdirək Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 15 sentyabr tarixli fərmanı ilə təsdiq edilir.

"Azadlıq" qəzetinin səhifələrində milli şüura təsir etmək, xalqın tarixi köklərindən bəhs edərək düşüncə tərzində yeni cığır açmaq, milli ideologiya, tarixi ənənələr barədə dolğun materiallar nəşr olunmaqda idi. Belə yazılardan biri də 1991-ci il 28 mart tarixində oxucuların diqqətinə çatdırılan soyadlar haqqında cəmiyyəti narahat edən və düşündürən, mənəvi sərvətlərə qayıdış ruhunda qələmə alınan "Ailənin dövlət bayrağı" adlı məqalədir. Məqalə müəllifi Ədalət Tahirzadə iyirminci yüzilliyin başlanğıcında olduğu kimi sonlarında da milli özünüdərkin ictimai düşüncədə inqilabi dəyişikliklər zamanının olduğunu qeyd edir. Bildirir ki, xalq sovet imperiyaının 71 ildə əlimizdən aldığı bütün mənəvi sərvətləri "azadlıq duyğularını, 1918-1920-ci illər gerçəkliyini, TÜRK adını, latın əlifbasını, zorla dəyişdirilmiş yer-yurd adlarımızı, milli bayramlarımızı" (7) geri qaytarmaq üçün ədəbi-mədəni mücadilə uğrunda səfərbər oldu. "Milli oyanışın mühüm əlaməti kimi üzə çıxan soyadlarımızn sabitləşdirilməsi yolunda mübarizə də bu ümumi çarpışmanın qollarından biridir", - deyən müəllif əsas problemin məzmununu oxuculara çatdırmağa çalışır.

Məqalədə bildirilir ki, əski dilimizdə "soy" sözü nəsil və əsl-kök", soyad termini isə "nəslin adı" mənasını daşıyır. Vahid soyad sisteminin olmaması Şimali Azərbaycanda –ov (yev), zadə, lı (li, lu, lü), Cənubi Azərbaycanda isə -i (-vi) soyad sonluqlarından istifadə edilməsinə səbəb olub. Mövzunu ümummilli məsələ kimi dəyərləndirən, -ov soyad sonluğunu xalqın milli ruhuna toxunan, müstəmləkə siyasətini özündə yaşadan əlamət hesab edən Ə.Tahirzadə onunla mübarizəni demokratik hərəkatın ümdə vəzifələrindən biri kimi qiymətləndirir. Soyadların dəyişdirilməsi zamanı vətəndaşların qarşılaşdığı maneələr, bundan əlavə "soyadı dəyişmək və soyadda qismən düzəliş etmək" üçün dövlət rüsumunun alınmasına narazılıq məsələləri də yazıda ətraflı şəkildə işıqlandırılıb. Soyad islahatının parlament müzakirəsinə çıxarılmasını təklif edən demokratik hərəkatın bütün iştirakçları xalqın bu məsələdə mübariz olmasını, milləti soy-kökünə dönməyə səsləyir. Onun sözlərinə görə, soyad ailənin dövlət bayrağına bərabərdir. Bu bayrağı uca tutmaq isə həm vətəndaşın, həm də demokratik dövlətin borcu hesab edilir.

Təsadüfi deyil ki, mətbuat vasitəsilə aparılan bu müzakirələr, nəşr olunan geniş materiallar oxucu kütləsi və mətbuat orqanları arasında məlumat, informasiya

mübadiləsi məsələnin həllinə nail olmağa şərait yaradır. Belə ki, 2 fevral 1993-cü il Azərbaycan Respublikası vətəndaşlarının soyadlarının dövlət dilinə uyğunlaşdırılması haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı qəbul edilir. Həmin qərara əsasən, vətəndaşların çoxsaylı müraciətləri nəzərə alınaraq, "-ov", "-yev" sonluqlu soyadlar "-lı", "-zadə", "-oğlu", "-qızı" sonluqlu və ya sonluqsuz ifadə formaları ilə əvəz edilə bilər və bununla əlaqədar yeni sənədlərin verilməsi zamanı heç bir dövlət rüsumu tutulmayacaq.

Müstəqilliyin növbəti illərində məsələnin həlli ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Adın, ata adının və soyadın verilməsi və dəyişdirilməsi Qaydaları"nın təsdiq edilməsi barədə 12 may 2011-ci il tarixli qərarı qüvvəyə minir.

Əlifbanın hər bir xalqın həyatında oynadığı əvəzsiz rolu sübut etməyə ehtiyac yoxdur və əlifbası səbatlı olan xalq xoşbəxtdir. Milli suverenliyə, respublikanın müstəqilliyinə dəlalət edən əsas amillərdən biri əlifbanın bərpası məsələsidir.

Azərbaycan xalqının milli-mənəvi mədəniyyətinin başlıca əlaqə vasitələrindən biri hesab edilən əlifba ilə bağlı bəxti gətirməyib. Belə ki, Azərbaycanda VII əsrin ikinci yarısından etibarən 1929-cu ilə qədər ərəb qrafikalı əlifbadan, 1929-1949-cı illər ərzində latın qrafikalı, 1940-1992-ci illərdə kiril əlifbasından istifadə edilib.

XX əsrin sonlarında yaranmış real şəraitdən istifadə edən alimlər yeni Azərbaycan əlifbasının tərtibi üzrə Əlifba komissiyası yaradırlar. Mətbuat yeni əlifba layihəsinin hazırlanması probleminin işıqlandırılması, latın qrafikalı əlifbanın bərpası istiqamətində silsilə məqalələr dərc edərək xalqın mədəni yaddaşının bərpası yolunda mücadilə aparır. Həmin dövrdə Azərbaycan əlifbasının tərtibi üzrə dövlət komissiyasının üzvü Fuad Qasımzadənin "Latın qrafikalı əlifbamızın bərpası" (6) adlı yazısı "Odlar yurdu" qəzetinin müxtəlif nömrələrində silsilə şəklində dərc edilir. Məqalələrdə latın əlifbasının Azərbaycanda tarixindən, hələ Mirzə Fətəli Axundovun bu əlifbaya keçid uğrunda uzun sürən mübarizəsindən, XX yüzilliyin əvvəllərində mədəniyyətimizin görkəmli nümayəndələri olan C.Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, M.Mahmudbəyov, M. Şahtaxlı və başqalarının əlifbamızın dəyişdirilərək latın qrafikası əsasında tərtib olunmasını istəmələrindən bəhs olunub. Müəllifin sözlərinə görə, hələ o dövrdə M.F.Axundov yeni əlifbaya keçməyi siyasi məsələ hesab edirdi və bildiridi ki, əlifba həm də müstəqil cəmiyyətin əsas təməli hesab olunur. Latın qarfikasının qiymətini oxuculara çatdırmaq üçün müəllif görkəmli siyasi xadim, tədqiqatçı və publisist Məmməd Əmin Rəsulzadənin, eləcə də türk dünyasının böyük oğlu və rəhbəri Mustafa Kamal Atatürkün bu əlifbanın əhəmiyyətini xalqa çatdırmaq, hamını bir amal uğrunda mübarizəyə səsləmək üçün söylədikləri dəyərli fikirləri məqalə vasitəsilə oxuculara çatdırır. Fuad Qasımzadənin silsilə şəklində dərc olunan yazıları onun prinsipial nəticələrə gəlməsinə səbəb olur və qeyd edir ki, latın qrafikalı əlifbanın bərpası nəinki siyasi, eləcə də sosial əhəmiyyəti olan aktdır. Müəllif latın qrafikalı əlifbanın fonetik xüsusiyyətlərinin

uyğunluğundan, kamil, yığıcı, həmçinin, aydın üstünlüklərindən bəhs edir. Bildirir ki, kiril əlifbasında qalmaqla xarici-mədəni əlaqələrimiz inkişafdan qalacaq, kitablarımız ölkədən kənarda az oxunacaq, ərəb əlifbasına geri dönsək kütləvi savadsızlıq başlanacaq. Əlifba komissiyasının tərkibində fəaliyyət göstərən görkəmli dilçilərlə yanaşı, yazıçılar, ədəbiyyatşünaslar, dövlət işçiləri, elm və mədəniyyət xadimləri, dilçi mütəxəssislər latın qrafikalı əlifbanın bərpası üçün yorulmaz mübarizə aparır, yeni təkliflər irəli sürürdülər. Onun fikrincə represiyyaya uğrayan elm və mədəniyyət xadimlərimiz kimi əlifbamız, yazımız da bəraət əldə etməli, bütün hüquqları ilə bərpa olunmalıdır. Bütün sadalanan faktlarla yanaşı, elmi-texniki tərəqqi, bəşəriyyətin çağdaş inkişafının məhz latın əlifbası ilə işlədiyini qeyd edən müəllif onun bərpasının zamanın hökmü adlandırır və hər bir vətəndaşı, elm xadimlərini bu layihəni bəyənməyə, dəstək olmağa dəvət edir.

"Azadlıq" qəzetinin 22 noyabr 1990-cı ildə nəşr olunan sayında məhz "Odlar yurdu" qəzetinin başladığı mübarizənin məntiqi davamı kimi "Əlifba layihəsi bəyənildi" başlıqlı yazı dərc olunur. Həmin materialda komissiyasının üzvləri olan Əbülfəz Elçibəy, Kamal Abdullayev və Firudin Ağasıoğlunun əlifbaya dair münasibətləri əks olunub. Əbülfəz Elçibəy qeyd edib ki, yeni əlifba Azərbaycan xalqının bugünkü oyanış və dirçəlişinin tələbidir: "Buna qarşı çıxmaq xalqımızın gələcəyinə qarşı çıxmaqdır... layihənin qəbul edilməsi ilə yeni bir uğurlu yol başladı!" (2, s.8)

Kamal Abdullayev əlifbaya münasibətin yalnız elmin üstündə qurulmalı olmadığını, burada tarixi, ictimai və mədəni amillərin nəzərə alınmasının vacibliyini vurğulayıb. Firudin Ağasıoğlu isə iki vacib məsələyə toxunur və bildirir ki, xalqın 1939-cu ildən bəri əlindən alınan əlifbasının bərpası ilə tarixi ədalət təcəlli edəcək. İkinci daha vacib məqam isə Cənubi Azərbaycanlı həmvətənlərimizin latın əlifbasını daha yaxşı bildikləri üçün bizdə çap olunan kitabları və mətbu nümunələri rahatlıqla oxuya biləcəklər. Bu da vətən həsrəti ilə yaşayan xalqın nisgilini azda olsa yüngülləşdirəcək. "... Mətbəə texnikasını yeniləşdirib müasir avadanlıqla əvəz edəcəyik ki, bu da respublikanın nəşriyyat mədəniyyətini yüksəldəcək. Nəhayət, yeni əlifba boynumuza salınan zəncirin mühüm həlqələrindən birini qırıb atacaq", - deyə, F.Cəlilov öz fikirlərini oxuculara çatdırıb. (2, s.8)

Bütün bu müzakirələrdən sonra tarixi ədalətsizliyin aradan qaldırılması məqsədilə, 1991-ci ildə latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında Azərbaycan Respublikasının qanunu qüvvəyə minir. Müstəqilliyin növbəti illərində latın qrafikalı əlifbaya keçid ölkədə bütövlüklə təmin edilir. Ümummilli lider, görkəmli siyasi xadim Heydər Əliyev yeni Əlifbadan istifadənin müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi həyatında, tarixində mühüm hadisə olduğunu nəzərə alaraq, Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında fərman imzalayır.

Latın qrafikasına keçid olunduqdan sonra Azərbaycan bir sıra dünya dövlətləri ilə mədəni-mənəvi əlaqələrini genişləndirməyə, eləcə də türkdilli xalqlarla müxtəlif əməkdaşlıq layihələrinin gerçəkləşdirməyə müvəffəq olur.

XX əsrin sonlarında bütün sadalanan məsələlər ilə yanaşı Sovet hakimiyyəti illərində təhrifə məruz qalan tarixi dövlətçiliyimiz, dövlət xadimlərimiz barədə saxtalaşdırılan məlumatlar, tarixin "ağ ləkələri" mətbu orqanlar tərəfindən araşdırılaraq cəmiyyətə təqdim olunur. "Azərbaycan", "Azərbaycan ordusu", "Odlar yurdu", "Xalq qəzeti", "Azərbaycan gəncləri", "Aydınlıq", "Elm", "Dalğa", "Azad Azərbaycan", "Yeni müsavat", "Hərbi bilik", "Müsavat", "Vətən ocağı", "Azadlıq", "Xalq cəbhəsi", "Ulduz" və bu kimi digər qəzet və jurnallarda tədqiqatçı-alim və jurnalistlərin müəllifliyi ilə Cümhuriyyət qurucularının həyat və fəaliyyətinin öyrənilməsinə dair dəyərli mənbələr dərc edilir.

Vətənpərvərlik, milli kimlik, tarixi köklərə qayıdış barədə sanballı yazılar, eləcə də Xalq Cümhuriyyətinin tarixinə, qurucularına, onların həyat fəaliyyətinin işıqlandırılmasına həsr olunan məqalələr ilə "Azərbaycan" qəzeti xüsusilə seçilirdi. Qəzetin müxtəlif nömrələrində "Milli Cümhuriyyətin ikinci paytaxtı", "Məhəmməd Əmin Rəsulzadə", "Azərbaycan mütəffəkirlərinin milli intibah arzuları", "Apreldən əvvəl başlanan may", "Dünyanı dolaşan dünya ömürlü Azərbaycan", "ADR müstəqil maliyyə siyasətini necə qururdu", "Cümhuriyyətin Gəncə liderləri", "Necə ki Azərbaycan var" bu və ya digər məqalələr Cümhuriyyətin tarixi fəaliyyətini gerçək faktlara dayanaraq xalqa çatdırıb. Cümhuriyyət qurucularının yazdıqları "Nümuneyi-imtisal bir gün", "Diz çöküm bayrağın o üç rənginə", "İlk məqalə", "Bir yaş", "Azərbaycan milli şurasının müraciətnaməsi" kimi məqalələr isə tədqiqatçılar tərəfindən araşdırılaraq qəzetin səhifələrində olduğu kimi dərc edilmişdir.

"Milli Cümhuriyyətin ikinci paytaxtı" adlı məqalə "Azərbaycan" qəzetinin 1990-cı il 14 sentyabr tarixində dərc edilib. Müəllif Azərbaycan jurnalistikasının "canlı ensiklopediyası", mətbuat tarixinin tədqiqatçısı, eləcə də Azərbaycan Xalq Cümhuriyyəti irsinin araşdırılmasında xüsusi xidmətləri olan Şirməmməd Hüseynovdur. Məqalədə XX əsrin əvvəllərində Azərbaycan tarixinin ən əlamətdar günlərindən biri olan 15 sentyabrdan bəhs olunur. Məhz 1918-ci ilin 15 sentyabr tarixində Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı Azərbaycan və türk silahlı qüvvələrinin birgə əməliyyatı nəticəsində Bakıya köçürülür. Bakı daşnakların daxili və xarici havadarlarının zülmündən azad edilir. Müəllifin sözlərinə görə, nəinki Qafqazın, eləcə də Yaxın Şərqin qüdrətli sənaye, inqilab və mədəniyyət mərkəzi sayılan Bakının Azərbaycandan ayrılması üçün çox təşəbbüslər həyata keçirilib. Bütün bunlara baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakı Azərbaycanın paytaxtı kimi bütün dünyada tanınır və milli müstəqlilliyimizin mərkəzinə çevrilir. Müəllif hər bir ölkənin, xalqın tarixi inkişaf səviyyəsini müəyyənləşdirən əsas faktorun onun paytaxtı olmasını vurğulayaraq yazır: " 72 ildir ki, Bakı Azərbaycanın rəsmi paytaxtıdır. Məncə biz hər il setyabrın 15-ni "paytaxt günü", onu düşmənlərdən azad edib, xalqına qaytaran qəhrəmanların xatirəsini yad

etmək günü, doğma Bakımızı əsrimizə layiq şəhərə çevirmək uğrunda əməli fəaliyyət günü kimi qeyd etməliyik". (5, S.1)

Ş.Hüseynov məqalənin sonunda yenicə azad edilmiş paytaxt Bakıya köçürülən "Azərbaycan" qəzetinin (1918-ci il- N.H.) daimi paytaxtda nəşrə başlamış ilk sayında dərc olunan bəzi sənəd və yazıları oxucuların diqqətinə çatdırır.

Sözügedən məqalə vasitəsilə keçmişimizin tarixi gənc nəsilə çatdırılır, milli-mənəvi dəyərlər ortaya çıxarılır, ictimai-siyasi proseslər qələmə alınaraq xalqı düşündürən mövzular cəmiyyətə təqdim olunur.

Nəticə.

Müstəqillik yolunda addımladığımız zamanda ədəbi-mədəni, mənəvi-tarixi dəyərlərimizi, tarixi yaşatmaq istiqamətinə yönələn fəaliyyəti ilə diqqəti cəlb edən dövrü mətbuat orqanları xalq yaddaşının bərpası istiqamətində yorulmaz mübarizə aparır. İllər boyu millətin yaddaşından silinən şəxsiyyətlərimiz, tarixi simalarımız, dövlət rəmzlərimiz, əlifbamız, eləcə də elm və mədəniyyət xadimlərimizin taleyi ilə bağlı məsələlər ön plana çəkilir. Beləliklə, bu qəzetlərin milli şüura təsir edərək Azərbaycanın ictimai-siyasi, ədəbi-mədəni həyatında mühüm xidmətlər göstərməsi, zəngin tarixi irsimizi öz səhifələrində dərc etdirməsi son dərəcə əhəmiyyətli hesab olunur.

Bu faktlar sübut edir ki, respublikamızın müstəqillik uğrunda mübarizəsini, milli dəyərlərimizi xalqa çatdıran mətbuat orqanlarının göstərdikləri misilsiz xidmətlərinin araşdırılması məqsədəuyğundur.

Ədəbiyyat siyahısı:

1. "Azərbaycan jurnalistikası qloballaşma dövründə: qaynaqlar və perspektivə baxış" Respublika elmi-praktik konfransının materialları. S.74
2. Əlifba layihəsi bəyənildi // Azadlıq qəzeti. 23 noyabr 1990-cı il. S.8
3. Əmrahqızı E. Bayraq // Azadlıq qəzeti. 28 fevral 1991-ci il, №9.- S.4
4. Hacıbəyli Ü. Bayrağımız sarsılmaz // Azərbaycan qəzeti. 1919. - 8 may
5. Hüseynov Ş. // Milli Cümhuriyyətin ikinci paytaxtı // Azərbaycan qəzeti. 14 sentyabr 1990-cı il. №35. S.1
6. Qasımzadə F. // Latın qrafikalı əlifbamızın bərpası // Odlar yurdu qəzeti. 1991.- fevral. №1.- S.3, №2.- S.3, № 3. - S.3
7. Tahirzadə Ə. // Ailənin dövlət bayrağı // Azadlıq qəzeti. 28 mart 1991-ci il №13.- S.8
8. Tutacağımız yol // Açıq söz qəzeti. 02 oktyabr 1915-ci il. №1.- S.1

Нурана Гасанова

Освещение на страницах нашей прессы вопросов о возвращении к историческим корням в конце 20-го века (1985-1995)

Резюме

В статье рассмотрены сведения о возвращении к историческим корням, реставрации национально-нравственных, литературных ценностей в период борьбы за независимость. В качестве основных характерных черт происходивших процессов рассматриваются начало волны освободительного движения в Азербайджане, напряженность обстановки в республике, появление как тайных, так и открытых органов печати и их включение в идеологическую борьбу в конце XX века. Эта тенденция, начавшаяся в начале века, к концу века пережила свой высокий этап развития, тенденции Азербайджана, который встал и потребовал своих прав, вернуться к своим корням, становились всё сильнее и сильнее. Для борьбы с политикой Советского Союза возникли национальные инновационные медиа-организации, а собравшаяся вокруг них интеллигенция умело использовать процессы, происходившие в конце века. Действующие в этот период печатные организации «Айдынлыг», «Азадлыг», «Ветен сеси», «Одлар юрду», «Азербайджан», «Мейдан» пропагандировали на своих страницах идеи национального самосознания, национального единства и независимости. Те газеты, которые были представлены народу в конце 80-х – начале 90-х годов XX века и пропагандировали древние традиции государственности, призывали нацию взглянуть на свои корни. В газетах публиковали материалы, призывающие весь народ к борьбе во имя сохранения Азербайджанской государственности и повышения национального самосознания. Исторические достижения, достигнутые в борьбе за национальную свободу и демократию, были переданы молодежи Азербайджана и всему народу. Действуя в соответствии с духом времени, эти медиа-организации призвали всех к объединению вокруг единой национальной идеи и национальных интересов. С этой точки зрения в статье рассматривается вопрос о том, как газеты, ставшие основным источником информации того времени, отошли от советских журналистских традиций и мобилизовали народ на возвращение к своим национальным ценностям в борьбе за независимость, объясняются причины их влияния на народ.

Ключевые слова: пресса, конец XX века, национальное самосознание, возвращение к историческим корням, флаг, алфавит

Nurana Hasanova

The coverage of the issues of returning to the historical roots at the end of the 20th century in our press pages (1985-1995)

Summary

In the article, the information about returning to the historical roots, restoration of national-moral, literary values in the press during the struggle for independence was reviewed. The beginning of the wave of the freedom movement in Azerbaijan, the tension of the situation in the republic, the emergence of both secret and open press bodies and their joining in the ideological struggle are considered as the main characteristic features of the processes that took place at the end of the 20th century. This tendency, which started at the beginning of the century, experienced its high development stage towards the end of the century, the tendencies of Azerbaijan, which stood up and demanded its rights, to return to its roots became stronger and stronger. Innovative national press organizations emerged to fight against the policies of the Soviet Union, and the intellectuals who gathered around them skilfully used the processes that took place at the end of the century. Press organizations such as "Aydinlig", "Azadlig", "Veten sesi", "Odlar yurdu", "Azerbaijan", "Meydan" operating in this period promoted the ideas of national consciousness, national unity and independence on their pages. Those newspapers that were presented to the people in the late 80s and early 90s of the 20th century and promoted the ancient traditions of statehood called the nation to look at its roots. Newspapers published materials calling all the people to fight for the sake of preserving Azerbaijan's statehood and promoting national consciousness. The historical achievements gained in the struggle for national freedom and democracy were conveyed to the youth of Azerbaijan and to the people in general. Acting in accordance with the spirit of the times, these press agencies invited everyone to unite around a single national idea and national interests. It is from this point of view that the article examines the way newspapers, which became the main source of information of the time, moved away from the Soviet journalistic traditions and fought for independence, analyzed the issues of mobilizing the people to return to their national values, and explained the reasons for their impact on the people.

Key words: press, end of the XX century, national consciousness, return to historical roots, flag, alphabet

Redaksiyaya daxil olma tarixi: 07.12.2022
Çapa qəbul olunma tarixi: 28.12.2022
Rəyçi: dosent, filologiya üzrə fəlsəfə doktoru
Aygün Əzimova tərəfindən çapa tövsiyə olunmuşdur

Fil.f.d. MAHİRƏ HACIYEVA
Azərbaycan Dillər Universiteti
e-mail: mhacieva@hotmail.com
ORCID ID: https://orcid.org/0000-0002-6922-4286

DİSTOPIYA ƏDƏBIYYATINDA UĞURSUZ UTOPIYA ƏNƏNƏSI.

Xülasə

İngilis bədii fikrində on altıncı əsrdən başlayaraq davam edən utopiya ənənəsi zaman keçdikcə elmi-fantastika və distopiya içərisində əridi. Utopiya əsərlərindən bir neçəsi, fərqli bucaqdan təhlil olunduqda, distopiya xarakteri kəsb edir. Təəccüblü deyil ki, ilk distopiya əsərləri də utopiyaya satira kimi qələmə alınmışdır. Bu əsərlər insan rifahını, mükəmməl yaşayış şərtləri ilə təmin olunmuş insan həyatını təsvir edərkən onların stabil, darixdırıcı xüsusiyyətlərini də nəzərə çarpdırmış olur.

Məqalədə əsasən, on doqquzuncu əsrdə qələmə alınmış distopiya əsərləri təhlil olunur. Eyni dövrdə qələmə alınmış bu əsərlərdə mövzu bənzərdir. Anton Trolopin "Sabit dövr" (Anthony Trollope. The Fixed Period. 1882), A. B. Dodd "Gələcəyin respublikası və ya sosializm, bir reallıq" (Anna Bowman Dodd. "The Republic of the Future: or, "Socialism a Reality" 1887) əsərləri uğursuzluğa düçar olmuş utopiya arzusunu təsvir edir. Mükəmməl həyat qurmağa çalşarkən insan təbiətinə xas xüsusiyyətlərin, təbii ehtiyacların düzgün qiymətləndirilməməsi təsvir olunan "utopiya" cəmiyyətlərini hissdən, zövqdən və tədricən zəkadan məhrum kütləyə çevirir. Uvolter Besant "Daxili ev" (Walter Besant. The Inner House. 1888) əsərində elmin inkişafından bəhrələnərək daimi həyatın sirrini çözmüş bir cəmiyyətin düşdüyü distopiyanı təsvir edir. İqnatius Donelli "Sezar sütünu" (Ignatius Donnelly. Caesar's Column. 1890) əsərində U. Besantın tiran hakimiyyəti mövzusunu daha da dərinləşdirərək utopiyanın ilk baxışda görünməyən distopiya üzünü təsvir edir. Dövrün distopiya ədəbiyyatında H. C. Uels özünəməxsus yer tutur. Müəllifin "Zaman maşını", (H. G. Wells. The Time Machine. 1895), "Yatan oyananda" (When the Sleeper Awakes. 1899) və "Aydakı ilk adamlar" (The First Men in the Moon. 1901) distopiyaları diqqəti cəlb edir.

Açar sözlər: distopiya, cəmiyyət, insan, bədii düşüncə, ədəbiyyat

Uğursuzluğa uğramış utopiya, utopiya satiraları ənənəsi müəyyən dövrə qədər davam edir. Bu dövrdə qələmə alınan əsərlərdə tez-tez insan ömrünün lazımı həddə saxlanılması və ya insan fəaliyyətinin müəyyən yaşa qədər məhdudlaşması fikri yer alır. Bunu təbiətin insan irqinə verdiyi hədd kimi dəyərləndirən əsərlərdən biri Anton Trolopun "Sabit dövr" satirik distopiyasıdır. Əsər Britaniyanın tabeçiliyində olan, azadlıq qazanaraq öz hakimiyyətini formalaşdıran, lakin sonda, yenidən Britaniya müstəmləkəsinə çevrilən Britannula haqqındadır. Əsərin uğursuz utopiya arzusu

haqqında olduğu başlanğıcdan hiss olunur. “The Fixed Period has been so far discussed as to make it almost unnecessary for me to explain its tenets, though its advantages may require a few words of argument in a world that is at present dead to its charms. It consists altogether of the abolition of the miseries, weakness, and fainéant imbecility of old age, by the prearranged ceasing to live of those who would otherwise become old” (5,6). Ölkəyə ilk köçmüş, qanunları formalaşdırmış prezidentin dilindən yazılmış əsərdə qanunlar yaş həddini 67 yarım olaraq dəyərləndirir. Lakin, bu qanunu elə onu yaradanların pozmaq istəməsi, yaş artıqca yaşamaq, işləmək həvəsinin və gücünün itməməsi prezidenti bir qədər güc tətbiq etməyə sövq edir. Bununla belə, çalışsa da qəhrəman yalnız özünün israr etdiyi qaydaların tətbiqinə nail ola bilmir.

Anna Bouman Dodd da bənzər şəkildə utopiya satirası qələmə almışdır. Onun “Gələcəyin respublikası və ya sosializm, bir reallıq” əsəri utopiya ədəbiyyatına cavab olaraq dəyərləndirilə bilər. Əsərin qəhrəmanı Isveçli Uvolfqanq (Wolfgang) gələcəkdə, 2050-ci ildə Nyu Yorka səfər edir. Həm səfər zamanı istifadə edtiyi nəqliyyat və çatdırılma xidmətləri, həm də qaldığı hotel texnoloji yeniliklərlə yaşayan utopik gələcək təsəvvürü yaradır. Lakin, bu utopiyanın mahiyyəti hər kəs üçün eyni deyil, “..in a society where labor of degrading order is forbidden by law, machinery must be used as its substitute. It is all well enough, I presume, from the laborer’s point of view. But, for a traveler, bent on a pleasure trip, machinery as a substitute for a garrulous landlord, and a score of servants, however bad, is found to be a poor and somewhat monotonous companion” (1,18). Bu rahatlığa rəğmən şəhər sıxıcı, monoton və maraqsızdır. Ümumi təsiri depressiv olan bu şəhərdə hər şey bir əsas üzərində qurlub, “..socialistic principle-by the people for the People” (1,20). Şəhərdə sosial təbəqələşmənin aradan qaldırılması yeknəsəklik yaratmış, bütün binaları, evləri bir-birinə bənzər, insanların geyimlərini, yaşayış tərzini oxşar qurmağa səbəb olmuşdur. Tam rahat yaşayışla təmin olunan insanlar sanki heç nə arzulamır, heç nədən zövq almır. Adi yemək mərasimi belə artıq unudulmuşdur. Kimin nə yeməli olduğuna gigiyena mütəxəssiləri qərar verir və yeməklər hazır şəkildə çatdırılır, bütün işlər isə maşınlar tərəfindən icra olunur. Maraqlı bir məqam, haqqında söhbət açılan cəmiyyətin həyatındakı əsas distopik xarakteri üzə çıxarır, “This wonderful community has done much, of that I am convinced, in the development of ideal freedom; but there appears to be a fatal blight somewhere in its princples, a blight which seems to have destroyed all delight in domestic life” (1,42).

Tam bərabərlik siniflərarası olduğu kimi qadın və kişi cinsləri arsında da tətbiq edilir. Buna görə hər kəsin geyimi eynidir, milli geyim mərkəzinin təlimatlarına uyğundur. Bu sentimental hisslərə də son qoymuşdur. Bundan əlavə tam bərabərhüquqlu yaşayış qadınları uşaqlara baxmaqdan azad etmişdir, uşaqlar böyüdülərək ailələrə qaytarılır. Bununla da, ailə münasibətləri korlanmış, kişi və qadının bərabərliyi nominal xarakter almışdır, ev artıq ev olmaqdan çıxmışdır. Qadının bu mövqe dəyişimi distopiyanın səbəblərindən biridir. Digəri səbəb isə,

texniki inkişafdır, “The sword raised man out of the dust. The piston has levelled him with it” (1,46). Bunlarla yanaşı insanların, xüsusilə kişilərin, üzündən melanxoliya, səfehlik yağır. Qəhrəmanın fikrincə bu firəvan şəhərədə insanların süskünlüyünə səbəb onların işləməyə olan təbii ehtiyacından irəli gəlir. Qanunla insanlar gündə iki saat işləyir. Digər bir məsələ insanlığın inkişafının əsasında duran bir sıra xüsusiyyətlərin, keyfiyyətlərin, arzuların məhv edilməsidir. Bu şəhərdə standartdan kənar, fərqli istiqamətdə düşünən ziyalılar, elm adamları sürgün edilib, beləcə intellektual müxtəliflik də yox edilib. Burada siyasət belə yoxdur. İnsanlar növbə ilə orduda xidmət edirmiş kimi dövlət rəsmisi kimi fəaliyyət göstərir. Ümumiyyətlə burada yarışmağa, arzulamağa, heç bir imkan yoxdur, hətta siyasətdə belə, “The government is as automatic a performance as one of the silk-looms of a factory” (1,70). Utopik cəmiyyətə bu çatışmazlıqlar onu daha çox distopiyaya çevirmişdir, “It is struggle, and not the absence of it, which makes both men and a nation great…With the abolishment of competition have died out, naturally, all the prizes and rewards in life which came from individual struggle.. The law of equality, with its logical decrees for the suppression of superiority, has brought about the other extreme, sterility” (1,72-73). Əsərdə daha bir maraqlı məqama aydınlıq gətirilir. Tam bərabərlik üçün insanların hamsının bəlli bir standart içərisində qalması vacibdir. Deməli əqli, fiziki, yaradıcı gözləntilər aşağı səviyyədə, hər kəsin çata biləcəyi səviyyədə saxlanmalıdır. Hamının bərabər olduğu bu utopiya/distopiyada hami bərabər şəkildə küt və məqsədsizdir.

Dövrün maraqlı distopiyalarından biri də Uvolter Besantın “Daxili ev” (“The Inner House” . Walter Besant. 1888) əsəridir. Əsərin proloqunda insan ömrünü uzadan bir vasitənin təqdimatı haqqında oxuyuruq. Bu insanların yaratdığı cəmiyyəin ilk təsvirindən ahəngin dəyişdiyini hiss edirik, “In the old unhappy days there would have been restless activity—a hurrying to and fro; there would have been laughter and talking—everybody would have been talking; there would have been young men eagerly courting the favors of young women….”(6,10). Cəmiyyətdə bir süstlük var, geyimlər bənzər, hərəkət azdır. Burada da sosializmin qələbəsi, nəticədə formalaşmış utopik/distopik yaşayışın təsvirini görürük, “There are no individual aims, but all is pure, unadulterated Socialism, with—not far distant—the Ultimate Triumph of Science!” (6,11). Bu cəmiyyətdə də fərqli fikir müxtərifliyinə, fərqli düşünənlərə yer yoxdur, onlar sürgün olunur və ölməyə məhkumdur. Hər şey lazımlığı əsas götürərək qurulur, gözəlliyə ehtiyac yoxdur. Tədricən öyrənirik ki, uzun illər ömür sürən bu insanlar qan qohumluqlarını unudur. Ərazinin kifayət edəcəyi sayda insan saxlamaq fikri ilə vaxtilə yaşlılar öldürülüb, çox az qism bu qirğından (Great Slaughter) yayınaraq sağ qalıb. Bu cəmiyyət onu davamlı həyatla təmin edən labaratoriya, həyat evi (House of Life) ətrafında cəmlənir. Ümumiyyətlə Besantın cəmiyyəti Doddun nəql etdiyi utopiya/distopiya ilə çox bənzərdir. Eynilə, burada da lazımsız hər şeyə-ədəbiyyat, incəsənət kimi sahələr, məhəbbət kimi zamanla əhəmiyyətini itirən

hisslərə ehtiyac yoxdur. Qəhrəmanların dilində birmənalı olaraq utopiya kimi təqdim olunan cəmiyyət əslində bir utopiya satirasıdır.

Həyatın davamlılığını təmin edən iliksiri tapmış professor (Schwarzbaum) təqdimatında belə bir qeyd edir, “This is my Discovery; this is my Gift to Humanity; this is the fruit, the outcome of my life; for me this great thing has been reserved. Science can arrest decay. She can make you live—live on—live for centuries—nay, I know not—why not?—she can, if you foolishly desire it, make you live forever."” (6,7). Bu axmaq arzu utopik bir gələcək yaradır, lakin bu gələcək insanları insani hisslərdən, münasibətlərdən məhrum edəcək distopiyaya çevrilir. İliksirin təqdimat mərasiminə sevdiyi qadını görmək üçün gələn, lakin həyat iliksiri ilə məşğul olub qadını unudan, gələcəkdə baş həkim (Arch Physician) mərtəbəsində yaşayan Dr. Henri Linisterin arasıra dediyi ironiyalı sözlər cəmiyyətin bədbəxtliyini vurğulayır. Sağ qala bilmiş yaşlı kitabxanaçı və onun nəvəsi kimi davranan Kristinanı görən Linisterin deyir, “"A child—a beautiful child! A feeble old man! One who ministers to another. Suffragan, the Past is indeed far, far away; but I knew not until now that it was so utterly lost. Childhood and Age and the offices of Love! And these things are wholly unheeded.” (6,17).

Uzun illərlə yaşayan insanlar hisslərdən məhrumdur. Burada dünyaya uşaq gətirmək belə ciddi nəzarət altındadır. Gənclik, sevgi, adi gülüş belə məhv olub, “"How many years since we heard a good, honest young laugh, Suffragan? Give us more children, and soften our hearts for us. But, no; the heart you want is the hard, crusted, selfish heart. See! No one asks why she laughed. They are all eating again now, just as if nothing had happened. Happy, enviable People!"” (6,21). Bunları dinləyən qəhrəman iliksir kəşfinin mahiyyətini dəyərləndirsə də Linisterin şözlərinə əhəmiyyət verməməyə bilmir. Linister yüksək mövqe tutsa da, verilən qərarların bir çoxuna qarşıdır. O kasıblığın ləğvinə, yaşlıların yox edilməsinə etiraz edir. Elmdə ona rəqib yoxdur, olsa olsa onunla eyni mərtəbədə yalnız bir alim dura bilir. Bu da təhkiyyəçi Groutdur. İkisi arasında dialoqlar maraqalıdır, “"Grout," he said, "let us sit and talk. My mind is disturbed. It is always disturbed when the memory of the Past is forced upon me."

"The Evil Past," I said.

"If you please—the Evil Past. The question is, whether it was not infinitely more tolerable for mankind than the Evil Present?"” (6,23). Onların söhbətinə Grout üçün mənasız, Linister üçün olduqca təsirli bir mahnı, Kristinanın məhəbbət haqqında nəğməsi son qoyur, bu Linisterin uzun-uzun illər öncə sevdiyi qadına yazdığı sözlərdir. Maraqlıdır ki, Grout bu çaşğınlıqdan çıxış yolu axtararkən bir alim olmaqdan çıxıb qədim irqin nümayəndəsinə çevrilir, “When I went to bed there came into my mind some of the old idle talk about witches, and I even dreamed that we were burning a witch who was filling our minds with disturbing thoughts.” (6,24). Kristinanın gülüşü, mahnıları müəyyən narahatlıq, qadınlarda keçmişin həsrəti yaradır. Biz distopiyanın dətrinləşdiyini görürük, “What meant the gleam and sparkle

of her eyes, when all other eyes were dull? What meant the parting of her lips and the smile which always lay upon them, when no one else smiled at all? Why did she carry her head erect, when the rest walked with hanging heads? Why, again, did she sing, when no one else sang? Why did she move as if her limbs were on springs, when all the rest went slowly and heavily? These signs meant mischief. I took them for the natural accompaniments of youth. They meant more than youth: they meant dangerous curiosity; they meant—presently—Purpose. How should one of the People dare to have a Purpose unknown to the Sacred College?... All that followed was, in fact, due to our own blindness. We should long before have shut up every avenue which might lead the curious to the study of the Past; we should have closed the Museum and the Library altogether. We did not, because we lived in the supposition that the more the old times were investigated, the more the people would be satisfied with the Present." (6,25). Bu muzey, Kristinanın dəvəti ilə ona qoşulanlar üçün keçmişin xatırlandığı, bu durğun cəmiyyətdə yeni, daha doğrusu qədim vərdişlərin yada salındığı məkana çevrilir. Tədricən iliksirin sirrini bilən iki alim haqqında daha çox məlumat alırıq. Linister təhsilli bir ziyalı Grout isə elmi təhsili olmayan, Linisterin yanında adi işçi kimi çalışaraq illər ərzində vəzifəsini yüksəltmiş, elmi cəmiyyətin rifahından çox bədbəxtliyinə çevirmiş obraz olaraq görünür. Birinci alim olaraq qaldığı halda ikinci tiran idareədici kimi canlanır.

Əsərin adı təsadüfi deyil. Daxili ev (İnner House) həyat evində eleksirin saxlanıldığı bölgədir. Linisterin üsyan edən qrupa qatılması və həyatın sirrini hami ilə paylaşmaq istəməsi Groutun qəbul etməyəcəyi bir addımdır. Həyat iliksiri utopik arzudur, ancaq bu cəmiyyətdəki distopiyanın, uzunömürlülüyün yaratdığı deqradasiyanın və Grout kimi tiranın əlində idarəetmə, tabeetmə gücünün simvoludur. Maraqlı bir məsələ ortaya çıxır. Keçmiş, yəni on doqquzuncu əsr ənənələrini bərpa etməyə, individualizmi geri qaytarmağa çalışan qrup vaxtilə aristokratiya olmuş təbəqəyə mənsubdur. Grout onların məhkəməsində bildirir ki, keçmişdə yalnız əzab var, o özü küçələrdə, ac və hamı tərəfindən rədd edilmiş bir həyat sürdüyündən buna əmindir. Siniflərarası münasibət burada aydındır. Groutun davranışı Linister üçün onun aid olduğu sinifin tipik davranışıdır. On doqquzuncu əsrə qayıtmağı seçən qrup geyim, titullar, adətlərlə bərabər əsrin cəngavərlik, üsyan ruhuna da qayıdır və bunun qarşısını almaq, Linisterlə bərabər ona yaxın insanları da açıq edam etmək istəyən Grouta qarşı yönəlir. Linisterin ətrafında birləşən qrup bu ərazini böyük kəşfi unudaraq tərk etməyi seçir. Bununla da Grout arzuladığı ən yüksək mərtəbəyə çatmış olur.

Daha bir distopiya epistolyar formada İqnatius Donelli tərəfindən qələmə alınmş "Sezar sütünu" əsəridir. Əsər Qabriel Uveltsteynin (Gabriel Weltstein) Nyu Yorkdan Uqandaya, qardaşına yazdığı məktublar şəklindədir. İlk məktubda tarix 10 sentyabr 1988 olaraq qeyd olunur. Deməli, biz gələcəkdəyik. Sadə bir həyatdan bura gəlmiş qəhrəman insan irqinin yüsəldiyi bu mərtəbəyə heyrandır, "That marvelous earth-force which the Indians called "the dance of the spirits," and civilized man

designated “the aurora borealis,“ is now used to illuminate this great metropolis, with a clear, soft, white light, like that of the full moon, but many times brighter. And the force is so cunningly conserved that it is returned to the earth, without any loss of magnetic power to the planet. Man has simply made a temporary loan from nature for which he pays no interest (2,2). Bu insan nəaliyyətlərindən sadəcə biridir. Nyu York hər sahədə insan oğlunun möhtəşəm tərəqqisindən xəbər verir. İnsanların mənəvi keyfiyyətləri yüksəlsə də bu utopiyanın daxilində bir narahatlıq var, “The chief features in the expression of the men were incredulity, unbelief, cunning, observation, heartlessness. I did not see a good face in the whole room: powerful faces there were, I grant you; high noses, resolute mouths, fine brows; all the marks of shrewdness and energy; a forcible and capable race; but that was all. I did not see one, my dear brother of whom I could say, “That man would sacrifice himself for another; that man loves his fellow man.“” (2,8). Qəhrəman, on doqquzuncu əsrin insanı üçün ürəksiz və qürursuz insan irqi dözülməzdir. Bununla yanaşı şəhərdə alçaldılmış bir insan qrupunun, səfil dilənçilərin olması utopiyanın arxa fonunu nümayiş etdirir. Dilənçilərdən birini xilas edən qəhrəman bu şəhərdəki korrupsiya, ədalətsizlik, bərabərsizlik və bunlarla mübarizə aparan gizli qardaşlıq haqqında öyrənmiş olur. Gözlənilən utopiya xarakterini tamamilə dəyişir, ““Yes; it is the greatest of pities that so noble and beautiful a civilization should have become so hollow and rotten at the core.““ (2,26). Burada maraqlı bir məqam var. Müəllif əsərdə işçilərin dözülməz səfil həyatını təsvir edərkən xüsusi bir qeyd edir, “ The testimony taken before the Parliamentary Commission in 1888 shows that the workers in the “sweating“ shops of London worked” (2,34-35). Varlı evləri ilə kasıb işçi təbəqəsinin səfil həyatı arasındakı ziddiyət qəhrəmanı dərindən sarsıdır. Bu mənzərənin məsuliyyəti ilk növbədə insanın üzərinə düşür, “God is not at fault. Nature is not to blame. Civilization, signifying increased human power, is not responsible. But human greed,— blind, insatiable human greed,—shallow cunning; the basest, stuff-grabbing, nut-gathering, selfish instincts, these have done this work!” (2,63).

Qabriel olligarxiyanın görüşündə gizlincə iştirak edir. Bu görüşdə biz qardaşlığın başçıları, gücü və aristokratiyanın onlardan ehtiyat etdiyini, çevrilişin qarşısını almağa çalışdığını görürük. Plan sadə və dəhşətlidir, ““It is our interest to make it the occasion of a tremendous massacre, such as the world has never before witnessed. There are too many people on the earth, anyhow. In this way we will strike such terror into the hearts of the canaille that they will remain submissive to our will, and the domination of our children, for centuries to come.““ (2,122). On doqquzuncu əsr bədii qəhrəmanı bu qərarlara açıq etiraz etməyə bilmir və onun bu cəngavər ruhu sevdiyi qadını, Estellanı təhlükəyə atsa da dövrün ədəbiyyatında qəhrəman obrazını tamamlayan, Estellada məftunluq yaradan xüsusiyyətdir.

Aristokratiya işçi sinfini səfil vəziyyətdə saxlayır və çəkinədən onları qırğına verməyə hazırıdr. Üsyan etməyə hazırlaşan işçilərdə bənzər nifrəti və şiddətə meyli

görmək qəhrəmanı heyrətə salır, “A hundred years ago you might have formed your Brotherhood of Justice and saved society. Now there is but one cure—the Brotherhood of Destruction.“” (2,160). Təbəqədən asılı olmayaraq insan təbiətində vəhşilik var. Nəticədə üsyan edən insan kütləsi aristokratiyadan heç də fərqli olmayan acgözlük, vəhşilik və zalımlıq nümayiş etdirir. Aristokratiyanın başında duran Prins Kabbano (Prince Cabbano) üsyana rəhbərlik edən Sezarla əvəz olunur, ikincinin zalımlığı, tamahkarlığı birincidən fərlənmir. Sezar cəsədlərdən bir sütün yaradılmasını əmr edir, Sezar sütunun, “By God,we will build a monument that will beat the pyramids of all the other Caesars. Cæsar‘s Column! Hoorrah!‘” (2,257). Bununla da insanlığın uğursuz utopiya arzusunun şahidi oluruq. İnsan təbiəti mükəmməlləşməsə ideal cəmiyyət də formalaşa bilməz. Bu əsər həm də distopiya ədəbiyyatında yeni bir istiqaməti, totalitar rejim, siyasi güc bğlgüsü kimi məsələlərə toxunur. Növbəti dövrlərdə distopiyada bu istiqamətin yüksələn xəttlə inkişafını müşahidə edirik.

Əsrin sonuna doğru Uelsin iki distopiyası diqqəti cəlb edir. Zaman maşını (The Time Machine. 1895) zamanda səyahəti kəşf etmiş alimin hekayəsidir. Bu səyahət zamanı onun ilk qarşılaşdığı cəmiyyət gözəl, lakin öyrənməyə marağı itmiş insan cəmiyyətidir “..in the year Eight Hundred and Two Thousand Seven Hundred and One A.D” (3,34). Uelsin cəmiyyətində dövrün digər utopiya/distopiyalarında olduğu kimi insanlar tamamilə bənzər geyimdədir və bənzər evlərdə, bənzər həyat sürür. Bu cəmiyyətdə soisal, ekoloji, ekonomik problemlər yoxdur, ““I thought of the physical slightness of the people, their lack of intelligence, and those big abundant ruins, and it strengthened my belief in a perfect conquest of Nature. For after the battle comes Quiet. Humanity had been strong, energetic, and intelligent, and had used all its abundant vitality to alter the conditions under which it lived.” (3,38). Rahatlıq və təhlükəsizlik içərisində yaşayan insanların müəyyən qabiliyyətlərə ehtiyac duymaması təbiidir. Bu xətt yuxarıda haqqında danışdığımız əsərlərdə də keçən fikirdir. Lakin Uelsin cəmiyyətində insan irqinin inkişafı birxətli getməmişdir, “But, gradually, the truth dawned on me: that Man had not remained one species, but had differentiated into two distinct animals: that my graceful children of the Upper-world were not the sole descendants of our generation, but that this bleached, obscene, nocturnal Thing, which had fashed before me, was also heir to all the ages.” (3,51). On doqquzuncu əsrdə güc bölgüsü ilə tanış olan qəhrəman üçün bu iki növ insan irqi - yerüstü Eloi və yeraltı Morlok, siniflərarası ziddiyyətin gələcək formasıdır. Zamanda səyahəti davam edən qəhrəman gələcəyə doğru irəlilədikcə yer üzu vahiməli, insanlardan, daha sonra heyvanlardan əsər qalmayan qorxunc məkan kimi təsvir olunur.

Uelsin növbəti distopiyası, “Yatan oyananda” (When the Sleeper Awakes, 1899) 203 il, “..inert and still—neither dead nor living but, as it were, suspended, hanging midway between nothingness and existence”(4,26) yatıb dəyişmiş bir gələcəkdə oyanan qəhrəmanın hekayəsi ilə distopik gələcəyə səyahəti nəql edir. Əsər

roman halına salınandan əvvəl hekayə seriyası şəklində 1898-1899-cu illərdə çap olunmuşdu. Haqqında danışdığımız digər əsərlər kimi burada da cəmiyyət iki qismə bölünür, Ağ konsul üçün bu utopik gələcəkdir. Ostroqun başçılıq etdiyi üsyankarlar üçün isə distopik. Qəhrəmanımız Qraham birincilərin əlindən qurtulur, üsyançılar ona dünyanın yarısına sahib olduğunu, böyük var-dövlətinin Ağ konsul tərəfindən idarə olunduğunu deyir. Qraham yatdığı müddətdə həm hakimiyyətdə oturan konsul, həm də buna qarşı çıxan üsyankarlar onun adından istifadə edir. Uzun yuxudan ayılan Qraham özünü birbaşa bu iki qüvvə arasındakı qanlı savaşın ortasında tapır. Qrahamın qocayla söhbəti müəllif üçün əhvalatları açmaq vasitəsidir. Bu söhbətdən Ostroqun konsula qəbul edilmədiyi üçün qəzəbləndiyi, Qrahaman ayılmasını təşkil etdiyini, işçiləri mütəşəkkil üsyana cəlb etdiyi aydın olur. Yuxarıda haqqında danışdığımız Sezar kimi burada da üsyan təşkilatçısının motivləri üsyana səbəb qüvvələrin ambisiyalarından çox da fərqlənmir, “He meant to be master somehow. In the Council or not.” (4,106). Qrahama gəlincə, dünyanın yarısına sahib olan qəhrəman konsul və ya Ostroqun qalibiyyətindən asılı olmadan hər ikisi üçün əslində formal fiqur xarakteri daşıyır, “Your powers are limited in many intricate ways, but you are the figurehead, the popular symbol of government.” (4,263). Beləcə qəhrəmanımız qarışıq, mürəkkəb bir dünyanın başındadır. Bu dünyada nələr baş verdiyini tam olaraq anlamayan qəhrəman üçün müəllif yenə bir imkan yaradır, Ostorqun qardaşı qızı Helen Uvatton həm qəhrəmana, həm də bizə sadə insanların həyatından, inqliabdan sonra da onların dəyişməyən əziyyətindən danışır. Məlum olur ki hal-hazırkı idarəetmə ilə Ağ konsulun idarəetməsi çox fərqlənmir. Qrahamın adından, onun şirkətlərinin qul halına saldığı kütlə səfalət içərisində yaşamaqdadır. Onların təsviri, iş şəraiti müəllifin müasiri olduğu dövrlə səsləşir. İnqilab üçün oyadılmış kütləni idarə etmək asan deyil, Ostroq deyir, “It is extraordinary how violently and rapidly this vague out-of-date humanitarianism has revived and spread. We who sowed the seed even, have been astonished” (4,186). Bu səbəblər yeni bir üsyanın yaranması üçün kifayətdir, bu dəfə Qrahamın rəhbərliyi altında Ostroqa, yeni elitaya qarşı. Əsər azlığın, hakimiyyətdə olan elitanın əlində cəmləşmiş gücün çoxluğa, xalqa, işçi qüvvəsinə qarşı yönəldiyini, hakimiyyətdə kim olsa da güc və ambisiyadan yaxa qurtara bilmədiyini nümayiş etdirir. Bununla da kimlərsə utopiyada, kimlərsə isə distopiyada yaşayır. Bu məqamlar əsəri müəyyən qədər möhtəşəm “1984” distopiyasında bənzədir, “was power before—it commands earth and sea and sky. All power is for those who can handle wealth. . . . You must accept facts, and these are facts. The world for the Crowd! The Crowd as Ruler! Even in your days that creed had been tried and condemned. To-day it has only one believer—a multiplex, silly one—the man in the Crowd... The day of the common man is past” (4,187). Qrahamın sadə insanların rifahı üçün döyüşü uğurla nəticələnmir. Sonda inadla təyyarələri idarə etməyi öyrənmiş, bu vasitə ilə Ostroqa hücum edən qəhrəmanın qəzaya düşdüyünü görürük. Bununla da ədalət və bərabərlik kimi keyfiyyətlər uğrunda mübarizə sonlanmamış qalır.

Uelsin distopiyaları bununla bitmir. Yazıçı 1901-ci ildə roman şəklində çap olunan "Aydakı ilk adamlar" (The First Men in the Moon) əsərində "...grotesque and disquieting suggestion of an insect that has somehow contrived to mock humanity" (7,190) kimi təsvir etdiyi ayda məskunlaşmış məxluqlardan, Selentinlərdən bəhs edir. Bu cəmiyyət məqsədli şəkildə qruplaşdırılmış cəmiyyətdir və hər bir üzvü onun üçün seçilmiş məqsədə, vəzifəyə uyğun yetişdirilir. Bütün məlumatlar beyində saxlanılır; eruditlərin, bu iş üçün seçilmiş növlərin beynində. Bu tiplərin fiziki quruluşu, yaşayışı onların tutduğu mövqe, yerinə yetirdiyi işlə bağlıdır. Bunun üçün onlara uyğun təlimlə yanaşı fiziki quruluşlarına müəyyən müdaxilə də olunur. Uelsin məqsədi heş də fantaziyasında yaranan Ay varlıqlarının təsviri deyil, müasiri olduğu problemlərə hansısa şəkildə fikir bildirmək arzusudur. Buna görə də müəllif görəcəyi işə uyğun olaraq müəyyən əməliyyatlara məruz qalan Selentinindən danışarkən qeyd edir, "That wretched-looking hand-tentacle sticking out of its jar seemed to have a sort of limp appeal for lost possibilities; it haunts me still, although, of course it is really in the end a far more humane proceeding than our earthly method of leaving children to grow into human beings, and then making machines of them." (7,198). Buradakı adi işçilər onların görə biləcəyi iş olmadıqda yatdırılır, boş-boşuna ayıq gəzməklərində fayda görülmür. Nə qədər xoş görünməsə də bu daranış yerlə müqayisədə daha humanıstidr, "To drug the worker one does not want and toss him aside is surely far better than to expel him from his factory to wander starving in the streets. In every complicated social community there is necessarily a certain intermittency of employment for all specialised labour, and in this way the trouble of an 'unemployed' problem is altogether anticipated" (7,199). Dünyanın öyrənilməsi və idarə olunması barədə danışarkən aydakı insan ay cəmiyyətinin başçısı (Grand Lunar) qarşısında çətinliyə düşür. Danışılanların nəticəsində aydın olur ki, "With knowledge the Selenites grew and changed; mankind stored their knowledge about them and remained brutes— equipped" (7,212). Eynilə dünyadakı dil müxtəlifliyi, müharibələr kimi məsələlər də dərin heyrət doğurur, "'They want to communicate, and yet not to communicate... 'You mean to say,' he asked, seeking confirmation, 'that you run about over the surface of your world— this world, whose riches you have scarcely begun to scrape—killing one another for beasts to eat?" (7,213). Uells yaradıcılığı ilə distopiyada elmi texniki elementlərin rolunu xüsusu olaraq diqqətə çatdırır və bu istiqamətin özündən sonrakı distopiya ədəbiyyatında daim inkişaf edəcək şəkildə əsasını qoymuş olur.

Beləliklə, haqqında danışdığımız bədii əsərlər bədii ədəbiyyatda distopiyanın inkişafında əsas rolu oynayır. Utopiyanın daxilində gizlənən distopiya insan təbiətində gizlənən, şəraitdən asılı olaraq passiv qalan, lakin, müəyyən vəziyyətin təsiri ilə üzə çıxan mənfi xüsusiyyətləri diqqətə çatdırır. Bir fikir aşılanır ki, insanın rifahı üçün planlar qurularkən təbii meyllər və ehtiyaclar mütləq şəkildə dəyərləndirilməlidir.

Ədəbiyyat

1. B. Dodd's "The Republic of the Future or Socialism a Reality" ("The Republic of the Future: or, "Socialism a Reality". Press L. Morohon & Co, Rahway, N.J, 1887.
2. Donnelly Ignatius. Caesar's Column. Dodo Press, 2009
3. Wells H.G. The Time Machine. New York: Atria Paperback, 2004
4. Wells H.G. When the Sleeper Awakes, New York: The Modern Library, 2003
5. The Fixed Period by Anthony Trollope - Free Ebook (gutenberg.org)
6. https://avidreaders.ru/book/the-inner-house.html?ysclid=lbqkm1kn8x858364451
7. https://www.pdfdrive.com/the-first-men-in-the-moon-by-hg-wells-e22099587.html

MAHIRA HAJIYEVA

THE TRADITION OF FAILED UTOPIA IN DYSTOPIAN LITERATURE

The utopian tradition in English artistic thought, which began in the sixteenth century, gradually merged into science fiction and dystopia. Some of the utopian works, when analyzed from a different angle, have a dystopian character. It is not surprising that the first dystopian works were written as a satire on utopia. While these works describe human well-being, human life provided with perfect living conditions, they also highlight their stable, boring features.

The article analyzies dystopia works written in the nineteenth century. The theme is similar in the works of the period. Anthony Trollope's "The Fixed Period" (The Fixed Period. 1882), A. B. Dodd's "The Republic of the Future or Socialism a Reality" ("The Republic of the Future: or, "Socialism a Reality" 1887) describe a failed utopian dream. While trying to build a perfect life, the incorrect assessment of the characteristics of human nature and natural needs turns the described "utopia" societies into a mass devoid of feeling, pleasure and gradually, intelligence. In Walter Besant's "The Inner House" (Walter Besant. 1888), the writer describes a dystopia in which a society has solved the secret of permanent life by benefiting from the development of science. In his work "Caesar's Column" (Ignatius Donnelly "Caesar's Column" 1890), Ignatius Donnelly deepens the theme of U. Besant's tyrannical rule and describes the dystopian face of utopia, which is not visible at first glance. Among the dystopian literature of the time, H. C. Wales occupies a special place. The dystopias of the author "Time Machine", (The Time Machine. 1895), "When the Sleeper Awakes" (1899) and "The First Men in the Moon" (1901) attract attention.

Key words: distopia, society, human, artistic thought, literature

МАХИРА ГАДЖИЕВА

ТРАДИЦИЯ НЕСОСТОЯВШЕЙСЯ УТОПИИ В АНТИУТОПИЧЕСКОЙ ЛИТЕРАТУРЕ

Утопическая традиция в английской художественной мысли, начавшаяся в XVI веке, постепенно слилась с научной фантастикой и антиутопией. Некоторые утопические произведения, если их проанализировать под другим углом, носят антиутопический характер. Неудивительно, что первые антиутопические произведения были написаны как сатира на утопию. В то время как эти произведения описывают человеческое благополучие, человеческую жизнь, обеспеченную идеальными условиями жизни, они также подчеркивают их устойчивые, скучные черты.

В статье анализируются произведения-антиутопии, написанные в XIX веке. Тема аналогична в произведениях того периода. «Фиксированный период» Энтони Троллопа (Anthony Trollope. The Fixed Period. 1882), А. Б. Додда «Республика будущего или социализм как реальность» (Anna Bowman Dodd "The Republic of the Future: or, "Socialism a Reality" 1887) описывают несостоявшуюся утопическую мечту. Неправильная оценка особенностей человеческой природы и естественных потребностей при попытке построить совершенную жизнь превращает описанные «утопические» общества в массу, лишенную чувства, удовольствия и, постепенно, интеллекта. В «Внутреннем доме» Вальтера Безанта (Walter Besant "The Inner House". 1888) писатель описывает антиутопию, в которой общество разгадало тайну вечной жизни, извлекая выгоду из развития науки. В своем произведении «Колонна Цезаря» (Ignatius Donnelly "Caesar's Column" 1890) Игнатий Доннелли углубляет тему тиранического правления У. Безанта и описывает антиутопическое лицо утопии, которое не видно на первый взгляд. Среди антиутопической литературы того времени особое место занимает Г. К. Уэльс, антиутопии автора «Машина времени», (H. G. Wells. The Time Machine. 1895), «Когда спящий просыпается» (When the Sleeper Awakes.1899) и «Первые люди на Луне» (The First Men in the Moon. 1901).

Ключевые слова: антиутопия, общество, человек, художественная мысль, литература

Redaksiyaya daxil olma tarixi: 07.12.2022
Çapa qəbul olunma tarixi: 28.12.2022
Rəyçi: Fil.f.d., dos., V.E.Ağabəyli tərəfindən çapa tövsiyə olunmuşdur

ƏLİYEV CEYHUN RAMİZ OĞLU
AMEA Məhəmməd Füzuli adına
Əlyamalar İnstitutu
cealaz@gmail.com

AXUNDOV AYAZ ƏLİ OĞLU
Naxçıvan Dövlət Universiteti
ayazaxundov@gmail.com

ƏRƏB ƏLYAZMA KİTABLARININ XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Bu araşdırmanın məqsədi ərəb əlyazması ənənəsi haqqında formalaşdığı gündən 20-ci əsrə qədər tam məlumat vermək, onun ən mühüm xüsusiyyətlərini açıqlamaq, ərəb əlyazmasını hər tərəfdən araşdırmaq, keyfiyyət və ədədi xüsusiyyətlərini ortaya çıxarmaqdır. İstənilən tədqiqatın məqsədi və onun həyata keçirilməsi imkanları onun tədqiqat predmeti olduğu elmin vəziyyəti, toplanan məlumatların həcmi, nəzəri problemlərin öyrənilmə səviyyəsi ilə bağlıdır. Bu mənada məqalədə qeyd olunan problemlər müəyyən imkanlar çərçivəsində həllinə çalışılıb. Növbəti əsrdə yazıçıların və onların əsərlərinin sayı yüzlərlə ifadə olunur, kitabların sayı sürətlə artır, dünyəvi və dini mövzularda çoxlu əsərlər yazılır. VII-VIII əsrlərdən başlayaraq əlyazma sənəti yavaş-yavaş, lakin tərəddüd etmədən inkişaf edir və geniş yayılır. Yayılmanın əsas səbəbi Ərəblər öz qonşularından başqa xalqlardan təcrid olunmuş şəkildə yaşamırdılar, əksinə farslardan, romalılardan və s.-dən olan qonşuları ilə qarışaraq onlarla ünsiyyətdə olub, onların təsiri altında olub, onlara təsir göstərmişlər. Bu xalqların dilləri ilə ərəblərin dili arasında fəaliyyət olmasaydı, bu səviyyəyə çatmazdırdılar. İstər onların sivilizasiyasının qurulmasına və inkişafına töhfə verən elmlər, istərsə də ərəblər ondan tərcüməyə böyük maraq göstərirdilər. Ərəbistan yarımadasının hüdudlarından kənarda İslama dəvət prosesinin fəal şəkildə davam etdiyi İslamın sübhünün başlanğıcı və Saleh xəlifələr dövründə və Əməvi dövləti dövründə Xalidin bin Yəzid bin Müaviyə bin Əbi Süfyan dövlət sistemini ərəbləşdirmək cəhdi ilə məcmuələri tərcümə edib ərəbləşdirmiş, sonra Abbasilər dövründə Şərqə və Qərbə yayılan fəthlər səbəbindən tərcüməyə bu maraq daha da artmış və daimi başqa xalqlarla ünsiyyət, əks halda O, onların mədəniyyəti, elmləri və ədəbiyyat, o qədər fars ədəbiyyatı və yunan elmlərinin tərcümələri ortaya çıxdı və əlyazma kitabları geniş yayıldı. Bu əlyazmaları tədqiq etmək üçün onların ilk növbətə xüsusiyyyətlərini bilmək lazımdır. Bu məqalədə əsas istiqamət bunun araşdırılmasıdır.

Açar sözlər: *əlyazma, kitab, nüsxə, ərəb mənbəsi*

Orta əsr əlyazmaları sənət abidəsidir və sənətkar əməyinin məhsuludur. Belə yanaşma kifayət qədər elmi maraq doğurur. Çünki əlyazmalar mövzuya dair obyektiv reallıq baxımından məlumat verir, təfərrüat zənginliyini və yerli tarixin rəngarəngliyini ortaya qoyur. Bu, tamamilə orijinal və yüksək planlaşdırılmış bir işdir. İncəsənət mütəxəssisləri və maddi mədəniyyət tarixçiləri bunu anlaya bilərlər. Yazı ənənəsini qoruyub saxlamaq üçün təkcə siyasi-iqtisadi şərait, ictimai istək, mənəvi dəyərin yaranması və onun müəyyən səviyyəyə yüksəlməsinə deyil, həm də böyük həcmdə yazılı əsərlər və onların uzun müddət ayaqda qalma, müvafiq material obyektləri də çox lazımdır. Maddi imkanlara gəlincə, təbii sərvətlərdən yaradılmış kağız, mürəkkəb, cild, qələm və onların istehsal texnologiyası nəzərdən keçirilir. Uzun mətnlər üçün ümumiyyətlə papirus, perqament və kağızdan istifadə olunurdu. Bu yazı materialları Şərq xalqları arasında uzun müddət, islamdan əvvəlki dövrdə və İslam tarixinin ilk illərindən məlum olmuşdur. Xüsusən də papirus üzərində qanun layihələri və məktublar yazılırdı. Papirus üzərində yazılmış ədəbi əsərlər çox az sayda dövrümüzə qədər gəlib çatmışdır. Bildiyimiz yeganə kitab Abdullah bin Vəhbe bin Müslimin (743-813) yüz səhifəlik "Cami fi'l-Hadis" (hədis toplusu) kitabıdır. (1, s. 101) Papirus üzərində yazılan əlyazmaların sayının az olmasından asılı olmayaraq, araşdırma və öyrənmək böyük əhəmiyyət kəsb edir. Çünki onlar yazı tarixinin çox erkən dövrlərini görmək və araşdırmaq imkanı verir.

Əs-Salibi Abbasi xilafətində kağız istehsalı haqqında yazır: “Səmərqənd öz kağızı ilə məşhurdur. Bu kağız qədim Misir papirusunu və dərisini yox etdi. Çünki Səmərqənd kağızı gözəl, yumşaq və istifadəsi daha əlverişlidir. Bu kağız yalnız Səmərqənddə və Çində istehsal olunub”. (5. s. 62)

Səmərqənd kağızının istehsalının sirrini ərəblərlə müharibədə əsir düşən çinlilər və Səmərqənddə məskunlaşan Şərqi Türküstanlılar açmışdılar. Yaxın Şərq və Avropanın mədəniyyət tarixində bu hadisə böyük əhəmiyyət kəsb edir. Beləliklə, yazı üçün materialı dəyişdi və bütün Aralıq dənizi hövzəsini əhatə etdi. Artıq kağız erası başladı və o gündən bu günə qədər davam edir. Kağızın Qərbə çatması uzun müddət çəkdi. İki əsrə yaxın kağız istehsalı və satışı Səmərqənd inhisarında qaldı. X əsrin ikinci yarısında Dəməşq, Tripoli, Həma və Tiberiyada kağız emalatxanaları yaradıldı. XI-XIII əsrlərdə Fəva, Hətivə, Təbriz, Qahirədə kağız emalatxanaları mövcud idi.

Kağız istehsalı texnologiyasının inkişafı ərəbdilli ədəbiyyatın və elmin yüksəlişi ilə üst-üstə düşür. Bu ikisi arasında möhkəm bağlılıq var. Ucuz keyfiyyətli yazı materialının kütləvi istehsalı və əlyazmaların geniş yayılması elmin inkişafı ilə mütənasibdir. Texnoloji yeniliklər elmin və ədəbiyyatın inkişafında uğurlara təkan verdi. Əlyazmaların sürətlə yayılmasında qələm və mürəkkəb də böyük rol oynamışdır. Onların istehsalında keyfiyyətə böyük önəm verilirdi.

Ərəb əlyazmalarında sətir başları və paraqraflarda böyük hərflərdən istifadə edilmir. Əsərlərin adları və müəlliflərin adları da birinci səhifədə və ya mətnə başlamazdan əvvəl yazılır. Fəsil başlıqları böyük hərflərlə, çox vaxt ayrı sətirdə

rəngli mürəkkəblə yazılır. Nöqtələr və vergüllər çox vaxt kiçik dairələr, üçbucaqlar, ulduzlar və ürəklər kimi yazılır.

Əlyazmanın səhifələrinin sayını təyin etməyin ən qədim üsulu əlyazmanın dəftərlərə (kürrasə, cüz, dəftər, mücəllid) bölünməsidir. Hər dəftər 10 və ya 8-12 vərəqdən ibarətdir. Kürrasə (dəftərçə) nömrəsi müvafiq olaraq səhifənin yuxarı sol küncündə yazılır. Vərəqlərin sayını göstərmək sonrakı dövrlərə aiddir. Səhifənin nömrələnməsi daha yeni bir hadisədir.

Ərəb əlyazmasının gözəlliyi onun yazısındadır. Müxtəlif növ xətlər var. Bu xətt növləri bölgəyə görə dəyişir. VI əsr ərəb yazılarında iki növ yazıya rast gəlinir: Əlyazısı düz xətləri və kvadrat küncləri, çapa bənzər əlyazısı isə dairəvi xətləri və ahəngdar bükülmələri ilə seçilir. Yazıya misal olaraq kufi xəttini göstərmək olar. İbn Nədimin "Fihrist" əsərindən öyrəndiyimiz kimi, Əməvilər dövründə (661-750) xəttat Kutbə (ö. 771) çap yazının dörd əsas növünü kəşf etmişdir: "Əl-Cəlil", "Ət-Tümər Əl-Kəbir", "Ən-Nisf Əs-Saqil", "Əs-Süls Əl-Kəbir". Bu xətt növlərindən təxminən 20 xətt növü əldə edilir. (1, s.102)

Əbu Əli Məhəmməd bin Əli bin əl-Həsən bin Mukla (886-940) çox məşhur xəttat idi. O, ərəb xəttatlığında islahatlar apardı və "mütənasib xəttatlıq" icad etdi. İbn Mukləni təqlid edən xəttatlar çox olmuşdur. Onun dövründən bu günə qədər təsiri bir çox xəttatlıq məktəblərində hiss olunmaqdadır.

Ərəb əlyazmalarında tez-tez qrafiklərə, xəritələrə, cədvəllərə, eskizlərə, diaqramlara rast gəlinir. Ərəb kartoqrafiyası səyyahların və coğrafiyaşünasların təsvir etdikləri xəritələrdə dünyanın səthini, ticarət yollarını, şəhər və kəndləri, dağları, çayları, dərələri, gölləri, dənizləri və səhraları yaratmaqda çətinlik çəkirdi. Ərəb kartoqrafiyası səyyahların və coğrafiyaşünasların təsvir etdikləri xəritələrdə dünyanın səthini, ticarət yollarını, şəhər və kəndləri, dağları, çayları, dərələri, gölləri, dənizləri və səhraları yaratmaqda çətinlik çəkirdi. Həndəsə eskizləri çox uğurla çəkilirdi, lakin bütün riyazi işlərin bu eskizlərlə təchiz edilməsi qeyri-adi deyildi. Memarlıq və mühəndislik möcüzələrinin eskizləri kitabın səhifələrinə daxil edilmirdi. (4, s.125)

Əlyazmaların cildi dəri və ya dəri ilə örtülmüş kartondan hazırlanır. Şərq xalqları dəri istehsalı ilə çox erkən tanış olmuşlar. Cildi düzəldən ustaların adları nə mənbələrdə, nə də cildlərdə yazılmayıb. Amma "Səhhaf" (cildçi) soyadlı bir çox ustalar tanınırdı. "Fihrist"in müəllifi XI-X əsrlərdə yaşamış bəzi cildçilərin adlarını yazmışdır: Əl-Məmunun sarayında çalışan Şəfat əl-Miqrət əl-Uceyfi, Əbu İsa Şiran, Dimyə əl-Əsar bin əl-Həccam, İbn Əbül-Həriş. Günümüzə gəlib çatan ən qədim cildlər XI-X əsrlərə aiddir.

Ərəb-müsəlman coğrafiyasında iki ciltləmə sənəti ənənəsi kimi Misir və İran ənənəsi şöhrət qazanmışdır. Cildləmə ənənəsi indiki Azərbaycan ərazisində sonralar yaranmış və inkişaf etmişdir. Əlyazmaların bütün texniki və bədii xüsusiyyətlərində olduğu kimi, cildləmə sənətində də qədim sivilizasiyaların və qonşu xalqların nailiyyətləri mənimsənilmiş, müxtəlif adət-ənənələr birləşdirilmiş, inkişaf etdirilmiş və uzun müddət yüksək səviyyədə saxlanılmışdır. (3, s. 1)

Bunları ümumiləşdirsək, ərəb əlyazması bəzək, zərli və cild kimi bəzi əsas xüsusiyyətləri ilə yanaşı, adətən aşağıdakıları ehtiva edir:(2)

1. Əl-istihlalu-başlanğıc: Müəllifin əlyazmanı yazma səbəblərini və mövzunun əsas meyarlarını izah etdiyi bir giriş.

2. Əl-ənəvinu əl-fusulu-r-rəisiyyətu və-l-fəriətu-əsas fəsillər və alt fəsillər üçün başlıqlar: Mətnlərin içərisində böyük xətlə yazılan Kufi xəttinə üstünlük xətdir.



3. Əl-həvamişu-kənar boşluqlar: Mətni dörd tərəfdən əhatə edən ağ boşluqlar adlanır və məqsədi müəllifin və ya yazıçının buraxdığı hər hansı səhvləri düzəltmək və ya bəzi fikirlər əlavə etməkdir. Bundan başqa bir müəllif tərəfindən şərh yazarkən də istifadə olunur.

4. Ələmətu-t-tərqimi-durğu işarələri: Əlyazmalarda durğu işarələri yoxdur, lakin şərh sistemi var, yəni sağ səhifənin sonunda sol səhifədə birinci sözü yazırsan və bu yolla cildçi əlyazmanın vərəqlərini toplaya bilir.



5. Məstəratu-l-məxtutati-əlyazmanın sətiri: Bu, bir səhifədə yazılan sətirlərin sayıdır və bir əlyazmadan digərinə və bir səhifədən digərinə dəyişir.

6. Xatimətu-l-məxtutati-əlyazmanın sonu: Müəllif mətnin sonunu göstərən ifadələri qeyd edir və mətni sonlandırır.

7. Əhcəmu-l-məxtutati-əlyazmanın ölçüləri: Əlyazmalar uzunluqla eninə görə ölçülür və ölçüləri müxtəlifdir (böyük, orta və kiçik).

Bunlardan Əlavə ərəb əlyazmasında əlavə komponentlərdə mövcuddur. Əlyazma əsas mətndən əlavə qiymətli məlumatları ehtiva edən tarixi sənəddir. Aşağıdakılar əlyazmanın ən vacib əlavə komponentləridir (müəllifə aid olmayan).

1. Vəqfiyyə: İanə bildirişi. Bu, əlyazmanın vəqfini göstərən qeyd və ya möhürdür. Bu adətən üz qabığında və ya son səhifədə tapılır, lakin təsadüfi səhifənin kənarlarında da tapıla bilər.

2. Təməlluk: Mülkiyyət bildirişi.







3. Mütaləə: Əlyazmanı oxuduqdan sonra alim üz qabığına və ya son səhifəyə qeyd əlavə edə bilər. Bu, kitabın dəyərini göstərə bilər, həm də bu kitab oxucu resurslarının bir hissəsini təşkil edir.



Göründüyü kimi ərəb əlyazmalarını tədqiq etmək üçün onun xüsusiyyətlərini bilmək zəruridir.

Ədəbiyyat:

1. Nailə Ağababa. Əlyazmalar və ərəb əlyazma geleneyi. Tüba-ked 2011.
2. Каталог арабских рукописей. I том. Баку, «Елм», 1984; II том, «Елм», 2000; III том, «Нурлан», 2009, 264 с.
3. Xədicə Əsədova. Azerbaycan el yazma eserlerde kullanılan dekoratif süslemeler. Akdeniz sanat dergisi, cilt 5, sayı 9, 2012.
4. Kamandar Şərifli. Mətnşünaslığın nəzəri əsasları. Bakı, "Nurlan", 2011.
5. D.T.Rice, Islamic painting. A Survey, Edinburg 1971.

Д.АЛИЕВ

ХАРАКТЕРИСТИКИ АРАБСКИХ РУКОПИСНЫХ КНИГ

РЕЗЮМЕ

Цель настоящего исследования - предоставить полную информацию об арабской рукописной традиции со дня ее формирования до XX века, выявить ее важнейшие черты, рассмотреть арабскую рукопись со всех сторон, выявить ее качественные и числовые характеристики. . Цель любого исследования и возможности его реализации связаны с состоянием науки, объемом собранных данных, уровнем изученности теоретических проблем. В этом смысле проблемы, упомянутые в статье, пытались решить в пределах определенных возможностей. Начало рассвета ислама, когда процесс приглашения к исламу активно продолжался за пределами Аравийского полуострова, а Халид бин Язид бин Муавия бин Аби Суфьян переводил и арабизировал сборники в попытке арабизировать государственное устройство времен Халифата периода и государства Омейядов, а затем в связи с завоеваниями, распространившимися на Восток и Запад в период Аббасидов, он был переведен на перевод. Этот интерес усиливался в дальнейшем и постоянным общением с другими народами, иначе это была их культура, науки и литература, поэтому появилась персидская литература и переводы греческих наук и широкое распространение получили рукописные книги. В данной статье рассматривается структура рукописи, которая играет важную роль в изучении рукописей. В результате были выявлены все признаки арабской рукописи.

J.ALIYEV

CHARACTERISTICS OF ARABIC MANUSCRIPT BOOKS

The purpose of this study is to provide complete information about the Arabic manuscript tradition from the day it was formed to the 20th century, to reveal its most important features, to examine the Arabic manuscript from all angles, and to reveal its qualitative and numerical characteristics. The purpose of any research and the possibilities of its implementation are related to the state of science, the volume of collected data, and the level of study of theoretical problems. In this sense, the problems mentioned in the article were tried to be solved within certain possibilities. The beginning of the dawn of Islam, when the invitation to Islam process was actively continued outside the borders of the Arabian Peninsula, and Khalid bin Yazid bin Muawiyah bin Abi Sufyan translated and Arabized the collections in an attempt to Arabize the state system during the Caliphate period and the Umayyad state, and then due to the conquests that spread to the East and West during the Abbasid period, it was translated into translation. This interest increased further and constant communication with other peoples, otherwise it was their culture, sciences and literature, so Persian literature and translations of Greek sciences appeared and manuscript books became widespread. This article examines the structure of the manuscript, which plays an important role in the study of manuscripts. As a result, all the characteristics of the Arabic manuscript have been revealed.

Redaksiyaya daxil olma tarixi: 07.12.2022
Çapa qəbul olunma tarixi: 28.12.2022
Rəyçi: Filologiya elmlər doktoru, professor Kamandar Şərifli tərəfindən çapa tövsiyə olunmuşdur

İBRAHİM ŞAKİR OĞLU YILDIRIM
BDÜ
Türkologiya Kafed. Doktorantı
ibrahimyildirim2023@gmail.com

TÜRK MƏDƏNİYYƏTİ KONTEKSTİNDƏ OYUN VƏ OYUNCAQ OLARAK DAŞDAN İSTİFADE EDİLMESİ

Xülasə

Bu araşdırmada mədəniyyətin nəsildən nəslə ötürülməsində uşaqlıq çağına xas bir ünsiyyət ünsürü olaraq qəbul edilən oyun və oyuncaqdan bəhs edilir. Oyuncağın fərdin həm sosiallaşmasında, həm də müəyyən mədəni kodları mənimsəməsində önəmli bir təsirə sahib olduğu bilinməkdədir.

Bu yazı mədəniyyətin həm obyekti, həm də subyekti olan fərdin ətrafa uyğunlaşmasının və inkişafının uğurlu olmasında oyun və oyuncağın rolu və əhəmiyyətinin ortaya çıxarılması məqsədi daşıyır. Əvvəlcə oyun və oyuncaq anlayışları müəyyən edilmiş və bu iki anlayışın uşağın psixi dünyasındakı təsirlərindən danışılmışdır.

Türk soylu uşaqlar tərəfindən oyun zamanı oyun vasitəsi kimi istifadə edilən elementlər tanıdılaraq oyun vasitəsi ilə oyuncaq arasındakı fərq vurğulanmışdır. Araşdırmanın sonrakı hissəsində uşaqların oyunlarda oynadığı "daş" ilə bağlı tarixi zənginlik ifadə edilmişdir. Türk soylu cəmiyyətlərdə çox qədim dövrlərdə, daşın böyüklərin dünyasında daşığıdı dəyər və ona yüklənən missiya izah edilmişdir.

Açar sözlər: Mədəniyyət, Oyun, Oyuncaq, Daş.

Giriş

Ümumi baxımdan nəticəsi düşünülmədən, əylənmək məqsədi ilə edilən hərəkətlərə oyun deyilir. Oyun uşağın dünyasında ən ciddi məşğuliyyətlərdən olan, həm əylənməsini, həm də oyrənməsini təmin edən önəmli bir fəaliyyətdir. Oynayan uşaq eyni zamanda cəmiyyətdəki sosial rolunu anlayır və özünü başqa fərdlərdən ayıran xüsusiyyətləri oyun ilə öyrənir. Oyun sayəsində uşaq aşağıda göstərilən bacarıqları əldə edir:

- Sosial əlaqələr qura bilir,
- Özünü tanıya bilir, öz gücünün sərhədlərini müəyyənləşdirir,
- Hissləri inkişaf edir, bacarıqları artır, qabiliyyətləri inkişaf edir,
- Qaydalara riayət etməyi, məsuliyyət almağı öyrənir,
- Bir qrup içində əməkdaşlıq etməyin, digər oyunçulara qarşı hörmətlə davranmağın zəruriyyətini dərk edir,
- Təşəbbüskarlıq cəsarətini artırır, risk etməyi öyrənir.

Uşaq oyun oynayarkən qərar vermə və problem həll etmə bacarığını inkişaf etdirir, özünə olan inamı artır. Bu, onun sosiallaşmasına töhvə verir və ona oyun zamanı diqqətini bir nöqtəyə toplama təcrübəsi qazandırır. Əldə etdiyi bu bacarıqlar daha sonra uşağın gündəlik həyatına da keçir.

Oyun oynayan uşaq zaman və məkan anlayışlarına aid bilikləri çox təbii bir mühit içində öyrənir. Qrup oyunlarında gözləmə, davam etmə, başlama, bitirmə kimi vəziyyətləri tanıyır və zaman anlayışını dərk edir. Bundan başqa, həyətdə, sinifdə və fərqli yerlərdə icra edilən fəaliyyətlər də məkan anlayışının inkişafını dəstəkləyən fəaliyyətlərdir. Bununla yanaşı, uşaq oyun içində oyun materiallarını fərqli vəziyyətlərdə istifadə edərək, rəngləri bir-birinə qarışdıraraq, əşyaları bir qaba doldurub boşaldaraq materiallatın kəmiyyət və keyfiyyət xüsusiyyətləri haqqında bilik əldə edir.

Oyun vasitəsi

Oyuncaqlar əksər hallarda yetkin insanlar tərəfindən real dünya kimi təsvir edilən böyüklər dünyasının uşaq dünyasında əks olunan modelləridir. Böyüklərin dünyasının mərkəzində olan iş həyatına, ailə həyatına, təhsil mühitinə aid vəziyyətlər və sosial mühitdə yaşanan əlaqə nümunələri çox vaxt oyuncaqlar vasitəsilə uşaqların dünyasında təmsil edilir. Uşaq yamsılayaraq həyatı kəşf edir və gördüklərinə məna qazandırmağa çalışır.

Oyun oynayarkən əlbəttə bir oyun vasitəsinə ehtiyac yaranır. Oyuncaq insan ilə birlikdə var olan və inkişaf edən əşyadır. “Oyuncaq böyüklər və ya uşaqların özlərin tərəfindən fərqli maddələrdən düzəldilən, tək və ya qrup olaraq oynanıla bilən, uşağın xəyal aləmini inkişaf etdirən, əyləndirən, paylaşılan predmetlərdir” (8, s. 232). Oyuncaq və ya oyun vasitəsi olaraq adlandırılan bu əşyalar oyunun əsas ünsürüdür. Bu oyun materialları uşağın zehni, fiziki və psixi-sosial inkişafına yardım edir, xəyal gücünü və yaradıcılıq qabiliyyətlərini inkişaf etdirir, böyük bir tərbiyə işini yerinə yetirir. Oyuncaq ən geniş mənada yaşadığımız zamanın şahididir. “Oyuncaq istər bəsit xalq incəsəti məhsulu, istərsə də inkişaf etmiş bir sənaye məhsulu olaraq düzəldilməsindən asılı olmayaraq mütləq öz dövrünün iqtisadi-ictimai və mədəni xüsusiyyətlərini əks etdirir. Bir dövrdə bir cəmiyyətdə, bir bölgədə oyuncağın olmağı qədər olmamağı da məna kəsb edir” (7, s. 105). Onurun ifadə etdiyi kimi, mədəniyyət tarixi əslində oyuncaq tarixidir. Uşağın oynadığı şey o cəmiyyətin gündəmində mövcud olan vəziyyət və ya texnloji inkişaf səviyyəsi ilə birbaşa əlaqəlidir. İnsan tarixi qədər qədim olan uşaq oyunlarında hər zaman və hər cəmiyyətdə oyun alətinə ehtiyac olmuşdur. Qədim dövrlərlə əlaqədar həyata keçirilən qazıntılar əsnasında arxeoloqların tapdıqları divar rəsmləri, heykəllər, təsvirlər və digər tapıntılar oyunların tarixiliyini, qədimliyini sübut edir.

Daş

Uşaqların oyun zamanı istifadə etdikləri müxtəlif avadanlıqlardan ən önəmlisi "daş"-dır. Daş həm açıq, həm bağlı məkanlarda oğlanlarla birgə, qızların da oyunlarında sıx rast gəlinir. Daşın oyunlarda nə kimi rol oynadığını araşdırmadan

öncə, Türk mədəniyyətində daşıdığı tarixi izlərə nəzər yetirmək yerinə düşər. Türk soylu cəmiyyətlərin ilk inancı olan Şamanizimdə, Şamanın mərasim və ayinlərində gücündən faydalandığı vasitələrdən biri də daşlardır. Şamanizm inancında yer-su ruhlarından biri sayılan daş-qaya ruhları köhnə türk mədəniyyəti və inanclarında özünə möhkəm bir yer tutmuşdur. Belə ki, indiki vaxtda belə Anadoluda daşın gücünə və köməyinə müraciət edən adətlərə rast gəlinməkdədir.

Şamanizmdə yer üzündə olan və insanları pis güclərin zərərli təsirlərindən qoruyan ruhlar "yer sular" təbiriylə xatırlanmışdır. Qədim türklər Göy tanrı və göydəki digər ruhlara olduğu kimi təbiətdə olan varlıqlara da inanmışlar. Yer-su termini ilə ifadə etdikləri bu kult imperatorluqlar dövründə inkişaf edərək vətən kultu dərəcəsinə qədər yüksəlmişdir. Şamanizmdəki dağ, su, ağac, daş, od inancları Göytürk yazılarından ıduk (müqəddəs) yer-su adı altında toplanmışdır. Göytürk yazılarından aldığımız bu nümunədə tanrı tərəfindən yaradılan yer su adlarından söz edilmişdir: "Üze Türk Tengrisi Türk ıduk Yırı subi ança itmiş (yuxarıda türk tanrısı türk müqəddəs yeri suyu elə tənzimləmiş) " [10, s. 11-13].

Təbiətdə olan dağların, suyun, daşların bir ruh daşıdığına inanan şamanlar onlara böyük bir müqəddəslik mənası yükləyirlər. İnsanlar ehtiyac duyduqları anlarda bir neçə xüsusi mərasimi çıxmaq şərti ilə şamanı vasitəçi olaraq çağırmadan da yer-su ruhlarına müraciət edərək onlara dua edə bilirlər. Bu baxımdan insanlar yer suları özlərinə yaxın hesab edirlər.

Türk mədəniyyəti və inanclarında müqəddəs qəbul edilən yer sular daş-qaya, od-ocaq, dağ, ağac-meşə və su sahibləri olaraq bilinər. Bu adların demək olar hamısı topladığımız uşaq oyunlarında mühafizəkarlıqları və insanlara yaxın olması cəhətləri ilə oyunçuların köməyinə müraciət etdikləri adlar olaraq qarşımıza çıxmaqdadır.

Şamanizmdə oba kultu deyilən və türklər arasında məşhur olan bir kult var. Oba, dağ keçidlərində daşlardan meydana gətirilən süni təpələrin adıdır. Bu obalar düzənliklərdə müqəddəs dağ və təpələrin yerini tuturlar. Urenhalar ibadət etmək üçün düzəltdikləri çadırlara dahi "oba" deyərlər. Hər boy və ya qəbilə öz sahəsində oba düzəldər. Bu uzun düzənliklərdə obanın yanından keçən yolçular atlarının tükündən və parçalarından bir parçanı, bəzən də əllərindəki daşları əhd olaraq obaya atarlar. Beləcə oba ruhunu məmnun etməyə, təhlükələrdən qorunmağa çalışırlar [6, s. 59-60].

"Qırx Daş" oyununda qırx ədəd daş istifadə edilməsi və dairədəki daşların müəyyən qaydalara görə götürülməsi oyunun köhnə inanclarla əlaqəsini olduğunu göstərən xüsusiyyətlərindəndir. Qırğızların, qazaxların və özbəklərin məşhur olaraq baxdıqları fallardan biri "Kumalak" deyilən faldır. Kumalak falına baxmaq üçün qırx bir daş, qırx dənə noxud, paxla və ya qırx bir ədəd qoyun təzəyi istifadə olunur. Bu falda qırx bir ədəd daş ya da başqa bir obyekt qarışıq bir sıra qaydalara görə müəyyən sayda hissələrə ayrılır. Beləcə əmələ gələn formalara baxılaraq fal sahibinə gələcəyindən bəhs edilir.

Şamanist türk mədəniyyətində yağış yağdırmaq üçün də daş istifadə edilmişdir. Bu daşın adı "yada" dır. Bu daş ilə müxtəlif müsbət işlər görülürmüş. Ən

mühüm iş bu daşın yağış yağdıra bilməsidir. Kaşğarlı bununla əlaqədar bunları yazmışdır: "Türk qövmlərində çox qədim dövrlərdən bəri geniş yayılmış olan inanca görə böyük türk tanrısı türklərin ilk atasına yad (yada) deyilən sehrli bir daş hədiyyə etmişdir. Bununla istənildiyi vaxt yağış, qar, dolu yağdırar, fırtına çıxardılardı [6, s. 2]. "*Yat, bir növ kahinlikdir. Xüsusi seçilmiş daşlarla edilir. Beləliklə, yağış, qar yağdırılır, külək əsdirilir. Bu türklər arasında çox bilinən bir şeydir. Mən bunu yağma ölkəsində gözümlə gördüm. Orada bir yanğın olmuşdu. Mövsüm yay idi. Sürətlə qar yağdırıldı. Uca Allahın izni ilə yanğın söndürüldü* " [3, III c, s. 3].

Bundan başqa bu işi edən haqqında "yatçı" sözü istifadə edilmişdir. Yatçı sözü bu işin bir peşə halına gəldiyini düşündürməkdədir. İslam dininə bağlılığı gözdən qaçmayan Kaşğarlının bir daşın yağış yağdıra biləcəyinə səmimiyyətlə inanmış olması keçmişin izlərinin nə qədər dərində olduğunu göstərməsi baxımından mənalıdır.

"Beg yatlattı." [3, III c, s. 163] ifadəsi də yada daşının istifadə edilməsini arasıra bəylərin istəyi ilə olduğunu göstərir. Kaşğarlı bu cümlənin izahını belə etmişdir: "Bəy kama yada daşı ilə kamlık etdirdi. Buna görə külək əsdi, yağış yağdı. Bu türk ölkələrində bilinən bir şeydir. Uca Allahın razılığı ilə yada daşına oxumaqla yağış, soyuq, külək gətirilir [4, II c, s. 355]. İslam dinində quraqlığın olduğu dövrlərdə yağış duası edildiyi, qurbanlar kəsildiyi bir həqiqətdir. Ancaq bir daşın oxunub üfürülməsi ilə yağış yağdırma səyi İslam dini ilə bağlı olmayan bir davranışdır. Kaşğarlı bu iki vəziyyəti birləşdirməkdə bir qorxu görməmişdir. Yenə aşağıdakı nümunədə göründüyü kimi islamdan öncəki inanclar islam çərçivəsinə asanca yerləşdirilmişdir. Qədim inanclar güclü bir şəkildə davam etməkdədir.

Pisliklərdən qoruduğu, insana müsbət təsir etdiyinə inanılan başqa bir daş da "kaş" sözünü açıqlanarkən tanınmışdır: "Türk hikmətində “kimin belə qaş bolsa yaşın yandırmaz” deyilir ki, “kimin yanında kaş tapılsa ona şimşək toxunmaz”, - deməkdir. Kaş ləkəsiz, saf, ağ daşdır. Üzüklərə qoyular. Üzüyün sahibinə şimşək toxunmaz. Çünki yaradılışı elədir. Bu, bir bezə sarılıb alova atılsa nə bez yanar, nə də daş. Bu sınanmışdır. Bir adam susadığı vaxt bunu ağzına alsa susuzluğu gedər " [5, I c, s. 22]. Zəhərlənmə əleyhinə olaraq "urumday" deyilən bir daşdan da istifadə edilməkdədir [5, I c, s. 159]. Bu gün Türkiyədə, əsasən də Anadolunun bir çox bölgələrində yağış yağdırmaq üçün daşa oxuyub, suya atmaq adəti qədim türklərdəki "yada" daşı ilə əlaqələndirilmişdir. Oxşar şəkildə Buryatlar göydaşların bərəkətin nişanəsi olaraq qəbul etməklə bu daşların cənnətdən düşmüş, yağış yağdırmağa qadir olaraq düşünməkdə idilər. Hətta, quraqlıq zamanlarında bu daşlara nəzir verilirdi. (1, s. 48) Qazaxlarda isə "jaydın daşı" (ulduz daşı) adı verilən bir daşla yağış yağdırılırdı. (11, s. 91)

"Beş daş" oyunu həm qazax, həm Azərbaycan, həm də türk cəmiyyətlərində tamamilə eyni şəkildə oynanılır. Türkiyənin Kastamonu şəhərində "Beş daş” oyunu oynanırsa yağış yağacağı inancı ilə böyüklər uşaqları bu oyunu oynamaları üçün məcbur etmişlər. Ancaq Kırklareli şəhərində isə yağış yağmasına mane olacağı

səbəbi ilə böyüklər tərəfindən bu oyunun oynanması qadağan edilmişdir [9, s. 2489-2490]. İslam dininə görə, xoş qarşılanmayan sehir, əfsun kimi qaydalar səbəbiylə unudulan daş və yağış əlaqəsi, "yada" daşının vəzifəsi simvolik olaraq oyunlarda davam edir.

Uşaq oyunlarında tüpürmək də xüsusi yeri olan bir tətbiqdir. Məşhur olmasa da bəzi insanların daşa tüpürərək and içdiyini bildirilir. Qazaxıstanda "Tıkılmaşak" oyununda ebenin gözünü yumduğu yerə qaçaraq gələn oyunçular tüpürmə hərəkəti edərlər. Türkiyədə də tüpürmə hərəkətinin iştirak etdiyi oyunlar var. Məsələn: Türkiyədə eyni şəkildə oynanan "Saklambaç / Tıkılmaşak" oyununda bəzi bölgələrdə göz yumulan yerə əllə vurulur, bəzi bölgələrdə isə tüpürmə təqlidi edilir.

Tüpürmə xalq təbabətində bir müalicə üsuludur. Nəzərdən və başqa pisliklərdən qorumaq üçün körpələrə bəzi vaxtlar da böyüklərə nəfəsi güclü insanların tüpürüldüyü bilinən bir şeydir. Bu işin üsulunu bilən, bu işi ixtisasa çevirən şəxslərə "bir tükərər şal" adı verilməkdədir. Bu şəxslərin tüpürmə və bəzi zaman da dağlama metodu ilə, xüsusilə, dəri xəstəliklərini müalicəyə çalışdıqları bilinməkdədir. Türkiyədə bu cür insanların müalicə məqsədiylə bu növdən olan "ocaq"lara getdikləri bilinməkdədir. Bu yerlərdə bəzi müalicə edən şəxslərin "Məkkə daşı" deyilən bir daşdan istifadə etdikləri da görülmüşdür [12, s. 87].

"Qırx daş" oyununda oyun şəkili olaraq istifadə olunan dairənin xüsusi qaydalarla sərhəd meydana gətirmiş olması, dairənin müqəddəs sayıldığını göstərir. Huizingaya görə oyun üçün müəyyənləşdirilmiş sahələrlə, müqəddəs sahələr arasında böyük oxşarlıqlar var. Arena, oyun stolu, məbəd, səhnə və s. kimi təsis edilmiş, ayrılmış, ətrafına barmaqlıq çəkilmiş, müqəddəsləşdirilmiş və öz sərhədləri içində xüsusi qaydalara tabe edilmiş yerlər olaraq qarşımıza çıxmaqdadır [2, s. 13-14]. Təyin olunmuş müqəddəs sahələrdən birinin də dairə olduğunu vurğulayır.

Uşaqlar arasında aparılan bir təcrübə nəticəsində dairənin uşaq tərəfindən də müqəddəs sayıldığını göstərməsi baxımından diqqət çəkicidir. Bu əməliyyat uşaqların oyundan əvvəl və ya sonra bir yerdə olduqları, və yaxud da oyun oynamadıqları hər hansı bir yerdə bu şəkildə edilməkdədir: Bir uşaq bir çubuqla və ya daşla bir yoldaşının ətrafında dönərək yerə dairə çəkməyə çalışır. Əgər tez davranaraq yoldaşı qaçmadan çevrəni tamamlaya bilsə, ona "səni möhürlədim" deyir. Çevrə içində qalan uşaq möhürlənmiş olur. Yəni dairənin içindən çıxa bilməz. Ancaq möhürləyən adam gəlib çevrəni ayağıyla silərək pozsa və ya "açdım" desə, möhürlənən uşaq çevrədən çıxa bilər. Möhürləyən uşaq bəzən 'möhürü açmaq' üçün dairənin içindəki uşağın bəzi istəklərin yerinə yetirməsi şərtiylə dairəni silər.

Netice

Bir cəmiyyətin adətləri, ədalət anlayışı, təhsili, qısaca həyat tərzi o cəmiyyətin mədəniyyətini təşkil edir. Mədəniyyət həyat təcrübələrinin toplanması ilə ortaya çıxır. Bu təcrübə ilə qurulan ictimai quruluşun qorunması və davam etdirilməsi mədəniyyətin gənc nəsillərə, uşaqlara ötürülməsi ilə mümkün olur. Uşaqlıq dövrünə xas olan oyuncaq mədəniyyətin ötürülməsi baxımından əhəmiyyətli bir paya

sahibdir. Belə ki oyuncaqlar və oyunlar uşaqları gerçək dünyaya hazırlayır. Uşağın zehni gizli gücü bu inkişafa uyğun və açıqdır. Uşaqların özlərinin müstəqil inkişafı mümkün olmadığı kimi cəmiyyətlər də öz içlərinə qapanaraq inkişaf edə bilməz. Qarşılıqlı təsir inkişafın önəmli şətlərindəndir. Ünsiyyət fərqli yollarla inkişaf edir və cəmiyyətlər bir-birini tanıyır, qəbul edir və ya etmir. Uşaqlar da oyunlar vasitəsi ilə ünsiyyət qurur, ətrafı ilə əlaqə yaradırlar. Bu konteksdə oyuncaq mədəni kimlik və sosial rol qazanma baxımından istiqamətləndirici bir rol oynayır. Uşağın ən ciddi işi olan oyun və oyuncaq hər cəmiyyətin mədəni xüsusiyyətlərindən qaynaqlanan bir məhsuldur.

Qədimdən bu günümüzə cəmiyyətlərin dini və mədəni strukturu içərisində bu makala məvzusu da olan daşlarla bağlı inanclar olduqca zəngindir. Daşlar sahib olduğu sabitliyi, sərtliyi, ağırlığı və dözümlülüyü kimi insana xas olan xüsusiyyətlərə görə ilahi və sehrli gücün qaynağı olaraq qəbul edilmişdir.Türklərdən başqa cəmiyyətlərdə də müqəddəs qəbul edilən daşlarla bağlı inanclar olduqca mənimsənilmişdir. Belə ki, bu daşlar ilahi və qoruyucu ruhların məkanı olaraq görülmüşdür. Hətta özlərində olan inandığı ilahi və sehrli gücdən istifadə etmək üçün bu müqəddəs daşları, bədənlərində ağrıyan yerlərinə sürər və ya üzərində gəzdirən toplulara da rast gəlinməkdədir. Bu inanclar nəticə olaraq uşaqların oyunlarına da təsir etmiş və daş ilə bağlı oyunlara müxtəlif izahlar əlavə etmişlər.

Ədebiyətlər

1) Erbaş A. Dinler Tarihi Sözlüğü, Mircea Eliade'den çeviri (Fransızcadan), İnsan yayınları, İstanbul 1997, 366 s.
2) Huizinga, J. Homo Ludens / Oyunun Toplumsal İşlevi Üzerine Bir Deneme. Çeviren M. A. Kılıçbay. - İstanbul: Ayrıntı Yayınları , 2013, s.253.
3) Kaşgarlı, M. Divanü lugat-it-türk tercümesi. / Çeviren : Besim Atalay. Cilt III. - Ankara: Türk Dil Kurumu Yayınları, -1998 , 452 s.
4) Kaşgarlı, M. Divanü lugat-it-türk tercümesi. / Çeviren : Besim Atalay. Cilt II. - Ankara: Türk Dil Kurumu Yayınları, -1998. - 366 s.
5) Kaşgarlı, M. Divanü lugat-it-türk tercümesi. / Çeviren : Besim Atalay. Cilt I. - Ankara: Türk Dil Kurumu Yayınları, -1998.- 530 s.
6) İnan, A. Tarihte ve bugün şamanizm – Materyaller ve Araştırmalar. – İstanbul: Altın Ordu Yayınları, - 2020, 246 s.
7) Onur, B. Tarih Boyunca Oyunlar ve Oyuncaklar. - Ankara: Ankara Üniversitesi Basımevi, Yıl 1992, Cilt 25,sayı: 2, - 2019, s. 365-386. / Onur 2022
8) Özhan M. Türkiye'de çocuk oyunları kültürü, Ankara: Feryal matbaası, 1990.
9) Tanyol, C. Türk kültüründe oyunun önemi. // Türk Folklor Araştır. - Ankara: Kültür Bak. Folklor Araştırma Dairesi Yayınları, - 1961, Cilt: 7, Sayı: 146, s. 2489-2490.
10) Tekin, T. Volga Bulgar metinleri ve Volga Bulgarcası. – Ankara: Türk Dil Kurumu Basımevi, - 1988. – 212+ 91 s.

11) Yaşar Kalafat, Dedem Korkut Aşağı Eller, Berikan Yayınevi, Ankara 2008, s. 363.
12) Yörükoğlu A. Aile ve çocuk. – İstanbul: Özgür Yayınları, - 2007. 150 s.

.

ИСПОЛЬЗОВАНИЕ КАМНЯ КАК ИГРА И ИГРУШКА В КОНТЕКСТЕ ТУРЕЦКОЙ КУЛЬТУРЫ

Резюме

В данном исследовании обсуждается игрушка, которая принимается как характерный для детства элемент коммуникации, в передаче культуры от поколения к поколению. Известно, что игрушка оказывает важное влияние как на социализацию личности, так и на интериоризацию определенных культурных кодов. Она направлена на раскрытие роли и значения игры и игрушки в успешности адаптации и развития личности как субъекта и объекта культуры. Сначала определялись понятия игры и игрушки, а затем обсуждалось влияние этих двух понятий на духовный мир ребенка. Были введены элементы, используемые в качестве игрового средства во время игры детьми турецкого происхождения, и определено различие между игровым оборудованием и игрушкой. В следующей части исследования выражается историческое богатство «куклы», в которую обычно с любовью играют девочки. В следующей части исследования было выражено историческое богатство, связанное с «тире», разыгрываемыми детьми в играх. В следующей части исследования выражается историческое богатство, связанное с «камнем», с которым играют дети в играх. В очень древние времена значение камня в мире и возложенная на него миссия объяснялись в турецких дворянских обществах.

Ключевые слова: культура, игра, игрушка, камень

THE USE OF STONE ASA GAME AND TOY IN THE CONTEXT OF TURKISH CULTURE

Summary

In this study, the toy, which is accepted as a communication element specific to childhood, in the transfer of culture from generation to generation, is discussed. It is known that the toy has an important effect on both the socialization of the individual and the internalization of certain cultural codes. In this article, it is aimed to reveal the role and importance of play and toy in the success of the adaptation and development of the individual, who is both the subject and the object of culture. First of all, the concepts of game and toy were defined and then the effects of these two concepts on the child's spiritual world were discussed. The elements used as game

equipment by the children of Turkish origin were introduced and the difference between the game equipment and the toy was emphasized. In the next part of the research, the historical richness related to the "stone" played by children in games is expressed. In very ancient times in the Turkish noble societies, the importance of the stone in the world and the mission assigned to it were explained.

Keywords: Culture, Play, Toy, Stone.

Redaksiyaya daxil olma tarixi: 07.12.2022
Çapa qəbul olunma tarixi: 28.12.2022
Rəyçi: Filologiya elmləri doktoru Ramiz Baxışəli oğlu Əsgər tərəfindən çapa tövsiyə olunmuşdur

QƏNBƏRLI JALƏ HIKMƏT QIZI
jganbarli@mail.ru
Azərbaycan Dillər Universiteti
Bakı şəhəri, R.Behbudov küç, 2

VIII-XIII ƏSRLƏRDƏ ƏNDƏLUS ƏDƏBİYYATI

Açar sözlər: *ədəbiyyat, ərəblər, Əndəlus, sufizm*
Key words: *literature, arabs, Andalusia, poetry, sufism*
Ключевые слова: *литература, арабы, Андалусия, поэзия, суфизм*

İspaniyanın mühüm mədəniyyət ocağı olan müsəlman Əndəlusunun iqtisadi və mədəni inkişafına zəmin yaradan əsas amil onun coğrafi mövqeyi idi. Əndəlusun inkişafına Şərqi və Cənubi Avropa ölkələri arasındakı mədəni mübadilə də öz töhfəsini vermişdi. Əndəlus şəhərlərində sənətkarlıq gündən-günə çiçəklənir, bir-biri ilə rəqabət aparan müsəlman əmirləri idarə etdikləri əyalətlərinin paytaxtlarını mədəniyət mərkəzlərinə çevirir, müxtəlif memarlıq abidələri, məscidlər, saraylar ucaldır, məktəblər və kitabxanalar təsis edirdilər. Kordova, Seviliya, Qranada, Valensiya, Toledo və Əndəlusun digər şəhərlərinəki təhsil ocaqlarına İslam dünyasından və hətta Avropadan da bütün sahələr üzrə təhsil almağa tələbələr axışırdı.

Ərəb işğalçıları İspaniyaya ərəb xilafətinin şərq bölgələrinin mədəniyyətini, eləcə də ərəb dilini gətirdilər. İspaniyanın ərəbləşmiş yerli əhalisi işğalçıların dilini mənimsədi. Əndəlusun mədəni inkişafında ərəb xilafətinin şərqi ilə geniş mədəni əlaqələrin mövcudluğu, eləcə də yerli əhalinin adət-ənələlərinin təsiri müsbət əksini tapdı. İşğalçılarla yanaşı İspaniyaya müəyyən mərhələlərində xilafətin şərqindən pöhrələnən və artıq yeni və özünəməxsus bir yol keçən ərəb ədəbiyyatı da daxil oldu.

İspaniyadakı ərəb ədəbiyyatının tarixini üç mərhələyə bölmək olar: əndəlus ədəbiyyatının yaranması (VIII əsrin əvvəli-X əsrin axırı), əndəlus ədəbiyyatının çiçəklənməsi (XI əsr-XII əsrin ikinci yarısı) və onun süqutu (XII əsrin sonu-XV əsr).

İlk mərhələ təqribən üç yüz ili əhatə edir və əsasən Kordovanın mədəni çiçəklənməsi dövrünə təsadüf edir. Bu mərhələdə bədəvi əcdadlarının ənənəsini davam etdirən ərəb işğalçılarının mühitində həcmcə böyük olmaya şeirlər yaranmağa başlayır.Bu şeirlərdə tayfaların qəhrəmanlıqları mədh olunur, həlak olanlara yas tutulur və şərq torpaqlarında tərk olunmuş vətənə xiffət motivləri öz əksini tapırdı.

Dövrümüzə qədər gəlib çatmış əndəlus ədəbiyyatına məxsus ilk əsərlər əsasən VIII əsrin ortalarına aiddir, bu əsərlərin sırasında Əməvilər sülaləsindən olan əmir I Əbdürrəhmanın (755—788) doğmaları ilə ayrılığından doğan hüznə həsr olunmuş şeirlər da yer tutur.

Əndəlus ədəbiyyatı və incəsənətinin inkişafının ilkin dövrlərində əhəmiyyətli rolu Bağdaddan Kordovaya gələn fars əsilli müğənni, musiqiçi və aktyor Ziriyab oynayır. O ispan torpağına musiqi alətlərinin müşayiəti ilə şeir söyləmə mədəniyyətini gətirir. Bu andan etibarən əndəlus poeziyası musiqi ilə sıx təmasda inkişaf edir.

Kordova ədəbiyyatının çiçəklənməsi X əsrdə özünün yüksək zirvəsinə çatır. Bağdadda güclənən siyasi və dini cərəyanlar III Əbdürrəhman və II Əl-Həkəm (961—976) kimi maarifpərvər və hər cəhətdən ədəbiyyata himayədarlıq edən hökmdarlar tərəfindən idarə olunun Kordovaya heç bir təsir göstərmirdi. Əndəlus ədəbiyyatının formalaşması mərhələsində III Əbdürrəhmanın sarayında fəaliyyət göstərən "Əl-Əqd əl-fərid" adlı antalogiyanın müəllifi mədhiyyəçi-şair İbn Əbd Rəbbih (890—940), İbn Həni (938—973), İbn Şüheyd (992—1035) əhəmiyyətli mövqe tutur.

XI əsrin ikinci yarısında Kordova xilafətinin dağılması və Əndəlusda çoxsaylı xırda feodallıqların yaranması ilə yanaşı ədəbi həyatın mərkəzi Kordova şəhəri ilə yanaşı Seviliya, Badaxos, Valensiya, Mursiya, Qranada, Toledo, Almeriya şəhərləri olur. Bu yeni mərhələdə ədəbiyyatın inkişafında poeziyanın süjet və formalarını təyin edən ənənəvi Xilafət ədəbiyyatının janrları ilə yanaşı yerli, ispan mövzularına dönüş də səciyyəvidir. Artıq bu dövrdən etibarən Əndəlus ədəbiyyatı ispan-ərəb ədəbiyyatına çevrilir. Əgər daha əvvəlki mərhələnin əsasını doğma torpaqların həsrətinə həsr olunmuş movzular təşkil edirdisə, yeni mərhələdə onlar öz yerini Əndəlusa sevgi mövzusuna verir. Buna baxmayaraq, Əndəlus ədəbiyyatında bütün ənənəvi ərəb janrları öz mövcudluğunu qoruyub saxlaya bilir. Belə ki, əgər mədhiyyə və ya satirada ərəb ədəbiyyatının təsirləri aydın görünürsə, lirik janrda və təbiətin təsvirində ədəbi ənənələr öz formasını dəyişməyə başlayır. Əndəlus şairləri məna dərinliyi və fəlsəfilik baxımından Əl-Mütənəbbi və əl-Məəriyədən geri qalsalar da, ifadə aydınlığı, poetik təxəyyülün zərifliyi, dilin axıcılığı baxımından onlardan nəinki geri qalmir, onları hətta üstələyirlər. Əndəlus şairləri ispan şəhərlərinin təmtəraqlı memarlıq nümunələri, inkrustasiyalarla bəzədilmiş bahalı silahlar, möhtəşəm qumaşlar, ziyafətlər, musiqi, rəqslərin, oyun və əyləncələrin yer tapdığı zəngin əndəlus feodallarının saraylarından ilham alırdılar.

Əndəlus poeziyasının geniş yayılmış janrlarından biri de vəsf (təsvir) idi. İspaniyanın səfalı çəmənlikləri, gölləri, dağları, bağ və parkları şair heyranlığının obyektinə çevrilirdilər. İlk dəfə olaraq, ərəb poeziyasında dəniz və gəmilərin təsviri yer alır. Əndəlus şairləri məharətlə yalnız ədəbiyyat sayəsində tanıdıqları səhraların təsvirini ispan təbiətinin parlaq mənzərələri ilə əvəz edirlər. Şərq poeziyasında olduğu kimi, əndəlus poeziyasında da məhəbbət lirikası, şərabın tərənnümü böyük yer tutur.

Xristian dövlətləri ilə mübarizə aparma məcburiyyəti ilə üzləşən və tərdicən Rekonkista hərəkatının təzyiqi nəticəsində ölkənin cənubuna çəkilməsindən qaynaqlanan İspaniya ərəblərinin vəziyyətindəki səbatsızlıq Əndəlus poeziyasının

ümumi əhval-ruhiyyəsinə təsir göstərmişdi. Elə burdan da, yoxa çıxan sülalər və düşmənə qismət olan şəhərlərə görə axıdılan elegik göz yaşları, Allaha yönəldilmiş bitib-tükənməyən yalvarışlar, "varlığın keçiciliyi" kimi mövzular poeziyanın özəyini təşkil etməyə başlayır.

Kordova xilafətinin son illərinin yazıçıları sırasına şair və alim İbn Xəzmi (994—1064) misal göstərmək olar. Məhz onun yaradıcılığından İspaniyadakı ərəb ədəbiyyatının çiçəklənməsi başlayır. İbn Xəzm Kordova Əməvilərinin fəal tərəfdarlı idi, belə ki, sülalənin süqutundan sonra Almeriyaya çəkilmiş və orada məzmuna görə müəyyən dərəcədə yeganə sayılan, etik-psixoloji traktat ilə bədii əsər arasında mövqe tutan "Göyərçinin həmaili" adlı əsərini yazır.

Əsərin məznunu onun başlığında ifadəsini tapır: o zamanlar göyərçin məhəbbət ehtirasının rəmzi idi. Müəllif bu əsərdə sevgi hisslərinin bütün mərhələlərini təsvir edir- o sevginin təbiəti haqqında, onun əlamətləri, yuxuda aşiq olanlar, rəsmə aşiq olanlar, ilk baxışdan aşıq olanlar, vüsal, hicran, sədaqət və s.haqqında yazır. Bu əsər özündə böyük mədəni-tarixi əhəmiyyət daşıyır. Əsərdəki təsvirlərdə oxucunun qarşısında X—XI əsr ərəb İspaniyasının dəyərləri və məişəti canlanır.

İbn Xəzmin müasiri kordovalı İbn Zeydun (1003—1071) da görkəmli ərəb-ispan şairlərindən sayılır. O gah ruh yüksəklikləri, gah da ruh düşkünlükləri ilə aşıb-daşan çox qaynar həyat keçirmiş, Kordova taxt-tacı uğrunda siyasi mübarizədə fəal iştirak etmişdir. Onun ən yaxşı şeirləri Əməvi xəlifəsi Əl-Mustakfinın qızı elmi və təhsili ilə şöhrət tapan şair Əl-Valladəyə həsr olunmuşdur.

İbn Zeydun şərqi ərəb poeziyasının böyük təsiri altında olmasına baxmayaraq, onun şeirlərində ispan elementlerinə də rast gəlmək mümkündür. Ərəblər arasında onun "Nuniya" (ərəb əlifbasındakı "nun" hərfinin qafiyələndiyi şer) adlı poeması böyük şöhrət tapmışdır.

Adı çəkilən Əndəlus şairləri arasında təbiət təsvirinin mahir ustaları şair-əmir, Sevilyanın hökmdarı Əl-Mütəmidi (1040—1096), ömrünün sonuna qədər onun sarayında yaşayıb-yaradan, əslən Siciliyadan olan, norman işğalından sonra vətənini tərk etmək məcburiyyəti ilə üzləşən İbn Xəmdisi və İbn Xəfəcəni göstərmək olar.

XII sonundan etibarən Əndəlus ədəbiyyatının süqutu başlayır. İspaniyaya Əlmoravid və Əlmohadilərin yürüşü ərəb feodal dövlətlərinin siyasi müstəqilliyinin itirilməsinə və Əndəlusun Məğrib dövlətinin əyalətinə çevrilməsinə səbəb olur. Artıq Əndəlusda əvvəlki elmi və dini tolerantlıqdan əsər-əlamət qalmır. Mosarablar (ərəb dilində danışan xristianlar) Əndəlusun hüdudlarından kənara qovulurlar. Fanatik bərbər sərkərdələri ilkin İslamin sadəlik və təmizliyini "bərpa etmək" başlıqları altında Əndəlusdan çoxsaylı alim və şairləri qovur, təmtəraqlı memarlıq əsərlərini dağıdır, "küfr" məzmunlu kitablarını yandırırlar.

Pireney yarımadasının bərbərlər tərəfindən işğalı əvvəlki dövrlərdə rəvac tapmış saray poeziyasının tədricən yoxa çıxmasına gətirib çıxardı. Dini görüşlərində dözümsüz, bir çox hallarda isə cahil olan afrikalı hökmdarlar kübar incəsənətə laqeyd, bəzən isə hətta düşməncəsinə yanaşırdılar. Elmə və incəsənətə belə yanaşma

sayar mədhiyyəçisini tədricən şəhər əhli içində dinləyici axtaran və onlara danışıq dilində yazılmış şeirlərlə müraciət edən səyyar şairə çevirir.

Qarışıq əndəlus dialektində (Əndəlusun əhalisi ərəb dilinin yerli ləhcəsi və ispan-roman dialektlərində danışırdılar) yaradılmış xalq poeziyası IX əsrin axırından müşahidə olunur. Bu dövrün ən çox yayılmış şeir janrı "zəcəl" idi. Zəcəl üslubuna, mövzu, obraz və quruluşuna görə folklor və xalq mahnılarına əvvəlki dövrlərdə geniş yayılmış "muvaşşah" şeir janrı ilə müqayisədə daha yaxın idi.

245

Zəcəl janrı ən kamil şəklinə Kordovalı musiqiçi, səyyar şair və musiqiçi İbn Kuzmanın (1080—1160) yaradıcılığında çatmışdır. İbn Kuzman azad həyat yaşamış, öz mahnıları ilə Əndəlusun şəhərlərində böyük uğurla çıxış etmişdir. İbn Kuzmanın zəcəllərinin mədhiyyə məzmunlu olmasına baxmayaraq, onlarda bədəvilərə xas klassik qəsidənin də az-çox nişanəsi var idi. Onun şeirlərinin həm quruluşunda, həm məzmununda, obraz və dilində yeni mühitin təsiri özünü aşkar şəkildə göstərirdi.

Bərbər işğalçılarının əksəriyyəti incəsənətə aşağı dəyər versələr də, Əlmohad hökmdarlarının arasında da maarifpərvər insanlar var idi. Bunlara misal olaraq, vəziri bütün ərəb İspaniyasının ən görkəmli şəxslərindən sayılan, filosof və yazıçı, ərəb bədii nəsri tarixinə özünün məhşur "Yəqzanın oğlu Həyy" adlı fəlsəfi romanla daxil olmuş İbn Tüfeyli olan xəlifə Yusif idi. Təkcə ərəb oxucuları arasında deyil, Qərbi Avropa oxucuları arasında da geniş şöhrət tapmış bu əsər Əndəlus nəsrinin ən mühüm əsəridir. Özünəməxsusluğu ilə seçilən bu əsər ilk növbədə qədim yunan filosoflarının (peripatetik və neoplatonçular) və şərq mistisizm ideyalarının çarpaz təsiri altında orta əsrlər ərəb təfəkküründə təşəkkül tapan rasionalizm və mistisizmin mürəkkəb vəhdətini özündə əks etdirən fəlsəfə tarixinə məxsusdur. Əsərdəki hadisələrin nəql yolu ilə oxucuya çatdırılması onu ərəb nəsrinin inciləri sırasına daxil edir.

Əsərin fəlsəfi-mistik mənası hətta onun başlığında da öz ifadəsini tapmışdır: belə ki, "Yəqzanın oğlu Həyy " ərəbcədən tərcümədə "Oyağın oğlu Diri" mənasını verir. Əsərin qəhrəmanı Həyyin kimsəsiz adada böyüməsinə baxmayaraq öz daxili gücü və zəkasının köməyi ilə dünya və onun bütün qanunauyğunluqlarını dərk edərək kamil insan dərəcəsinə yüksəlir.

Əndəlus ədəbiyyatının son dövrü onun tənəzzülü dövrüdür. Bu dövrdə mədəni və ədəbi həyatın mərkəzləri Seviliya və Qranada şəhərləri olur. Əndəlus ədəbiyyatının tənəzzül dövrünü səciyyələndirən əlamətlərdən biri, mistik sufi lirikasının yaranması idi. Sufizm ənənəvi poeziyanın şəklini dəyişərək ona yeni, rəmzi bir tərz gətirir. Sufi təliminə görə Allahın dərkinə və ona qovuşma Allaha olan mistik sevgi sayəsində nail olunur. Sevgi məzmunl sufi şerləri zahiri əlamətlərinə görə adi qəzəllərdən çox az fərqlənir və bu şerlərdə şair adətən cəfadan, hisslərinin gətirdiyi ümudsizlikdən şikayətlənir, sevgilisini, onun dalğalı saçlarını, yandırıb-yaxan baxışlarını vəsf edir, onu günəş və ya şam, özünü isə şamın odunda yanan pərvanə ilə müqayisə edir.

Əndəlus sufi ədəbiyyatının ən önəmli nümayəndəsi Mursiya əsilli, xilafətin şərq bölgələrində yaşayan filosof və lirik İbn əl-Ərəbi (1165—1240) olmuşdur. İbn əl-Ərəbi öz ruhi sarsıntılarını yazdığı alovlu məhəbbət şeirlərində təsvir etmişdir.

Bu dövrün görkəmli sufi şairlərindən biri Seviliyada doğulan, ömürünün sonunda isə İslamı qəbul edən yəhudi İbrahim ibn Səhl əl-İsraili (1208—1251) olmuşdur. Onun yaradıcılığı üçün poetik dilin sadəliyi ilə cəsarət və obrazların zərifliyinin qovuşduğu bir sıra sevgi şeirləri səciyyəvidir.

Əndəlus sufi şairləri sırasına Əş-Şüştəri (1203—1269) və Saleh ibn Şərif ər-Rundi (1204—1285) daxildir. Əndəlusun sonuncu görkəmli yazıçı və şairi tarixçi, Qranada əmirlərinin vəziri və Fəsdə zindanda olarkən qətlə yetirilən Lisan əd-din ibn əl-Xatibdir (1313—1374). İbn əl-Xatib bir sıra tarixi əsərlərin, şer və nəsihətnamələrin müəllifidir. Onun yaradıcılığında ən çox şöhrət tapan əsərlər məhəbbət məzmunlu muvaşşahə janrında yazılmış şeirlər idi. İbn Xatibin nəsr əsərlərinin üslubu öz dövrünün Əndəlus ədəbiyyatı üçün çox səciyyəvidir.

Şühbə yoxdur ki, Əndəlus ədəbiyyatı orta əsrlər ərəb ədəbiyyatının parlaq səhifələrindən birini təşkil edir. Əndəlus ədəbiyyatının dünyəvi əhəmiyyəti təkcə onun qiymətli əsərlərində deyil, eləcə də, onun Şərq dünyası və Avropa arasında mədəniyyə və incəsənər mübadiləsində vasitəçi rolu oynamasındadır. Məhz Əndəlusdan Avropaya onun elm və təfəkkürünün inkişafına zəmin yaradan, ərəblər tərəfindən mənimsənilmiş antik, qədim şərq, ələlxüsus ərəb-müsəlman mədəni ənələləri axırdı.

Ədəbiyyat

1.Millares C.A Literatura española hasta fines del siglo XV .Mejico,1950.

2.Diaz Plaja G .Antologia mayor de la literatura española Barcelona- Madrid 1958.

3.Gonzales Palencia A.Historia de la literatura arabigo- española Barcelona,1928

4.Menendez y Pelayo M.Antologia de poetas liricos castellanos,desde la formacion del idioma hasta nuestros dias,Madrid 1944-45

5.Штейн А.Л. История испанской литературы. Издательство Высшая школа , 1976

Ж.Ганбарли

Резюме

АНДАЛУЗСКАЯ ЛИТЕРАТУРА В VIII-XIII ВВ.

В статье отражены подробные сведения о Андалусской литературе.Точнее говоря автор рассказывая о возникновении (начало8- го века – конец 10-го века),закате Андалусской литературы (конец12-15 век), подробно описывает это создание и развитие в хронологическом порядке. В статье расскзывается о творчестве выдающийся Андаллуский поэтов Ибн Зейд, Ибн Хамдиси,Ибн Хасафа, Ибн Абд Рабий, Ибн Хани,Ибн Шушауд и других, а также о

сушесвовавщих жанрах стиха в Андалуской литературе.Автор также затронул влияние арабско-андалуской литературы на испанскую культуру.

Кроме того, в статье упоминается, что все традиционные арабские жанры имеют свое собственное существование в повествовательной литературе. В конце автор рассказывает о том как арабская литература стала кулътурном и художественном мостом между Востоком и Западом.

Zh.Ganbarli

Summary

ANDALUSIAN LITERATURE IN THE VIII-XIII CENTURIES

The article provides information about the Andalusian literature. More precisely, the author touches upon the rise of Andalusian literature (early VIII century-late X century), the development of Andalusian literature (XI century-the second half of XII century) and its fall (late XII-XV) and describes these stages in chronological order. The article mentions the works of prominent Andalusian poets such as Ibn Zeyd, Ibn Khamdisi, Ibn Khafaja, Ibn Abd Rabbih, Ibn Hani, Ibn Shuhayd, etc. as well as prevailing genres in poetry. The author outlines the influence of the Arabian-andalusian literature on Spanish literature as well.

İn addition ,the article mentions that all traditional Arab genrex have their own existence in narrative literature.In the end ,the autor tells that Arab literature has become a cultural and artistic bridge between East and West.

Redaksiyaya daxil olma tarixi: 07.12.2022
Çapa qəbul olunma tarixi: 28.12.2022
Rəyçi: Aynur Quliyeva Dosent filologiya üzrə fəlsəfə doktoru tərəfindən çapa tövsiyə olunmuşdur

ИЛАХА МЮРВАТОВА
БАКИНСКИЙ СЛАВЯНСКИЙ УНИВЕРСИТЕТ
Imurvatova@mail.ru
Баку, ул. Сулеймана Рустама, 25

УТОПИЯ В ТВОРЧЕСТВЕ КАРЕЛА ЧАПЕКА

Центральный для драмы «Р.У.Р» Карела Чапека образ робота по своему характеру далеко не ограничен воплощением научно-фантастического замысла как такового. В не меньшей, если не в большей степени, этот образ представляет собой отражение и художественную интеграцию определенных явлений и тенденций современной общественной жизни, созвучен с ними, представляет собой некое «суммарное» экспрессивно-символическое иносказание об этих тенденциях. Можно было бы даже произвести своего рода эксперимент – изъять из текста пьесы все научно – фантастические обоснования, и тогда обнажится символическая сказка, притча об обесчеловеченном человеке.

Роботы сродни человекоподобным мифологическим существам, которых мифы наделяют обычно конкретным внешним обликом, неким обобщенным смыслом. Подобно тому, ка Афродита – символ красоты, Кащей Бессмертный – символ скупости, мертвящей силы, баба-Яга – олицетворение зла, образ роботов также символичен. Его обобщенный смысл – отсутствие человеческой сущности. Парадоксальность этого образа заключается в том, что захватив читателя идеей создания двойника человека, автор в то же время вкладывает в этот образ представление о существе, не обладающем духовной человеческой природой. Неотличимость роботов от обычных людей лишь усиливает эффект, как бы донося ощущение того, что и в обличии человека может скрываться полное отсутствие человеческих качеств.

С одной стороны, Чапек предельно сближает роботов с человеком, - в частности, во внешнем облике. В пьесе возникают ситуации, когда роботов принимают за людей, а людей за роботов. И вместе с тем, второй этого образа – резко выраженная противопоставленность их человеку. Многими своими качествами роботы ближе машине, чем к живым существам. Их мышление механистично, труд неодухотворен и неосмыслен, бесцелен и т.д. Образ строится на пересечении взаимоотталкивающихся представлений о человеке, с одной стороны, и механизме, - с другой. Но в то же время, объединенные в образе робота и взаимоотталкивающиеся, эти представления напоминают об определенных чертах современной жизни и тенденциях к обесчеловечиванию человека. В этом смысле образ переливается косвенными значениями, рождаются ассоциации иногда достаточно четкие в других случаях более отдаленные и смутные.

Символический диапазон образа роботов очень широк. Некоторые черты и примеры этого образа подготовлялись исподволь. Если научно – фантастический элемент впервые появляется в творчестве писателя с пьесой «Р.У.Р», то этого нельзя сказать об идее обесчеловеченного человека. И в рассказах Чапека игра на колебаниях ассоциаций между представлением о кукле и человеке позволяя вызвать определенный художественный эффект, но среди ранних вещей Чапека есть и произведение, имеющее более прямое отношение к генезису образа роботов. В рассказе «Система» автор иронизирует над тейлористским идеалом рабочего, существующем в представлении предпринимателей. Герой рассказа фабрикант мистер Рипратон считает, что «идеальный рабочий – «жаккард, маховое колесо, сельфактор» [1, 18]. «Рабочий должен стать машиной, от него требуется только движение. Ничего больше! Любая идея – нарушение дисциплины!.. Душа рабочего – не механизм, ее необходимо устранить» [1, 18]. Чтобы обезопасить себя от гнева рабочих, Рипратон разыскивает по всему и набирает к себе на фабрику неполноценных людей – дегенератов и слабоумных, «тех, кто, пройдя специальный экзамен …, обнаруживали полное отсутствие мыслей, идей, желаний, кто не имел понятия о поэзии, астрономии, политике, социализме, истории человечества, забастовках и организациях» [1, 18]. Ирония по адресу Рипратона находит полное соответствие и в авторском отношении к Россуму – младшему, а отчасти и к Домину, сочувственно рассказывающему о начинаниях Россума.

Итак, одним из источников образа роботов, одной из смысловых граней этого образа является ирония над эпохой, стремлением превратить рабочего в идеальный автомат. Однако идея, заложенная в образе роботов, его внутренний смысл гораздо богаче. Более широкий смысл имеет и сам протест против «инженерного» духа эпохи, когда проявляется склонность ценить машину выше человека, когда машина заслоняет человека. «Не подавляет ли наше восхищение машинами внимания к действительным творческим способностям человека? Мы все верим в прогресс в виде бензиновых моторов, электричества и иных технических достижений. Мы полагаем, что живем в просвещенную эпоху, если пользуемся электристеньи. Мы почитаем за образец Америку с ее техническими достижениями, но забываем при этом спросить себя, а организована ли Америка столь, же благополучно с точки зрения интеллектуальной культуры» [2, 180].

Образ роботов вырастает в богатый, многозначный символ, в котором представление о механичности и стандартности поведения и мышления, о «редуцированном», неполноценным человеке. Каждая новая деталь, каждый новый поворот добавляют к обобщенному смыслу этого образа и к тому ассоциативному потенциалу, который заложен в нем, нечто новое, меняет направление ассоциаций читателя. Исчерпать все оттенки этого образа просто невозможно, как невозможно вообще исчерпать символ. Диапазон его

простирает от невинно – юмористической иронии над стереотипным поведением человека в быту, до отражения больших и серьезных общественных проблем.

Уже в первой сцене пьесы есть юмористические ситуации, когда Елена принимает сначала машинистку – робота за человека, а затем друзей Домина, руководителей комбината, за роботов. Источник ошибки Елена не только в поразительном внешнем сходстве роботов с людьми, но и в характере разговора, Машинистка – робот, знакомясь с Еленой, произносит обычные в таких случаях светские фразы, осведомляясь о самочувствии гостьи, о том, как они доехали, спрашивает, удобен ли был пароход, с которым она прибыла, и т.д. Затем в том же духе и почти в тех же выражениях с Еленой разговаривают друзья Домина. Да и сам Домин, рассказывая героине об истории роботов, повторяет заученный рекламный текст. Это первое лукавое обыгрывание темы «штампа» в пьесе и пока что относительно безобидный юмористический прием. Но далее параллели между роботами и людьми приобретают более ядовитый смысл. Ирония над стереотипами антитеза мышления, творчества и стандарта представлений охватывает уже более высокие сферы человеческой деятельности: «Домин… Они учатся говорить, писать и считать. Дело в том, что у них великолепная память. Вы можете им прочитать двадцать томов Энциклопедического словаря, и они повторят вам все подряд наизусть. Но ничего нового они никогда не выдумают. Они вполне могли бы преподавать в университетах …» [3, 105]. Границы символа раздвигаются все шире и шире. Представление о роботах вступает в связь с новыми и новыми явлениями и пороками человека: отсутствие инициативы, неспособность к подлинным чувствам, пренебрежение духовными ценностями, накопленными человечеством.

И так, в образах роботов как бы сходятся разные, хотя в чем-то и родственные, темы, пересекаются разные смысловые поля. Поэтому, кстати, неизменно терпят крах попытки однозначных его толкований. Поэтому же этот образ обладает обобщающей силой и способностью ассоциироваться с разными конкретными проявлениями бездушия, обезличенности, стандарта представлений и т.д. Это прекрасно схватил на премьере пьесы в Лондоне Бернард Шоу. Выступая на диспуте после спектакля, он назвал роботами присутствующую в зале респектабельную публику. Шоу заявил, что он «даже не может себе представить более типичного собрания роботов. Люди, полагающие, что роботы – это фабричные рабочие, глубоко ошибаются. Вы все превратились в роботов, сказал он, потому что читаете печать своих партий. Ваши мнения – мнения сфабрикованных статей, которые вдалбливают вам в головы» [4, 3].

Однако собственно научная проблематика в утопиях Чапека играет подчиненную роль. Его интересует не столько то, как наука добьется решения

той или иной задачи, поставленной перед человечеством, сколько то, к каким общественным последствиям это приведет. Вот почему в основе всех этих произведений, приближающихся к жанру научной фантастики, лежит не более чем фикция открытия или изобретения.

Сказка всегда была воплощением человеческой мечты. И фантастика в утопиях Чапека несет явственные черты сказочности. Романтика науки и романтика сказочной мечты – два полюса фантастического в них.

Чапековские утопии рисовали желаемое и идеальное не во имя утверждения «утопических» идеалов, а во имя их отрицания. Главное здесь «облик грядущего», а реальное, современное, лишь спроецированное на фантастический экран будущего. Перед нами своего рода «антиутопии».

Каждая из его утопий – это своего рода художественное доказательство от противного. И если писатель в «Р.У.Р» заставлял Алквиста мечтать о «молитве от прогресса», то это вовсе не означает, будто он был противником научно – технического прогресса или отвергал реальные попытки продлить срок человеческой жизни. Чапек выступал лишь против того, чтобы развитие техники или долголетие выдавались за спасительные панацеи от социальных недугов.

В композиции этих литературных утопий нетрудно усмотреть сходство с построением ранних юморесок братьев Чапек, где в процессе творческого диалога между юными авторами та или иная тема обсуждалась и рассматривалась со всех сторон. Теперь тему заменяет многозначный образ (человекоподобная машина, человекоподобное насекомое и т.д.), в контрастном сопоставлении с которым раскрываются наиболее существенные стороны проблемы, интересующей писателя. Перед нами как бы несколько призм, вращающихся вокруг одного источника света. По самой своей сути этот принцип глубоко диалектичен. Именно благодаря многосторонности в рассмотрении намеченной проблемы Чапек часто выходит за рамки собственного замысла. Содержание произведения оказывается шире и значительнее исходной авторской идеи.

В этой идейной атмосфере Чапек создает свою первую утопическую пьесу «Р.У.Р». В подзаголовке не случайно значилось: «Коллективная драма …» По своей драматургической структуре – это синтез традиционной камерной пьесы и массового представления.

Пролог «Р.У.Р» назван в том же подзаголовке «вступительной комедией». Любовь с первого взгляда, комическое соперничество, диалог, во время которого персонажи перекидываются репликами, как теннисными мячами, - все это в самом деле придает действию характер легкой пародии на салонную «разговорную» комедию.

На этом фоне воспроизводится история компании по производству «универсальных роботов». Первый ее этап – «эра познания» - олицетворен в

Россуме-старшем. Этот «ужасный материалист» и атеист задумывает создать человека способом, значительно «более простым, эффективным и быстрым», чем природа, с единственной целью … «научно развенчать бога». Отношение Чапека к Россуму-старшему двойственно. Он восхищается дерзостью и гением человека. И одновременно осуждает всякую попытку нарушить естественные основы жизни, посягнуть на права природы. Устами старой Наны – а ее устами, как замечает Елены, «говорят тысячелетия», говорит народ – и архитектора Алквиста он называет все это «кощунством», ибо бог для Чапека равнозначен понятию «естественной нормы». «Богами хотите стать, - вещает Нана. – Но бог человека из рая выгнал и со всей земли прогонит!». Пророчество Наны сбывается дословно: на земле после восстания роботов не остается людей, кроме нового Лоты – Алквиста. Но сбывается и другое пророчество, которое произносит один из «дерзновенных» - инженер Фабри: «Человек снова станет властелином земли и моря и породит бесчисленное количество героев, которое понесут свое пылающее сердце впереди человечества. И я верю, Алквист: человек снова станет мечтать о завоевании планет и солнц». После того как пламя человеческой любви вспыхивает в сердцах роботов Примуса и Елены, нового Адама и новой Евы, предвидение его неминуемо должно осуществиться. Дерзость познания, богоборчество трактуются в пьесе как родовые черты человека.

Но в то время, когда Чапек писал пьесу, главной задачей науки и техники он считал «отнюдь не рискованное расширение до бесконечности человеческих возможностей и способностей, а тщательную заботу о сохранении жизни». Драматург убедительно вскрывает социальные причины, которые приводят к трагедии науки. За «эрой познания» наступает «эра производство». Россум-младший, племянник великого ученого, приводит средневековую идею создания гомункулуса в соответствии с требованиями XX столетия. «эра производства» для Чапека – это век утилитаризма и унификации, век точности и скорости, век бездушия и бесчеловечности. В пьесе мы встречаемся с двумя типами живых автоматов – с людьми «машинного века» и с роботами, изготовленными по их образцу. Внешнее сходство становится символом сходства внутреннего.

С точки зрения производства рентабельны благотворительность («с машинами надо обращаться хорошо») и боль («автоматическая защита от увечья»). Рентабельны национальные различия: роботов разных «фабричных марок» легче заставить воевать друг против друга. Нерентабельно только человеческое в человеке, и более рентабельные роботы вытесняют человека из сферы производства, увеличивая армию безработных. А человек утратив полностью творческое начало, становится и буквально столь же бесплодным, как робот: перестает размножаться. Людям «машинного века» только кажется, что они хозяева мира. «хозяин производства - спрос». И «лавина спроса» на

роботов неумолимо толкает человечество, ставшее ненужным «пережитком», к гибели. Человечество погибает ради чьих-то прибылей.

Zakir burada ölkəni soyub talayan soyğunçularla yanaşı, dövrünün ikiüzlü, yalançı, fırıldaq, satqın, yaltaq ruhanilərini də kəskin tənqid atəşinə tutur:

"Üləmalar üz döndərib xudadən,
Usanmaz bir ləhzə cövrü cəfadən.
Başı əmmaməli seyid molladən,
Taətdə övladır, o qatmaqurşaq.
Həqq bilir ki, belli şallı hacılar,
Zəhrimartək xalqın ağzın acılar;
Düşəndə gözləməz ana, bacılar,
Bu əhldən sinədağam, sinədağ.[11, s.23]

Zakir şeirin sonunda cəmiyyətdə baş verən özbaşnalıqların yalnız bir hissəsini yazmağa müvəffəq olduğunu dilə gətirir və felyeton ustalarına məxsus kinayəli bir dillə "nə diş bilsin, nə dodaq" deyərək yazdıqlarının "sirr" qalacağını bildirir:

"Gərçi vilayətdə çox idi Əhval,
Müyəssər olmadı şərh edim əlhal;
Bir parasın yazıb eylədim irsal,
Bu şərt ilə nə diş bilsin, nə dodaq". [11, s.28]

Zakir həm də XIX əsrin birinci yarısında maarifçilik hərəkatının formalaşması və inkişafına öz qələmi ilə töhfələr vermiş, xalqın cahillik pərdəsini yırtaraq maariflənməsi üçün mübarizə aparmışdır. Onun yaradıcılığında dövrün ictimai problemləri ilə yanaşı elm, təhsil məsələləri də ön plana çəkilir, uşaqların təhsil alması, maariflənməsi naminə qələm çalır, xüsusən də qız uşaqlarının məktəb yerinə erkən yaşda qoca kişilərə ərə verilməsinə kəskin tənqidi etirazını bildirir. "Molla Nəsrəddin" jurnalında mütəmadi dərc olunan felyetonların və karikaturaların məğzi ilə səsləşən "Qələtdir qocaya növcəvan sevmək" şeirində isə, Zakir qoca kişilərin cavan qızlara meyl etməsini və onlarla evlənməsini tənqid edir, hər kəsin özünə uyğun biri ilə həyat qurmasını felyetonlara məxsus yumoristik bir dillə ifadə edir:

"Qələtdir qocaya növcəvan sevmək
Sevgi sevgisinə bərabər gərək
Axşamdan deyə, gülə danışa,
Arada nə kinü, nə kədər gərək.
Haşa meyli ola pirə növrəsin,
Müsavi gərəkdir cüfti hər kəsin;
Cəmdəkdir töməsi qoca kərkəsin,
Nəinki laçın tək kəbki-dər gərək". [11, s.347]

XIX-XX əsrlərdə Azərbaycan maarifçiləri feodal dərəbəyliyini, dini xürafatı, maarif və məktəb düşmənlərini, cəhaləti, avamlığı, xalqın gözünü açmağa imkan verməyib onları qəflət yuxusunda saxlamağa çalışanları satirik boyalarla şeir, felyeton, hekayə və s. formada tənqid etmişlər. Azərbaycan satirik ədəbiyyatının qızıl dövrü hesab edilən XIX əsrdə satirik poeziyanın böyük ustaları Q.B.Zakir, S.Ə.Şirvani, M.Ə.Sabir olmuşlar. Bədii yaradıcılığa xalqı qəflət yuxusundan oyatmaq, elmə,

təhsilə dəvət etmək, maarifçilik ideyalarını yaymaqla başlayan Seyid Əzim daha sonralar dövrünün ictimai bəlalarını, eybəcərliklərini, nöqsanlarını gah yumoristik, gah da kəskin satirik bir dillə tənqid və ifşa etmişdir. Ədib "Yerdəkilərin göyə şikayət etmələri", "Dəli şeytan", "Müctəhidin təhsildən qayıtması", "Elmsiz alim, "Münəccimlər yalançıdırlar" və s. əsərlərində zəmanəsinin istismarçı və tüfeyli insanlarını, rüşvətxor məmurları, zalım mülkədarları, soyğunçu rus hakimlərini, ikiüzlü, yalançı, fırıldaqçı mollaları, şəriət məhkəmələrinə başçılıq edən yaltaq, müftəxor, avam qazilərı kəskin tənqid atəşinə tutmuşdur. Müəllifin dini xürafat, yalançı ruhanilik əleyhinə yazdığı "Müctəhidin təhsildən qayıtması" əsəri ədəbiyyatımızda felyeton elementlərinin olduğu qüvvətli satirik əsərlərdən biridir. Burada ədib şərqin dini mərkəzlərindən birinə təhsil almaq üçün gedən və elmini "yüksək səviyyədə" tamamlayıb vətəninə dönən müctəhidin timsalında savadsız, cahil ruhaniləri tənqid edir, özləri maarifə, elmə yiyələnmədikləri kimi xalqı da qəflətdə saxlamağa can atmalarını satirik boyalarla ifşa edirdi:

"Müxtəsər, bir zaman çıxar bu xəbər-
Ki, gəlir ol cəhani-fəzlü hünər.
Pişvazə çıxar səğirü kəbir,
Ucalar ərşə naleyi-təkbir-
Ki, bu gün nayibi-imam gəlir,
Eyləyib elmini təmam gəlir". [7, c.2, s.47]

Xalq dini qanunları və ehkamları təfsir və şərh etmək qabiliyyətinə malik baş ruhani kimi onlara xidmət edəcəyini və bilmədikləri şəriət hökmlkərinə cavab tapacaqlarını zənn edərək müctəhidin pişvazına çıxır, onu hörmətlə qarşılayırlar:

"Tökülür xəlq sol və sağından,
Öpələr ta ki, əl-ayağından.
Ehtiram ilə şəhrə varid olur,
Yeddi gün məclisi dolur, boşalur,
Kəsilir hər tərəfdə qurbanlar,
Açılır babi-lütfü ehsanlar. [7, c.2, s.47]

Dini bilgilərinin artacağına və bu sahədə savadlanacağını düşünən zavallı xalq tərəfindən gözəl bir evlə yanaşı, gənc, gözəl bir qızla evləndirilən müctəhid xalqın ona olan rəğbətini gördükdə daha da lovğalanmağa, məscidə naz - qəmzə ilə gələrək yalançı vəzlər verməyə başlayır:

"Bir deyən yoxdur, ey imami-şərir,
Edəcəksən nə vəqtədək təzvir?
Tutalım elmə olmusan vasil,
Bizə bu elmdən nədir hasil?
Hansı nadanı alim etdin sən?
Hansı kuri sən etmisən bina?
Hansı əmvatı eylədin ehya?

Hanı islam üçün sərəncamın?
Yerə girsin o müctəhid namın!" [7, c.2, s.48]

Dindən, şəriət qanunlarından öz məqsədləri üçün istifadə edən saxtakar, yalançı, fırıldaqçı, mənfəətkar, rüşvətxor "din xadimləri"nin ifşasına yaradıcılığında böyük yer verən Seyid Əzimin bu mövzuda ən gözəl əsərlərindən biri də "Köpəyə ehsan" şeiri sayıla bilər. Şahsevənli harınlamış bir hacının Bozlar adlı itini öldükdən sonra kəfənləyib qəbirstanlıqda dəfn etməsini felyetonlara məxsus yumoristik bir dillə əks etdirən müəllif, eyni zamanda tipi öz dili ilə ifşa üsulundan istifadə edərək 50 qoyuna öz dini ehkamlarını satan tamahkar mollanı tənqid atəşinə tutur:

"Hər vəsiyyət ki, etdi qıldım əməl,
Bir vəsiyyət sizinçün etmiş əzəl.
Söyləyib siz cənabə əlli qoyun,
Demişəm onları yol üstə qoyun.
Qoyun adın eşitdi çün molla,
Dedi: – Əhsən bu halə, nami-xuda![7, c.2, s.60]

İlk dəfə felyetona bir janr kimi öz yaradıcılığında yer verən M.Ə.Sabir, bu janrı inkişaf etdirən isə Mirzə Cəlil və "Molla Nəsrəddin" jurnalı olmuşdur. XX əsrin əvvəllərində "Molla Nəsrəddin" jurnalının fəaliyyəti sayəsində inkişaf edən və sürətlə yayılan felyeton janrının şeirdə ən yaxşı nümayəndələri M.Ə.Sabir, Ə.Nəzmi, M.Ə.Möcüz, Ə.Qəmküsar, nəsrdə isə N.Nərimanov, Ü.Hacıbəyov, Ə.Haqverdiyev, və b. idi. M.Ə.Sabir qaranlıq keçmişimizin səmasında parlayan ilk günəş, həm də o qaranlığı dağıtmaq, onun xaricinə çıxmaq istəyən bir mübariz idi. Xalq deyir ki, "qılınc kəsməz, gülüş kəsər". Bu sozlər sənətkarın yaradıcılıq metodunu nə qədər gözəl ifadə edir. M.Ə.Sabirin felyetonları satira, hekayə, müxbir yazıları və məqalələrində olduğu kimi sadə, aydın, ifadəli və məzəli dili, bəzən də kəskin sarkazmı ilə seçilir. Dövrün ictimai problemləri, ürək ağrıdan məsələləri şairin satıraları ilə yanaşı, felyetonlarında da öz əksini tapır. Şairə görə insanları dərdə salan dünyada insan ya avam olmalı, şüursuz, idraksız, duyğusuz bir ömür keçirməli, ya da mübarizə aparmalı, həqiqi həyata çatmalıdır. Ancaq azadlıq olan yerdə həqiqi insanlıqdan söhbət gedə bilər, ancaq azadlıq olan yerdə insan öz yüksək və şərəfli adına layiq həyat qura bilər, insan şəxsiyyəti qol-qanad açıb, hərtərəfli inkişaf edər. Bu M.Ə.Sabirin böyük içtimai idealı idi. Bu mövzuda ədibin maraqlı felyetonlarında biri "Hamısın tapa bilirəm, birin tapa bilmirəm" adlanır. Felyeton maraqlı bir el məsəli ilə başlaylır: "Bir belə məsəl vardır ki, "doğru danışanın papağının qulağı yırtıq olur". Mən bu barədə çox fikirləşmişəm ki, əcəba, doğru danışanın papağının qulağı niyə gərək yırtıq olsun? Fikirləşirəm, fikirləşirəm… axırda yəqin edirəm ki, hələ gərək belə də olsun". [6, c.2, s.165]

Şair həmin məsəlin izahını verir və dövrü üçün də aktual olduğunu göstərir. M. Ə. Sabirin bu felyetonda əsas məqsədi həmin məsəlin izahını vermək deyil, dövrün problemlərini, eybəcərliklərini, çatışmayan tərəflərini göstərmək idi. Bu məsəl-

dən isə ədib bir üsül, vasitə kimi istifadə edir. Bu da felyetona məxsus xüsusiyyətlərdən biridir. Çünki felyetonda faktik həyat materialının bədii şərhinə daha çox yer verilir. Xalq həyatından götürülmüş maraqlı bir lövhəyə felyetonun ya əvvəlində, ya da ikinci hissəsində yazıçı öz münasibətini bəzən qəmli və təbəssümlü, bəzən də kinayəli və qəzəbli şəkildə ifadə etməklə ittiham və tənqid, təsdiq və ya inkar üçün əlverişli imkan yaratmağa müvəffəq olur. "Felyetonun əyləncəli təsvir və təhkiyəsində kinayəli üslub başlıca yer tutur. Xüsusən xalq faciələrini təsvir edən sənətkar qəzəblənməyə bilmir. Mövhumatı, cəhaləti, nadanlığı, fikir məhdudluğunu müşahidə edərkən qüssələnir və özünün bu məyusluğunu, nəcib kədərini kinayəli şəkildə biruzə verir. Çox zaman hər hansı həyatı hadisəni mündəricə etibarilə ya təsdiq, ya da inkar etmək üçün klassik poeziyadan məqsədəuyğun misallar gətirilir...Beləliklə, bır sıra felyetonlar "təhzili parodik" keyfiyyət qazanır." [1, s.29]

Sənətkar "doğru danışanın papağının qulağı yırtıq olur" məsəlinin hansı məna daşıdığını izah edərkən Molla Feyzi obrazından istifadə edir. Aydın olur ki, burada müəllifin əsas məqsədi həmin dövrün yalançı, saxtakar, başqalarının malını öz malı kimi mənimsəyən, müftə yeyən din xadımlərini tənqid etməkdir. Ədibin "Hamısın tapa bilirəm, birin tapa bilmirəm" felyetonundakı Molla Feyzi obrazı bizə Mirzə Cəlilin "Danabaş kəndinin əhvalatları" povestində Xudayar bəyi xatırladır. Povestdə Xudayar bəy ölən "dostunun" dul arvadı Zeynəbin olan-qalanını əlindən almaq məqsədinə qulluq edir. Bu yolda müxtəlif oyunlara, saxtakarlıqlara əl atır. Xüsusən də fırıldaqçı, yalançı, pula satılan din xadimlərinin köməyi ilə öz istəyinə çatır.

M. Ə. Sabirin "Hamısın tapa bilirəm, birin tapa bilmirəm" felyetonunda isə bildirilir ki, Məhəmməd Cəfər ağanın vəfatından sonra bir qədər pulu, malı, mülki və uşaqları qalır. Molla Feyzi var-dövləti ələ keçirmək üçün uşaqlara baxmaq bəhanəsilə onları qəyyumluğa götürür və guya hər addımını şəriətə uyğun atdığına görə uşaqların anasına naməhrəm düşməmək üçün onunla evlənir: "Təşbihən, hacı Molla Feyzi əmi, bu imanın Allah kamil eləmiş kişi, hər növ olur isə uşaqlara qəyyum olub və hər ixtiyarı da yədi-təsərrüfünə keçirir. Söz gəlişi, uşaqların anasına naməhrəm olmasın deyə, nigah da oxudur. Bəli, müsəlman olan adam gərək belə də olsun… Və səğirlərində pulundan çox xərc olmamaqdan ötrü nökərləri-zadları da azad edir. Ancaq uşaqlar nökərlərin xidmətlərin dəröhdə edə bilirlər, eləməsələr də yaramaz; çünki Hacı əmi şapalaqlayır. Qaldı ki, mülk, mal və pul - onları da icarəyə və muamiləyə verib işlədir...Bəli, vəqt o vəqt olur ki, uşaqlar böyüyürlər, indi gərək Hacı əmi uşaqlara hesab versin...Hesab isə barmaq hesabından başlanır, yanında yatır, palçığa batır, elə qabil bir şey qalmayır ki, Hacı əmi uşaqlara versin. Burasını istəyirəm ərəbcə deyim ki, başa düşən olmasın: deməli ki, Haci əmi "bəllətü" edib "həzmi-rabə"dən oturmuş olur". [6, c.2, s.165-166]

Bir müddət sonra Molla Feyzinin bu "xeyirxahlığı" camaat içərisində danışılmağa başlayır və bunu eşidən bir müxbir qəzetdə həmin hadisə ilə bağlı bir yazı dərc etdirir. "Hamısın tapa bilirəm, birin tapa bilmirəm" felyetonunda ədib həm də Molla

Feyzinin xəsisliyi məsələsinə də toxunur. Molla Feyzinin xəsisliyi və acgözlüyü başqalarının malına göz dikməyə vadar edir, yetimlərinin haqqını yeyir, üstəlik onları nökər əvəzinə işlədir: "Hərçənd Hacı əmi öylə israfçı adam deyil ki, ildə beş-on manat verib bir qəzeteyə abunə olsun və yainki gündə bir şahı verib bir nömrə alıb oxusun. Ancaq qonşudan alıb oxuduğu müftə qəzetədə nagah görür ki, bu əhvalat yazılıb, hələ olan kişinin acığı tutub, iki əlli bir qapaz müxbirin başına öylə ilişdirir ki, yazığın papağının nədir ki, öz qulağı yırtıq olur. Odur ki, deyirəm, hələ belə də gərək olsun…" [6, c.2, s.166]

M. Ə. Sabir "Hamısın tapa bilirəm, birin tapa bilmirəm" felyetonunu oxucunu düşünməyə vadar edən maraqlı və kinayəli sonluqla bitirir: "Amma burada yenə bir az fikirləşirəm; fikirləşirəm ki, Hacı əmi müxbirin başına qapazı neçün ilişdirdi? Tapıram ki, Hacı əminin elədiyi əməlin yazdığına görə… Fikirləşirəm ki, müxbir bu sözlərin yalandan yazıb imiş, yoxsa doğurdan? Tapıram ki, doğurdan yazıb imiş.Fikirləşirəm ki, bu əməl yaxşı əməl deyil imiş, hətta hacı əminin xuşkə möminliyinə də yaraşan əməl deyil imiş. Fikirləşirəm ki, pəs Hacı əmi qapazı öz başına ilişdirməyib müxbirin başına neçün ilişdirdi və halonki bu əməli işləyən hacı əmi özü imiş, müxbirin təqsiri nə imiş? Əcəba, buralarını hərçi fikirləşirəm, tapa bilmirəm ki, tapa bilməyəcəyəm. Deyirəm, görəsən diqqət edim, bunu tapa biləcəyəmmi? Tapa bilsəm də Hacı əmini başa sala biləcəyəm". [6, c.2, s.166]

M. Ə. Sabir milli oyanışa nail olmağın yolunu elmə və təhsilə yiyələnməkdə, özünüdərketmədə, dünya işlərindən baş çıxarmaqda görür. Ona görədir ki, ədibin yaradıcılığında məktəb, maarifçi ziyalı, məktəbə gedən uşaq, elmə, təhsilə köhnəpərəst münasibətin tənqidi mühüm yer tutur. Bu mövzuda M. Ə. Sabirin maraqlı felyetonlarından biri "Şirvanda mühüm həvadis" adlanır. Burda ədib xalqı daim qaranlıq dəlalətdə, cəhalətdə saxlayan, ayılmağa qoymayan, tək-tək ayılmaq istəyənlərin də başlarından vuraraq zorla cəhalət yuxusuna qərq edən din xadimlərini tənqid edir. Bildiyimiz kimi, həmin dövrdə xalqı cəhalət yuxusundan oyadan və din xadimlərinin yalançı şeyxlərin, mollaların iç üzünü göstərən ən böyük mətbuat orqanı "Molla Nəsrəddin" jurnalı idi. M. Ə. Sabir 1906-cı ildən "Molla Nəsrəddin" jurnalını öz arzularına müvafiq həqiqi bir xalq jurnalı kimi qarşılayıb onun ən sevimli şairi, ən fəal müəlliflərindən birinə çevrilmişdi. C. Məmmədquluzadə ilə M. Ə. Sabir arasında qırılmaz dostluq münasibətlərinin təməli də elə həmin zamandan qoyulmuşdur. Hər iki sənətkar öz qələmləri ilə əməkçi xalqın qanını soran zalım ağalara, yaltaq ruhanilərə, satqın ziyalılara sarsıdıcı zərbələr vururdu. Bütün bunların nəticəsi olaraq M. Ə. Sabir özünə çoxlu dost qazandığı kimi, düşmən də qazanmışdı. Şerlərini gizli imzalarla yazmasına baxmayaraq, istər Şamaxıda, Bakıda, istərsə də Azərbaycanın başqa yerlərində və İranda bir çox irticaçılar şairin əsərlərini pisləyir, onun yazdığını oxuyanları kafir elan edirdilər. Hətta bəzən cahil "din xadimləri" ədibin ölümünə fitva verir, varlılar ona hədələyici məktublar göndərir, qoçular küçədə yolunu kəsib ağır sözlər deyirdilər. Ədibin özünün də işlətdiyi el məsəli kimi "doğru danışanın papağı yırtıq olar". Buna görə də həqiqətin gözünə düz baxan mollanəsrəddinçilər və "Molla Nəs-

rəddin" jurnalı tez-tez "din xadimləri"nin hücumları ilə qarşılaşırdı. M. Ə. Sabirin "Şirvanda mühüm həvadis" felyetonunda da ruhanilərin, şeyxlərin, mollaların "Molla Nəsrəddin" jurnalına qarşı kəskin etirazlarından, jurnala qarşı dava açmalarından söhbət açılır: "Şirvandan agentə teleqrafının verdiyi səhih xəbərlərə görə (inanınız ha!..) Şamaxının yüzdən doxsan doqquzu (o bir danəsində də şübhəm var!..) aşağıda yazılan fikrə düsüblər: "Bu axır vəqtlərdə "Molla Nəsrəddin" şeyximizə, pişvalarımızın "lap zorbalarına" sataşmaga başlamışdır. Daha dogrusu, lap-lap-lap həqiqət sözləri bipərva söyləməyə cəsarət etmişdir. Bu çəkiləcək dərd, əfv olunacaq xətamıdır a?... Kişi la məzhəbə, dinə əl apardı... Şeyx qalmadı, məşayix qalmadı, molla qalmadı, alim qalmadı, xan qalmadı, bəy qalmadı, sovça qalmadı, səhəng qalmadı, nə bilim, dibəng qalmadı, - hamını ələ saldı. Kişi lap ipləmə olub, çiynin-zadın qapır. Fars demiskən: "Əlac-e vaqeə piş əz vüqu bayəd kərd". Buna bir əlac etmək hər bir müsəlmanın borcudur". [6, c.2, s.167]

Sənətkar "Şirvanda mühüm həvadis" felyetonunda insanların gözünü açmağa qoymayan, elm, təhsil yerinə onların uydurduğu saxta şəriət qanunları ilə kifayətlənməyi üstün tutan "cəfakeş" din xadimlərinin vəkil üçün Peterburqa üz tutmaq səbəbinə də aydınlıq gətirir. Çünki xalqın maariflənməsi yoluna sədd çəkən bu dinsiz "din xadimləri" bir tərəfdən xalqın gözünü açmağa qoymur, digər tərəfdən işləri düşdükdə ölkələrində savadlı vəkil olmadığından şikayətlənərək xaricə üz tuturlar*: "Allaha sükür, məgər özümüzdə belə vəkillər azdır? İndi ki, paytaxta deputat, vəkil göndərmək lazımdır, kişi də, sən Allah, bəri bax a, xeyrin özgələrə verər mi?.."* [6, c.2, s.168]

M. Ə. Sabir felyetonun sonunda mollaların, şeyxlərin, ruhanilərin "Molla Nəsrəddin" jurnalına qənim kəsilmələrinin səbəbini açıqlayır. Çünki məhz bu tipli mətbu orqanları xalqın gözünü açır, saxtakar, yalançı din xadimlərinin iç üzünü göstərir, onların fırıldaqlarının üstünü açırlar: "Qaragüruh"ların ələmdarı, şeytan fikirlilərin sipəhsaları olan Orenburqda çıxan "Dünya və məişət", daha doğrusu "Dəni və vəhsət" cərideyi-xəbisə və qəbihəsi deyir: Xəlqi qudurdan- qəzetələrdir; üləma və şeyxləri söyən- qəzetələrdir; arvadları insan cərgəsinə salmaq istəyən- qəzetələrdir; arvadlara hüquq göstərən- qəzetələrdir; müsəlmanları dinsiz edən- qəzetələrdir; hamı bərabər olsun deyən- yenə qəzetələrdir. Əlhasil, bütün fitnə və fəsadın mənbəyi qəzetələrdir. Bu bədbəxt cəridə - qəzetələrin, ədiblərin məhv olmagın istəyir...İndi, ey möhtərəm qare, qara üzlülərin qəzetələrdən şikayət etməsi mühüm məsələ deyil də nədir?..." [6, c.2, s.168]

Burada "doğruya zaval yoxdur, çəksələr min divana" el məsəlini xatırlamaq yerinə düşər. Çünki vaxtilə qınaq obyektinə çevrilən, döyülən, söyülən, hər cür hücumlara məruz qalan başda M. Ə. Sabir olmaqla bütün mollanəsrəddinçilər bu gün ədəbiyyat tariximizdə öz layiqli yerlərini tutublar. Xalq şairi Səməd Vurğunun dili ilə desək "Sabir, o günləri gətirmə yada, Dünya unutmamış səni dünyada..."

ƏDƏBİYYAT:

1.Hüseynov, Ə.M. Sənət yanğısı / Ə.Hüseynov. – Bakı: Yazıçı, – 1979. – 456 s.
2.Məmmədquluzadə, C.M. Əsərləri: [4 cilddə] / C.Məmmədquluzadə. – Bakı: Öndər, – c. 1. – 2004. – 664 s.
3.Məmmədquluzadə, C.M. Əsərləri: [4 cilddə] / C.Məmmədquluzadə. – Bakı: Öndər, – c. 2. – 2004. – 584 s.
4.Məmmədquluzadə, C.M. Əsərləri: [4 cilddə] / C.Məmmədquluzadə. – Bakı: Öndər, – c. 3. – 2004. – 480 s.
5.Məmmədquluzadə, C.M. Əsərləri: [4 cilddə] / C.Məmmədquluzadə. – Bakı: Öndər, – c. 4. – 2004. – 472 s.
6. Sabir, M.Ə. Hophopnamə: [2 cilddə] / M.Ə.Sabir. – Bakı: Şərq-Qərb, – c. 2. – 2004. – 384 s.
7.Şirvani, S.Ə. Seçilmiş əsərləri: [3 cilddə] / S.Ə.Şirvani. – Bakı: Avrasiya Press, – c. 2 –2005. – 384 s.
8.Tahirqızı, Ü. Məşədi Sicimqulu, deyək, ya deməyək? // Xalq cəbhəsi. – 2014, 6 noyabr . – s. 11.
9.Uygur, E. Molla Nasreddin Dergisi'nde Felyetonlar // – Türkiye: Modern Türklük Araştırmaları Dergisi, – 2006. – c. 3, – № 3, – s. 7-21.
10. Vahabova, S.İ. Cəlil Məmmədquluzadə nəsrinin poetikası / S.Vahabova. – Bakı: Elm və Təhsil, – 2014. – 164 s.
11. Zakir, Q. Seçilmiş əsərləri / Q. Zakir – Bakı, "Avrasiya Press", – 2005. – 400 s.

РАСИМА БАКИРОВА

ПЕРВЫЕ ИНИЦИАТИВЫ ФЕЛЬЕТОНА В АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЕ

РЕЗЮМЕ

Жанр фельетона, впервые появившийся во Франции, представляет собой особый вид сатирической поэзии. За короткий промежуток времени в газетах и журналах нашей страны, а также Англии, Германии, Италии, Турции и России стал появляться жанр фельетона, в котором пороки общественной жизни критикуются и показываются во всей их наготе. Первые образцы фельетонов в Азербайджане можно найти в журнале «Молла Насреддин», издаваемом под редакцией Дж.Мамедгулузаде. В фельетонах, опубликованных в журнале, преследовалась цель раскрыть социальные условия мусульманских обществ путем изучения социальных проблем, существующих не только в Азербайджане, но и в соседних странах. Мысли, направленные на устранение невежества, пошлости, отсталости, выражались то в смешном, то в саркастическом, ироническом и жестком стиле. Следует также отметить, что элементы фельетона встречались в произведениях крупных мастеров азербайджанской сатирической литературы XIX века Г. Закира, С. А. Ширвани,

М. А. Сабира еще до появления журнала «Молла Насреддин». Они критиковали и разоблачали общественные пороки, уродства и недостатки своего времени юмористическим, а иногда и острым сатирическим языком, чтобы пробудить народ от сна беспечности, призвать его к науке и просвещению, распространить идеи просвещения.
Ключевые слова: фельетон, юмор, ирония, критика, разоблачение.

RASIMA BAKIROVA

THE FIRST FEUİLLETON INITIATIVES IN AZERBAIJAN LITERATURE

SUMMARY

The feuilleton genre, which appeared for the first time in France, is a special type of satirical poetry. In a short period of time, the genre of feuilleton, in which flaws in public life are criticized and shown in all their nakedness, began to appear in the newspapers and magazines of our country, as well as in England, Germany, Italy, Turkey, and Russia. The first examples of feuilletons in Azerbaijan can be found in "Molla Nasreddin" magazine, published under the editorship of C. Mammadguluzade. In the feuilletons published in the magazine, the aim was to reveal the social conditions of Muslim societies by examining the social problems existing not only in Azerbaijan, but also in the surrounding countries. Thoughts aimed at eliminating ignorance, vulgarity, and backwardness were sometimes expressed in a funny, sarcastic or sometimes in a harsh style. It should also be noted that elements of feuilleton were found in the works of great masters of 19th century Azerbaijani satirical literature G. Zakir, S. A. Shirvani, and M. A. Sabir even before "Molla Nasreddin" magazine. They criticized and exposed the social evils, deformities, and shortcomings of their time in a humorous and sometimes sharp satirical language in order to wake up the people from the sleep of ignorance, invite them to science and education, and spread the ideas of enlightenment.
Keywords: feuilleton, humor, irony, criticism, exposure

Redaksiyaya daxil olma tarixi: 07.12.2022
Çapa qəbul olunma tarixi: 28.12.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent,
Gülarə Abdurahman qızı Abdullayeva
tərəfindən çapa tövsiyə olunmuşdur

KƏMALƏ CƏFƏROVA
AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
Sergey Yesenin adına Rusiya-Azərbaycan
Ədəbi Əlaqələri Mərkəzinin əməkdaşı
cafarova66@mail.ru

MÜASİR AZƏRBAYCAN DRAMATURGİYASI SOVET REPRESSİYALARININ SƏCİYYƏSİ KİMİ

Giriş. Müasir Azərbaycan dramaturgiyasında sovet repressiyalarının ifşasına həsr olunmuş, həmin dəhşətli bəlaların mahiyyətini, ayrı-ayrı böyük sənətkarların, ziyalıların repressiya qasırğası ilə cismən məhv olduqlarını, ya Sibir sürgünündə əzablara məhkum olunduğunu əks etdirən bir neçə əsər var.

1937-ci il repressiyası və onun törətdiyi faciələrlə bağlı pyeslər. Xalq yazıçısı **İlyas Əfəndiyevin "Sevgililərin cəhənnəmdə vüsalı"** əsəri bu pyeslər sırasında ilk yerdə durur. İki pərdə və iyirmi şəkildən ibarət pyesdə M.C.Bağırov və ona sadiq olan – ölüm maşınının "təkərciyi, vintciyi" Səlim, Mayis və bir də repressiyanın amansız girdabına düçar olan günahsız insanlar (Cuvarlı, Anaşkin və b.) əsas iştirakçılardır. Pyesin əsas qəhrəmanı Ayaz Turan, çox güman, 1920-30-cu illərdə Azərbaycan səhnəsinin günəşi olan Abbas Mirzə Şərifzadənin prototipidir. Onunla Xumar arasındakı sevgi saflıqdan, təmizlikdən yoğrulub. Ancaq bu saf məhəbbətin qarşısında bir neçə maneə durur. Birincisi Xumarın dayısı, M.C.Bağırovun əlaltısı Səlimdir.

Səlimin Ayaz haqqında fikirləri dövrün sovet repressiyasının məntiqinə uyğundur – o, özünü "...böyük tarixi vəzifə icra eləyən bir dövlətin vuran qolu", "kəsən qılıncı" sanır. "Böyük ideyanın qələbəsi böyük də qurbanlar tələb edir" deyən Səlim kor fanatikdir, inanır ki, Stalin cəmiyyəti təzələmək, yeni dünya yaratmaq istəyir. Səlim M.C.Bağırovun bütün göstərişlərini sözsüz icra edən qatildir, hətta etiraf edir ki, bir il öncə Ayazın doğma xalası oğlunu şəxsən özü güllələyib. "Madam ki, Bağırov demişdi, mənim yoxlamağıma ehtiyac yox idi! Mən Bağırovun göstərişini təftiş eləyə bilməzdim. Öz doğma oğlum olsaydı, yenə də güllələyərdim" [2, s.455].

Səlim obrazı öz mürəkkəb səciyyəsi ilə seçilir. O, M.C.Bağırovun tapşırıqlarını sözsüz yerinə yetirir, amma başqalarından fərqli olaraq, içində həmişə dəhşətli bir qorxu hissi var. Etiraf edir ki, "xalq düşməni" damğası basılan adamları tutur, güllələyir, Sibirin uzaq, buzlu çöllərinə göndərir, amma içindəki qorxu hissindən xilas ola bilmir, özünün də haçansa tutulub güllələnməyəcəyindən arxayın deyil. Günahsız insanlara verdiyi işgəncələr onu dəhşətə gətirir. Nəhayət, elə bir gün gəlir ki, o özü də repressiya qurbanına çevrilir. Ondan daha dəhşətli biri – Mayis Kazımov Səlimi arvadını öldürməkdə

günahkar bilir. Bu, sovet repressiyasının ən amansız qanunlarından biri idi – insanları güllələyənlərin, onlara əzab və işgəncə verənlərdən bir qismi özləri də ya həbs olunur, ya da güllələnirdi.

Pyesdə M.C.Bağırovun da obrazı tarixi həqiqətə uyğun şəkildə diqqəti cəlb edir: diktator, Moskvanın – Stalin–Beriya müttəfiqliyinin üçüncü üzvü, amansızlığı, Azərbaycan ziyalılarına sonsuz nifrəti ilə seçilən Baş Qatil. Onun Lavrenti Beriya ilə telefon danışığına diqqət yetirək: "...Sən də, Stalin yoldaş da yaxşı bilirsiniz, mən 20-ci ildən indiyə qədər Azərbaycanda əksinqilabçılarla, müsavatçılarla, pantürkistlərlə həmişə amansız mübarizə aparmışam. Xalq düşmənləriynən mübarizə apararkən şəhər ziyalılarını da bir an nəzərdən qaçıra bilmərik. Bir ziyalı xalq düşməni min avam kulakdan qorxuludur" [2, s.457]. O, "ziyalı xalq düşməni" deyərkən Cavidləri, Cavadları, Müşfiqləri, Çobanzadələri nəzərdə tutur. Ayaz Turana qarşı "mübarizəsi" də məhz bu sıradadır.

M.C.Bağırovun Məhəmməd Cuvarlı ilə dialoqu repressiya ilə bağlı bir çox məsələlərə aydınlıq gətirir. Bağırov Cuvarlını təqsirləndirir ki, Moskaya məndən danos verməyə qaçmışdın? Səni tutub gətirməsəydilər, Stalinlə nə danışacaqdın?

"Cuvarlı. Mən əminəm ki, Azərbaycanın ağıllı ziyalılarını, alimlərini, sayılan bacarıqlı adamlarını, Azərbaycanda sovet hakimiyyəti quranları, Leninin şəxsən tanıdığı inqilabçıları sizin bir-bir tutub güllələməyinizdən, adamları bu qədər qırmağınızdan Stalinin xəbəri yoxdur.

Mir Cəfər Bağırov *(bərkdən gülür)*. Sən Stalin kimi dahini ölkədəki işlərdən xəbərsiz hesab eləyirsən? Sən başa düşmürsən ki, bizdə bir rəhbər var?! Elə təkcə bunun üstündə səni güllələmək lazımdır. Sən də, sənin xalq düşməni dostların da anlamırsınız ki, sosializmin qələbəsi üçün Stalinə onun ideyaları ilə yaşayan yeni cəmiyyət lazımdır.

Cuvarlı. Stalinin qolçomağı bir sinif kimi aradan götürmək istədiyindən hamımız xəbərdarıq. Özümüz də ona inanırıq. Lakin bu, haqq vermir ki, günahkarı da, günahsızı da ağına-bozuna baxmadan qıralar! Həm də sənin göstərişinlə! Sənin əlinlə!" [2, s.462].

Bu sözləşmədə iş üsulu və prinsipi onsuz da məlum olan M.C.Bağırov sovet repressiyasının təşkilatçısı və qurucularından biri kimi qətiyyən öz xislətini gizlətmir. Az sonra deyir ki, Stalin Azərbaycan xalqını Cənubi Azərbaycandan, Türkiyə sərhədindən tamam uzaqlaşdırmaq üçün Sibirə, Qazaxıstanın qumlu çöllərinə sürgün eləyə bilər. Amma o, mənim şəxsimdə Azərbaycan xalqının sədaqətinə inandığına görə bunu eləmədi! Sonda Cuvarlı deyir ki, əgər bu qırğından Stalinin də xəbəri varsa, sən onun əmrini kor-koranə yerinə yetirən şüursuz bir cəlladsan!

M.C.Bağırov obrazı pyesdə tünd boyalarla əks etdirilib. Onun şəxsən özünün ayrı-ayrı "xalq düşmənləri"ni sorğu-sual etməsi, onların ölümünə fərman verməsi, əlaltılarına güllələnmələrini tapşırması, bəzən isə dustaqlara fiziki əzab verməsi haqqında məlumatlar az deyil. Mir Cəfərin dustaq Nəcəfovla və

Azərbaycanda sovet hakimiyyətinin qurulmasında iştirak edən bolşevik Anaşkinlə dialoqları heç də uydurma təsir bağışlamır. Nəcəfovun "günahı" ondadır ki o, guya Lenini Stalinə qarşı qoyub, ictimai yığıncaqlarda Stalinin adını çəkməyib. Anaşkinin "günahı" isə ondadır ki, o, birbaşa Bağırovun, Stalinin və Bağırovun əleyhinə çıxışlar eləyib. M.C.Bağırov hətta vaxtı ilə onunla bir təşkilatda çalışan, bir cəbhədə döyüşən sadiq silahdaşlarına da rəhm eləmir. Pyesdə epizodik surət olan Afşar Hüseyn nə üçün tutulduğunu soruşur, onunla birlikdə vaxtı ilə qaçaqlarla vuruşduğunu xatırladır. Görün M.C.Bağırov onu necə "günahlandırır": "Sən təhlükəli adamsan. Sənin kimi adamlara bu dəniz qırağında "SOE" deyirlər, yəni sosialnı opasnıy element! Sən varları kolxoza qoyulduğu üçün qaçaq düşmüş adamlara o vaxt güllə atdığın kimi, sabah bir düşmən sözü ilə kolxozu quranlara da güllə ata bilərsən!" [2, s.472].

Nəhayət, M.C.Bağırovun pyesin əsas qəhrəmanına patoloji bir nifrəti var. Ayaz Turanı guya ona görə sevmir və onu "xalq düşmənləri" siyahısında görür ki, o, Şəfi Sadıqovun pyesində "xalq düşməni" rolunu oynamaqdan imtina edib, "Cavidin pyeslərində tufan qoparan" bu aktyoru Mir Cəfər pantürkist, millətçi, osmanlı türklərindən mənəvi qida alan bir şəxs hesab edir:

"Mir Cəfər Bağırov. Hə... Bizim məşhur tragik artist özünü necə hiss edir? Nə üçün o xalq düşmənini səhnədə ifşa eləməkdən boyun qaçırırdın?

Ayaz *(hərarətlə)*. Ona görə ki, mən o surəti həqiqi sənətə layiq bilmirəm. Mən, ümumiyyətlə, "xalq düşməni" məfhumunun nə demək olduğunu indi də başa düşmürəm.

Mir Cəfər Bağırov. Bütün böyük sənətkarlar kimi, sən də sadədilsən! Afşar Hüseyn savadsız tərəkəmədir. Böyük Stalinin kulakı, təhlükəli adamları ləğv etmək siyasətini başa düşmür. Bəs sən nə üçün başa düşmürsən?

Ayaz. Mən Leninin siyasətini başa düşürəm.

Mir Cəfər Bağırov. Eybi yoxdur. Stalinin siyasətini burada sənə başa salarlar. Bizə hər bir sənət "xalq düşmənləri"ni ifşa etmək üçün lazımdır.

Ayaz. Sənətkar şüursuz ifşa aləti ola bilməz!..

Mir Cəfər Bağırov. Doğrudur, amma məsələ ondadır ki, o şüur haradan, hansı ideyadan işıq alır?! Əgər sənin ağlın-şüurun Stalinin böyük ideyasından işıq alsaydı, əlbəttə ki, onun düşmənini də məmnuniyyətlə ifşa edərdin! Stalin ideyalarına şübhə ilə, tərəddüdlə yanaşan sənətkar bizə lazım deyil!" [2, s.473].

Bir Azərbaycan ziyalısı kimi Ayazın mövqeyi, ictimai həyatda, sənətdə gedən hadisələrə münasibəti düzgün və obyektiv işıqlandırılır. Romantik rollar ifaçısı kimi tanınsa da, o, realistdir, ölkədə, məmləkətdə baş verən olaylara münasibəti dəyişməzdir. O, "xalq düşməni" məfhumunu zərərli hesab edir, kiminsə kollektivləşmə əleyhinə olmağını hələ xalq düşməni olmaq kimi qəbul etmir, xalqın böyük bir hissəsinin "kulak" adı ilə məhv edilməsinə qarşı etirazını bildirir. Əlifbanın dəyişilməsini də siyasi oyun hesab edir, çünki bu dəyişilmə xalqı öz keçmişindən, tarixindən ayırıb uzaqlaşdırır. Səlim onu qatı millətçilikdə

təqsirləndirəndə deyir ki "türk" bizim milli adımızdır, əgər Stalin osmanlı türklərinə görə bizim adımızı dəyişibsə, bu, misli görünməmiş ədalətsizlikdir! "Stalinizm ideyaları" ilə zəhərlənmiş Səlimə verdiyi tutarlı cavablar Ayaz Turanın o dövrün bütün ağıllı ziyalılarının fikrini ifadə edir: "Diktatorun qurduğu sistem bütün insanları bir-birinə düşmən etmişdir. O, bütün insanlarda etibarsızlıq, şübhə yaradır. Təbii məsələdir ki, bu sistemi davam etdirmək üçün diktatora cəlladları tez-tez dəyişmək, vəzifələrini yerinə yetirmiş köhnə cəlladları yenilərin əli ilə qətl çarxının ağzına vermək lazımdır… Romanı yandırmaq Nerona nə üçün lazım idi? Ölkələri fəth eləyib tar-mar etmək, bunun üçün milyonları qırğına vermək Hannibalın, Napoleonun nəyinə lazım idi? Bu, onların xalqına hansı səadəti verəcək idi? Hansı böyük fateh öz xalqını xoşbəxt eləyib… Fütuhat… qələbə… hamısı diktatorun özü üçündür" [2, s.477].

Xalq yazıçısı **Elçinin "Cəhənnəm sakinləri"** adlı yeddi şəkildən ibarət ikihissəli dramı [1] sovet repressiyasının törətdiyi faciələrə bir qədər fərqli yanaşma ilə diqqəti cəlb edir. Əsərdə personajların sayı o qədər də çox deyil: Kişi, Qadın, Qonaq, Zabit və iki nəfər NKVD işçisi. Hadisələr də, əsasən, bir məkanda – Kişinin və Qadının (ər və arvadın) evində cərəyan edir. Elə birinci şəkildə "qaranlıq içində müxtəlif qışqırıq səsləri eşidilir", NKVD işçiləri kimi isə qabaqlarına qatıb özləri ilə aparırlar, məlum olur ki, bu, Axund Seyid Rzadır. Onun axundluq etdiyi məscidi beş il bundan qabaq bağlayıb, yerində indi ayaqqabı təmir edirlər, amma nə olsun, Seyid Rzanın üstündə axund damğası var.

Qadınla Kişi arasında ailəvi bir söhbət başlanır. Kişi hansı təşkilatdasa işləyir və orada keçirilən iclasda Mürsəl Əbilovun xalq düşməni kimi ifşa olunmasından söz açır. Qadınla Kişi ayrı-ayrı tanıdıqları insanların güllələnməsinə təəssüf hissi keçirirlər. Məsələn, Qəribzadənin güllələnməsi onlara pis təsir edir, onun oğlu Pioner evindəki izhari-nifrət iclasına aparılıb və orada ata-anasından imtina edib. Qadınla Kişinin söhbəti 37-ci ilin son dekabr günündə baş verir, bir azdan 38-ci il gələcək və elə güman edirlər ki, 37-ci il başa çatanda daha heç bir qorxu, vahimə hissi onları haqlamayacaq. Amma birdən qapı döyülür, Qonaq daxil olur. Kimdir bu adam? Onu NKVD-dən gələn birisi hesab edirlər, beləliklə, 37-ci ilin bu son günündə Qadınla Kişini qorxuya salan və onların Şeytan hesab etdikləri bir şəxs ailənin zahiri təmtərağını pozmuş olur. Məlum olur ki, Qonaq bura özü gəlib. Gəlib ki, Kişi ilə Qadını – özlərini günahsız hesab edən bu adamları ifşa eləsin.

"Qadın. Nə üçün? Nə üçün bizi seçmisiz?

Kişi. O, NKVD-dən gəlib! ...Düz demirəm, NKVD siçovulu?

...Qonaq. Ancaq NKVD-də şahidlik edəndə, Qəribzadənin üzünə duranda ki, kontrrevolyusion pantürkist təşkilatı yaradanlardan biridir, yoldaş Stalinə sui-qəsd hazırlayırdılar, onda NKVD işçiləri siçovul deyildi, Allahın bacısı oğlu idi, hə?

Qadın *(sarsılmış).* Necə yəni Qəribzadənin üzünə duranda?" [1, s.17].

Nəhayət, Kişi boynuna alır ki: "Mən nə etməliydim? O özü, Qəribzadə özü etiraf etmişdi ki, kontrrevolyusion təşkilat yaradıblar". Bununla da Qonağın ittihamları qarşısında sarsılan Kişi başqa günahlarını da etiraf etmiş olur. O, sən demə, vaxtı ilə Stalinə məktub da göndərib ki, "xain trotskiçi düşmənlər mənim çalışdığım komissarlıqda da özlərinə yuva qurublar. Bu qəddar düşmənlər, Komissar başda olmaqla, gizlin kontrrevolyusion pantürkist terrorçu təşkilat yaradıblar və bu istiqamətdə gizli fəaliyyət göstərirlər" [1, s.21].

Beləliklə, bir ailənin daxilində öz əməllərini ört-basdır edən Kişinin, əslində, sovet repressiya mexanizminə boyun əyib təxribatçılıqla, namuslu insanları güdaza verməklə, böhtan atmaqla məşğul olduğu və nəhayət, özünün də son mərhələdə xalq düşməni kimi ifşa edildiyi pyesdə kulminasiya nöqtəsinə çatır. Elçin Kişi obrazında, əslində, o dövrün faciəsini əks etdirir – kimsə bir-birinə inanmır, çünki məlum deyil sabah onları nə gözləyəcək.

Əli Əmirlinin "Tiran və Aktyor" ikihissəli faciəsi də mövzuya fərqli yanaşma ilə diqqəti cəlb edir. Bu əsərdə də iştirakçıların sayı məhduddur: Tiran, Aktyor, Qadın, Maska və Xor. Pyesdə əsas dialoqlar Tiranla Aktyor üzərində qurulmuşdur. Burada ümumiləşdirmə meyarı diqqəti cəlb edir, belə ki, Tiran böyük bir məmləkətin hakimidir. Pyesdə Tiranın kimliyi ancaq onun sovet repressiyasının bütün xarakterini, məna və mahiyyətini özündə əks etdirən müddəalarla dolu çıxışlarında ortaya çıxır: "Böyük rəhbərin dahiyanə rəhbərliyi altında biz iri və sürətli addımlarla kommunizmə gedirik. Bu yolda inqilabi qüdrətimiz, dünyanın ən humanist, ən kamil, ən qüdrətli və ən göyçək partiyası, onun baş qərargahı və onun rəşadətli rəhbəri, dünya xalqlarının ümid yeri, müqəddəs piri, cahan proletariatının sönməz günəşi bizə müdrikcəsinə yol göstərir. Ancaq müvəffəqiyyətlərimizi gözü götürməyənlər, imperialistlərin pullu casusları, svoloçlar, kontralar, xalq düşmənləri, əksinqilabi ünsürlər sakit baxa bilmirlər bizim xoşbəxt həyatımıza" [3, 60]. Bu Tiranın da ən böyük düşməni ziyalılardır – şairlər, aktyorlar, xalq arasında məşhur olan incəsənət adamları.

O öz gücünü, hökmdarlıq ehtiraslarını sübut etmək üçün xalq arasında böyük şöhrət qazanan Aktyorla üz-üzə dayanıb. Bircə işarəsiylə Aktyoru güllələmək, ona "xalq düşməni" damğası vurub Sibirə göndərmək olar, lakin Tiranın məqsədi bu deyil. Çünki Tiran da özünü böyük aktyor sayır, lakin onun oyununun başlıca mahiyyəti qorxu və vahimə üzərində qurulub. Dünyanın hər yerində "qoyun sürüsü" olan xalqı mübarizəyə çəkən də ziyalılardır. Buna görə də Böyük Rəhbər birinci növbədə ziyalıları zərərsizləşdirmək istəyir.

Pyesin ikinci hissəsində isə Tiranın mənəvi böhranı başlanır. Tiran etdiyi zülmlər, dəhşətlər qarşısında həm də acizliyini dərk edir. Müəllif Zamanın libasında Aktyoru səhnəyə gətirir. Ömrü boyu vicdanını itirmiş Tiran onun suallarına cavab tapa bilmir. Və pyesin finalında Tiran Zamanın ölüm hökmünə boyun əyir.

Əli Əmirlinin "Ah, bu uzun sevda yolu" ikihissəli dramı isə Mikayıl Müşfiqin və onun həyat yoldaşı Dilbərin faciəsinə həsr olunub. Pyesdə dörd xətt bir-birini əvəz edir. Birinci xətt Müşfiqlə Dilbərin sevgisidir. Müəllif münasibətlərdəki incəliyi, iki insanın qarşılıqlı duyğularını konkret hadisələrdə əks etdirir, həm də Müşfiqin Dilbərə həsr etdiyi şeirlərə müraciət edir.

İkinci xətt Müşfiqin yaşadığı ədəbi mühitin daha qabarıq əks olunmasıdır. "Müdrik şair", "Dost şair", "Novator şair", "Qadın şair", "Düşmən şair", "Qorxaq şair", "Qadın məmur" obrazları ilə Əli Əmirli o dövrün ədəbi-ictimai panoramını verməyə çalışır. Müəllif 1930-cu illərdə Mikayıl Müşfiqə bir-birinə zidd mövqeləri bir daha nəzərə çarpdırır. Dost şair Müşfiqin şərəfinə badə qaldırıb onun Dilbərə həsr etdiyi şeirlərdən misallar gətirir. Novator şair də Müşfiqi yüksək qiymətləndirir, "onun sözdən istifadə talantı heyrətamizdir.

Müşfiqi istedaddan mağmın adamlar başa düşməzlər, bəlkə də başa düşmək istəməzlər" [4, s.21] deyir. Məclisdə iştirak edən Qorxaq şair Müşfiqin talantlı olduğunu etiraf edir, lakin "Bəs elə isə bu talant, coşqulu ilham "Stalin" şeirində özünü niyə göstərə bilmir? Mən cəsarətlə deyə bilərəm ki, dahi rəhbərin tərənnümündə bir şair acizliyi var, səmimiyyət isə yoxdur. Bəlkə, dostumuz demiş, bu şeir Stalin yoldaşa həqiqi məhəbbətdən yaranmayıb, fikir yayındırmaq, özünü nələrdənsə sığortalamaq üçün yazılıb?" – deyir.

Düşmən şairin fikirləri isə 1930-cu illərdə mətbuatda Müşfiqin əleyhinə söylənilən yalanlara, böhtanlara, iftira və həcvlərə uyğun gəlir: "Mən bütün məsuliyyətimlə bəyan edirəm: zahirən səmimi, məzlum görünən, əsas mahiyyətilə isə hiyləgər olan Mikayıl Müşfiq çox zaman ifşa olunmaq ərəfəsində bir sovet əsəri yazaraq özünü gözdən yayındırır. O, "Səməndər" şeirində revolüsion rus xalqının Azərbaycan xalqına olan yardım əlini, onun çiçəklənməsi üçün etdiyi köməyi inkar edir" [4, s.20].

Məclisdəki Müdrik şairin Müşfiqə səmimi, həm də ustad münasibətindən məlum olur ki, bu, Cavid əfəndidir. O deyir ki, "sənin günahın böyük istedadındır". "Sakit olmağa çalış. Dağ çayı kimi hər yağış-yağmurdan o dəqiqə coşub-daşma. Dərya olmağa çalış ki, hər şeyi rahatlıqla sinirə biləsən" [4, s.22].

Amma repressiya bəlası qarşısıalınmaz idi. Nəyin bahasına olur-olsun hamını öz cənginə keçirirdi. Ona görə də Müşfiq Dilbərlə söhbətində "Yoruldum bu mübarizələrdən, iyrəndim" deyir.

Üçüncü xətt Müşfiqin dindirilməsi və istintaqı ilə bağlıdır. Frençli Kişi ilə Müşfiqin dialoqlarında "repressiya qurğusu"nun böhtan, iftira, günahsızın "günahlarını" zorla boynuna qoymaq kimi məlum versiyası ilə üzləşirik. Müşfiq inadla söyləyir ki, mənim bütün fəaliyyətim partiya və hökumətimizin siyasətinin təbliğinə, tərənnümünə xidmət edib. Mən burada həbsdəyəm, şeirlərim isə indinin özündə də inqilab işinə xidmət edir, ancaq Frençli Kişi Müşfiqin əleyhinə onun şair "dostlarının" yazdığı ifadələri oxuyur, həmçinin Müşfiqin Hüseyn Cavidin

əleyhinə ifadə verməməsi və onu öz ustadı hesab etməsi də ciddi ittiham kimi səslənir.

Dördüncü xətt Müşfiqin yoxluğundan doğan həsrət, əbədi hicran xəttidir. Burada Müşfiqsizlik həyatı yaşayan Dilbərin etirafları səslənir: "Mən sənlə bir gündə öldüm. Səndən sonra əlli il yaşayan Dilbər sənin coşqun məhəbbətlə sevib vəsf etdiyin Dilbər deyildi. O Dilbəri sən yaratmışdın, o Dilbəri ilham pərisinə sən özün çevirmişdin. Günəş Ayı işıqlandıran kimi, sən də məni işıqlandırır, mənə hərarət verirdin. Elə ki söndürdülər səni, mən də söndüm, adi bir qadına çevrildim" [4, s.36].

Şair-tədqiqatçı **Nizami Muradoğlunun "Zülmətdə nur"** mənzum pyesi də sovet repressiyasının ifşasına həsr olunmuş sonuncu əsərlərdən biridir. Pyesdə Hüseyn Cavidin və ailəsinin faciəsi əks olunmuşdur. Həm də təkcə Cavidlər ailəsinin deyil, eyni zamanda, bu ailə ilə sıx ünsiyyətdə, həm dostluq, həm də yaradıcılıq telləri ilə bir-birinə bağlı olan daha iki ailənin – Əhməd Cavadın və Mikayıl Müşfiqin ailələrinin də eyni faciəli durumu öz əksini tapır. Pyes "Xoşbəxt ailə" epizodu ilə başlayır – Cavidin evi göstərilir. Müşkinaz xanım iş görür. Qapı döyülür və Cavid əlində müxtəlif paketlər içəri daxil olur. Epizodda Cavidin oğlu Ərtoğrol və qızı Turanı da görürük. Turan atasının "İblis" pyesindən bir şeir parçasını əzbər söyləyir. Ərtoğrol isə piano arxasına keçərək oynaq bir musiqi ifa edir. Yalnız bu epizod xoşbəxtliyin tərənnümü kimi yadda qalır, bundan sonrakı epizodlarda isə hadisələr öz gərginliyi və dramatikliyi ilə diqqəti cəlb edir.

III epizodda M.C.Bağırovun kabineti göstərilir. Divardan Stalinin portreti asılıb, Bağırovun əlaltıları, neçə azərbaycanlı ziyalının faciələrinin səbəbkarı Sumbatov və Qriqoryan təkidlə söyləyirlər ki, Cavid, Əhməd Cavad çox təhlükəlidirlər, imza atın ki, onları da aradan qaldıraq. M.C.Bağırovun üzünü Stalinin portretinə tutaraq söylədiyi monoloq bütün məmləkəti saran, QORXU üstündə bərqərar olan dövrün, zamanın ictimai-siyasi xarakteri-səciyyəsini aydınlaşdırır:

Söylə, əlahəzrət, söylə görüm sən,
Mən daha kimləri həbs etməliyəm?
Nədəndir gözlərin doymayır qandan?
Yoxsamı qorxursan sən də şeytandan?
Qorxursan, qorxuruq, budur həqiqət,
Qorxudan yaranır böyük fəlakət [5, s.15].

Pyesin ikinci hissəsində H.Cavidin, Ə.Cavadın, M.Müşfiqin məhkumluq həyatı təsvir olunur. Əvvəlcə müəllif hər üç şairi bir məhbəsdə görüşdürür, onların fikir və duyğuları ilə tanış oluruq. H.Cavid və Ə.Cavad M.Müşfiqə səbirli olmağı tövsiyə edirlər. Sonrakı epizodlarda ayrı-ayrılıqda onlar müstəntiqlərin

sorğu-suallarına cavab verirlər. Müşfiqi məcbur edirlər ki, Cavidin əleyhinə imza atsın, amma Müşfiq buna razı olmur, müstəntiq isə Dilbəri bir qadın kimi ləkələyəcəyi ilə onu qorxudur, Müşfiq çarəsiz qalıb izahata imza atır. Əlbəttə, bu, uydurulmuş epizoddur və heç də reallığı əks etdirmir. "Şükriyyənin sınağı" epizodunda isə Ə.Cavadın həyat yoldaşı Şükriyyənin mətinliyi, dönməzliyi diqqəti cəlb edir və o, müstəntiqin təkidlərinə baxmayaraq, Ə.Cavaddan boşanmaq ərizəsinə qol çəkmir. "Güllələnmə" epizodları pyesdə faciəvi notları gücləndirir, Əhməd Cavad və Mikayıl Müşfiq hərbi kollegiyanın hökmü ilə güllələnirlər. Pyesdəki son üç epizod isə Hüseyn Cavidlə bağlıdır. Müstəntiq son dəfə onu sorğu-suala çəkir: "Onsuz da verilib, şair, qərarın, Sibir çölləridi axır məzarın, Get, qoca, oralar soyuqdur, qışdır, Ordan qayıtmağın çox müşkül işdir" sözlərinə Cavid "Sibir də vətəndir, Turan torpağı, İlk ordan ucalmış türkün bayrağı" cavabını verir. "Son görüş" epizodu H.Cavidin ailəsi ilə vida səhnəsidir. Nəhayət, "Xəzan yarpaqları" epizodu pyesin ideyasını, müəllif məramını ifadə edir. Pillələrin üzərində İblis peyda olur, onun məşhur monoloqunu eşidirik. "İblis nədir? – Cümlə xəyanətlərə bais… Ya hər kəsə xain olan insan nədir? – İblis".

Nəticə. Sovet repressiyasının törətdiyi faciələr Azərbaycan ədəbiyyatında yalnız repressiya qurbanlarının bəraətindən – 1956-cı ildən sonra öz bədii ifadəsini tapdı. Azərbaycan dramaturgiyasında da sözügedən əsərlər həmin dövrün məhsuludur.

QAYNAQLAR:

1. Elçin. Cəhənnəm sakinləri (pyes). "Azərbaycan" jurnalı, 2009, № 2.
2. Əfəndiyev, İlyas. Sevgililərin cəhənnəmdə vüsalı (pyes). Əsərləri. Yeddi cilddə, III cild, Bakı: "Çinar-Çap", 2002.
3. Əmirli, Əli. Tiran və aktyor (pyes). "15 pyes" kitabında. Bakı: "Öndər", 2006.
4. Əmirli, Əli. Ah, bu uzun sevda yolu (pyes). "Azərbaycan" jurnalı, 2017, №2.
5. Muradoğlu, Nizami. Zülmətdə nur. Bakı, 2018, 120 s.

Kəmalə Cəfərova

MÜASİR AZƏRBAYCAN DRAMATURGİYASI SOVET REPRESSİYALARININ SƏCİYYƏSİ KİMİ

Xülasə

Məqalədə Azərbaycan dramaturgiyasında sovet repressiyalarının ifşasına həsr olunmuş pyeslərdə həmin dəhşətli bəlaların mahiyyətini göstərən, bütün məmləkəti saran, QORXU üstündə bərqərar olan dövrün, zamanın ictimai-siyasi xarakteri aydınlaşdırılır. Ayrı-ayrı böyük sənətkarların, ziyalıların repressiya qasırğası ilə cismən məhv olduqlarını, ya Sibir sürgününə əzablı yollarını əks etdirən əsərlərdən bəhs olunur. Bu pyeslər sırasında Xalq yazıçısı İlyas Əfəndiyevin "Sevgililərin cəhənnəmdə vüsalı" əsəri ilk yerdə durur.

Xalq yazıçısı Elçinin "Cəhənnəm sakinləri" adlı yeddi şəkilli ikihissəli dramı, Əli Əmirlinin ikihissəli "Tiran və Aktyor" faciəsi və yenə onun Mikayıl Müşfiqin və həyat yoldaşı Dilbərin faciəsinə həsr olunmuş "Ah, bu uzun sevda yolu" ikihissəli dramında da dövrün səciyyəsi verilir.

Sovet repressiyasının ifşasına həsr olunmuş sonuncu pyeslərdən olan, şair-tədqiqatçı Nizami Muradoğlunun "Zülmətdə nur" mənzum pyesində isə Hüseyn Cavid və onun ailəsinin başına gələn bəlalardan bəhs edilir.

Камала Джафарова

СОВРЕМЕННАЯ АЗЕРБАЙДЖАНСКАЯ ДРАМАТУРГИЯ КАК ХАРАКТЕРИСТИКА СОВЕТСКИХ РЕПРЕССИЙ

Статья посвящена разоблачению советских репрессий в азербайджанской драматургии, показывая суть тех страшных бед, охвативших всю страну. Выяснился общественно-политический характер того времени, в основе которого лежит СТРАХ. Упоминались произведения, отражающие физическую гибель отдельных великих художников и интеллигентов бурей репрессий или их мучительный путь в ссылку в Сибирь. Среди этих пьес на одном из первых мест стоит «Присоединению влюбленных в аду» народного писателя Ильяса Эфендиева.

Двухсерийная драма с семью картинами «Обитатели ада» по сценарию народного писателя Эльчина, двухсерийная трагедия Али Амирли «Тиран и актер» и его двухсерийная драма «Эх, эта длинная дорога любви», посвященная трагедии Микаил Мушфиг и его жена Дильбар раскрывают черты той эпохи.

Пьеса в стихах поэта-исследователя Низами Мурадоглу «Свет во тьме», являющаяся одной из последних пьес, посвященных разоблачению советских репрессий, рассказывает о трагедии Гусейна Джавида и его семьи.

Kamala Jafarova

MODERN AZERBAIJANI DRAMA AS A CHARACTERISTIC OF SOVIET REPRESSIONS

The article is devoted to the exposure of the Soviet repressions in the Azerbaijani dramaturgy, showing the essence of those terrible troubles that covered the whole country. The socio-political character of that time, which is based on FEAR, was clarified. The works that reflect the physical destruction of individual great artists and intellectuals by the storm of repressions or their painful journey to exile in Siberia were mentioned. Among these plays in one of the first places is "Lovers' joining in hell" written by people's writer Ilyas Efendiyev.

The two-part drama with seven pictures named "Dwellers of Hell" written by people's writer Elchin, Ali Amirli's two-part tragedy "Tyrant and Actor" and his two-part drama "Uh, this long love road" dedicated to the tragedy of Mikayil Mushfig and his wife Dilbar exposing characteristics of that era.

Poet-researcher Nizami Muradoglu's verse play "Light in Darkness", which is one of the last plays dedicated to the exposure of Soviet repression, tells about the tragedy of Huseyn Javid and his family.

Redaksiyaya daxil olma tarixi: 07.12.2022
Çapa qəbul olunma tarixi: 28.12.2022
Rəyçi: akademik Rafael Hüseynov tərəfindən çapa tövsiyə olunmuşdur

UOT 82

VÜSALƏ ELXAN QIZI AĞABƏYLI
Dosent, Filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Dillər Universiteti
Email: vusale.agabeyli@gmail.com
Orchid ID: https://orcid.org/0000-0003-1560-028X

VİRCİNİYA VULFUN ƏSƏRLƏRİNDƏ GENDER TƏDQİQATLARINA MODERNİST YANAŞMA

Xülasə

Modernistlər, o cümlədən, Vulf həyatda, insanların özlərində və münasibətlərində baş verən dəyişiklikləri çatdırmaq üçün bədii təsvirin yeni yollarını axtarır və tapırdılar. Vulf hesab edirdi ki, müasir yazıçılar artıq öz sələflərinin təcrübəsi ilə kifayətlənə bilməzlər, onlar öz yollarını seçməli və yeni yolla getməlidirlər, onlar ənənəvi olan üslub və romanlardan əl çəkməli, keçmişin ənənəsini əbədi olaraq digər nəsillərə ötürmək arzusundan vaz keçməlidirlər. Bu baxımdan da, Vulfun 1929-cu ildə yazdığı "A room of one's own" (Şəxsi otaq) əsərini feminist ədəbi tənqidin ən başlanğıc əsərlərindən biri hesab etmək olar. İngiltərədə qadınlara seçki hüququ verildikdən sonra (1928) ərsəyə gəlmiş bu əsərdə Vulf XVI əsrdən bəri yazıçıların, xüsusilə də, qadın yazıçıların əsərlərini və üslublarını araşdırır, tənqid edir, qadının cəmiyyətdə və ədəbiyyatda rolunu, onun sosial və iqtisadi asılılığını təhlil edir. Hər iki cinsi müqayisə edərək, kişilərin zəngin və qadınların yoxsul olduğunu vurğulayır, bu baxımdan da, onların uğursuz olduğunu bildirir. Vulf qadınları ilk növbədə sərbəstliyə, iqtisadi cəhətdən boyunduruqdan çıxmağa səsləyir. Bunun bir yolunun da ədəbiyyat olduğunu düşünür. O, qadınlara sərbəst şəkildə öz düşüncələrini qələmə almağı, hər bir mövzuda yazmağı tövsiyə edir. [1] Bunun üçün isə, qadına pul və şəxsi otaq lazımdır.

Vulf da digər feminist tənqidçilər kimi ədəbi kanonun və ədəbiyyat tarixinin kişilər tərəfindən tərtib edildiyini düşünürdü. Buna görə də, "A room of one's own" əsərində oxucu ilə birlikdə bir növ XVI əsrdən öz dövrünə qədər "Qadınlar və Ədəbiyyat" başlığı altında qadının dünənindən bugününə işıq tutaraq səyahət edir, sosial və iqtisadi bərabərsizliyin, qadın hüquqlarının tapdanılmasının elə ədəbiyyata da təsir etdiyini vurğulayır.

Açar sözlər: gender, ədəbiyyat, qadın, feminizm, nəzəriyyə, modernist

Giriş

Vulf keçmişi vərəqləyərkən görkəmli kişi filosofların, mütəfəkkirlərin, tanınmış simaların əksəriyyətinin qadın haqqında təhqiramiz fikirlərini təhlil edir: Why does Samuel Butler say *"Wise men never say what they think of women?"* – Niyə Samuel Butler deyir ki, müdrik kişilər qadınlar haqqında düşündüklərini dilə gətirmir? Görünür müdrik kişilər heç vaxt lazım olandan artıq nəsə demirlər. Təəssüf ki, müdrik kişilər heç vaxt qadınlar barədə eyni fikirdə olmurlar. Aleksandr Pop isə yazırdı: *Most women have no character at all*. – Qadınların əksəriyyəti tamamilə şəxsiyyətsizdir. Napoleon qadını qabiliyyətsiz sayırdı. Dr.Conson isə əksini düşünürdü. Onların ruhu var, ya yox? Bəzi barbarlar iddi edir ki, yoxdur, digərləri isə əksinə inanırlar ki, qadınlar yarı müqəddəs varlıqlardır və bu səbəbdən onlara itaət edirdilər. Bəzi müdriklər qadınları dayaz, bəziləri dərin hesab edir. Höte onları göylərə ucaldırdı, Mussolini onlara nifrət edirdi. Görünür, kişilər hər zaman bu mövzu barədə düşünüb, baş sındırıblar və fikirləri hər zaman fərqli olub. [4, səh.48]

Vulf daha sonra qadınları güzgü adlandırır, onun fikrincə, qadınlar əsrlər boyu kişiləri olduqlarından iki dəfə böyük göstərən sehrli və möhtəşəm gücə sahib güzgü rolunu oynayıb: *Women have served all these centuries as looking-glasses possessing the magic and delicious power of reflecting the figure of man at twice its natural size.* [4, səh.52] Buna görə, Napoleonla Mussolini qadınların zəif olmasını israrla vurğulayırdı. Əgər qadınlar aşağıda olmasaydı, özlərini yüksəldə bilməzdilər. Bu vəziyyət qadınların kişilər üçün necı əhəmiyyətli olduğunu qismən açıqlayır.

Gender məsələlərinə modernist yanaşma

Ədəbiyyatla yanaşı tarix kitablarını vərəqləyən Vulf Trevelyanın "İngiltərə tarixi" kitabında arvadı döymək kişinin hüququ kimi göstərildiyini, bu hüququn varlı və kasıb insanlar arasında heç bir utanc hissi olmadan tətbiq edildiyini tənqid edir. Ona Elizabet dövründəki qadınların həyat tərzi, yaşadıqları şərait və statusu maraqlı gəlir. Vulf düşünür ki, keçmiş dövlərdən kişilərin çoxu nəğmə və ya sonet yaza bildiyi halda, niyə nqadınlar qeyri-adi ədəbiyyat sahəsində bircə kəlmə də deyə bilməyiblər? [3, səh.7] Trevelyanın kitabında "qadının statusu" haqqında kiçik sərlövhəni vərəqləyən Vulf təəssüflə qeyd edir ki, evlilik ailənin maddi maraqlarına xidmət edirdi, göbəkkəsdi üsulundan geniş istifadə olunurdu, qızlar valideynlərin seçdiyi şəxslərlə evləndirilirdi, bu hal yuxarı təbəqələrdə daha geniş yayılmışdı. Hətta Jefri Çoserin dövründən bir qədər sonra da, Stuartlar dövründə də yüksək və orta sinif qadınların özlərinə ər seçməyə ixtiyarı yox idi.

Lakin bütün bunlarla yanaşı Vulf Trevelyanın kitabında bəzi fərqli məqamları da qeyd edir, Trevelyan yazırdı: "İstər Şekspirin, istərsə də Verneylərin, Hutçinsonların yazdığı XVII əsrə aid gündəliklərdəki qadınlar şəxsiyyət və xarakter baxımından natamam görünmür." Əlbəttə "Kleopatranın öz yolu vardı", "Ledi Maqbet iradəsinin ardınca gedirdi", "Rozalin cazibədar qız idi" kimi düşüncələrə qapıla bilərik. Professor Trevelyan Şekspirin qadınlarının şəxsiyyət və xarakter

cəhətdən natamam olmadığını yazması ilə yalnız həqiqəti çatdırır. Biz tarixçi deyilik, bu səbəbdən bir qədər də ürəklənib deyə bilərik ki, əzəldən bəri şairlərin əsərlərində qadınlar dan ulduzu kimi parıldayır. Vulf yazır ki, dramaturgiyada Klitemnestra, Antiqona, Kleopatra, Ledi Maqbet, Fedra, Kressida, Rozalin, Dezdemona, Malfi qrafiniyası, prozada Millamant, Klarissa, Beki Şarp, Anna Karenina, Emma Bovari, madam Germantes... Bu adlar indiyədək bizdə "Şəxsiyyət və xarakter baxımından natamam" qadın təsəvvürü yaratmır. Əlbəttə, qadınlar yalnız kişilərin yaratdığı ədəbiyyatda mövcud olsaydı, onları olduqca əhəmiyyətli varlıqlar kimi xəyal edərdik: fərqli və cəsarətli, hədsiz gözəl və ya hədsiz çirkin, ehtişamlı və alçaq, bir kişi qədər ali və s. Fəqət bunlar ədəbiyyatdakı qadınlardır. Telyaninin yazılarında isə onlar otağına kilidlənir, döyülür, söyülür, ora-bura sürüklənir. [4, səh.58]

Vulf ingilis cəmiyyəti, tarixi və keçmişindən başqa Şərq mühitində də qadına münasibəti araşdırır. F.L.Lukasın "Tragediya" adlı əsərindən sitat gətirərək Afinada Şərq təfəkkürü ilə cariyə kimi, kölə kimi istismar olan qadınlar, səhnədə Klitemnestra, Kassandra, Fedra və s. kimi obrazlarla yer alır. Bundan əlavə "misogonist" (qadın düşməni) Evripidin əsərlərində qadın qəhrəmanların üstünlük təşkil etməsini izahı mümkünsüz olan ziddiyyət hesab edir. Ümumiyyətlə, paradoksal bir haldır ki, əslində, real həyatda həmin dövr üçün hörmətli qadın küçədə belə, nadir göründüyü halda səhnələrdə kişilərlə bərabər olduğu və bəzən onlardan üstün olduğu göstərilir. Vulf eyni paradoksu Şekspirin əsərlərində də görür və ziddiyyəti bu cür açıqlayır: *Imaginatively she is of the highest importance; practically she is completely insignificant. She pervades poetry from cover to cover; she is all but absent from history...* [4, səh.59] Qadınlar xəyali aləmdə olduqca böyük önəm daşıyır, reallıqda, praktikada isə tamamilə lazımsızdır. Poeziyanı sətir-sətir işğal edib edib, tarixdə isə adı yoxdur. Bədii əsərlərdə krallara, fatehlərə hökm edir, lakin gerçək həyatda ailəsi onu zorla ərə verir, ərinin köləsinə çevrilir. Ədəbiyyatda onun dodaqlarından ən təsirli sözlər, ən dərin fikirlər süzülür, lakin əsl həqiqət budur ki, yazını üzündən belə oxuya bilmir, tələffüzü çox pisdir və özü də ərinin mülkiyyətindən başqa bir şey deyil.

Vulf, həmçinin, ehtimal edir ki, o dövrdə zadəgan bir ailədə doğulan qadın Ceyn Ostindən və Brontelərdən daha çox dəstəklənə bilərdi. Məsələn, zadəgan ailəsində doğulan Lady Winchilsea (1661) (Xanım Uinçilsi) əsilzadə ilə evil olsa da, yazdığı şeirlərdən birinə nəzər salsaq qadınların vəziyyətini, qarşı tərəf hesab etdiyi kişilərə olan qorxusunu, qəzəbini, nifrətini görmək olar:

How we are fallen! Fallen by mistaken rules,
And Education's more than Nature's fools;
Debarred from all improvements of the mind,
And to be dull, expected and designed;
And if someone would soar above the rest,
With warmer fancy, and ambition pressed,
So strong the opposing faction still appears,

The hopes to thrive can ne'er outweigh the fears. [4, səh.69]

Şeirdə müəllif gileylənir ki, biz yenildik, bizi səhv qaydalar yendi, təbiətdəki axmaqlar yox, təhsilli axmaqlar bizi hər cür inkişafdan məhrum etdi. Bizdən gözlədikləri isə odur ki, biz küt və qaradinməz olaq. Əgər aramızdan biri öz xəyallarına və həvəsinə sahib çıxıb azca irəli getmək istəsə, dərhal onun qarşısına elə maneələr çıxar ki, qorxu onun ümidlərini öldürər. Xanım Uinçilsinin müasiri olan hersoqinya Marqaret də onun kimi əsilzadə olub, əsilzadə biri ilə ailə qurub və onun da Uinçilsi kimi övladı olmayıb. Marqaretdə də poeziyaya meyillilik olsa da, o daha qəzəblə yazıb və görünür ki, onun qəzəbi və yabanı zəkası onun da istedadını inkişaf etdirməyə imkan verməyib: "Women live like Bats or Owls, labour like Beasts, and die like Worms…" [4, səh.71] – Qadınlar yarasa və ya bayquş kimi yaşayır, qatır kimi işləyir, qurd (soxulcan) kimi ölür.

Vulfun "self" və "identity" konsepti

"Mrs. Dalloway" (1925) əsərində Vulf romanın baş qəhrəmanı Klarissanın həm heteroseksual dəyərlərə boyun əydiyini, həm də biseksual və androqin (həm qadın, həm kişi xüsusiyyətlərini daşımaq) xüsusiyyətləri təmsil edərək bu sistemə meydan oxuduğunu göstərir. Klarissa obrazında Britaniya qadının ailə və cəmiyyət qarşısında öhdəlikləri təsvir edilir. Klarissa Peteri sevir, lakin Peterin sosial və iqtisadi statusu ona rahat gələcək vədi vermir. Buna görə də, o, Riçardla evlənir və xanım Dolovey olaraq çağırılır. Vulf, soyadının və müraciət formasının dəyişdirilməsini şəxsiyyətin, kimliyin dəyişməsi kimi qəbul edir, evliliklə onun kişi cinsindən asılılığını təsvir edir: *"She had the oddest sense of being herself invisible, unseen, unknown, there being no more marrying, no more having of children now, but only this astonishing and rather solemn progress with the rest of them, this being Mrs Dalloway; not even Clarissa any more; this being Mrs Richard Dalloway"* [5, səh.8] Peterdən başqa, Salliyə (qadın) olan istəyinə baxmayaraq, o, patriarxal cəmiyyətinin sosial standartına tabe olur. Klarissa başa düşür ki, Riçardla evliliyi sayəsində o, artıq xanım Dallovey olub və buna görə də ərindən asılılıq yaranıb, lakin bu həqiqəti Klarissa asanlıqla qəbul edə bilmir, bu norma və ənənəyə etiraz edir. Əsərdə Vulf, qadınların nikah yolu ilə öz soyadını ərinin soyadına dəyişməsi, öz şəxsiyyətinin olmadığını, hətta nikahdan əvvəl ata evində belə kişilərdən asılı olduqlarını, əvvəl ata və qardaş, sonra ər, daha sonra isə oğulun qadını üstələməsi ilə kişilərin üstünlük təşkil etdiyi cəmiyyətin xarakterini açır.

Vulf, "self" (insanın özü) və "identity" (kimliyi, şəxsiyyəti) arasında danılmaz əlaqə olduğunu vurğulayır. İnsanın mənliyi olmayanda identikliyi də ola bilməz. Daxili mənlik əziyyət çəkir və kimlik olaraq özündən bir şey göstərə bilmir. *"But often now this body she wore, this body with all its capacities, seemed nothing – nothing at all"* [5, səh.8] Məsələn, Klarissa Piter və Salliyə qarşı qeyri-müəyyən hərəkət edir (hər ikisi ilə öpüşür, hər iksini sevir), o, kişi cinsinə və ya qadın cinsinə

qarşı sabit hisslərə malik deyil; Riçardla heteroseksual nikahdan sonra da kişi və ya qadını seçə bilmir. Otağını ayıraraq kifayətlənir.

Əsərdə göstərilir ki, Klarissa Peterin qarşısında bir növ özünü boşboğaz hiss edir. Bu özünə inamsızlıq İngiltərə ictimaiyyətinin qadınlara tətbiq etdiyi təzyiqlərdən qaynaqlanır. Cəmiyyətdə qadın cinsinə pessimist və tənqidi baxışlar çoxdur. Klarissa ziyafət vermək, çiçək almaq və kitab oxumaq kimi fəaliyyəti ilə cəmiyyətin ondan "qopardığı" daxili boşluğunu doldurmaq istəyirdi. Digər tərəfdən, bu fəaliyyətlər ona özünü bir şəxsiyyət kimi hiss etmə imkanı verirdi. Əslində, onun iki mənliyi (sifəti) var, daxili və xarici. Birincisində, o, özünü sıxışdırıb və xarici dünyası ilə ünsiyyət qurmaq üçün sosial maska geyinmək məcburiyyətində qalır, çünki insan müxtəlif vəziyyətlərə görə fərqli sosial maskalar taxa bilmirsə, bu onun gündəlik həyatını iflic edir, çox "sərt" sosial maska isə əsəbiliyə səbəb olur.

Başqa bir maraqlı məqam da odur ki, Vulf hər iki cinsin öhtəlilərini və əziyyətlərini eyniləşdirməyə çalışır. Müharibədən qayıdan Septimusun tez-tez ağlı qarışır, gözünə müharibədəki ölüm səhnələri görünür. Septimus parkda otursa da, küçədə gəzsə də, keçmişi daim onu izləyir, özünü cəmiyyətdə rahat hesab etməməyə başlayır. Eynilə, daim keçmişi onu izlıyib, yaşadığı cəmiyyətdən zövq almayan Klarissa kimi. Onlar xilası, azad olmanı ölümdə görür. Klarissa Dallovey özünə, həyata və ölümə kifayət qədər müsbət münasibəti ilə səciyyələnir. Septimusu dəlixanaya aparmaq istəyərkən o, özünü balkondan atır və məhəccərlərə keçərək ölür. Klarissa əyləncə təşkil etdiyi gecə tanımadığı insanın bu cür faciəvi ölümünün detallı təsvirini eşidir, qonaqları otaqda qoyaraq, üst mərtəbədəki balkona çıxır. O, həmin kişinin ölümünü təsəvvür edərək, sanki etap-etap bu prosesi yaşayırmış kimi öz intiharını xəyal edir: *"Always her body went through it ... first her dress flamed, her body burnt"* [5, səh.133] Beləliklə, başqa insanlar haqqında düşüncələrdən Klarissa qadına xas olan fiziki göstəricisi "her body" – bədəni və kişilərə xas psixi göstərici "his brain" – beynini, özündə birləşdirməklə birbaşa özünə, ikili kimliyinə keçid edir. Səmaya baxır, içəri otaqda vuran saatı, aşağıda partinin davam etdiyini, Piter və Sallinin də orda olduğunu düşünür və həyat davam etdiyi üçün sevinir: *"She felt glad that he had done it; thrown it away while they went on living"* [5, səh.135] O, sanki yad kişinin ölümünə təəssüflənmək əvəzinə, bu ölümdə də qadınlarla bərabərlik axtarır. Hər hansı kişi də yaşayarkən iztirab çəkirmiş və mübarizə apara bilmədiyi üçün özünü öldürüb, yaşadığı mühitə etirazını bu şəkildə bildirib, həyatından məmnun olmayan yalnız Klarisa kimi qadınlar deyil, Septimus kimi müharibədən sonrakı dəhşətlə barışa bilməyənlər də var. Qadın olaraq, güclü olduğu üçün, yaşadığı üçün sevinir.

Vulfun fikrincə, kişinin bədbin və tənqidi baxışı qadının inkişafını "əlil" edir. Kişilər qadınlara yuxarıdan aşağı baxırlar və bu da, qadının daxili aləminə, özgüvəninə, o cümlədən, xarici görünüşünə də nüfuz edə bilir. "Mrs. Dalloway"də cəmiyyət əgər kişiliyi silah kimi, qadınlığı isə zəiflik kimi istifadə etməsə, bu atmosferdə onlar bir-birlərinin ehtiyaclarını və çatışmazlıqlarını ödəyə bilərlər.

Qadınlara ikinci cins və ya cinsinə görə kişilərin əyləncə obyekti kimi baxılmasa, onlar sağlam ailə qurub, sağlam övladlar yetişdirə bilərlər, Beləliklə də, ailə sağlam olarsa, cəmiyyət də sağlam olar. Xanım Dallovey əsərində Klarissa və Riçard arasındakı ər-arvad münasibətinə nəzər salanda, oxucu nə produktiv birliyi, nə də ayrılığı ayırd edə bilir. Bu da onların qızı Elizabetin homeseksual kimi davranışlarında öz əksini tapır.

Səthi müqayisə

Vulf düşünür ki, intellektual azadlıq maddi məsələlərdən asılıdır, yazıçılıq və şairlik də intellektual azadlıqdan. Kitabın 55-ci səhifəsində Vulf yazır ki, yəqin ki, 100 ildən sonra qadına himayə olunası cins kimi baxılmayacaq. Kitabın yazılmasından təxminən yüz ilə yaxın vaxt keçir artıq (1929) və bəlkə də, İngiltərə cəmiyyəti və ədəbiyyatı üçün hal-hazırda xarakterik hal alıb, qadın himayə olunacaq varlıq deyil artıq. Düşünürük ki, Azərbaycan ədəbiyyatında da qadının himayəyə ehtiyacı yoxdur, istədiyi janrda, istədiyi mövzuda və üslüba yaza bilər. Bəs, Azərbaycan cəmiyyətindəki qadın? Tez-tez mətbuatı və sosial şəbəkələrin gündəmini zəbt edən xəbərlər, bir çox qadınların hələ də əzilən, asılı tərəf olduğunu və himayəyə ehtiyacı olduğunu istisna etmir.

Həyat Fəridə "Azeri Women in Transition: Women in Soviet and Post-Soviet Azerbaijan" adlı əsərində sovet hökuməti dağıldıqdan sonra Azərbaycan qadını və onun sosial-iqtisadi vəziyyəti haqqında yazıb. [2] O, İranda doğulsa da, valideynləri azərbaycanlı olub. Daha sonra Qırğızistanda işləyib və Azərbaycanda gender məsələlərini araşdırıb. Hal-hazırda Londonda yaşayan Həyat Fəridə Bakıda real insanların fikri və müzakirələr qeyd etdiyimiz kitabı ərsəyə gətirib. Kitabda yer alan ən önəmli qadın problemləri sosial bərabərsizlik və iqtisadi çətinliklərdir. ƏslindəI, Post-sovet Azərbaycan mühitindəki iqtisadi çətinliklər bütünlüklə yalnız qadının yox, həm də işsiz qalan və ailəsini dolandıra bilməyən kişilərin problemi idi. Müharibələr, şəhidlər, qazilər, yarımçıq ailələr və s. kimi sosial və siyasi məsələlər həmin dövr üçün Azərbaycan cəmiyyətinin əsas probleminə çevrilmişdi.

Nəticə

Vulf sənətin, yaradıcılığın bünövrəsini azadlıq və ifadə bacarığında görür. Araşdırmalara başlayarkən qarşısına qoyduğu "Qadın niyə roman yazır?" sualına özü cavab tapır. Vulf düşünür ki, qadın yazmağa başlayanda köhnə ədəbiyyat formaları və janrlar artıq qəliblənib oturuşmuşdu. Təkcə roman digər janrlara nisbətən yeni idi və qadının əlində elastiklik qazana bilərdi.

O, göstərir ki, qadın və kişi vətənpərvərlikdə olduğu kimi, ictimai fəallıqda da eyni mənfi və ya müsbət xüsusiyyətlərə sahib ola bilərlər. O, kişi cinsinin qadın həyatında lap başlanğıcdan hökmranlıq etdiyini, onların vəziyyətini acınacaqlı hala gətirdiyini və bunun heç vaxt bitməyəcəyini təsvir edir.

Vulf qadınları cəmiyyətdə şəxsi kimlik əldə etməyə və savadlı biri olmağa təşviq edir. Özlərini evdə məhdudlaşdırdıqda və xarici dünya ilə ünsiyyət qurmadıqda, onların şəxsi kimlikləri ikiqat diqqətdən kənarda qalır və bu da, kişilərin dominant olduğu cəmiyyətə təsdiq möhürünü vurur.

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. Andrew McNeillie, Introduction to Virginia Woolf, The Common Reader: First Series, ed. Andrew McNeillie (London: Hogarth Press, 1984), n.p.
2. Heyat, Farideh. Azeri Women in Transition: Women in Soviet and Post-Soviet Azerbaijan. London and New York, Routledge, 2002, 223 səh.
3. Rachel Bowlby, Introduction to Virginia Woolf, A Woman's Essays (Selected Essays, vol. i) (London: Penguin Books, 1992), p. xxiv.
4. Virginia Woolf, A room of one's own, London, Wordsworth Edition Limited, 2012, 463 p.
5. Virginia Woolf, Mrs. Dalloway, London, Wordsworth Edition Limited, 2003, 148 p.
6. Прима А М Тендер как репрезентация женского мироощущения в романе В Вульф «Миссис Дэллоуэй» // Изв Рос гос пед ун-та им А И Герцена Аспирантские тетради - 2009 - № 12 (89) С 247-250(0,22пл)
7. https://www.grin.com/document/127155

Vusala Aghabayli

Summary

MODERNIST APPROACH OF GENDER STUDIES IN THE WORKS OF VIRGINIA WOOLF

Modernists, including Woolf, did some research and found new ways of artistic representation to convey the changes in life, in people themselves and in their relationships. Woolf believed that modern writers can no longer be satisfied with the experience of their predecessors; they must choose their own path and go on a new path. According to her they must abandon traditional styles and novels, and abandon the desire to pass the tradition of the past to other generations forever. In this regard, Woolf's work "A room of one's own" written in 1929 can be considered one of the earliest works of feminist literary criticism. In this work, which was created after women were given the right to vote in England (1928), Woolf examines and criticizes the works and styles of writers since the 16th century, especially women writers, and analyzes the role of women in society and literature, as well as their

social and economic dependence. By comparing both sexes, she emphasizes that men are rich and women are poor, and in this respect, she explains women's failures. Woolf calls women first of all to freedom, to get out of the economic problems. She thinks the literature is a way to the solution of this problem. She advises women to freely express their thoughts and write on any topic. [1] For this, a woman needs money and a private room.

Woolf, like other feminist critics, believed that the literary canon and literary history were made by men. Therefore, in the work "A room of one's own", she "travels" together with the reader from the 16th century to his own time under the title "Women and Literature", shedding light on women from the past to the present, and emphasizes that social and economic inequality and the trampling of women's rights also affect literature.

Keywords: gender, literature, woman, feminism, theory, modernist

Вусала Агабейли

Резюме

МОДЕРНИСТСКИЙ ПОДХОД К ГЕНДЕРНЫМ ИССЛЕДОВАНИЯМ В РАБОТАХ ВИРДЖИНИИ ВУЛФ

Модернисты, в том числе Вульф, провели исследование и нашли новые способы художественного изображения, чтобы передать изменения в жизни, в самих людях и в их отношениях. Вульф считал, что современные писатели уже не могут довольствоваться опытом своих предшественников; они должны выбрать свой собственный путь и пойти по новому пути. По ее словам, они должны отказаться от традиционных стилей и романов, отказаться от желания навсегда передать традиции прошлого другим поколениям. В этом отношении произведение Вульф «Своя комната», написанное в 1929 году, можно считать одним из самых ранних произведений феминистского литературоведения. В этой работе, созданной после того, как женщинам в Англии было предоставлено право голоса (1928 г.), Вулф исследует и критикует произведения и стили писателей с 16 века, особенно женщин-писателей, и анализирует роль женщин в обществе и литературе. , а также их социальная и экономическая зависимость. Сравнивая оба пола, она подчеркивает, что мужчины богаты, а женщины бедны, и в этом отношении объясняет женские неудачи. Вульф призывает женщин прежде всего к свободе, к выходу из экономических проблем. Путь к решению этой проблемы она считает литературой. Женщинам она советует свободно выражать свои мысли и писать на любые темы. [1] Для этого женщине нужны деньги и отдельная комната.

Вульф, как и другие критики-феминистки, считала, что литературный канон и история литературы были созданы мужчинами. Поэтому в произведении «Своя комната» она «путешествует» вместе с читателем из XVI века в его собственное время под названием «Женщины и литература», проливая свет на женщин из прошлого в настоящее, и подчеркивает, что социальное и экономическое неравенство и попирание прав женщин также влияют на литературу.

Ключевые слова: гендер, литература, женщина, феминизм, теория, модернист.

Redaksiyaya daxil olma tarixi: 07.12.2022
Çapa qəbul olunma tarixi: 28.12.2022
Rəyçi: Professor, filologiya üzrə elmlər doktoru Çingiz Qaraşarlı tərəfindən çapa tövsiyə olunmuşdur

İLHAM QAZIZADƏ
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent,
AMEA-nın Memarlıq və İncəsənət İnstitutu
nigarqazizade@gmail.com

AZƏRBAYCAN DRAMATURGİYASI RUS DRAM TEATRININ SƏHNƏSİNDƏ

XULASƏ

İmran Haşim oğlu Qasımov 1918-ci ildə Bakıda anadan olmuşdur. Ədəbiyyata 1938-ci ildə Bakı neftçilərinin qəhrəmanlıq həyatından bəhs edən «Arzu» pyesi və «Yeni horizont» kinossenariyası ilə qədəm qoymuşdur. «Nacil başlananda», «Xəzər üzərində Şəfəq», «Sən nə üçün yaşayırsan?», «İnsan məskən salır», «Dinsizin tövbəsi» əsərlərin müəllifidir. Çoxplanlı yaradıcılığa malik İmran Qasımov yazıçı Həsən Seyidbəyli ilə əməkdaşlığı şəraitində partizan Mehdi Hüseynzadənin qəhrəmanlığına həsr olunmuş «Uzaq sahillərdə» və «Ceyran» romanlarını yazmışdır. O, «Ceyran», «Fransız qabeleni», «İtalyan mozaikası» nəsr əsərlərin, Azərbaycan ədəbiyyatı klassiklərinin həyat və yaradıcılığına həsr olunmuş ədəbiyyatşünaslıq əsərlərin müəllifidir. İ.Qasımovun ssenariyaları əsasında bir sıra filmlər çəkilmişdir.

İmran Qasımov uzun sürən xəstəlikdən sonra 1981-ci ilin aprel ayının 20-də vəfat edib

Açar sözlər: pyes, ədəbiyyatşünaslıq, kinossenariya, roman, ədəbiyyat klassikləri, Bakı neftçiləri

İmran Qasımovun yaradıcılığında qadın obrazları müxtəlif səpgilərdə müharibəyə olan münasibətlərinin barışmazlığı ruhlarına görə bir-biri ilə səsləşir. Dramaturq hələ «Böyük ürək» pyesindəki Pəri ana «Dairəni genişləndir»dəki Aliyə obrazının sələf olan Ceyran Səfərova obrazı Azərbaycan qadınlarının müharibəyə qarşı göstərdikləri nifrətin ümumiləşmiş nümunələridir.

Gəncədəki «Böyük ürək» pyesinin rejissoru H.Sultanov, Rus Dram Teatrında isə Q.Ş.Güləhmədova-Martınova olmuşdur. Gəncəlilərin tamaşasındakı Pəri ana obrazını ifaçısı S.Orlinskyaya rus səhnəsindəki Pəri ana obrazının ifaçısına nisbətən sönük hadisələrə lazımi dərəcədə müdaxilə etməməsi ilə bir o qədər diqqət çəkməmişdir (5). Aktrisa V.N.Şiryenin oyunu isə dövrün tənqidinə görə yaradıcılıq qalereyasının ən önəmli rolu kimi qiymətləndirilmişdir (1).

Rus Dram Teatrındakı həm «Dairəni genişləndirin», həm də «Dinsizin tövbəsi» quruluşlarının səhnə həllini Cənnət Səlimova vermişdir.

«Dinsizin tövbəsi» tamaşası Ceyranın edam epizodu ilə başlayırdı. Bu həm quruluşun başlanğıcı, həm də sonu sayıla bilər. Çünki tamaşaçı qəhrəmanın qısa həyat salnaməsi ilə bu səhnədən tanış olmağa başlayır. Projektorun zəif işığında işgəncələrə məruz qalmış, son gücünü toplayaraq, düşmənin tələblərini ödəməkdən boyun qaçıran Ceyrana öz günahını etiraf etmək imkanı verilir. Yaranmış şəraitdə bu mənzərəni müşahidə edən tamaşasında bir sual yaranır: «Axı ədalət uğrunda mübarizə aparan zavallı qız nəyi boynuna alsın? O həyat yolunda yalnız böyük hərifli İnsanın səadətini qoruyub. Belə olan halda öz əqidəsinə ram çıxmaq Ceyranın həyat amalına ziddir. Odur ki, faşistlərin tələbi Ceyrana qəribə görünür. Bu anda Ceyranda belə bir fikir yaranır ki, onu xilas etmək üçün mütləq məslək dostları gələcək.

Ceyranın tövbəsi xəyalı fikirdən canlı səhnəyə çevrilir. Səhnədə cərəyan edən hadisələri izlədikcə belə bir təsəvvür yaranır ki, bu yolu tutmuş zəif qızcığaz heç vaxt öz inamından dönməz. Çünki Ceyranın mövqeyi minlərlə insanların arzu və istəyi ilə həmahəngdir.

Qeyd etmək lazımdır ki, İ.Qasımovun son iki pyesində faşizmə qarşı mübarizə aparan müxtəlif millətlərdən olan insanların obrazları öz əksini tapıb. Tamaşanın rejissoru C.Səlimova bu haqda yazırdı: «İmran Qasımov son əsəri olan «Dinsizin tövbəsi» pyesinin tamaşasının səhnə interpretasiyasını görmədən həyatla vidalaşdı. Tamaşa üzərindəki yaradıcılıq işi hazırda biz, S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının kollektivi əsərin üzərində işləyirik. Əsər «Dinsizin etirafı» adı ilə səhnədə oynanılacaq. Təəssüf, çox təəssüf ki o pyesinin səhnə həllini görmədi» (3).

İ.Qasımovun səhnə üçün yazdığı əsərlərinə nəzər yetirərkən görürük ki, heç bir pyesində janr barədə öncədən verilən müəllif təkidi ilə rastlaşmırıq. Dramaturq bu yola yaradıcı heyətə müstəqillik verirdi. Onu da qeyd etmək lazımdır ki, lazım olmayan sərbəstliyə meyl quruluşun ümumi ahənginə mənfi təsir göstərə bilər. C.Səlimova bu məlum həqiqətə əməl edərək, tamaşanın janrını düzgün müəyyənləşdirdiyinə görə pyesin əsas mahiyyətini aşkarlamağa nail olmuşdur. Dramaturji materiala sadiq qalaraq, rejissorun işində qəhrəmanlıq janrı açıq tərzdə duyulur (2).

Quruluş «ənənəvi» faciə sonluğu ilə tamamlandığına baxmayaraq, haqq, ədalət hər cür fəlakət törətməyə hazır olan qüvvələr üzərində qələbə kimi, nikbin ruhla qəbul olunur (4).

Rejissorun yozumunda bu cür final ayrı-ayrı xalqların qələbəsini deyil, bəşəriyyətin qaragüruhçular üzərindəki tam, şərəfli üstünlüyünün rəhnidir. Fərəhləndirici haldır ki, mübarizənin önündə gedənlər fədakar qadınlardır.

Quruluşda həyatın min cür əzabını dadmış insanların taleləri canlanır. Bizim nəzərimizdə onların təcəssümünü yaradan artistlərdən İ.Perlova (Ceyran), H.Yaqizarov (Andre), P.Əmirbəyova (Katrin) kimi öz peşələrinə canfəşanlıqla

xidmət göstərən sənət adamlarıdır. Onlar səhnəyə ilk gəlişləri ilə son gəlişləri arasında «…xeyli dəyişir, yetkinləşirlər» (3).

Rəssam J.Toponov tərtibatında hadisələrin cərəyan etdiyi zaman və məkan anlayışını canlandırmaqla quruluşun uğuruna pay sahibi olmuşdur. X.Mirzəzadə də bəslədiyi musiqi parçaları ilə rejissorun təlqin etdiyi janrın tam dolğunluğu ilə çatdırılmasına öz töhfəsini vermişdi (3).

Yaratdığı obrazların qəlb çırpıntılarını inandırıcı boyalarla canlandıran qırğız yazıçısı Çingiz Aytmatov İmran Qasımovun vəfatı ilə kədərləndiyini bu tərzdə ifadə edib: «İmran Qasımovun nurlu zəkası söndü. Mənim könlüm yetim qaldı. Vəfat etdiyi günədək son dərəcə xeyirxah olan insan həyatdan getdi. Təəssüf edirəm ki sədaqətli, ləkəsiz bir dostdan belə tez məhrum oldum. Ürəyimi necə bir tənhalıq sarmışdır» (4). Bu dünya miqyaslı yazıçının İ.Qasımov haqda dediyi sözlər görkəmli qələm sahibinin yaradıcılığı barədə, onun qəlb yanğısı ilə canlandırdığı obrazlara, bir insan kimi yaşadığı ömrə layiqli qiymətdir.

İstifadə olunan mənbələr

1. Вал. Богуславский. Русский Драматический имени Самеда Вургуна. Баку-1951, стр. 156.
2. Aydın Dadaşov. Rejissorun üslub problemləri. Bakı-2010, səh. 111.
3. İ.R.İsrafilov. «Dinsizin tövbəsi». «Kommunist» qəz. 25 fevral, 1982.
4. «Ədəbiyyat və İncəsənət» qəz. 24 aprel, № 17, 1981.
5. İ.İbrahimov. «Böyük ürək», «Bakı» qəz. 29 aprel, 1958.

РЕЗЮМЕ

Касумов Имран Ашум оглы родился в 1918 году городе Баку. В литературные круги ворвался в 1938 году своей пьесой «Мечта» и киносценарием «Новые горизонты», описывающими героическую жизнь бакинских нефтяников. Имран Касумов является автором таких произведений, как «Заря над Каспием», «Зачем ты живешь», «Человек бросает якорь», «Море любит отважных». Будучи незаурядной личностью и обладая огромным талантом, Имран Касумов в соавторстве с Гасаном Сеидбейли создал романы «Джейран» и «На дальних берегах», повествующий о легендарном азербайджанском разведчике Мехти Гусейн-заде - Михайло. Он автор таких произведений, как «Джейран», «Французский гобелен», «Итальянская мозаика», посвященных жизни и творчеству классиков Азербайджанской литературы, его перу принадлежат многие литературоведческие работы. Много фильмов снято по сценариям И. Касумова.

Имран Касумов рано ушел из жизни, он скончался 20 апреля 1981 года после продолжительной болезни.

Ключевые слова: пьеса, литературоведение, кино сценарий, роман, классиики литературы, бакинские нефтяники.

SUMMARY

Gasimov Imran Hashim was born in Baku in 1918. In 1938 he entered literature with «Wish» («Arzu») play about the heroic life of Baku oil workers and the screenplay «New Horizon». He is the author of the works «When the fairy tale begins», «Dawn on the Caspian», «What do you live for?», «A man settles down», «Repentance of an irreligious». In cooperation with writer Seyidbayli Hasan, Gasimov Imran, who had a multifaceted creativity, wrote the novels «On Far Shores» and «Gazelle» dedicated to the heroism of the partisan Mehdi Huseynzada. He is the author of the prose works «Gazelle», «French *tapestries*», «Italian mosaic», and literary works dedicated to the life and creativity of the classics of Azerbaijani literature. A number of films were made based on the screenplays of I.Gasimov.

Gasimov Imran died on April 20, 1981 after a long illness.

Key words: play, literature studies, screenplay, novel, literary classics, Baku oil workers

Redaksiyaya daxil olma tarixi: 07.12.2022
Çapa qəbul olunma tarixi: 28.12.2022
Rəyçi: Sənətşünaslıq üzrə fəlsəfə doktoru, Vidadi Qafarov tərəfindən çapa tövsiyə olunmuşdur

TAMARA ŞƏRBƏT QIZI ƏLIZADƏ
ATU-nun müəllimi
tamara.alizade.60@mail.ru

İSTİQLAL ŞAİRİ - ƏHMƏD CAVAD

Xülasə

Əhməd Cavad yaradıcılığı XX əsr Azərbaycan poeziyasının parlaq səhifələrini təşkil edir. Siyasi lirikanın əsasını qoyan şairin yardıcılığında həyat həqiqətləri əsas yer tutur, Azərbaycanda cərəyan edən hadisələr ifadəsini tapır. Əhməd Cavadın poeziyası özünəməxsusluğu ilə seçilir. Onun əsərləri realist və demokratik məzmunu ilə, lirik-romantik üslubu ilə, dilinin xəlqiliyi ilə fərqlənir. Əhməd Cavadın poeziyası şəxsiyyəti kimi qürurludur. Şairin yaradıcılığı xalqımızın həyatını özündə ifadə edir. Əhməd Cavad öz ideyalarına, fikirlərinə görə daha çox təqib edilən, dövrün zorakılıqlarına məruz qalan ziyalılarımızdan olmuşdur. Şairin yaradıcılığında qardaş Türkiyəyə sevgi xüsusi yer tutur. Bakının türk ordusu tərəfindən azad olunması ilə bağlı Əhməd Cavadın xeyli şeirləri vardır.

Əhməd Cavadın poeziyası həm mövzu, ideya baxımından, həm də obrazlar sistemi, bədii ifadə və bədii təsvir vasitələri etibarilə orijinaldır, özünəməxsusdur. Əhməd Cavad poeziyasının özünəməxsusluğu özündən sonra böyük bir məktəb qoymuş, zəngin irs ötürmüşdür. Əhməd Cavad məktəbinin yetirmələri kimi Səməd Vurğun, Mikayıl Müşfiq, Almas İldırım və b. bu yolun davamçıları olmuşlar.

O həm də tərcümə etdiyi əsərləri ilə Azərbaycan ədəbiyyatına tərcüməçi olaraq daxil olmuşdur.

Açar sözlər: Əhməd Cavad, poeziya, istiqlal, siyasi lirika, türkçülük, sovet ədəbiyyatı

Azərbaycan Respublikası Prezidentinin 20 aprel 2022-ci il Sərəncamına əsasən Əhməd Cavadın 130 illiyi geniş şəkildə qeyd edilir. Azərbaycan xalqının dövlətçilik ənənələrini özündə yaşadan, xalqının maraqlarını ifadə edən ideya adamlarının yaradıcılığının təhlili olduqca vacib məsələlərdəndir. Əlbəttə ki, Azərbaycan xalqının, ümumiyyətlə türk xalqlarının tarixində, taleyində mühüm rol oynayan , ciddi elmi-nəzəri və ədəbi-mədəni irs qoyub gedən milli ziyalılarımızın öyrənilməsi əsas vəzifələrimizdən olmalıdır. Azərbaycan xalqının maraqlarını özündə ifadə edən görkəmli ziyalılardan biri də böyük ideya, fikir adamı Əhməd Cavaddır.

Əhməd Cavad yaradıcılığı XX əsr Azərbaycan poeziyasının parlaq səhifələrini təşkil edir. Siyasi lirikanın əsasını qoyan şairin yardıcılığında həyat həqiqətləri əsas yer tutur, Azərbaycanda cərəyan edən hadisələr ifadəsini tapır. Əhməd Cavad (Cavad Məmmədəli oğlu Axundzadə 1892-1937) Şəmkir rayonunun Seyfəli kəndində anadan olmuşdur. Kənd məktəbini bitirdikdən sonra təhsilini

Gəncədə müsəlman ruhani seminariyasında (1906-1912) davam etdirmişdir. O, Hüseyn Cavid və Abdulla Sur kimi ədiblərdən dərs almışdır. Əhməd Cavadın əsərləri 1910-cu ildən işıq üzü görmüşdür. İnqilabdan əvvəl və sovet hakimiyyətinin ilk illərində müəllimlik fəaliyyəti göstərmişdir. 1934-cü ildə Azərbaycan yazıçılarının I qurultayına nümayəndə seçilən şair ömrünün sonunadək Azərnəşrdə işləmişdir.

Əhməd Cavadın "Qoşma" (1916), "Dalğa" (1919), " Sinfi mübarizə" (1921), "eirlər" (1958), "Çırpınırdı Qara dəniz" (Ankara, 1991), "Seçilmiş əsərlər" (1992) kitabları çap edilmişdir. Əhməd Cavadın poeziyası özünəməxsusluğu ilə seçilir. Onun əsərləri realist və demokratik məzmunu ilə, lirik-romantik üslubu ilə dilinin xəlqiliyi ilə fərqlənir. Əhməd Cavadın poeziyası şəxsiyyəti kimi qürurludur. Şairin yaradıcılığı xalqımızın həyatını özündə ifadə edir. O həm də tərcümə etdiyi əsərləri ilə Azərbaycan ədəbiyyatına tərcüməçi olaraq daxil olmuşdur. Bu tərcümə əsərlərinin sırasına Şekspirin "Otello", A.S.Puşkinin "Kapitan qızı", M.Qorkinin "Mən necə oxumuşam", "Mənim darülfünunlarım", T.Şevçenkonun "Kobraz", F.Rablenin "Qarqantua və Pantaqruel" əsərləri daxildir.

"Azərbaycanın ictimai-siyasi həyatında yaxından iştirakı Əhməd Cavadın yaradıcılığında da özünü göstərir və keyfiyyət baxımından yaradıcılığının yeni – ikinci mərhələsi başlayır. Əhməd Cavad istedadına onun məsləki, əqidəsi də əlavə olunur və ədəbi-bədii yaradıcılığında istiqlal cəbhəsi açılır. Şairin vətəninə, xalqına və Xalq Cümhuriyyətinə sevgisi bütün şeirlərində qırmızı xətt kimi keçir. Mövzu etibarilə Əhməd Cavadın bu dövr yaradıcılığı iki hissəyə bölünür: a) milli istiqlal, müstəqillik və milli vətənpərvərliklə bağlı şeirlər; b) Azərbaycanı düşmən pəncəsindən xilas edən türk ordusu və türk şəhidlərinə yazılmış şeirlər (5, 426). "Əhməd Cavad yaradıcılığına bir neçə sözlə qiymət verəcək olsaq, deməliyik ki, onun yaradıcılığı 1910-1937-ci illər arasında ədəbiyyatımızın, mədəniyyətimizin və tariximizin həqiqi salnaməsidir. Bu yaradıcılıqda XX əsrin birinci çərəyində olan tarixi hadisələr, birinci cahan müharibəsi, türk xalqlarının mövcud vəziyyəti, milli-azadlıq hərəkatı, Azərbaycan Demokratik Respublikası, 20-ci illərin tarixi xronikası, kolxoz quruculuğu, Böyük Dönüş ili, 30-cu illərin fəsadları, nəhayət 37-ci il repressiyaları bütün əlamətləri ilə əks olunmuşdur (6, 6). Əhməd Cavad öz ideyalarına, fikirlərinə görə daha çox təqib edilən, dövrün zorakılıqlarına məruz qalan ziyalılarımızdan olmuşdur. Odur ki "Cümhuriyyət" deyərkən ilk olaraq Əhməd Cavad yada düşür. Qeyd edək ki, şairin yaradıcılığında qardaş Türkiyəyə sevgi xüsusi yer tutur. Bu sevginin səbəblərindən birincisi, XX əsrin əvvəllərində Türkiyə-Azərbaycan münasibətlərinin daha sıx bağlılığı, o cümlədən Azərbaycanı erməni-bolşevik işğalından türk ordusunun qurtarması idi. Bakının türk ordusu tərəfindən azad olunması ilə bağlı Əhməd Cavadın xeyli şeirləri vardır. "Ey əsgər" şeirində bayrağı uca tutan Türk əsgərlərini alqışlayır. Bu şeirin bir yerində

Şu qarşıda duman çıxan bacadan
Sən gəlmədən iniltilər çıxardı.

Geciksəydin məzlumların fəryadı
Yeri, göyü, kainatı yıxardı”

deyərək qardaş köməyinə və bu köməyin vacibliyinə diqqəti cəlb edir. “Türk ordusu”na şeirində

“Ey şanlı ölkənin Şanlı Ordusu,
Unutmam Qafqaza girdiyin günü.
Gələrkən qovmağa Turandan Rusu
Ayağını Qara dəniz öpdümü?”
kimi misralarıyla o günü ölümsüzləşdirirdi (2, 53).

Əhməd Cavadın sonralar Türkiyədə sevilərək oxunan əsəri “Çırpınırdı Qara dəniz” olur:
Çırpınırdı Qara dəniz
Baxıb türkün bayrağına.
Ah, diyərdik heç ölməzdim
Düşə bilsəm ayağına!..
İncilər tək gəl yoluna,
Sırmalar düz sağ, soluna,
Fırtınalar dursun yana,
Salam türkün bayrağına (4, 53).

Milli bayrağa, Qara dənizə ən yaxşı bədii nümunə Əhməd Cavadın misralarındadır.

“Al bayrağa” şeirində şair bayraq sevgisini necə gözəl ifadə etmişdir:

Bu bənzəyiş nədən gözüm,
Şəhidlərin qanına?!
Uğurunda can verənlər
Neyçün qıyar canına?!
Yol üstündə dərdli nənə
Görür səni ağlamaz?!
Sən öylə bir şeirsən ki,
Sevməyənlər anlamaz! (2, 130)

Örnək gətirdiyimiz bu şeirin təhlili zamanı Sərvət Qurcan yazırdı ki, bu şeirdə Əhməd Cavad Al bayraqla söhbətləşir, onu göylərə qaldırır.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Əhməd Cavadın şeirlərində şairin bədbinliyi, nisgili aydın duyulur:

Çoxdandır ayrı düşdüm
Üç boyalı bayraqdan.
A dostlar, mən yoruldum
Gizlicə ağlamaqdan.

Görkəmli alim Bədirxan Əhmədov yazır: “Bir tərəfdən dövrün ədəbi tənqidi şairi yazmadığına (əslində isə yeni dövrü tərənnüm etmədiyinə) görə tənqid edir, digər tərəfdən isə onun şeirlərini qəbul etmirdilər. Hətta sonralar onun bu durumu “Azərbaycan sovet ədəbiyyatı tarixi”ndə də yanlış qiymətləndirilirdi. Ənməd Cavadın bədbin ruhlu şeirlər yazması onun sovet hakimiyyəti quruluşunun mahiyyətini gec dərk etməsi hesab olunurdu (5, 430). “Lakin Əhməd Cavadın sızıltıları az sonra dayanmağa, göz yaşları qurumağa başlayır. O, dərk edir ki, bir şair kimi sıradan çıxmamaq, zamanla, həyatla ayaqlaşmaq üçün milyonların əhvali-ruhiyyəsinə uyğun olan yeni məzmunlu əsərlər yazmaq lazımdır. Əhməd Cavad yeni həyatı, qurub yaradan insanların fəaliyyətini tərənnüm etməyə başlayır (1, 17). Böyük ədibin orijinal yaradıcılığı müxtəlif zamanlarda tənqidlərə məruz qalmışdır. Şeirləri haqqında onlarla tənqidi məqalələr nəşr olunmuşdur. Hüseyn Baykara şairi təəssüf hissi ilə qeyd edirdi ki, Azərbaycan ədəbiyyatı tarixində Əhməd Cavad böyük və klassik bir yer tutur. Ancaq “Azərbaycan ədəbiyyatı tarixi”ndə Əhməd Cavad haqqında heç bir məlumat verilməmişdir. Sanki Əhməd Cavad Azərbaycanda yaşamamış, bir ədəbi məktəb yaratmamış, Avropa, Rus, Gürcü klassiklərindən ədəbi dəyəri qiymətli olan tərcümələr etməmiş, xalq ədəbiyyatından topladığı filoloji parçalar şəklində zəngin ədəbi miras qoymamışdır (6, 323). 1918-ci il may ayının 28-dən 1920-ci il aprel ayının 28-nə kimi olan dövrdə, iki ildən bir az da az olan müddətdə şairin çoxcəhətli sənəti yeni bir təkanla qüvvətlənmiş, ədəbiyyatımıza yeni incilər bəxş etmişdir. O, romantik poeziyamızın təkrarsız bir qolunu yartmış, realist əsərləri ilə daha çox diqqəti çəlb etmişdir. Onun XX əsrin ilk onilliklərində mədəniyyət və maarif quruculuğu sahəsindəki fəaliyyəti böyük tədqiqat mövzusudur.

Əhməd Cavadın poeziyası həm mövzu, ideya baxımından, həm də obrazlar sistemi, bədii ifadə və bədii təsvir vasitələri etibarilə orijinaldır, özünəməxsusdur. Əhməd Cavad poeziyasının özünəməxsusluğu özündən sonra böyük bir məktəb qoymuş, zəngin irs ötürmüşdür. Əhməd Cavad məktəbinin yetirmələri kimi Səməd Vurğun, Mikayıl Müşfiq, Almas İldırım və b. bu yolun davamçıları olmuşlar.

Ədəbiyyat

1. Azərbaycan sovet ədəbiyyatı tarixi. Bakı, 1966.
2. Əhməd Cavad (məqalələr, xatirələr). Bakı, “Elm”, 1996, 148 s.
3. Əhməd Cavad. Seçilmiş əsərləri. Bakı, “Şərq-Qərb”, 2005, 296 s.
4. Əhməd Cavad, Almas Yıldırım. Seçilmiş əsərləri. Bakı, “Çaşıoğlu”, 2018, 228 s.

5. Əhmədov B. Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə. 1-ci cild. bakı, “Elm və təhsil”, 2011, 480 s.
6. Salaəddin Ə. Əhməd Cavad. Bakı, “Gənclik”, 1992, 328 s.

ALIZADEH T.

İNDEPENDENCE POET - AHMED JAVAD
SUMMARY

Ahmad Javad's creativity is one of the bright pages of 20th century Azerbaijani poetry. İn the help of the poet who laid the foundation of the political lyrics, the truths of life take the main place, and the events unfolding in Azerbaijan find expression. Ahmed Javad's poetry is distinguished by its uniqueness. His works are distinguished by their realistic and democratic content, their lyrical-romantic style, and the naturalness of their language. Ahmad Javad's poetry is as proud as his personality. The poet's creativity expresses the life of our people. Ahmad Javad was one of our intellectuals who was more persecuted for his ideas and opinions and was subjected to the violence of the time. İn the poet's work, love for brother Turkey occupies a special place. Ahmed Javad has many poems about the liberation of Baku by the Turkish army.

Ahmad Javad's poetry is original and unique both in terms of subject matter and ideas, as well as in terms of the system of images, artistic expression, and means of artistic description. The uniqueness of Ahmad Javad's poetry has left a great school behind him and has passed on a rich heritage. As students of Ahmet Javad school, Samad Vurgun, Mikayil Mushfiq, Almas İldırım and others. were followers of this path.

He also entered Azerbaijani literature as a translator with his translated works.

Key words: Ahmad Javad, poetry, independence, political lyrics, Turkism, Soviet literature

ПОЭТ НЕЗАВИСИМОСТИ - АХМЕД ДЖАВАД
РЕЗЮМЕ

Творчество Ахмеда Джавада – одна из ярких страниц Азербайджанской поэзии XX века. В помощи поэта, заложившего основу политической лирики, главное место занимают жизненные истины, а события, разворачивающиеся в Азербайджане, находят выражение. Поэзия Ахмеда Джавада отличается своей неповторимостью. Его произведения отличаются реалистическим и демократичным содержанием, лирико-романтическим стилем, естественностью языка. Поэзия Ахмада Джавада так же горда, как и его личность. Творчество

поэта выражает жизнь нашего народа. Ахмад Джавад был одним из наших интеллектуалов, который больше преследовался за свои идеи и мнения и подвергался насилию того времени. В творчестве поэта особое место занимает любовь к братской Турции. У Ахмеда Джавада много стихов об освобождении Баку турецкой армией.

Поэзия Ахмада Джавада оригинальна и уникальна как по тематике и идеям, так и по образной системе, художественному выражению, средствам художественного описания. Уникальность поэзии Ахмада Джавада оставила после себя великую школу и оставила богатое наследие. Среди учеников школы Ахмета Джавада Самед Вургун, Микаил Мушфик, Алмас Ылдырым и другие. были последователями этого пути.

Он также вошел в Азербайджанскую литературу как переводчик со своими переводными произведениями.

Ключевые слова: Ахмад Джавад, поэзия, независимость, политическая лирика, тюркизм, советская литература.

Redaksiyaya daxil olma tarixi: 07.12.2022
Çapa qəbul olunma tarixi: 28.12.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent **Məfkurə Hüseynova**
tərəfindən çapa tövsiyə olunmuşdur

İÇİNDƏKİLƏR:

NADİR MƏMMƏDLİ
KONSEPT KOQNİTİV LİNQVİSTİKANIN OBYEKTİ KİMİ 3

АЛЛАХВЕРДИЕВА МАЛАХАТ ФАРХАД ГЫЗЫ
ВЕРБАЛИЗАЦИЯ КОНЦЕПТА «НРАВСТВЕННОСТЬ» НА ФРАЗЕОЛОГИЧЕСКОМ УРОВНЕ ЯЗЫКА 9

MUSTAFAYEV FİZULİ NƏCMƏDDİN OĞLU,
POETİK MƏTNİN KİNO DİLİNDƏ YERİ VƏ ƏHƏMİYYƏTİ 19

ƏLİYEVA ELMİRA MƏMMƏD QIZI
MÜASİR DİLÇİLİKDƏ MÜƏYYƏNLİK VƏ QEYRİ-MÜƏYYƏNLİK KATEQORİYASI 25

SEVİNC QƏMBƏROVA
AZƏRBAYCAN DİLİNİN QARABAĞ ŞİVƏ QRUPUNUN TƏDQİQİ VƏ SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ 35

MƏTANƏT HACIYEVA
LEKSİK SİNONİMLİK 45

RAMAZANOVA GÜNEL FƏTULLA
XARİCİ DİLLƏRİN TƏDRISINDƏ MƏDƏNIYYƏTLƏRARASI KOMMUNİKATİV SƏRIŞTƏ 51

İLAHƏ MƏMMƏDOVA
EKSTRALİNQVİSTİK AMİLLƏRİN TƏSİRİ NƏTİCƏSİNDƏ İNGİLİS DİLİNDƏ BAŞ VERƏN DƏYİŞİKLİKLƏR 59

MƏMMƏDOVA LEYLA SADIX QIZI
MÜASİR DİLÇİLİKDƏ DİSKURSUN TƏDQİQİNƏ DAİR 67

İBRAHİMOVA GUNAY
LE ROLE DE LA PUBLICITE DANS LE DEVELOPPEMENT RAPIDE DU TOURISME 77

GÜLYAZ RZA QIZI ZEYNALLI
BAĞLAYICILARIN MƏTNYARATMA XÜSUSİYYƏTLƏRİ 82

ДЖАВАДОВА УЛЬКЯР ЯГУБ КЫЗЫ
СОВРЕМЕННЫЕ ПРОБЛЕМЫ И МЕТОДЫ ПРЕПОДАВАНИЯ АНГЛИЙСКОГО ЯЗЫКА 91

ALLAHVERDİYEVA AYTƏN MUSA QIZI
TELEVİZİYA NİTQİ PUBLİSİSTİK FUNKSİONAL ÜSLUBUN JANRI KİMİ 99

SEVDA RZAYEVA
İNGİLİS DİLİNDƏ TERMİN YARADICILIĞININ PRODUKTİV ÜSULLARI 109

SEVINC BAĞIROVA
SÖZÜN SEMANTİK İNKİŞAFI NƏTİCƏSİNDƏ ƏMƏLƏ GƏLƏN OMONİMLƏR 116

A.SƏFIXANOVA
V.ABIYEVA
SÖZ YARADICILIĞINDA PREFİKSƏRİN ROLU 125

GÜNAY SÜLEYMANOVA
AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ FRAZEOLOJİ BİRLƏŞMƏ ŞƏKLİNDƏ OLAN NİDALAR 130

HUSEYNOVA M. AYSHAN
PHRASEOLOGICAL UNITS IN POLITICAL DISCOURSE 137

ELMİRA XANƏLİYEVA
AZƏRBAYCANDA MƏDƏNİ MÜXTƏLİFLİK VƏ ƏSAS XÜSUSİYYƏTLƏRİ 142

LEYLA QOCAYEVA
BAĞLAYICILARIN MORFOLOJİ QURULUŞU, ONLARIN SEMANTİK-FUNKSİONAL XÜSUSİYYƏTLƏRİ 150

İMANOVA İRADƏ İSA QIZI
LƏQƏBLƏRİN AD SİSTEMİNDƏ YERİ 160

RƏNA ƏLİYEVA
XLV ƏSR AZƏRBAYCAN-TÜRK YAZILI ƏDƏBİ DİLİNİN XALQ DİLİ ƏSASINDA İNİKŞAFI 167

AYGÜL QULIYEVA
DİSKURSDA MARKERLƏRİN İSTİFADƏSİ 177

ГАСАНОВА СЕВИНДЖ АГАГУСЕЙН ГЫЗЫ
ФОНЕТИЧЕСКИЕ И ЛЕКСИКО-ГРАММАТИЧЕСКИЕ
ОСОБЕННОСТИ ДИАЛЕКТОВ АНГЛИИ 184

NURİYEVA SƏADƏT TAPDIQ QIZI
MÜASİR İNGİLİS DİLİNDƏ İNVERSİYA MODALLIQ KATEQORİYASININ
İFADƏ VASİTƏSİ KİMİ 191

МЕТАНЕТ ГАДЖИЕВА
СТРУКТУРА ГРАММАТИЧЕСКОГО ЗНАЧЕНИЯ И
ЕГО СТАТУС В СИСТЕМЕ ЯЗЫКА 202

ƏDƏBİYYATŞÜNASLIQ

HƏSƏNOVA NURANƏ VƏLI QIZI,
XX ƏSRIN SONLARINDA TARIXI KÖKLƏRƏ QAYIDIŞ
MƏSƏLƏLƏRININ MƏTBU SƏHIFƏLƏRIMIZDƏ IŞIQLANDIRILMASI 210

MAHİRƏ HACIYEVA
DİSTOPIYA ƏDƏBIYYATINDA UĞURSUZ UTOPIYA ƏNƏNƏSI 219

ƏLİYEV CEYHUN RAMİZ OĞLU
AXUNDOV AYAZ ƏLİ OĞLU
ƏRƏB ƏLYAZMA KİTABLARININ XÜSUSİYYƏTLƏRİ 230

İBRAHİM ŞAKİR OĞLU YILDIRIM
TÜRK MƏDƏNİYYƏTİ KONTEKSTİNDƏ OYUN VƏ OYUNCAQ OLARAK
DAŞDAN İSTİFADE EDİLMESİ 238

QƏNBƏRLI JALƏ HIKMƏT QIZI
VIII-XIII ƏSRLƏRDƏ ƏNDƏLUS ƏDƏBİYYATI 246

ИЛАХА МЮРВАТОВА
УТОПИЯ В ТВОРЧЕСТВЕ КАРЕЛА ЧАПЕКА 252

BABA ƏLİBABAOĞLU
TÜRK DASTAN ƏNƏNƏSİ VƏ “KİTABİ-DƏDƏ QORQUD”DA MÖVZU,
MOTİV PARALELLƏRİ 263

BƏKİROVA RASİMƏ ŞAMİL QIZI
AZƏRBAYCAN ƏDƏBİYYATINDA İLK
FELYETON TƏŞƏBBÜSLƏRİ 273

KƏMALƏ CƏFƏROVA
MÜASİR AZƏRBAYCAN DRAMATURGİYASI
SOVET REPRESSİYALARININ SƏCİYYƏSİ KİMİ 284

VÜSALƏ ELXAN QIZI AĞABƏYLI
VİRCİNİYA VULFUN ƏSƏRLƏRİNDƏ GENDER TƏDQİQATLARINA
MODERNİST YANAŞMA 294

İLHAM QAZIZADƏ
AZƏRBAYCAN DRAMATURGİYASI RUS DRAM
TEATRININ SƏHNƏSİNDƏ..... 303

TAMARA ŞƏRBƏT QIZI ƏLIZADƏ
İSTİQLAL ŞAİRİ - ƏHMƏD CAVAD..... 307

"Elm və təhsil" nəşriyyatının direktoru:
İNAL MƏMMƏDLİ

Dizayner: Kamran İbrahimov
Texniki redaktor: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 30.12.2022
Şərti çap vərəqi 19,7. Sifariş № 569
Kağız formatı 60x84 1/16. Tiraj 100

Jurnal "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində nəşr olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4